Azərbaycanda Atatürk Mərkəzi

**Nizami Cəfərov**

# TÜRKOLOGİYAYA GİRİŞ

"Elm və təhsil"
Bakı – 2016

***Elmi redaktor:***
**Vəfa Abbasova**
*filologiya üzrə fəlsəfə doktoru*

***Rəyçilər:***
**Məmmədəli Qıpçaq**
*filologiya elmləri doktoru, professor*
**Buludxan Xəlilov**
*filologiya elmləri doktoru, professor*
**Yadigar Əliyev**
*filologiya elmləri doktoru, professor*

**Nizami Cəfərov. Türkologiyaya giriş.**
*Bakı, "Elm və təhsil", 2016, 248 səh.*

*«Türkologiyaya giriş» kitabı «Giriş»dən, «Türkologiyaının tarixi», «Qədim türklər», «Türklərin diferensiasiyası», «Müasir türk dünyası» bölmələri və «Nəticə»dən ibarətdir.*

# GİRİŞ

Türkologiya – etnoloji (etnosları öyrənən) elmlərdən biri olub germanistika, romanistika, slavistika, iranşünaslıq, ərəbşünaslıq, qafqazşünaslıq kimi ən çox inkişaf etmiş elmlər sırasında xüsusi mövqeyə malikdir ki, bu, ilk növbədə, aşağıdakı səbəblərdən irəli gəlir:

a) türklərin qədim dövrlərdən başlayaraq dünya tarixi proseslərində ardıcıl və geniş miqyasda iştirakı;

b) türk xalqlarının müasir dünyada getdikcə artan iqtisadi, ictimai-siyasi və mədəni nüfuzu;

c) türkologiyanın mükəmməl bir elm olaraq zəngin təcrübəsi və ya ənənələri.

Hər bir etnoloji elmin dörd mühüm, fundamental mövzusu və ya problemi mövcuddur:

1) etnosun mənşəyinin müəyyənləşdirilməsi;

2) etnosun mentaliteti, etnik-mədəni xarakteri barədə aydın təsəvvür yaradılması;

3) etnosun diferensiasiyası və ya müxtəlif tayfalara, xalqlara, millətlərə bölünməsi prosesinin mümkün qədər dəqiq sxemləşdirilməsi və ya modelləşdirilməsi.

4) bu və ya digər etnosun diferensiasiyasının təzahürü olan (eyni etnik mənşədə birləşən) müstəqil xalqların münasibətləri (etnik diferensiasiya ilə inteqrasiyanın qarşılıqlı əlaqələri).

Bütün etnoloji elmlər kimi türkologiya da bu fundamental problemlərin həlli üçün ənənəvi (və universal) elmlərin – arxeologiya, etnoqrafiya, dilçilik, ədəbiyyatşü-naslıq, tarixşünaslıq, siyasətşünaslıq və s. araşdırmalarına, çox hallarda isə həmin elmlərin əməkdaşlığına əsaslanır.

Etnologiyanın predmeti – etnosdur.

Etnos – insan cəmiyyətinin elə bir təbii təzahür formasıdır ki, özünün mental universal xüsusiyyətlərilə meydana çıxıb həmin xüsusiyyətləri genetik (potensial) olaraq bütün tarixi boyu daşımaqda davam edir. Etnosun təbiəti ona olan fəlsəfi münasibət qədər ziddiy-yətlidir; belə ki, təkamül qanununa görə, bütün etnoslar vahid bir insan mənşəyindən törədikləri halda, elə fərqli xüsusiyyətlərə malikdirlər ki, onların ortaq cəhətlərini tapmaq, praktik olaraq, xeyli ciddi maneələrlə qarşılaşır. Məsələn, dünyada mövcud olan minlərlə dillərin eyni bir mənşədən törədiyini sübut edən metod və ya metod-lar hələ ki, yoxdur… Yaxud müxtəlif irqlər, antropoloji və ya mental xüsusiyyətlər, etnik-mədəni davranış sis-temləri, dinlər, dünyagörüşləri və s. bəşər cəmiyyətinin «çoxnövlülüy»ünün, təbiətən rəngarəngliyinin, genetik olaraq fərqliliyinin hər kəsin müşahidə edə biləcəyi, dərhal gözə çarpan göstəriciləridir. Və qloballaşan dünyanın bərabərhüquqlu «vətəndaş»ı olan müasir insan da həmin dünyaya, özündən asılı olmayaraq, «rənglənmiş» şəkildə gəlir ki, bu, onun həm xarici, həm də daxili aləmində görünür.

Həm təbii, həm də ictimai hadisə olan etnos tarix boyu özünəməxsus əlamətləri qoruyub saxlamaqla yanaşı, başqa etnoslarla bu və ya digər dərəcədə qarşılıqlı əlaqədə mövcuddur. Və ona görə də etnosun tarixinə kifayət qədər mürəkkəb diferensiasiya (bölünmə) və inteqrasiya (birləşmə) proseslərinin dialektikasında baxmaq lazım gəlir. Çünki, bir tərəfdən (xüsusilə təbii təsirlər altında), etnos diferensiallaşır (müstəqil hadisə olaraq daha ümumi etnik birlikdən ayrılır, təşəkkül tapıb formalaşır, öz növbəsində, tayfalara, xalqlara ayrılır); digər tərəfdən (xüsusilə ictimai-siyasi səbəblərdən), inteqrasiyaya daxil olur, ya bütövlükdə, ya da özünün müxtə-

lif təzahürlərində (tayfa, xalq, millət) başqa etnoslarla, onların müxtəlif təzahürləri ilə çoxtərəfli kontaktlarda iştirak edir. Məsələn, tarixdən məlumdur ki, Hun imperiyasını təşkil edən xalqlar, həmin imperiyada türklər aparıcı mövqeyə malik olsalar da, etnik mənşə baxımından fərqli idilər, lakin bu, hunların dünya tarixində vahid (bütöv) bir siyasi-ictimai hərəkatın subyekti kimi çıxış etmələrinə mane olmadı.

Yer üzündə bu gün iyirmidən çox türk xalqı mövcuddur ki, onların ümumi sayı (nüfuzu) iki yüz əlli milyona çatır: türklər və ya Türkiyə türkləri, azərbaycanlılar və ya Azərbaycan türkləri, uyğurlar, özbəklər, qazaxlar, tatarlar, türkmənlər, qırğızlar, çuvaşlar, başqırdlar, qaqauzlar, saxalar, qaraqalpaqlar, qumuqlar, tuvalar, qaraçaylar, balqarlar, altaylar, noqaylar, sorlar, qaraimlər və b.

Türk xalqlarının sayının müxtəlif mənbələrdə müxtəlif rəqəmlərlə (əsasən iyirmidən iyirmi beşə qədər) göstərilməsi onunla bağlıdır ki, bir sıra türk mənşəli toplumların müstəqil xalq, yoxsa bu və ya digər türk xalqının tərkib hissəsi olması mübahisələridir; məsələn, Sibir tatarlarının, Axısqa türklərinin, sarı uyğurların…

Türk xalqlarının təsnifinin (bölgüsünün) «dərinləşdirilmə»si ilə yanaşı, ümumiləşdirilməsi təcrübəsi də vardır: oğuzlar, qıpçaqlar və karluqlar.

Bugünkü türklərin mütləq əksəriyyəti müsəlman olsalar da, xristian, iudaist, şamançı… türklər də mövcuddur.

Və Avrasiyanın geniş bir coğrafiyasında qədim dövrlərdən etibarən məskunlaşmış türk xalqları «türk dünyası»nı təşkil edirlər.

«Türk» etnoniminin biri digərilə etimoloji baxımdan bağlı olan üç mənası göstərilir: 1) «törəmiş», «ya-

ranmış»; 2) «törəsi (qayda-qanunu) olan» və 3) «igid», «qüdrətli», «möhtəşəm».

Tarix səhnəsinə e.ə. III (bir sıra gümanlara görə isə, IV, hətta V) minilliklərdə çıxmış türklərin ən azı beş min illik zəngin bir «tərcümeyi-hal»ı vardır ki, bunun izlərinə dünyanın, xüsusilə Avrasiyanın geniş bir coğrafiyasında həm maddi, həm də mənəvi abidələr olaraq hər addımda rast gəlinir. Altay dağlarından başlamış Avropanın içərilərinə, eləcə də şimal-qərb və cənub-qərb istiqamətlərində yayılan türk varlığı dünyanın iqtisadi, ictimai-siyasi və mədəni tarixinin üzvi tərkib hissəsidir. Bu mükəmməl (və möhtəşəm) etnos bütün tarixi boyu müxtəlif etnoslarla çoxtərəfli (və ardıcıl) mədəni mübadilələrdə iştirak etmişdir ki, burada əsas təbii-texnoloji səbəblərdən birincisi türklərin hüdudsuz çöl (düzənlik) həyatı yaşamaları idisə, ikincisi ən qədim zamanlardan atlı mədəniyyətə (qeyd edək ki, at – «tarix yaradan heyvan» sayılır) yiyələnmələri olmuşdur.

Türklər ən qədim dövrlərdən etibarən Avrasiyanın geniş çöllərində uzun əsrlər mövcud olmuş qüdrətli dövlətlər, imperiyalar qurmuş, yüksək ictimai-siyasi idarəçilik texnologiyaları nümayiş etdirmişlər.

Həmişə olduğu kimi bu gün də türkologiya elminin (və türkoloqun) sərəncamında dünyanın Turan-Türküstan genişliyində bir araşdırma meydanı var.

Türkologiyanın zəngin elmi-nəzəri arsenalına həm xronoloji, həm də sinxron olaraq aşağıdakılar daxildir:

a) yüz illər boyu aparılmış araşdırmalar, başqa sözlə, klassik türkologiya;

b) müasir dövrdə gedən tədqiqat proseslərinin nəticələri;

c) mövcud araşdırmaların polemik perspektivləri.

«Türkologiyaya giriş» özündə etnoloji elmlərdən biri olan türkologiyanın əsaslarını ehtiva edir. Əlbəttə, onun məqsədi heç də türkologiyanın bütün problemlərini, yaxud bir problemin bütün tərəflərini, tam miqyasını əhatə etmək deyil. Və əslində, bu, nə nəzəri, nə də praktik baxımdan mümkün də olmazdı.

«Türkologiyaya giriş» əsas diqqəti aşağıdakı problemlər üzərində cəmləşdirir:

1) türklərin mənşəyi;

2) müasir türk xalqlarının ortaq əcdadları olan qədim türklərin etnoqrafiyası, ictimai-siyasi quruluşu, dünyagörüşü, dili, ədəbiyyatı, mədəniyyəti və s.;

3) türklərin diferensiasiyası prosesinin nəticəsi olaraq türk xalqlarının təşəkkülü, həmin xalqların ortaq və fərqli xüsusiyyətləri;

4) müasir türk dünyası: diferensiasiya və inteqrasiya.

Türkologiyada bu problemlər geniş araşdırılmış, müəyyən elmi-nəzəri ümumiləşdirmələr aparılmış, müxtəlif mülahizələr irəli sürülmüşdür.

«Türkologiyaya giriş»də həmin araşdırmalar, ümumiləşdirmələr və mülahizələr barədə ətraflı məlumat verilir. Eyni zamanda nəzərdə tutulur ki, türkologiya elminin, haqqında bəhs olunan fundamental problemləri barədəki aydın təsəvvürlər digər məsələlərin də əsaslı şəkildə öyrənilməsinə kömək edir. Məsələn, qədim türklərin hansı tarixi şəraitdə, hansı coğrafiyada və hansı etnoqrafik keyfiyyətdə təşəkkül tapdıqları doğru-düzgün təsəvvür edilmədən etnosun sonrakı taleyinin, digər etnoslarla çoxsaylı kontaktlarının səbəblərini, mahiyyətini anlamaq çətin olardı; yaxud türklərin diferensiasiysı, müstəqil xalqlara bölünməsi prosesində təbii (normal) təsnifatdan «kənarda qalmış» türk xalqlarının – saxaların

və ya çuvaşların təşəkkül tarixini izah etmək ciddi problemə çevrilərdi və s.

Türklərin müstəqil xalqlara bölünməsi prosesinin tarixi məntiqindən, qanunauyğunluqlarından xəbərsizlik isə ona gətirib çıxarardı ki, bu günə qədər özünü heç bir müasir türk xalqına aid etməyib hələ də «tarixdə qalan» bir sıra türk mənşəli etnik qrupların təsnifatdakı yerini müəyyənləşdirmək, ümumiyyətlə, mümkün olmazdı.

Və «fundamental» hesab edilən problemlərin bir mühüm xüsusiyyəti də «çoxkomponentli» olmasıdır. Məsələn, bu və ya digər etnosun həm mənşəyi (etnogenezisi), həm də müxtəlif xalqlara bölünməsi (diferensiasiyası) probleminin izahı 1) etnoqrafiya, 2) etnocoğrafiya, 3) dünyagörüşü, 4) dövlətçilik, 5) dil, 6) ədəbiyyat və s. komponent və ya paradiqmalara eyni zamanda, bir sistem olaraq baxılmasını tələb edir.

«Türkologiyaya giriş»in strukturu onun mənimsənilməsi keyfiyyəti üçün çox mühümdür ki, burada aşağıdakı məqamların nəzərə alınması lazım gəlir:

a) mövzuların fundamentallığı və ya bütövlüyü;

b) mövzular arasında həm diaxron, həm də sinxron əlaqələr sisteminin gözlənilməsi, yəni bir mövzunun digərinin davamı (və inkişafı) olması;

c) mövzuların müasir elmi, eləcə də ictimai təfəkkür üçün aktuallığı.

Bu prinsiplərə əsaslanaraq kitabda «Giriş»in belə bir strukturu təklif olunur:

I. Türkologiyanın tarixi.

II. Qədim türklər.

III. Türklərin diferensiasiyası.

IV. Müasir türk dünyası.

Türklər tarix səhnəsinə insanı (və dünyanı) dərk etməyə çalışan zəngin mifologiyaları, eposları, möh-

təşəm dövlətləri (və tarixdə məşhur imperiyaları), geniş bir coğrafiyada yayılmış mükəmməl yazı mədəniyyətləri və s. ilə çıxmışlar. Bu etnosun təbii-tarixi yolla orta əsrlərin sonlarına doğru iyirmidən artıq xalqa diferensiasiyası da məlumdur ki, həmin xalqlar özlərinəməxsus türk mənşəli dil, ədəbiyyat və mədəniyyətləri, dövlət idarəçiliyi təcrübələrilə bu gün də inkişaf etməkdə, türk dünyasının (və dünya birliyinin) üzvi tərkib hissəsi olmaqdadırlar.

Bununla belə «Türkologiyaya giriş»in strukturunda türklərin tarixinin ən qədim dövrlərdən bəri digər etnoslarla sıx iqtisadi, ictimai-siyasi və mədəni əlaqələrdə öyrənilməsi də çox mühüm məsələdir. Çünki türklər həm ən qədim və ya tarixəqədərki dövrlərdə genetik baxımdan daxil olduqları Altay, eləcə də protoaltay xalqları ilə bilavasitə bağlı idilər, həm də tarixin gedişatında bir sıra etnoslarla əsrlər boyu əlaqədə inkişaf etmişlər. Sonunculara, ilk növbədə, çinlilər, yunanlar, iranlılar, slavyanlar, germanlar, hindlilər, ərəblər… daxildirlər ki, bu etnoslarla (xalqlarla) türklərin kontaktları, demək olar ki, heç zaman tamamilə kəsilməmiş, müəyyən dövrlərdə isə həlledici olmuşdur. Məsələn, Çingiz xanın XIII əsrdə əsasını qoyduğu Monqol-tatar dövləti azsaylı monqollarla çoxsaylı türklərin (tatarların) birgə hərbi, siyasi və mədəni gücünün, tarixi passionarlığının məhsulu idi. Və bu dövlət orta əsrlərdə bir sıra xalqların gələcək taleyinin həll olunmasında əhəmiyyətli rol oynadı. Onun idarəçilik təcrübəsinin şərqi slavyanlar tərəfindən uğurla mənimsənilməsi nəticəsində Rusiya yüksələrək, öz növbəsində, türk xalqlarının çoxunun taleyini müəyyənləşdirdi.

Türk tarixinin (və etnik-mədəni xarakterinin) bir mühüm cəhəti də ümumən dünya idarəçiliyinə cəhdlər,

«Dünya dövləti» yaratmaq təşəbbüsləridir. Və burada türklərin müxtəlif dövrlərdə dünya ilə əlaqələrinin universal təbiəti ifadə olunur.

Bütün etnoloji elmlərdə olduğu kimi, türkologiyada da milli (etnik) təəssübkeşlikdən irəli gələn bir sıra iddialar həmişə mövcud olmuşdur; məsələn, Şumer mədəniyyəti barədə məlumatlar yayıldıqda etnoloji elmlərin «ayıq» mütəxəssislərinin, demək olar ki, hamısı Şumerdə mənsub olduqları etnosun «izlər»ini «tapdılar». Ancaq bu günə qədər də Şumer mədəniyyətinin varisinin kim, hansı xalq və ya xalqlar olduğu mübahisəlidir.

Milli təəssübkeşliyin uğursuz nümunələrindən biri, məsələn, yunanlara məxsus Homerin, yaxud iranlılara məxsus «Avesta»nın türkləşdirilməsi cəhdləridir.

Ancaq unutmaq olmaz ki, türklərə aid olduğu heç bir şübhə doğurmayan abidələrin metodoloji baxımdan daha hazırlıqlı etnoloji elmlər tərəfindən «mənimsənilmə»si faktları da az olmamışdır. Məsələn, bütün XIX əsr boyu avropalılar qədim türk (run) yazılı abidələrinin tarixi müəllifliyinə iddialı idilər. Yalnız əsrin sonlarında qədim türk (run) yazısının sirri V.Tomsen tərəfindən açıldıqdan sonra çoxsaylı abidələrin məhz türklərə aidliyi aşkara çıxarılaraq həmin iddialara son qoyuldu.

Türkologiyanın bir sıra problemləri siyasi-ideoloji xarakterə malik olub, bir növ, konyuktur məqsədlərdən irəli gəlir. Məsələn, bəzi məqamlarda «türk xalqları» əvəzinə «türkdilli xalqlar» ifadəsinin işlədilməsinə üstünlük verilməsi bunun nəticəsidir. Və o deməkdir ki, türk xalqlarını birləşdirən onların ümumi etnik mənşəyi yox, dil birliyidir. Halbuki german, roman, slavyan, İran, ərəb, Qafqaz xalqları kimi türklər də həm dil (qlottogenezis), həm də etnik (etnogenezis) baxımından eyni kökdən və ya mənbədən törəmişlər.

Ümumiyyətlə, türkologiya elminin metodoloji problemləri, əsasən, iki səviyyədə təzahür edir. Onlardan birincisi xarici, yaxud beynəlxalq, ikincisi isə daxili, yaxud milli səviyyəlidir ki, hər ikisinin (bütövlükdə, türkologiyada ideya-metodoloji problemlərin təzahürünün) ciddi tarixi əsasları vardır.

Məlum olduğu kimi, yunan, Roma, Çin, İran, ərəb mənbələri qədim dövrlərdən ta orta əsrlərin sonlarına qədər türklər haqqında kifayət qədər geniş təsəvvür yaradır. Və o da məlumdur ki, bu təsəvvürlər çox hallarda «düşmən» və ya «rəqib» obrazı formalaşdırır ki, buna da təbii baxmaq lazımdır. Çünki türklərin döyüş meydanında, yaxud diplomatik münaqişələrdə üz-üzə gəldikləri xalqlara türk mənbələrindəki münasibətlər də təxminən belədir.

Ancaq orta əsrlərin sonu yeni dövrün əvvəllərindən etibarən türklər Altaylardan Şərqi Avropaya qədərki tarixi siyasi nüfuzlarını tədricən itirirlər. Və bundan sonra ilk növbədə Rusiyanın, onun ardınca isə Qərbi Avropa ölkələrinin həm siyasi, həm iqtisadi, həm də mədəni təsir dairəsinə düşürlər. Osmanlılar ciddi müqa-vimət göstərsələr də, zaman-zaman həmin təsir onları da əhatə edir. Beləliklə, XIX əsrin əvvəllərindən eti-barən türkləri öyrənmək üçün qurulan təsisatlar, prinsip etibarilə, misssionerlik və ya təzyiq məqsədi güdür.

Əlbəttə, elmin, texnologiyanın XIX əsrdən başlayan inkişafı türkoloji araşdırmalarda müəyyən obyektivliyin gözlənilməsinə də imkan yaradır. Bununla belə imperialist iddiaların (və maraqların) gücləndiyi bir şəraitdə həmin imkanlar o qədər cüzidir ki, türkologiya tarixinin fəlsəfəsində ümumiyyətlə nəzərə alınmaya da bilər.

Türkoloqların ideoloji nəzarət altında saxlanılması, milli türkoloq kadrlarının (mütəxəssislərin) yetişməsi

üçün şəraitin məhdudlaşdırılması, türkoloji nəşrlərin qarşısının mümkün qədər alınması və s. türkologiyanın demək olar ki, bütün tarixi boyu müşahidə edilmişdir.

XIX əsrdə hər cür siyasi-ideoloji (və mənəvi) təzyiqlərə məruz qalmış Mirzə Kazım bəydən (müasir türkologiya elminin banisindən) sonra onun «tərcümeyi-hal»ını, taleyini XX əsrin milli türkoloqları «davam etdirirlər».

Qərbi Avropa türkologiyası türklərə yuxarıdan aşağı baxmaqda bir qədər «uzaqda» qaldıqlarına görə kifayət qədər diplomatik və ya mədəni görünür, rus (Rusiya) türkoloqları isə daha açıq siyasi-ideoloji (imperialist) mövqelərdə dayanırlar. Və 30-cu ilərdən etibarən rus (sovet) türkologiyası dirçəlməkdə olan milli türkologiyanı büsbütün məhv edir. Bunun ən danılmaz (və ən faciəli!) faktı 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji qurultayın, demək olar ki, bütün türk mənşəli sovet nümayəndələrinin sonralar məhv edilməsidir.

Türkologiyanın bir elm olaraq qadağan olunması, təbii ki, milli düşüncəyə (və intellektə) qarşı repressiyanın təzahürü idi. Ancaq sovet ideologiyası hətta 50-ci illərdən sonra da türkologiyaya sona qədər bəraət vermədi. Bunun ən aydın göstəricisi türkologiyanın sovet təzahürü – 1970-ci ildə Bakıda nəşrə başlayan kifayət qədər nüfuzlu (akademik) «Sovetskaya tyurkologiya» oldu ki, həmin jurnalda çap edilən məqalələrin mütləq əksəriyyəti dilçiliyə, az qismi isə etnoqrafiya və ya folklora həsr olunurdu. Türklər haqqında nəinki milli və ya siyasi-ideoloji məsələ qaldıracaq, hətta buna cəhd edildiyi barədə gümana düşüləcək bir yazı belə «Sovetskaya tyurkologiya»da gedə bilməzdi.

Daxili, yaxud milli səviyyədə ortaya çıxan metodoloji problemlər də mövcuddur ki, onlardan biri türk-

ologiyanın elm kimi formalaşdığı XIX əsrdə türklərin elmi-intellektual imkanlarının aşağı olması ilə əlaqədar həmin elmin «xaric»dən öyrənilməsindən irəli gəlir.

Orta əsrlərin sonu yeni dövrün əvvəllərindən etibarən qərbi avropalılar vaxtilə türklərə yaxşı məlum olmuş (hətta böyük bir hissəsinə əsrlərlə nəzarət etdikləri) İpək Yolundan daha rahat, ucuz yollar kəşf edərək dünya xalqlarını sürətlə öyrənib külli miqdarda material topladılar. Və beləliklə, xalqlar haqqında elmlər formalaşmağa başladı ki, onlardan biri də türklər haqqında idi. Şərqşünaslığın tərkib hissəsi kimi inkişaf edən türkologiyanı türklər xeyli sonralar, nə qədər paradoksal olsa da, qərbi avropalılardan, çox hallarda isə Rusiya türkoloqları (və türkologiyası) vasitəsilə öyrəndilər.

Türkologiyanın türklərə «xaric»dən gəlməsi, metodoloji baxımdan, onların özlərinə «xaric»dən baxması (və bunu öz baxışları kimi dərk eləməsi) demək idi.

XX əsrin sonlarına qədər, türk dünyasının, demək olar ki, əsas türkoloji mərkəzləri «xaric»dən idarə olunurdu.

Bu, türklər arasında türkologiya elminin öyrənilməsində, türkoloji araşdırmaların milli əsaslar üzərində qurulmasında, xüsusilə onun siyasi-ideoloji məqsədlərlə həm sinxron, həm də diaxron miqyaslarda məhdudlaşdırılmasının aradan qaldırılmasında çox böyük maneə olmuşdur. Sayı o qədər də çox olmayan milli türkoloji mərkəzlərin «xaric»dən idarə edilməsi türk xalqlarının milli mənəvi (və xüsusilə intellektual!) heysiyyətinin tapdalanması demək idi. Hər şeydən əvvəl ona görə ki, türk xalqları öz tarixlərini öyrənməkdən məhrum edilmişdilər… Və milli tarix təfəkkürü orta əsrlərdən bu yana gəlib çıxmırdı.

XX əsrin sonlarında (yəni türk xalqlarının əksəriyyəti bu və ya digər dərəcədə müstəqillik qazandıqda) milli dövlətçilik ideologiyası səviyyəsində ümumtürk mərkəziyyətçiliyindən uzaqlaşmaq meylləri gücləndi.

Etiraf etmək lazımdır ki, bu meyllər son illərdə türkologiyanın bütöv bir elm kimi təzahürü qarşısına müəyyən siyasi-ideoloji (bir sıra hallarda isə metodoloji) problemlər çıxarmaqdadır. Maraqlıdır ki, bu təhlükə tamamilə fərqli aspektdə (türk xalqlarını parçalamaq aspektində!) indiyə qədər də olmuşdu. Və imperiya maraqları ilə milli maraqların bu qədər «üst-üstə düşməsi», fikrimizcə, təsadüfi deyil. Hər şeydən əvvəl ona görə ki, müstəqilliyini yenicə əldə etmiş (və əldə etməkdə olan) türk xalqları həmin müstəqilliyi «bütün dərinliyi» ilə hiss (və dərk) etmək istəyirlər. Və həmin müstəqilliyə mane olacaq hər cür asılılıqdan, «birlik»dən mümkün qədər uzaqda durmağa çalışırlar. Hətta Tarixdən (və Gələcəkdən!) belə… Əlbəttə, bu, keçici prosesdir. Və türkologiya ortaq dəyərləri öyrənməyi tələb edir.

Türkologiya elminin metodoloji problemləri, əsasən, iki səviyyədə təzahür etsə də, son illərdə özünü göstərən üçüncü bir səviyyədən də danışmaq olar ki, bu da qloballaşan dünyanın müasir ideoloji-intellektual texnologiyalarının doğurduğu kosmopolit konyuktur maraqlar kompleksidir.

Həmin kompleks sualı çox kardinal (və özü kimi qlobal!) qoyur: dünyanın böyük bir «kənd»ə çevrilməyə doğru getdiyi bizim günlərdə ayrı-ayrı xalqları öyrənən (etnoloji) elmlər kimə lazımdır?...

Və təbii ki, bu suala yalnız türkologiya yox, bütün etnoloji elmlər (məsələn, germanistika, romanistika, slavistika və s.) birlikdə cavab verməlidir.

«Türkologiyaya giriş» türkologiya elminin (və türklərin) öyrənilməsində, təbii ki, akademizmi əsas alır, bununla belə hər hansı siyasi-ideoloji iddialarla intellektual səviyyədə polemikalarda iştirakdan da geri çəkilmir. Çünki müasir dünya heç bir ideyanı, yaxud elmi mülahizəni müzakirəsiz və ya mübahisəsiz qəbul etmir.

# I BÖLMƏ

# TÜRKOLOGİYANIN TARİXİ

## 1.«Türkologiyanın tarixi» anlayışı

Türkologiya dünya miqyaslı elm olub zəngin bir tarixə malikdir – həmin tarix XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən ardıcıl şəkildə araşdırılmağa başlamış, V.V.Bartold, A.N.Kononov, N.A.Baskakov kimi görkəmli türkoloqların tədqiqatlarında «türkologiya tarixi»nin ümumi mənzərəsi yaradılmışdır.

Türkologiya tarixinin dövrləşdirilməsində əsas prinsip, heç şübhəsiz, tədqiqat metodlarının təkamülü ilə yanaşı, həmin elmin (türkologiyanın) problemlərinin miqyasca genişlənməsindən ibarətdir. Türkologiya tarixinin hər bir dövrünün, mərhələsinin özünəməxsus aktual problemləri olmuşdur ki, onların qoyuluşu get-gedə daha çox elmi-nəzəri xarakter almışdır. Tədqiqat metodlarının təkamülünü, problemlərinin miqyasını, xarakterini nəzərə alaraq türkologiya tarixini aşağıdakı şəkildə dövrləşdirmək mümkündür:

I. E.ə.I minilliyin ortalarından XVII əsrə qədər.

II. XVIII əsrin əvvəllərindən XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər.

III. XIX əsrin sonu XX əsrin əvvəllərindən bu günə qədər.

Türkologiya müxtəlif xalqlardan, millətlərdən olan (və təbii ki, müxtəlif dünyagörüşlərinə, mədəniyyətlərə mənsub) araşdırıcıların müşahidələrinin, tədqiqatlarının ümumən obyektiv yekunu olsa da, bu və ya digər subyektiv mövqeyi əks etdirən, müəyyən siyasi-ideoloji məramlı mülahizələrdən, missioner müdaxilələrindən də

xali deyil. «Türkləri öyrənmək»də məqsəd bir sıra hallarda onları dünya tarixindən (ümumən dünyadan!) sıxışdırmaq, siyasi-ideoloji, mədəni-mənəvi əsarət altında saxlamaq, idarə etmək olmuşdur. Ona görə də nəinki orta əsrlərin türklərdən bəhs edən müxtəlif mənşəli, müxtəlif xarakterli mənbələrinə, hətta yeni dövrün akademik səciyyəli məlumatlarına, mülahizələrinə də ehtiyatla (və tənqidi) yanaşmaq lazım gəlir. Beləliklə, türkologiyanın dünya miqyaslı elm olması türkoloji mülahizələrdə daha mötəbər hadisə kimi birinci növbədə milli (türklərin özlərinə məxsus) mənbələrə dayanmağı istisna etmir.

Məlum olduğu kimi, türkologiya tarixinə həsr edilmiş tədqiqatlarda, bir qayda olaraq, əsas diqqət Rusiyada (o cümlədən Sovet Rusiyasında) aparılan araşdırmaların ümumiləşdirilməsinə verilmişdir. Odur ki, həmin «tarix»lərdə təklif olunmuş dövrləşdirmələr ümumən türkologiyanın tarixini tam əks etdirə bilməz. Təəssüf ki, sovet dövründə türk respublikalarında yazılmış türkologiya dərsliklərində də həmin ənənə davam etdirilmişdir.

Ümumiyyətlə elmlərin, xüsusilə ictimai elmlərin tarixinin sistemləşdirilməsi çox hallarda siyasi-ideoloji məzmun daşıyır. Belə ki, bir sıra mövzulardan imtina olunur, bir sıra mövzulara isə daha böyük «maraq» göstərilir. Halbuki obyektiv baxış tələb edir ki, «tarix» mümkün qədər bütün tərəfləri, parametrlərilə öyrənilsin.

Və bu zaman biri digərilə əlaqədar olan iki mühüm məqam ortaya çıxır:

1) hər bir mütəxəssisdə məşğul olduğu elmin tarixi barədə ümumi (və sistemli) məlumat olmalıdır;

2) araşdırdığı mövzunun və ya mövzuların tədqiqat tarixçəsini isə bütün təfsilatı ilə bilməlidir.

## 2.Türkologiya tarixinin birinci dövrü (e.ə. I minilliyin ortalarından XVII əsrə qədər)

Türklər haqqında ilk məlumatlar e.ə. I minilliyin ortalarından sonrakı dövrə aiddir-eramızın I minilliyin sonu II minilliyin əvvəllərinə qədər həmin məlumatları 1) türk, 2) Şərq və 3) Qərb mənbələrinin verdiyi məlumatlar olmaqla üç yerə bölmək mümkündür.

Türklər özləri barədə müstəqil bir etnos kimi formalaşdıqları, tarix səhnəsinə çıxdıqları dövrdən «düşünməy»ə başlamışlar. Lakin bu «düşüncə»lər I minilliyin ortalarına qədər şifahi xarakter daşımış, yalnız I minilliyin ortalarından sonra meydana çıxan qədim türk (run) yazısı türklərin özləri barədə «yazılı düşünmə»ləri üçün şərait yaratmışdır. E.ə. I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına qədərki dövrdə türklər haqqında ən mötəbər mənbə qədim türk eposudur ki, onların (türklərin) yaranması, dünyada tutduqları ictimai-siyasi mövqe, etnik xarakterləri, vərdişlər sistemi və s. barədə kifayət qədər geniş məlumat verir. «Yaradılış», «Köç», «Oğuz kağan», «Ərgənəkon» və s. dastanlar qədim türk eposunun bilavasitə təzahürləri kimi bu baxımdan da maraq doğurur. Qədim türk(run) yazılı abidələri, xüsusilə Kül tiqin, Bilgə xaqan, Tonikuk mətnləri artıq özü barədə «düşünmə»yi bacaran bir xalqın yaradıcılıq məhsuludur.

Qədim türk yazılı ədəbiyyatının ilk mükəmməl əsəri olan Tonikuk kitabəsi VIII əsrin 20-ci illərinin ortalarında yazılmışdır. Avtoqrafik xarakterli kitabənin qəbir daşı üzərinə həkk olunmuş mətninin müəllifi Göytürk dövlətinin üç xaqanının (İltəriş xaqan, Qapağan xaqan və Bilgə xaqanın) baş vəziri, yaxud müşaviri, dövlətin qurulmasında, möhkəmlənməsində, imperiyaya

çevrilməsində böyük xidmətləri olmuş Bilgə Tonikukdur. Və o, yalnız görkəmli siyasətçi, diplomat deyil, həm də tarixçi, yazıçı – türkcənin mükəmməl üslub sahibidir ki, kitabənin poetik strukturu bunu aydın göstərir.

Bilgə Tonikuk öz hekayəsinə «mən Bilgə Tonikukam. Çində doğuldum. O zaman türk xalqı Çinin əsiri idi» sözləri ilə başlayır. Sonra isə İltəriş xaqanın türk xalqının (göytürklərin) azadlığı uğrunda mücadiləsindən, həmin mücadilədə ona yaxından kömək etməsindən, nəticə etibarilə, müstəqil (və qüdrətli) Göytürk dövlətinin yaradılmasından danışır. Və məlum olur ki, göytürklər dövlət müstəqilliyini qoruyub möhkəmləndirmək, güclü bir imperiyaya çevirmək üçün ətrafdakı düşmənlərlə uzun illər mübarizə aparmışlar. Göytürk xaqanlarının milli ruhu, vətənpərvərliyi, cəsarəti, müdrikliyi kitabədə xüsusi nəzərə çatdırılır. Bununla belə, təsvir olunan hadisələrin baş qəhrəmanı müəllifin – Bilgə Tonikukun özüdür:

«Ormandakılar, ondan kənarda qalanlar toplanıb yeddi yüz əsgər oldular. İki bölüyü atlı, bir bölüyü isə piyada idi. Həmin yeddi yüz adamı idarə edənlərin böyüyü «şad» idi. O, mənə «müşavirim ol» dedi. Mən Bilgə Tonikuk müşavir oldum. Düşündüm ki, «şad»ı «xaqan» edək, ya yox?.. «Arıq buğa, yaxud kök buğa arxada olsa, arıq buğa, yaxud kök buğa olduğu bilinməz» deyə düşündüm. Tanrı ağıl verdiyinə görə, mən onu xaqan elədim».

Adətən, müşavirlər, vəzirlər, ümumiyyətlə saray əyanları öz hökmdarları haqqında bu cür iddialarla (özündənrazılıqla!) danışmırlar. Hətta hökmdarları, layiq oldu-olmadı, ideallaşdırmağa meyl edir, özlərinin xidmətlərini mümkün qədər kiçiltməyə çalışırlar.

Tonikuk isə özünün xidmətlərini türk epos təfəkkürünə məxsus romantik bir vüsətlə təsvir (hətta tərənnüm!) edir. Buna, bir tərəfdən, onun haqqı vardır. Çünki digər tarixi mənbələr də göstərir ki, üç türk hökmdarının baş vəziri, doğrudan da, dahi strateq olmuşdur. İkinci tərəfdən isə, Bilgə Tonikuk iddialı siyasətçi olduğu qədər də iddialı müəllif – söz (üslub!) adamıdır.

Kəşfiyyatçılar xəbər verirlər ki, ətrafdakı düşmənlər göytürklərin qüdrətlənməsindən qorxuya düşərək onların üzərinə hücuma hazırlaşırlar. Və bu xəbəri eşidən Tonikuk dərhal tədbirlər görür…

«Bu xəbəri eşitdikdə gecə yuxum gəlmədi, gündüz oturmağım gəlmədi. O zaman xaqanıma müraciət elədim. Dedim ki, Çin, Oğuz, Xitay – bu üçü birləşsə, biz batarıq. Ətrafdan əhatə olunmuşuq. Bir şeyi yuxa ikən deşmək, nazik ikən qoparmaq asandır. Yuxa qalınlaşdısa deşmək, nazik yoğunlaşdısa qoparmaq çətin olur… Belə müraciət elədim. Xaqanım mən Bilgə Tonikukun müraciətini eşitdi, «ürəyin istəyən kimi hərəkət elə» dedi».

Məşvərətçi-vəzirin ayıqlığı, məsuliyyəti, xaqana (dövlətə!), xalqa sədaqətlə xidməti və buradan irəli gələn nüfuzu, mövqeyi əsaslandırılır. Müəllif xalq dilindən gələn obrazlı, aforistik ifadələrlə danışır. Ona görə «danışır» deyirik ki, «bütövlükdə kitabənin poetik strukturu, üslubu, bədii intonasiyası folklor (epos) tipologiyasına malikdir.

Tonikukun hekayə-xatirəsində konkret tarixi hadisələrdən, xalqlardan, coğrafiyadan bəhs olunsa da, bu təfsilat mətni prozaikləşdirmir; elə bir kontekstdə təqdim edilir ki, bədii nəsr estetikası pozulmur:

«...Oğuz bütünlüklə gəldi. Türk xalqının Ötükəndə, mənim – Bilgə Tonikukun Ötükəndə yerləşdiyimi

eşidən Cənubdakı xalq, Qərbdəki, Şimaldakı, Şərqdəki xalq gəldi.

İki min idik. İki ordumuz oldu. Türk xalqı yaradılandan, Türk xaqanı taxta oturandan Şantunq şəhərinə, dənizə çatmış olan yox idi. Xaqanımıza deyib oraya ordu göndərdim. Şantunq şəhərinə, dənizə çatdırdım. İyirmi üç şəhər tutdular. Yuxularını burada buraxıb səfərdə yatıb durdular».

Göründüyü kimi, biri digərini əvəz edən, hətta biri digərini ehtiva edib gücləndirən leksik, eləcə də sintaktik təkrarlar sıx-sıx işlədilməklə yanaşı, həm baş qəhrəmanın, həm də qəhrəmanların apardığı mübarizənin gərginliyini göstərmək üçün xüsusi təsirli ifadələr (gecə yatmayıb gündüz oturmamaq, yuxularını burada buraxıb səfərdə yatıb durmaq və s.) işlədilir. Və aparılan müharibələrin, döyüşlərin ağırlığı, həyəcanları, düşmən üzərindəki qələbənin döğurduğu qürur ustalıqla təqdim olunur…

«…Ordu çəkdim. Altun ormanını yol olmadan keçdik. İrtış çayını keçid olmadan keçdik. Gecə də yol getdik. Bolçuya dan üzü çatdıq.

Əsiri gətirdilər. Sözü belə oldu ki, Yarış çölündə yüz min əsgər toplanıb. Bu sözü eşidəndə bəylər hamısı bir ağızdan «geri dönək, gücsüzün utancı daha yaxşıdır» dedilər. Mən isə belə dedim, mən Bilgə Tonikuk: «Altun ormanını yarıb gəldik, İrtış çayını keçib gəldik. Gələnlər «igiddir» dedilər… Tanrı, Umay, Müqəddəs Yer-Su mühafizə elədi. Niyə qaçaq? Çoxdular deyə niyə qorxaq? Azıq deyə nə üçün özümüzü alçaldaq? Hücum edək» dedim. Hücum etdik. Və onları yağmaladıq».

Burada fövqəltəbii (ilahi!) qüvvələr – Tanrı, Umay, Müqəddəs Yer-Su türklərə öz istiqlallarını təmin edib müstəqil dövlət qurmaları üçün güc versə də, əsas

məsuliyyət, prinsip etibarilə, real qüvvələrin üzərinə düşür.

Tonikuk öz üslubunda, təhkiyəsində epik-romantik vüsəti qorumaqla yanaşı, bəlağətə, sözçülüyə qapılmır, çox hallarda bir əsgər-komandan kimi danışır, hadisələrin statistikasına varır:

«İltəriş xaqan müdrik olduğuna görə, igid olduğuna görə Çin ilə on yeddi dəfə döyüşdü, Xitayla yeddi dəfə döyüşdü, Oğuzla beş dəfə döyüşdü. Bu döyüşlərdə də müşaviri mən idim. Komandanı da mən idim. İltəriş xaqana – Türkün hakim xaqanına, Türkün müdrik xaqanına»…

Mətndə ilk orta əsrlər üçün səciyyəvi mistika, demək olar ki, yoxdur. İnsan iradəsi kifayət qədər müstəqil, kifayət qədər həlledicidir. Və onun uğurunu, qələbəsini, hər şeydən əvvəl, cəsarət, igidlik, müdriklik, məsuliyyət təmin edir ki, bunlar da, ilk növbədə, xaqanlara, onların məsləhətçilərinə xas olanda xalqın xoşbəxtliyi, əmin-amanlığı təmin edilmiş olur…

«…Qızıl qanımı tökərək, qara tərimi axıdaraq zəhmətlər çəkdim. Kəşfiyyatçıları yenə uzaqlara göndərdim, qalaları, mühafizəçiləri çoxaltdım. Yenilən düşməni gətizdirdim. Xaqanım ilə yürüşlərə çıxdıq. Tanrı qorusun! Bu türk xalqının içində silahlı düşmən gəzdirmədim, quyruğu düyünlü at çapdırmadım. İltəriş xaqan qalib gəlməsəydi, onun ardınca mən qalib gəlməsəydim dövlət də, xalq da məhv olacaqdı. O qalib gəldiyi üçün, ardınca mən qalib gəldiyim üçün dövlət yenə dövlət oldu, xaql yenə xalq oldu».

Tonikukun xaqana (dövlətə!) sədaqətini göstərən bu mətndə bir sıra elə ifadələr var ki, həm də etnokulturoloji baxımdan maraq doğurur. Məsələn, «türk xalqının içində silahlı düşmən gəzdirmədim, quyruğu düyü-

nlü at çapdırmadım» frazemi bütövlükdə kitabənin ideyasını, müəllifin məramını əks etdirən ifadədir. Və o deməkdir ki, xaqanıma (dövlətimə!) heç vaxt xəyanət eləmədim… Sual olunur: Bu məsələyə xüsusi diqqət yetirmək nədən irəli gəlir?.. Fikrimizcə, bunun əsas səbəbi ondan ibarətdir ki, uzun əsrlər qədim türk dövlətləri (və xaqanları) saray münaqişələrindən, xəyanətlərindən əziyyət çəkmiş, hətta döyüş meydanlarında qazandıqları müstəqilliklərini saray münaqişələrində, xəyanətlərində itirərək məhv olmuşlar.

Tonikuk həmin tarixi (və ənənəvi) təhlükəyə işarə edir. Eyni zamanda ümidvar olduğunu bildirməyi də unutmur ki, onun böyük təcrübəsi, qoyduğu tarixi ənənə bundan sonra da davam etdiriləcəkdir:

«Mən artıq yaşlaşdım, ahıllaşdım. Hər hansı yerdə xaqan sahibi olan bir xalqın mənim kimisi olsa, onun dərdimi olar»…

Tonikukun kitabəsi ümumən qədim türk ədəbiyyatının, tarixçiliyinin ideya-məzmunu, poetik strukturu, dil-üslub texnologiyaları barədə aydın təsəvvür yaradır.

Haqqında söhbət gedən dövrün (e.ə. I minilliyin ortalarından b.e.-nın I minilliyinin sonu II minilliyinin əvvəllərinə qədərəki dövr nəzərdə tutulur) Şərq və Qərb mənbələri bu və ya digər dərəcədə tendensiyalı olsa da, qədim türklər barədəki təsəvvürlərin həm genişlənməsinə, həm də müqayisəsinə imkan verir. Və məlum olduğu kimi, I minilliyin ortalarına qədər əvvəl Şərq (əsasən Çin), sonra isə Qərb mənbələri hun türkləri haqqında ətraflı bəhs edirlər. Hunşünaslıq türkologiyanın zəngin olduğu qədər də mübahisəli sahələrindən biridir-elə tədqiqatçılar var ki, Şərq hunları ilə Qərb hunlarını eyni mənşəli, elə tədqiqatçılar da var ki, müxtəlif mənşəli (məsələn, G.Dörfer) xalqlar hesab edirlər.

Hunlar, hun dili barədəki təsəvvürlərin aydınlaşmasında ilk orta əsrlər Zaqafqaziya mənbələrinin verdiyi məlumatlar olduqca maraqlıdır: hər şeydən əvvəl ona görə ki, Zaqafqaziya mənbələri Şərq hunları ilə Qərb hunlarını həm tarixi, həm də coğrafi baxımdan əlaqələndirironların (hunların) Şərqdən Qərbə axınının gedişini bu və ya digər dərəcədə izləməyə imkan verir; ikincisi, Zaqafqaziya mənbələri hun dilinin məhz türkcə olduğunu konkret faktlarla təsdiq edir; üçüncüsü, Zaqafqaziya mənbələri göstərir ki, I minilliyin ortalarından sonra hun birliyi parçalanır, müxtəlif hun-türk tayfaları, xalqları təşəkkül tapır.

Və I minilliyin sonlarına doğru türklər barədə ən geniş məlumatı, heç şübhəsiz, ərəb (ümumən müsəlman) mənbələri verməyə başlayır.

Türkologiyanın ilk möhtəşəm mənbəsi Mahmud Kaşqarinin « Divani-lüğət-it türk» əsəridir (XI əsr). Müəllif bu əsəri ilə türk dillərinin (dialektlərinin) müqayisəli öyrənilməsinin əsasını qoymuş, hətta həmin dillərin (dialektlərin) qohumluğundan bəhs etməklə müəyyən məqamlarda tarixi-müqayisəli metodu yada salacaq mülahizələr söyləmişdir. «Divan» ensiklopedik məzmuna malik olsa da, birinci növbədə lüğət kitabıdır, türk dilini öyrənmək istəyənlər üçün yazılmışdır. Və M.Kaşqari əmindir ki, islam dinini qəbul etmiş türklərin tarixində yeni bir dövr başlayır, tarix onlara böyük gələcək vəd edir, ona görə də dünyanın müxtəlif xalqları (M.Kaşqari «Divan»da ona məlum olan dünyanın xəritəsini də verir), xüsusilə müsəlman xalqları türklərin dillərini (türk dilini) öyrənməli olacaqlar. Müsəlman türklərin Şərqdən (Türküstandan) Qərbə yürüşləri ərəfəsində meydana çıxmış «Divani-lüğət-it türk»ün əsas ideyası, heç şübhəsiz, türkləri mənəvi-ruhi baxımdan birləşdirməkdən ibarət

idi ki, bunun da əsasında dil dururdu. Müəllif dil materialına nə qədər çox diqqət versə də, özünün eyni zamanda bir türkçü-ideoloq olduğunu bütün aydınlığı ilə göstərir.

Müəllif ərəbcə yazdığı əsərinin əvvəlində o qədər də mötəbər olmayan (ancaq ideya-məzmunca türklərin artmaqda olan qüdrətini göstərən) hədislərə dayanaraq onların (türklərin) böyük gələcəyi barədə danışır. Və bildirir ki, bu xalqın qəlbini oxşamaq üçün əsas yol dillərini öyrənməkdir.

M.Kaşqarinin «Divan»ı, görünür, orta əsrlərin sonlarına qədər türk dilçiləri, ədəbiyyatşünasları və tarixçiləri arasında məşhur olmuş, yalnız bundan (XVII əsrdən) sonra unudulmuş, bir də XX əsrin əvvəllərində üzə çıxarılaraq türkologiyada böyük maraq doğurmuşdur. Ümumiyyətlə, türkologiya tarixinin birinci dövründə «Divani-lüğət-it türk» qədər möhtəşəm, müxtəlif türk tayfa dillərini (dialektlərini) bu qədər ətraflı, elmi dəqiqliklə təsvir edən, əsaslı ideoloji mövqeyi olan bir əsər təsəvvür etmək mümkün deyil.

İslam dininin qəbulu ilə bağlı olaraq, türklər arasında ərəb əlifbası yayılır, qədim türk (run) yazısı tədricən unudulur, uyğur əlifbasının işlənməsi isə məhdudlaşır. Beləliklə, ərəb əlifbasının türk dilinə uyğunlaşdırılması problemi meydana çıxır ki, həmin problemin həllində ilk böyük işi də məhz «Divani-lüğət-it türk» müəllifi görür. Təsadüfi deyil ki, «Divan»da elmi dilçilik müşahidələrinin, mülahizələrinin mühüm bir hissəsi türk dillərinin fonetik quruluşuna aid olub müəllifin bu sahədəki düşüncələrinin kifayət qədər əsaslı olduğunu göstərir.

I minilliyin sonu II minilliyin əvvəllərindən başlayaraq türk xalqlarının (və dillərinin) coğrafi, etnokultu-

roloji regionallaşması ilə bağlı olaraq türkoloji məlumatların, təsəvvürlərin, elmi mülahizələrin diferensiasiyası gedir. M.Kaşqari artıq ümumiyyətlə türklər (və türk dili) ilə yanaşı biri digərindən bu və ya digər dərəcədə fərqlənən türk tayfaları, tayfa dilləri barədə danışır… Əslində, həmin diferensiasiya daha əvvəllərdən başlanmışdı, lakin daha aydın şəkildə məhz haqqında söhbət gedən dövrdən təzahür edir.

Türklər islam dünyasına o qədər böyük mənəvi ehtirasla daxil olur, burada özlərini o qədər rahat hiss edirlər ki, müəyyən səviyyədə hətta türk olduqlarını «unudub» ümumən bir müsəlman kimi düşünürlər. Məhz bunun nəticəsidir ki, bir sıra türk saraylarında, elm, mədəniyyət mərkəzlərində eyni zamanda üç müsəlman dili (ərəb, fars, türk dilləri) işlənir. Türklər ərəbcə, farsca yazmaqla, danışmaqla kifayətlənməyib (əslində, həmin marağın davamı olaraq) türk dilini ərəb, fars dillərinin materialı ilə «zənginləşdirir», üç dilin qarışığından ibarət bir dil yaratmağa cəhd göstərirlər. Və türk dilinin «qrammatika»ları – «sərfünəhv»ləri də ərəb-müsəlman dilçilik məktəblərinin bilavasitə təsiri ilə yazılır… Bununla belə M.Kaşqari «Divan»ından sonra da bir sıra tərcümə lüğətləri yaranır; məsələn, Əl-Zəməxşarinin «Müqəddimət ül-ədəb»i (XII əsr), «Kitabi-məcmueyi-tərcümani-türki və əcəmi və moğoli və farsi» (XII əsr), «Kodeks-kumanikus» (XIV əsr), Əbu Həyyan Əndəlusinin «Kitab əl-idrak li lisan əl-ətrak»ı (XIV əsr), Cəmaləddin ibn Mühənnanın «Hilyət ül-insan və helbət ül-lisan» (XIV əsr), Cəmaləddin ət-Türkinin «Kitab bülğat əl-müştaq fi lüğat ət-türk və l-qıfqaç»ı (XV əsr), «Əl-qəvanin əl-külliyyə li dəbt əl-lüğət ət-türkiyyə» (XV əsr), «Kitab ət-töhfət üz-zəkiyyə fi l-lüğət it-türkiyyə» (XV əsr) və s. XII-XIII əsrlərdən etibarən türk

dilinin müxtəlif etnokulturoloji regionlarda (Şərq, yaxud Türküstan; Cənub-Qərb, yaxud oğuz və Şimal-Qərb, yaxud qıpçaq) təzahürü özünü həmin lüğətlərdə hiss etdirsə də, türk dilinin ümumiliyi, bütövlüyü barədəki təsəvvür hələ uzun müddət pozulmamış, ərəb, fars, monqol, Qərbi Avropa dilləri türk dilinin bu və ya digər regional təzahürü ilə deyil, ümumən türk dili ilə müqayisə olunmuşdur.

XI-XV əsrlərdə (baxmayaraq ki, bu dövr onların fütuhat, yəni həm Şərqi, həm də Qərbi «narahat etmə» dövrüdür!) türklər barədə nə Şərqdə, nə də Qərbdə demək olar ki, əsaslı bir şey deyilmir… Lakin həmin əsrlərdə türklər yalnız böyük fəthlərlə məşğul olmur, həm də cahanşümul bir mədəniyyət yaradırlar-bu mədəniyyətin ən mühüm cəhətlərindən biri (bəlkə də, birincisi) burada milliliklə ümumbəşəriliyin üzvi şəkildə əlaqələndirilməsidir; bu isə o deməkdir ki, orta əsrlərin türk fütuhatı ilə türk mədəniyyəti biri digərinin bilavasitə davamıdır. Haqqında söhbət gedən dövrdə türklər öz tarixlərini, genezislərini, dünyanın ümumi tarixindən, insanlığın ümumi genezisindən ayırmamışlar (bunun məhz belə olduğuna inanmaq üçün oğuznamələri vərəqləmək kifayətdir).

Fəzlullah Rəşidəddinin «Came ət-təvarix»i (XIII əsr) bu dövrün ən möhtəşəm türk tarixi kitablarındandır.

Türk fütuhatının sona çatdığı, bu və ya digər dərəcədə müstəqil türk xalqlarının, dövlətlərinin müəyyənləşməyə başladığı son orta əsrlərdə də türklər haqqındakı «düşüncə»lər əsasən türklərin özlərinə məxsusdur, lakin həmin «düşüncə»lər artıq daha çox regional səciyyə daşıyır… Şərq öz «müdrik sükut»unu davam etdirir, Qərb isə dünyanın ona az məlum olan hissələrini praktik maraqla seyr etməyə başlayır. Rusiyanın türk torpaqları-

nı zəbt edərək öz ərazisini sürətlə genişləndirdiyi XVI-XVII əsrlərdə də şərqi slavyan (rus) mənbələri türklər barəsində yalnız praktik məlumatlar verir: buraya səyahətnamələr, müxtəlif xarakterli lüğətlər, «böyük çertyoj» adlanan xəritələr daxildir… Həmin məlumatlar hələ bir növ təsadüfi, sistemsiz olsa da, gələcək elmi araşdırmaların bilavasitə başlanğıcını təşkil edir.

## 3.Türkologiya tarixinin ikinci dövrü (XVIII əsrin əvvəllərindən XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər)

Orta əsrlərin sonu yeni dövrün əvvəllərindən etibarən Qərbin Şərqə qarşı artan marağı türk dünyasını birinci növbədə ehtiva edir. Hər şeydən əvvəl ona görə ki, türklər Şərqdə xüsusi siyasi mövqeyə malik idilər, bir sıra Şərq ölkələri türklərin idarəsində olduğundan həmin ölkələrlə hər hansı əlaqə üçün türklərlə hesablaşmaq lazım gəlirdi; ikincisi, Qərbdən Şərqə gedən yollar artıq neçə əsr idi ki, türklər tərəfindən tutulmuşdu, ona görə də Şərqə hər hansı müdaxilə türklərə müdaxilədən başlanmalı idi; üçüncüsü, Qərbin Şərqdə ən yaxşı tanıdığı mütəşəkkil xalq hələ ki türklər idilər, odur ki, Şərqin obrazını Qərbdə, əsasən türklər formalaşdırmışdılar; dördüncüsü, türklərin Şərqdəki populyarlığı, türk dilinin Altaya qədərki intəhasız çöllərdə (həm şimal-şərqdə, həm də cənub-şərqdə) müxtəlif inkişaf səviyyələrində olan xalqlar arasında geniş yayılması Qərbin Şərq siyasətinə get-gedə daha çox təsir edirdi… Beləliklə, Qərbin türk dünyasına marağının güclənməsi ilə türkologiyanın birinci dövrü bitib ikinci dövrü başlayır.

…Ruslar özləri türkologiya ilə bir elm kimi məşğul ola bilməsələr də, Rusiya uzun müddət türkoloji

araşdırmaların mərkəzi olmuşdur – avropalıların türklərə marağı Rusiyadan başlanmışdır. Və qeyd etmək lazımdır ki, həmin maraq – XVIII əsrin birinci yarısında o qədər məhsuldar olmasa da, ikinci yarısında kifayət qədər məhsuldarlığı ilə seçilir: türk dilləri (ləhcələri) Rusiya məktəblərində tədris olunmağa başlayır; bu məqsədlə xüsusi dərsliklər, lüğətlər tərtib olunur; türk xalqlarının, tayfalarının etnoqrafiyası araşdırılır… Beləliklə, Qərbin-Avropanın türk dünyasına marağı tədricən Rusiyanı də səfərbər edir… Və nə qədər parodoksal olsa da, Rusiya tədricən Qərbin türk dünyasına marağını öz siyasi məqsədlərinə tabe edir. Rusiyanı buna sövq edən nə idi?

-Qərbin öz «Şərq siyasəti»ni Rusiya vasitəsilə həyata keçirməsi müqabilində ona (Rusiyaya) müəyyən səlahiyyət verməsi;

-Rusiyanın xüsusilə I Pyotr dövründən başlayaraq imperiya maraqlarının güclənməsi, Şərqə doğru daha böyük sürətlə yayılması;

-türk dünyasının hərbi-siyasi tənəzzülü və s.

Qərbin Rusiya vasitəsilə Şərqə müdaxiləsi yeni dövrün əvvəllərində həm də müəyyən qədər akademik xarakter daşıyırdı-Sibirə biri digərinin ardınca təbiətşünaslar, etnoqraflar, xristian missionerləri göndərilirdilər. Rusiya ilə müharibədə əsir düşənlər də Sibirə sürgün olunurdular ki, bu ərazini Rusiya üçün sözün geniş mənasında məskunlaşdırsınlar… Altayşunaslığın bir elm kimi əsasını qoymuş İsveç zabiti F.İ. Tabbert-Stralenberq də sonunculardan idi-o, türk, monqol və tunqus-mancur xalqlarının (eələcə də bir sıra digər xalqların) genetik qohumluğu barədə məşhur nəzəriyyəsini irəli sürməklə həm türkologiyaya maraq yaratdı, həm də türkoloji tədqiqatların yeni fəaliyyət sferasını müəyyən etdi. Və Rusiya bundan sonra da Qərb türkoloqlarının apardıqları

araşdırmaların nəticələrini öz vulqar siyasi məqsədlərinə tabe etməyə nə qədər çalışsa da, həmin nəticələrin müəyyən hissəsi akademik məzmuna malik olduğundan türkləri idarə etmək üçün «texniki» material vermək əvəzinə, Avropada türklər barədəki mövcud elmi təsəvvürləri zənginləşdirirdi.

XIX əsrin əvvəllərindən etibarən tarixi-müqayisəli metodun tətbiqi türkologiyanın bir elm kimi inkişafına əhəmiyyətli təkan verdi. Lakin bir sıra tədqiqatçıların elmi türkologiyanı həmin dövrdən başlaması ilə razılaşmaq çətindir. Hər şeydən əvvəl ona görə ki, türk dillərinin müqayisəli (hətta tarixi-müqayisəli) tədqiqi cəhdləri, artıq qeyd olunduğu kimi, XI əsrdən – M.Kaşqarinin «Divani-lüğət it-türk»ündən etibarən mövcud idi.

F.İ.Tabbert-Stralenberqin irəli sürdüyü altayşünaslıq nəzəriyyəsi də tarixi-müqayisəli metodun türkologiyaya tətbiqi üçün irəlicədən müəyyən şərait hazırlamışdı.

Əlbəttə, tarixi-müqayisəli metodun türkologiyaya tətbiqi xüsusilə ilk mərhələdə təsəvvür edildiyi qədər də effektli olmamışdır. Birincisi, türk dilləri, dialektləri arasında fərqlər german, yaxud roman dilləri arasındakı fərqlər qədər deyildi; ikincisi, türk dillərinin müqayisəsini «tarixi»ləşdirmək üçün tələb olunan qədim türk (run) yazıları oxunmamışdı… Başlıcası isə, hələ türkologiyada nəzəri ümumiləşdirmələrə imkan verəcək həcmdə faktik material toplanmamışdı.

V.V.Bartold qeyd edir ki, XIX əsrdə şərqşünaslıq, o cümlədən türkologiya sahəsində Rusiyanın müvəffəqiyyətləri Qərbi Avropanınkından böyük olmuşdur… Formal baxımdan həmin mülahizə doğrudur, lakin nəzərə almaq lazımdır ki, Rusiyada çalışan şərqşünasların əksəriyyəti Qərbi Avropadan gəlmişdi, Rusiya türk dün-

yası ilə bilavasitə əlaqədar olduğundan onlar araşdırmalarını burada aparır, əsərlərini Rusiyanın elm, mədəniyyət mərkəzlərində nəşr etdirir, Rusiya Elmlər Akademiyasına, Coğrafiya Cəmiyyətinə və digər müxtəlif elmi mərkəzlərə üzv olaraq onların yüksək elmi-intellektual (akademik) səviyyədə fəaliyyətini təmin edirdilər. Eyni zamanda Rusiya vasitəsilə, məhz Qərbi Avropanın təsiri nəticəsində, türklər arasından da böyük türkoloqlar, ümumən şərqşünaslar yetişməyə başladılar. Onlardan ən məhşuru Mirzə Kazım bəy idi…

M.Kazım bəyin (1802-1870) türkologiya sahəsindəki xidmətləri o qədər böyükdür ki, romantik səslənsə də, onu ancaq türkologiya elminin banisi M.Kaşqarinin xidmətləri ilə müqayisə etmək mümkündür. M.Kazım bəy elmi-pedaqoji fəaliyyətə 1826-cı ildə Kazan Universitetində başlamış, uzun illər həmin Universitetdə, Kazan Ruhani Akademiyasında, gimnaziyada şərq dillərini tədris etmişdir. 1849-cu ildə Sankt-Peterburq Universitetinə dəvət edilərək bir müddət burada çalışmış, 1855-ci ildə şərq dilləri fakültəsi açılarkən onun ilk dekanı olmuşdur… M.Kazım bəyin xidmətlərinin böyüklüyünə, təmənnasızlığına (hətta xristian dinini qəbul etmiş olmasına!) baxmayaraq onun fəaliyyətinə həmişə şübhə ilə yanaşmış, şərqli (Qafqaz türkü) olduğuna görə türkoloji fəaliyyətini heç zaman nəzarətsiz buraxmamışlar. Bununla belə M.Kazım bəy öz istedadı, zəhmətkeşliyi ilə «rus şərqşünaslığının atası» səviyyəsinə yüksəlmişdir.

Onun «Ümumi qrammatika»sı müasir türk dilçiliyinin əsaslarını müəyyən edən əsərlərdəndir. İstər M.Kazım bəyə qədər, istərsə də ondan sonra yazılmış, əsasən praktik xarakter daşıyan qrammatika kitablarının heç birini elmi-nəzəri səviyyəsinə görə «Ümumi qrammatika» ilə müqayisə etmək mümkün deyil. Yalnız onu qeyd

etmək kifayətdir ki, XX əsrin 30-cu illərindən sonra yazılan türk dillərinin akademik qrammatikalarının, demək olar ki, hamısında müəlliflər «Ümumi qrammatika»nın prinsiplərinə əsaslanmışlar.

XIX əsrin birinci yarısında Rusiyada türkoloji mərkəz kimi əsasən Moskva, Sankt-Peterburq və Kazan universitetləri (həmin universitetlərdəki şərq dilləri kafedraları) maraq doğurur, lakin qeyd etmək lazımdır ki, həmin kafedraların istiqamətinə uyğun olaraq burada çalışan mütəxəssislər ümumən şərq dilləri, tarixi-müqayisəli dilçiliklə məşğul olurdular, yalnız (yaxud əsasən) türkologiya ilə məşğul olanlar az idilər.

XIX əsr altayşunaslığın (söhbət bu barədə nəzəriyyədən gedir) inkişafında mühüm mərhələ oldu – V.Şott, A.M.Kastren həmin nəzəriyyəni tarixi-müqayisəli metodun tətbiqi nəticəsində lazımi elmi səviyyəyə qaldırdılar.

XIX əsrin 70-ci illərindən başlayaraq Rusiyada türkoloji araşdırmalara altayşünas V.Şottun tələbəsi V.V.Radlov (1837-1918) rəhbərlik edir-Berlin universitetini bitirdikdən sonra Altay dillərini bilavasitə (canlı ünsiyyətdə) öyrənmək üçün Rusiyaya gələn V.V.Radlov əvvəl Altayda, Barnaul şəhərində yaşayır (1859-1871), regionun türk dillərinə, ədəbiyyatlarına aid külli miqdarda faktik material toplayaraq rus, alman və fransız dillərində nəşr etdirir. 1872-ci ildə Kazan çevrəsi tatar, başqırd və qazax məktəbləri inspektoru təyin edilir, 1883-cü ilə qədər bu vəzifədə çalışır. V.V.Radlov həmin illərdə türk dillərinin müqayisəli öyrənilməsi işi ilə məşğul olur, Qərbi Sibir türklərinin həyat tərzindən bəhs edən «Sibirdə» əsərini nəşr etdirir.

1884-cü ildə Rusiya Elmlər Akademiyasına üzv seçilən böyük altayşünas-türkoloq Sankt-Peterburqa gedib

burada bir sıra elmi cəmiyyətlərə rəhbərlik etməyə, uzun illər boyu topladığı materiallar əsasında möhtəşəm əsərlərini yazıb nəşr etdirməyə başlayır: buraya türk xalq ədəbiyyatı nümunələri seriyası, türk ləhcələri lüğəti, türk yazılı abidələri barədəki genişmiqyaslı araşdırmaları və s. daxildir. Və bu məhsuldar elmi-tədqiqat fəaliyyətinin nəticəsidir ki, türkologiya tarixində M.Kazım bəydən sonrakı təxminən yarım əsrlik bir dövr məhz «Radlov dövrü» adlanır.

V.Tomsenin XIX əsrin sonlarında qədim türk (run) yazısının «sirr»ini açması ilə türkologiyada inqilab baş verir: türk tarixinin qədim dövrünə gur işıq salınır ki, bu da türklərin «gənc etnos» olması təsəvvürlərini bütünlüklə aradan qaldırır.

XIX əsrin sonu XX əsrin əvvəllərində türkologiyaya gələn böyük tədqiqatçıların (P.M.Melioranski, V. V.Bartold, S.Y.Malov və b.) demək olar ki, hamısını bu və ya digər dərəcədə V.V.Radlovun tələbələri saymaq olar.

Türkologiya tarixinin ikinci dövründə diqqəti cəlb edən (hətta xüsusi mərhələ yaradan!) hadisələr aşağıdakılardan ibarətdir: altayşünaslıq nəzəriyyəsinin meydana çıxması, tarixi-müqayisəli metodun tətbiqi, akademik qrammatikanın yaradılması, qədim türk (run) yazılarının oxunması… Və qeyd etmək lazımdır ki, həmin «hadisələr» öz davamını, yüksəlişini məhz sonrakı dövrdə tapmaqla daha çox məhz perspektiv müəyyənləşdirir.

## 4.Türkologiya tarixinin üçüncü dövrü (XIX əsrin sonu XX əsrin əvvəllərindən bu günə qədər)

XIX əsrin sonu XX əsrin əvvəllərində türkologiyanın tarixində üçüncü dövr başlayır ki, bu, aşağıdakı səbəblərlə əlaqədardır:

1) türkologiyanın bir elm olaraq yüksəlməsi, zəngin mənbələrə, mükəmməl tədqiqat metodlarına yiyələnməsi;

2) türk xalqları arasında türkçülük düşüncəsinin güclənməsi, türklərin öz dillərinə, ədəbiyyatlarına, tarixlərinə maraqlarının artması;

3) bu və ya digər dərəcədə milli türkoloji mərkəzlərin, ümumi, yaxud xüsusi türkologiya (yəni ayrı-ayrı türk xalqlarının dilləri, ədəbiyyatları, ictimai-siyasi tarixləri və s.) ilə bilavasitə məşğul olan kadrların yetişməsi.

Ümumiyyətlə, haqqında söhbət gedən dövr türk xalqları arasında milli düşüncənin formalaşaraq geniş yayılması, özünüdərk dövrüdür – məhz XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən «Türklər kimdir və kimlərdən ibarətdir?» (Ə.Hüseynzadə) sualı üzərində ardıcıl olaraq  düşünülməyə başlanmış, türklər içərisindən C.Əfqani, Ə.Hüseynzadə, İ.Qaspralı, Z.Gökalp kimi böyük mütəfəkkirlər çıxaraq «türkçülüyün əsasları»nı (Z.Gökalp) müəyyən etmişlər.

Lakin XIX əsrdə türkologiyanın vətəninə çevrilmiş Rusiyada XX əsrin 20-ci illərində kommunizm ideologiyasının qələbəsi ilə milli tükçülük düşüncəsinə qarşı müharibə başladı.

…XIX əsrin sonlarına doğru Rusiyada türkologiya (ümumən şərqşünaslıq) missionerlik praktikası  hüdudlarını aşaraq müxtəlif elmi-nəzəri mülahizələrlə, problem-

lərlə zəngin bir təfəkkür fəaliyyəti sahəsinə çevrilir ki, bundan sonra gələn «sovet türkologiyası» xüsusilə 20, 30-cu illərdə həmin ənənəni davam etdirir. Lakin XX əsrin əvvəllərindən fərlqi olaraq, sovet dövründə türkoloji problemlər daha çox koordinasiya olunmağa, türkoloqlar daha çox qarşılıqlı əlaqədə çalışmağa başlayırlar. 20, 30-cu illərin «sovet türkologiyası» elmi-nəzəri təfəkkürü, maraq dairəsi XX əsrin əvvəllərində formalaşmış V.V.Bartold, V.A.Qordlevski, A.N.Samoyloviç, A.Y.Krımski, N.İ.Aşmarin, S.Y.Malov və b. ilə təmsil olunur. Ümumtürkoloji mövqedən çıxış edən həmin türkoloqlar öz əsərlərində eyni zamanda dil, ədəbiyyat və tarix məsələlərini əhatə etmələri ilə fərqlənirlər. Lakin elə bu dövrdən başlayaraq türkologiya, əsasən, türk dillərinin problemlərinə daha çox üstünlük verir. Və bu sahədə də müəyyən diferensiasiyanın getdiyi müşahidə olunur:

1) müasir dil məsələləri;
2) dil tarixi məsələləri;
3) dialektologiya məsələləri.

«Sovet türkologiyası»ında müasir dil məsələləri daha geniş yer tutur: buraya müxtəlif türk dillərinin qrammatikaları, müqayisəli qrammatika, üslubiyyət məsələləri, müxtəlif xarakterli lüğətlər daxildir.

Xüsusilə qeyd etmək lazımdır ki, sovet dövründə müxtəlif türk dillərinin akademik qrammatikaları yazılaraq nəşr edilmişdir. Həmin qrammatikaların elmi-metodoloji əsasında, artıq qeyd olunduğu kimi, M.Kazım bəyin «Ümumi qrammatikası» dayansa da, burada müqayisəli-tarixi metodun imkanlarından daha geniş istifadə edildiyini görməmək mümkün deyil. Eyni zamanda qeyd etmək lazımdır ki, sovet dövründə (xüsusilə 30-50-ci illərdə) yazılmış türk qrammatikalarında olduqca zəngin

dil faktlarından istifadə olunmuş, bu vaxta qədər görünməmiş həcmdə illüstrativ material nümayiş etdirilmişdir. Bununla belə «sovet türkologiyası» 50-ci illərdən etibarən tarixi-müqayisəli metodun imkanlarını məhdudlaşdırdığından türk qrammatikalarında özünütəkrar tendensiyası güclənmiş, əslində, «müxtəlif» dillərin eyni qrammatikaları yaranmağa başlamışdır… Və nəticə etibarilə, sovet ideologiyası, milli siyasəti türk dillərini (və xalqlarını) nə qədər kiçik hissələrə ayırsa da, həmin qrammatikaların məntiqi onları «birləşdirmişdir».

Sovet dövründə türk dillərinin müqayisəli qrammatikası sahəsində də müəyyən işlər görülmüşdür-xüsusilə 50-ci illərdə SSRİ EA Dilçilik İnstitutu türk bölməsinin hazırladığı «Tədqiqlər» bu baxımdan diqqəti cəlb edir. Bunun ardınca A.N.Kononov, A.M.Şerbak, B.A.Serebrennikov, Ə.Tenişev, K.M.Musayev, N.Z.Hacıyeva, N.A.Baskakov… həmin sahədə bu gün belə əhəmiyyətini itirməmiş, hətta bir sıra hallarda birinci dərəcəli mənbə sayılacaq əsərlər yazmışlar. Məhz bu əsərlərin təsiri ilə müxtəlif türk respublikalarında (məsələn, Azərbaycanda prof. Fərhad Zeynalov) da türk dillərinin müqayisəli təhlili aparılmağa başlamışdır… Lakin sovet ideologiyası «ümumi türkologiya»dan həmişə qaçmış, diqqəti ümumən türk dillərinin deyil, müxtəlif türk dillərinin (ayrılıqda!) tədqiqinə vermiş, tədricən hər bir türk dilçiliyinə rus dilinin tədqiqat metodlarının, hətta yad anlayışlarının (terminologiyasının) yeridilməsinə cəhd edilmişdir. Həmin cəhdlər özünü üslubiyyat, lüğətçilik və s. sahələrdə də göstərmişdir.

«Sovet türkologiyası»nda dil tarixi məsələsinə həm geniş (ümumən türk dilləri tarixi), həm də dar (bu və ya digər türk dilinin tarixi) miqyasda baxılsa da, getgedə sonuncuya üstünlük verilir. Ümumi tarix olaraq

türk yazılı abidələri araşdırılır (xüsusilə S.Y.Malov) ki, həmin araşdırmalarda formal tekstoloji təhlildən, demək olar ki, kənara çıxılmır. «Sovet türkologiyası»nın həm türkçülük ideologiyasına, həm də türkologiyaya ən böyük zərbəsi isə ondan ibarət olur ki, hər bir türk dili, yaxud dialekti üçün ayrıca bir «mənşə», hər bir türk xalqı üçün ayrıca bir «genezis» üzərində düşünməyin «metodologiya»sını işləyib hazırlamağa (məsələn, N.A.Baskakov) cəhd edilir.

Və bunun da təsiri özünü, ilk növbədə, türk xalqlarının etnogenezisi məsələsinin süni şəkildə mürəkkəbləşdirilməsində, sonu görünməyən mübahisələr, müzakirələr obyektinə çevrilməsində göstərir.

Türk dialektologiyası sahəsində görülən işlərin miqyası sovet dövründə kifayət qədər böyük (məsələn, akad. M.Şirəliyevin xidmətləri) olsa da, həmin işlərin elmi-nəzəri ümumiləşdirilməsi, ümumtürkoloji baxımdan sistemli şərhi mümkün olmamışdır. Lakin türk dialektləri o zamana qədər görünməmiş bir sürətlə toplanmış, ilk dialektoloji lüğətlər, bir qədər sonra isə xəritə-atlaslar hazırlanmışdır…

«Sovet türkologiyası» böyük bir ölkədə, müxtəlif elm, mədəniyyət mərkəzlərində, müxtəlif dillərdə (əsasən rus dilində) təzahür etmişdir, lakin, müəyyən «dissidentlik cəhdləri»ni (məsələn, L.N.Qumilyov, Oljas Süleymenov…) çıxmaq şərti ilə, həmin «türkologiya»nın vahid ideoloji sistemi olmuşdur ki, bu sistem 30-cu illərdə formalaşmış, 70-80-ci illərdə tədricən dağılaraq tarixə çevrilmişdir.

«Sovet türkologiyası» birinci mərhələdə daha çox ümumtürkoloji prinsiplərdən çıxış etdiyi halda, ikinci mərhələdə (30-cu illərdən sonra) diqqəti ayrı-ayrı türk dilləri üzərində cəmləşdirmiş, hər bir türk dilinin ayrıca

qrammatikası, ayrıca tarixi, ayrıca dialektologiyası və s. yazılmışdır… Ümumtürkoloji prinsiplərə əsaslanmaq isə 60-cı illərin sonu 70-ci illərin əvvəllərinə qədər get-gedə daha çətin olmuşdur.

XX əsrin sonlarına doğru dünyanın əsas türkoloji mərkəzi olmaq vəzifəsini öz öhdəsinə, tamamilə təbii olaraq, Türkiyə götürmüşdür – burada ardıcıl bir şəkildə türkoloji qurultaylar, konqreslər, müşavirələr keçirilir, həmin məclislərin təsiri özünü bütün türk dünyasında hiss etdirir… Türkiyə türk dünyasının (və türkologiyanın) mərkəzi, yaxud koordinatoru olmaq vəzifəsinə tədricən, qanunauyğun bir şəkildə yiyələnmişdir. Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən türk dünyasını bütövlükdə əhatə etmiş türkçülük düşüncəsi türk dövlətləri içərisində yalnız Türkiyə Cümhuriyyətində siyasi-ideoloji təkamül imkanına malik oldu. 20-30-cu illərdə sovet rejiminin təzyiqindən qaçan, müxtəlif türk xalqlarına məxsus ziyalılar da məhz Türkiyədə məskunlaşaraq ölkənin mənəvi həyatında fəal iştirak etdilər. 30-cu illərdən etibarən bilavasitə böyük M.K.Atatürkün göstərişi ilə genişmiqyaslı türkoloji araşdırmalara başlanıldı ki, həmin araşdırmaların nəticəsində Türkiyə artıq 50-ci illərdə dünya türkologiyasının əsas mərkəzlərindən biri idi. Və M.F.Körpülü, Z.V.Toğan, B.Ögəl, F.Sümer, Ə.Cəfəroğlu, M.Ergin… mükəmməl türkoloji məktəb yaratmış oldular. 70-80-ci illərdə isə Türkiyədə keçirilən türkoloji qurultaylara, konfranslara hətta sovet türkoloqları da dəvət olunurdular… Beləliklə, olduqca müxtəlif metodlarla işləyən, müxtəlif ideoloji dünyagörüşlərinə malik türkoloqların mövqeləri Türkiyədə təmsil olunmaq imkanı əldə edir. Sovet ideologiyasının çökdüyü illərdə isə Türkiyə ümumən dünyada

gedən türkoloji araşdırmaların əsas koordinatoruna çevrilir.

Atatürkün müəllifi olduğu «Günəş dil nəzəriyyəsi» onun dövlət (və millət) quruculuğu təcrübəsində dil (türk dili) məsələsinə nə qədər böyük önəm verdiyinin sübutudur. Və bu nəzəriyyə türk dillərinin vahid kökdən (mənbədən) yayılaraq geniş bir coğrafiyanı əhatə etdiyini göstərir.

XXI əsrin əvvəllərində Ankarada nəşr olunmuş çoxcildlik «Türklər» kitabı, heç şübhəsiz, türkologiyanın şah əsəridir.

Müşahidələr göstərir ki, 70-80-ci illərdən sonra «ümumi türkologiya»ya maraq artmışdır, «xüsusi türkologiya»nın problemləri də çox zaman məhz ümumtürkoloji kontekstdə araşdırılmaqda, XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmış türkçülük dünyagörüşü türk xalqları arasında geniş yayılmaqdadır.

Müasir türkologiyada mövcud olan problemlərin ümumi mənzərəsi üzərindəki müşahidələr göstərir ki, həmin problemlər, hər şeydən əvvəl, türkologiya elminin inkişafı, maraq dairəsinin genişlənməsi; ikinci növbədə isə, türk dünyasında (və ümumən dünyada) gedən sosial-siyasi, etnokulturoloji və s. proseslərin tələbi ilə meydana çıxır.

Və bugün türkologiya daha çox konkret sosial-ideoloji, mənəvi-mədəni… problemlərlə məşğul olur ki, türk dünyasının müstəqillik qazandığı bir dövrdə bu, tamamilə təbiidir.

Heç şübhəsiz, türkologiya tarixinin bütün miqyası, mövcud xronoloji varislik əlaqələri ilə öyrənilməsi türkologiya elminin daha sürətlə, daha doğru metodoloji əsaslar üzərində inkişafına əhəmiyyətli təkan verir.

# II BÖLMƏ

# QƏDİM TÜRKLƏR

## 1.«Qədim türklər» anlayışı

Türkologiyada ən fundamental anlayışlardan biri, bəlkə də, birincisi «qədim türklər» anlayışıdır. Hər şeydən əvvəl ona görə ki, türk tarixinin (və varlığının) çox mühüm məsələləri məhz bu anlayışda bütün tərəfləri, təfsilatı və problemlərilə ehtiva olunur. Buraya, ilk növbədə, aşağıdakılar aiddir:

a)qədim türklərin (mahiyyət etibarilə, ümumiyyətlə türklüyün) mənşəyi, təşəkkülü və ya tarix səhnəsinə çıxması məsələsi;

b)türklüyün etnik, sosial, siyasi, mədəni və s. Hadisə olaraq özünəməxsusluğu, xüsusiyyətləri, definisiyası məsələsi;

c)qədim türklərin (türklüyün) müasir türk xalqlarında – bilavasitə törəmələrində genetik olaraq müxtəlif spektrlərdə təzahürü məsələsi.

Heç bir şübhə yoxdur ki, Lev Qumilyovun «Qədim türklər»i türk tarixinin, haqqında bəhs olunan dövrü barədə indiyə qədər yazılmış ən möhtəşəm kitabdır. Bu kitabın sovet dövlətində (və dövründə!) qələmə alındığını yada salsaq, etiraf etməliyik ki, müəllifin yüksək intellektual səviyyəsi, bir neçə on il davam edən gərgin elmi axtarışları ilə yanaşı, siyasi-ideoloji cəsarətini, qəhrəmanlığını da qiymətləndirmək üçün hər cür əsas vardır.

Böyük tarixçi-mütəfəkkir yazır:

«Sibir və Mərkəzi Asiyanın qədim xalqlarını yalnız Çinin, yaxud İranın qonşuları kimi nəzərdən keçir-

mək təcrübəsinə son qoymaq lazımdır. Nəhayət, onların tarixlərinin və mədəniyyətlərinin müstəqil inkişafı haqqındakı mübahisəsiz həqiqətdən təcrübi nəticələr çıxarılmalıdır. Bu qədim xalqların necə yaşadıqlarını, hiss etdiklərini, qələbə çaldıqlarını və məhv olduqlarını yalnız bu yolla başa düşmək olar. İndinin, hətta gələcəyin qaynaqları keçmişin dərinliklərində gizlənir. Axı həm də qədim türklər bir çox Sovet İttifaqı xalqlarının əcdadlarıdır.

Nəhayət, bəşəriyyət tarixinin ümumi qanunauyğunluqları variantları nəzərə alınmadan öyrənilə bilməz».

Həmin fikrinin davamı olaraq «Qədim türklər»in müəllifi onu da əlavə edir ki:

«Tarixi prosesin dövrləşdirilməsi yalnız böyük yaxınlaşma zəminində mümkündür. Çünki əks təqdirdə, epoxalar arasındakı fərqlər nəzərə çarpmır və tarix hadisələrin kaleydoskopu təsirini bağışlayır. Asiya durğunluğu haqqındakı avropasentrist konsepsiya məhz lazımi dəqiqliyin çatışmaması (yaxud çox şeyin nəzərdən qaçırılması) zəminində mümkün olmuşdur. Təbii ki, «Ümumdünya tarixi»nin bu mövzuya həsr edilmiş qısa və müəmmalı fəsilləri də mövcud konsepsiyanı rədd edə bilmir.

Oxucuların diqqətinə təqdim olunan bu əsər faktların toplanması ilə fəlsəfi dərki arasındakı zəruri orta mərhələdir. Bu, sözün həqiqi mənasında tarixdir, yəni hadisələrin əlaqəli şəkildə və ardıcıllıqla öyrənilməsidir».

Fəlsəfi idrak (və ümumiləşdirmə) miqyası olmadan Tarix yoxdur. Və ona görə də, Lev Qumilyov haqlıdır ki,

a) tarixə heç kim heç kimin «qonşu»su kimi daxil edilə bilməz;

b) tarixdə mövcud olmuş hər hansı etnosun bugünkü varisi var;

c) tarix «hadisələrin kaleydoskopu» yox, dialektik (və ya funksional) sistemidir.

«Qədim türklər»in müəlifinin bütün kitab boyu riayət etməyə çalışdığı çox mühüm bir metodoloji prinsip isə ondan ibarətdir ki:

«Ümumiyyətlə, xalqın tarixini istisnasız şəkildə onun əleyhdarının mövqeyindən öyrənmək olmaz.

Hadisələrin real gedişi əsasında qədim türklərin tarixini yazmaq üçün Çin salnamələrindəki bütün faktların tənqidi tarixi dərki tələb olunur. Bu iş bütün başqa çətinliklərlə birlikdə Çin salnaməçiləri arasında qəbul edilmiş ifadə tərzi ilə daha da mürəkkəbləşir. Salnamədə «müvəffəqiyyətə nail ola bilməyib» deyilirsə, deməli söhbət Çin ordusunun tamamilə darmadağın edilməsindən gedir»…

Bütün elmi-metodoloji miqyasına, tarixi mənbələrə dərindən bələdliyinə, türklərə məhəbbətinə baxmayaraq, böyük tədqiqatçının şah əsəri «Qədim türklər»də, eləcə də digər dəyərli əsərlərində ya ümumtürkoloji ənənələrdən, ya dövrün siyasi-ideoloji tələblərindən, ya da müəllifin maraq dairəsindən irəli gələn bir sıra polemik məqamlar vardır.

Həmin məqamlardan ən azı ikisini «Qədim türklər»in Azərbaycan dilinə tərcüməçisi Vəli Həbiboğlu göstərmişdir:

«…Kitabda qədim türklərin V-IX əsrlərdə inkişaf tarixi öz əksini tapmışdır. Bu dövr türk tarixinin ən maraqlı və zəngin dövrlərindən biri olsa da, bütövlükdə türk xalqlarının ən qədim dövrü haqqında heç də təsəv-

vür yaratmır. Türklərin hələ eradan əvvəl dövlət qurumlarının mövcudluğu, Sibir və Altay çöllərində, Çin ətrafında, habelə müxtəlif vaxtlarda zəfərli yürüşlər zamanı Asiyanın və Avropanın bir çox regionlarına geniş yayılması, məskunlaşması, zəngin mədəniyyət və məişətə malik olmaları bu kitabda tədqiqatdan kənarda qalmışdır.

Bundan əlavə, əsərdə yalnız Şərqdə, Sibir və Altay, habelə müasir Asiyanın ərazilərində yaşayan qədim türklər barədə danışılır. Qərb regionunda, o cümlədən Qafqaz, İran, müasir Azərbaycan ərazisində qədim dövrlərdən bəri məskunlaşmış, daha doğrusu, aborigen əhali olmuş türklərin tarixi, həyat tərzi, mədəniyyəti və dünyagörüşü məsələlərinə toxunulmur».

Bu isə o deməkdir ki:

a) «Qədim türklər» müəllifinin əsərinin adı onun mövzusunu (haqqında bəhs etdiyi dövrü) tam əks etdirmir;

b) görkəmli tarixçi nəinki qədim, hətta ilk orta əsrlər türk tarixinin bütün coğrafiyasını ehtiva etməmişdir.

Lev Qumilyovun ən çox mübahisə doğuran mülahizəsi isə qədim türklər haqqında çox tez-tez işlətdiyi «məhv olmuşlar» ifadəsində təzahür edir. Və «Qədim türklər» kitabı, maraqlıdır ki, həmin mülahizə ilə başlayır:

«...Avrasiya çöllərinin böyük bir ərazisi hələ də öz tədqiqatçısını gözləməkdədir. Bu, xüsusən Çingiz xanın tarix səhnəsinə gəlməsindən əvvəlki dövrə aiddir. Həmin dövrdə Mərkəzi Asiya çölündə iki diqqətəlayiq xalq – hunlar və qədim türklər, habelə adlarını şöhrətləndirməyə imkan tapmayan bir sıra digər xalqlar yaranmışlar və məhv olmuşlar».

Türkçülüyün əleyhdarları olan tarixçilər bir vaxtlar tribunalardan Azərbaycan türkçülərinə (və türkoloqlarına) hücum edərək hiddətlənirdilər: «Nə türk, türk deyirsiz? Sizin dediyiniz türklər məhv olmuşlar… Bizə inanmırsınızsa, gedin sevimli Qumilyovunuzu bir də oxuyun».

Lev Qumilyov isə yazırdı:

«Dünya tarixi fonunda qədim türk xalqının və onun yaratdığı dövlətin tarixi belə bir sual doğurur: türklər necə meydana gəlmişdilər və adlarını əslində onların varisləri olmayan bir sıra xalqlara verərək necə yoxa çıxdılar? Bu problemi yalnız siyasi tarixin təhlili, yaxud ictimai münasibətlərin araşdırılması yolu ilə həll etməyə dəfəlrələ təşəbbüs göstərilib, lakin həmin təşəbbüslər heç bir bəhrə verməyib. Bəşər tarixindəki cahanşümul əhəmiyyətlərinə baxmayaraq, qədim türklər azsaylı xalq idilər, Çin və İranla yaxın qonşuluq onların daxili işlərində öz əksini tapmaya bilməzdi. Başqa sözlə desək, bu ölkələrin ictimai və siyasi tarixi bir-biri ilə sıx çulğalanmışdı və hadisələrin gedişini bərpa etmək üçün biz həm bu, həm də digər tərəfi diqqətdən qaçırmamalıyıq. İqtisadi konyukturun dəyişməsi, xüsusən də Çin mallarının daşınmasının yüksək, yaxud aşağı səviyyədə olması, habelə İran hökumətinin maneçilik xarakterli tədbirləri də burada az rol oynamamışdı».

Lev Qumilyov burada özü özünü təkzib edir. Hər şeydən əvvəl o mənada ki, türklərin tarixini onun «qonşular»ının tarixi müəyyən etmir, hətta «yaxın qonşuluq» olsa belə…

Və böyük tarixçi-filosofun eyni etnik kökə malik hunlarla türkləri (əslində, göytürkləri) bir-birindən «zorla» ayırması, onları «bəşər tarixindəki cahanşümul əhəmiyyətlərinə baxmayaraq» «azsaylı xalq» elan etməsi

heç bir metodoloji prinsipə uyğun gəlməyən rus-sovet siyasi-ideoloji konyukturundan sonacan yaxa qurtara bilməməsinin nəticəsidir.

Beləliklə, türklərin tarixinin daha mükəmməl şəkildə öyrənilməsində üç fundamental elmi-metodoloji problem hələ də həll olunmamış qalır:

1) «qədim»liyin hüdudlarının müəyyənləşdirilməsi;

2) «qədim»liyin coğrafiyasının tarixi miqyası ilə təsəvvür edilməsi;

3) «qədim dövr»lə «orta dövr» (və nəticə etibarilə «yeni dövr») arasındakı genetik varisliyin parametrlərinin dəqiqləşdirilməsi.

Və türk tarixinin fəlsəfəsinin mükəmməlliyi bu fundamental problemlərin hansı səviyyədə həll olunmasından asılıdır.

## 2.Türklərin mənşəyi

Türklərin mənşəyi (etnogenezisi), heç şübhəsiz, türkologiyanın ən mühüm problemlərindən biri, hətta demək olar ki, birincisidir. Və məlum olduğu kimi, problemi ilk dəfə bütün miqyası ilə ortaya qoyan F.İ.Tabbert-Stralenberq 1) fin-uqorları (o, bunları, nədənsə, «uyqur» adlandırmışdı), 2) türk-tatarları, 3) samoyedləri, 4) monqol və mancurları, 5) tunqusları və 6) Qara dəniz ilə Xəzər dənizi arasındakı xalqları eyni mənşəli hesab edib «tatar xalqları» adlandırmışdı. İlk altayşünasdan sonra bu məsələyə maraq artsa da, əhəmiyyətli müdaxilələr yüz il sonra olmuş, Rasmus Rask yuxarıda adı çəkilən xalqlar sırasını genişləndirərək «iskitlər» saymışdır. Maks Müller isə buraya siyamları, tibetləri, dravidləri, malayları da əlavə edib onlara «Turan xalqları» adını vermişdir.

XIX əsrin ortalarında dilçi M.A.Kastren «Altay dilləri» anlayışına müraciət edərək 1) fin-uqor, 2) samoyed, 3) türk-monqol və tunqus-mancur, 4) Ural dillərində danışan xalqların, prinsip etibarilə, eyni mənşəli olduqlarını göstərmişdir.

Ümumiyyətlə, get-gedə daha çox xalqın daxil edildiyi Altay və ya Ural-Altay xalqlarının yaxın və ya uzaq qohumluğu barədə nəzəriyyəni təkmilləşdirənlər tarixi-müqayisəli metoda əsaslanan dilçilər olmuşlar ki, onların içərisində G.İ.Ramstedt ilə tələbəsi N.N.Poppe daha çox məşhurdurlar.

Altayşünaslığın gəldiyi son nəticə isə bundan ibarətdir ki, türk, monqol, tunqus-mancur, fin-uqor, Ural, samoyed, koreya, yapon və s. dillər (nəticə etibarilə, xalqlar) eyni kökdən törəmişlər. Bir sıra digər dillər (və xalqlar) üçün də «açıq» olan bu nəzəriyyənin əleyhdarları Altay dilləri arasındakı heç də az olmayan fonetik, leksik və qrammatik ortaqlıqları dil kontaktlarının nəticəsi hesab edirlər. Ancaq müşahidələr, təhlillər altayşünaslığın mövqeyinin kifayət qədər güclü olduğunu göstərir.

Uzaq qohumluqları bir tərəfə qoysaq, türklərin, monqolların və tunqus-mancurların eyni mənşəliliyindən daha inamla danışmaq olar. Və son qənaət bundan ibarətdir ki, Altay birliyindən əvvəlcə tunqus-mancurlar ayrılır, türklərlə monqolların müştərkliyi isə bir müddət davam edir.

Mübahisəli (və mürəkkəb) məsələlərdən biri də türklərin müstəqil bir etnos olaraq tarix səhnəsinə nə zaman çıxdıqlarıdır. Bu məsələdə son dərəcə məhdud (və şübhəli) faktlardan daha çox, məntiqə əsaslanılır. Və güman edilir ki, türklər eramızdan əvvəl təxminən III min-

illikdə formalaşmışlar. Etnogenetik məkan olaraq Altay dağlarının ətəkləri göstərilir.

Haqqında söhbət gedən region (və həmhüdud coğrafiyalar) XX əsrin ortalarından etibarən intensiv arxeoloji qazıntılar aparılmış (və ən qədim insan məskəni olduğu sübut edilmiş) yerlərdir. Xüsusilə Altaydan Baykala, Qazaxstandan Qobiyə qədər yayılmış «Heyvan üslubu», «Maral daşları» mədəniyyəti, Dağlıq Altayda ilk dəfə metaldan geniş istifadə olunduğu «Afanesyevo mədəniyyəti», Cənubi Sibirdə «Okunev mədəniyyəti», «Andronovo mədəniyyəti», «Kazacuq mədəniyyəti», «Tatar mədəniyyəti» bunu təsdiq edir. Ən qədim dövrlərdən başlayaraq ardıcıl tarixi varisliyi olan bu zəngin arxeoloji mədəniyyətlərin (və onların hüdudsuz coğrafiyasının) türklərə (və onların əcdadlarına) mənsubluğu ciddi şübhə doğurmur.

Böyük türkçü (və türkoloq) Nihal Atsız «Türk tarixinə baxışımız necə olmalıdır?» məqaləsinin «Türk tarixinin başlanğıcı məsələsi» bölümündə yazır:

«Bugünkü tarix kitablarında türk tarixi, ümumiyyətlə, Hunlardan, yəni Orta Asiya hunlarından başladılmaqdadır. Ancaq bu başlanğıcı tanımayan tarixçilər də vardır. Bəziləri türk tarixinin VI yüzildə göytürklərdən başlaması zəruriliyini söylədikləri halda, bəziləri də hunlardan daha əvvəlki zamanlarda saxlar dövründə başlaması fikrini müdafiə etməkdədir. Hətta son zamanlar dəyərli bir tarix alimi Prof. Zəki Vəlidi Toğan Türküstanda saxlardan öncə yaşayan və miladdan əvvəl 1200-800-cü illər arasında varlıqları təsbit olunan şu və ya çu adındakı tayfanın ilk türklər olduğunu iddia etməkdədir. Şu və ya çulardan daha öncəki şumerlərin də türk olduğu və ya aralarında türklərin də mövcudluğu barədə bir

sıra ciddi elm adamlarının fikir, nəzəriyyə və iddiaları vardır».

Məsələnin ictimai-fəlsəfi məzmununa toxunan mütəfəkkir onu da əlavə edir ki, «bütün bu ziddiyyətli fikirlərin bir nəticəyə varması ancaq elmi bir tarix qurultayının ciddi və uzun müzakirələrinin yekun qərarı ilə mümkün ola bilər. Bəlkə, bəzi məsələlərin çözülməsi üçün bu günkü tarix bilgisi yetmir. Amma necə də olsa işlər bir prinsipə bağlanmalı və hər önə çıxanın türk tarixinə ayrı bir başlanğıc cızması kimi qorxunc bir hadisənin qarşısı alınmalıdır. Bu olmasa, türk dünyasında bir-birinə zidd nəzəriyyələr və fikirlər doğulacaq… Millət bir çox ünsürlərlə birlikdə, ortaq tarixin də məhsulu və nəticəsi olduğuna görə, ortaq tarix təsəvvürü olmayan insanların bir millət halında toplu yaşamaları mənəvi bir narahatlıq doğuracaq və uzaq gələcək üçün fitnə toxumları atılmış olacaqdır».

Milli təəssübkeşin yetmiş beş il bundan əvvəl söylənmiş bu təklifini hər bir mülahizənin yaşamaq haqqı olduğu bizim günlərdə, təəssüf ki. həyata keçirmək, ən mötəbər qərarla belə təsbit etmək mümkün deyil. Və yalnız o qalır ki, araşdırmaların miqyası daha da genişləndirilsin…

E.ə. III minillikdə Altay dili türk, monqol və tunqus-mancur dillərinə bölünür. Lakin, artıq qeyd olunduğu kimi, bu proses hər üç dilin eyni zamanda (paralel) ayrılması şəklində getmir. N.A.Baskakov göstərir ki, ilk mərhələdə Altay dili türk-monqol və tunqus-mancur dillərinə bölünmüş, sonrakı mərhələdə isə türk və monqol dilləri ayrılmışdır:




«Bütün türk dilləri, onlarla birlikdə bütün Altay dilləri, müəyyən qədər də Ural (uqro-fin) dilləri ümumi tipoloji xüsusiyyətlərə malikdir: a) fonetika sahəsində – saitlərin damaq və dodaq ahəngi ilə samitlərin assimilyasiya qanunauyğunluqları nəticəsində bu dillərdə müəyyənləşən sait və samit fonem tərkibi söz kökünə xüsusi struktur verir və s; b) morfologiya sahəsində – sözün kökünə və əsasına bitişən aqqlütinativ (iltisaqi) şəkilçilər vasitəsilə reallaşan sözyaradıcı və sözdəyişdirici formalar hər bir dil üçün ümumi qaydadır, eyni zamanda qrammatik cins kateqoriyası yoxdur, xüsusi qrammatik mənsubiyyət kateqoriyası vardır, ön şəkilçilər əvəzinə son şəkilçilər mövcuddur və s; c) sintaksis sahəsində – söz birləşmələrində və cümlələrdə sözün xüsusi sırası özünü göstərir, belə ki, bütün təyin edən sözlər təyin olunanın, bütün tamamlayan sözlər isə tamamlananın önündə gəlir; təyin edənlə təyin olunan kəmiyyətə görə uzlaşmır; tabeli mürəkkəb cümlə konstruksiyaları zəif inkişaf etdiyindən budaq cümlə çox hallarda xüsusi feli sifət və feli bağlama tərkiblərinə uyğun gəlir və s.»

N.A.Baskakov onu da əlavə edir ki, «Altay dillərinin daxilində türk və monqol, müəyyən qədər isə tunqus-mancur dilləri, ümumi tipoloji xüsusiyyətlərdən əlavə, fonetik strukturun, qrammatik tərkibin və əsas lüğət fondunun əhəmiyyətli dərəcədə maddi uyğunluğu ilə səciyyələnirlər ki, bu, fikrimizcə, yaxın genetik qohumluq əlaqəsindən irəli gəlir. Həmin dillərin, xüsusilə türk və monqol dillərinin, ən çox genetik uyğunluğu özünü leksikanın adlardan, başlıcası isə fellərdən ibarət böyük bir qatında göstərir ki, bunlar, haqqında söhbət gedən dillər üçün ümumidir. Çoxsaylı uyğunluqlar sözyaradıcılığı sistemində, müəyyən qədər isə sözdəyişdiriciliyində mövcuddur».

Əsrimizin əvvəllərində Ankarada nəşr olunmuş çoxcildlik «Türklər» kitab-ensiklopediyasını eyni zamanda türklərinin mənşəyinin müəyyənləşdirilməsi istiqamətində göstərilmiş böyük təşəbbüslərdən biri saymaq olar. Prof.Dr. Tuncər Bayqaranın buradakı «Türklüyün ən əski zamanları» məqaləsində deyilir:

«Türkün ən əski keçmişinə üç yolla daxil ola bilərik: A.Türk dili; B.Arxeologiya; C.Mifologiya».

Dil məsələsi ilə bağlı müəllifin mövqeyi bundan ibarətdir ki, «türk deyildikdə e.ə. VI minillikdən etibarən ortaq bir dildə danışan insanlar anlaşılmalıdır. Bu dildə əsas olaraq bir hecalı sözlər vardır: *at, et, it, ot, ok, in, is, ud* və s. Bu hecalar sonradan başqa sözlərin də kökləri olmuşdur.

…Türk dili ilə bağlı araşdırmalar bu dildə danışılmasının tarixini, dolayısı ilə isə türkün varlığını, çox qədimlərə aparmaqdadır. Dünyadakı türklük araşdırmalarının (türkologiyanın) bəzi dönəmlərdə fərqli düşüncələri və ya elmi qənaətləri olsa da, aşağıdakı tarixləndirmə, ümumiyyətlə, qəbul edilmişdir:

I. Türk dilinin qonşu yaxın dillərlə birlikdə olduğu Altay dövrü: e.ə. VI-III minilliklər.

II. Ən qədim türkcə dövrü:

Erkən zamanlar – e.ə. III minillikdən e.ə. V əsrə qədər;

Sonrakı zamanlar – e.ə. V əsrdən eramızın III əsrinə qədər.

III. Qədim türkcə dövrü: III-XII əsrlər.

VI. Orta türkcə dövrü: XII əsrdən sonra (ki, mövzumuza daxil deyil)».

Türk dilinin ən qədim dövrü barədə mövcud təsəvvürləri ümumiləşdirdikdən sonra Prof.Dr. Tuncər Bayqara həmin təsəvvürləri daha da genişləndirmək (və dəqiqləşdirmək) üçün arxeoloji araşdırmaların əsas nəticələrini nəzərdən keçirərək yazır: «…Araşdırıcılıar Altaylar üzərində daha çox durmaqdadırlar. Altaylar həm Türküstan sahəsi, həm də daha şərqdəki Ötükən yörəsi ilə əlaqəli olduğundan, heç şübhəsiz, ağıla ən uyğun gələn yerdir». Və həmin coğrafiyada türklərin ən qədim dövrlərinə işıq tutan külli miqdarda arxeoloji abidələr tapılmışdır. «Görülür ki, arxeoloji araşdırmalar birbaşa türk yorumu verməsə də, çoxyönlü xüsusiyyətləri ilə türklərin keçmiş yüz və min illərini ən yaxşı şəkildə təsvirə şərait yaratmaqdadır».

Müəllifin mifoloji mənbələr əsasında gəldiyi qənaət isə bundan ibarətdir ki, «türklərlə bağlı dastanlar türkü tarixin və bəşər övladının ən qədimlərilə bir tutur».

Heç şübhəsiz, türklərin mənşəyi məsələsinə ümumən bəşəriyyətin etnogenezisi (etnoslara bölünməsi) prosesinin üzvi tərkib hissəsi kimi baxmaq lazım gəlir ki, buraya məsələnin həm praktik, həm də nəzəri tərəfləri aiddir. Praktik tərəfə görə, bu və ya digər etnosun hansı ümumi (ortaq) etnosdan, nə zaman və hansı coğra-

fiyada ayrılaraq tarix səhnəsinə çıxdığı bütün mümkün təcrübi faktlarla (dil, arxeologiya, mifologiya və s.) təxmin olunur. Nəzəri tərəf isə ümumən mövcud etnogenezis təliminin müddəalarına əsaslanmağı, yəni dünyanın bütün etnoslarının mənşəyi və ya təşəkkül tapıb formalaşması üçün ümumi olan fundamental qənaətləri nəzərə almağı tələb edir ki. bunlar aşağıdakılardan ibarətdir:

1) bütün etnoslar, ümumən insan cəmiyyəti eyni mənşəyə malikdir;

2) etnosların (xalqların) yaranması, əsas etibarilə, təbii-tarixi diferensiasiyanın (bölünmənin) nəticəsidir ki, ən çox üç amillə gerçəkləşir: coğrafiya, dil və siyasi ittifaq;

3) ilk etnoslar (dünyanın ən qədim xalqları) e.ə. V minilliklə e.ə. III minillik arasında formalaşmışlar.

Bütün bunları nəzərə alsaq, belə bir nəticəyə gəlmək mümkündür ki, türklər bir neçə min illik diferensiasiya prosesindən sonra e.ə. III minillikdə Altay (türk, monqol və tunqus-mancur) etnik birliyindən ayrılaraq müstəqil etnos (xalq) olaraq təşəkkül tapmışlar. Altaylar kimi türklərin də ata yurdu (pravətəni) Altay dağlarının ətəkləri olmuşdur ki, buradan Qərbə yayılaraq tədricən ata yurdun hüdudlarını Xəzər dənizinə qədər genişləndirmişlər (bu coğrafiya «Türküstan» adlanır).

Türklər tarix səhnəsinə müxtəlif etnik, coğrafi və siyasi adlarla çıxsalar da, iki ad daha populyar olmuşdur ki, onlardan biri «türk», digəri «Turan»dır. Eyni mənşədən gəldikləri güman edilən bu adların birincisi etnonim, ikincisi isə toponimdir.

## 3. Qədim türklərin siyasi-ictimai «tərcümeyi-hal»ı

Türk etnosunun özünəməxsus etnoqrafik keyfiyyətlərlə meydana çıxışı (təşəkkülü), müəyyən təxminlərə görə, e.ə. III minillikdən başlasa da, bunu birbaşa təsdiq edən faktik göstəricilər e.ə. I minilliyin əvvəllərinə aiddir. Altay dağlarından Avropa hüdudlarına qədər uzanan Sak (Turan) imperiyasının həm qurucusu, həm də idarə edəni türklər olmuşlar. «Atlı mədəniyyət»ə əsaslanan bu imperiyanın əsrlər boyu davam etmiş aktiv, enerjili bir tarixi olduğu məlumdur. Və o da məlumdur ki, imperiyanın idarəçiliyi altında, türklərdən başqa, çoxlu sayda müxtəlif mənşəli digər xalqlar da vardı.

Sak (Turan) dövlətinin əfsanəvi hökmdarı Alp Ər Tonqa tarixdə xüsusilə məşhur olmuşdur. Və iranlıların Əfrasiyab adlandırdıqları böyük türk sərkərdəsi, hökmdarı qədim türk dastanlarının da ən çox xatırlanan (və sevilən) qəhrəmanıdır.

Turların türk, Turanın isə Türküstan olduğu Zərdüştün «Avesta»sından başlamış Firdovsinin «Şahnamə»sinə qədər etiraf olunur. «Avesta» «sürətlə qaçan atları olan turlar»dan danışır, Firdovsi isə uzun sürən İran-Turan müharibələrinin geniş təsvirini verir. Doğrudur, «Şahnamə»də İran mənşəli dahi şairin iranəprəstliyi həddini aşsa da, fakt faktlığında qalır ki, Firdovsi qədim epik təfəkkür (və yaddaş) ənənələrini davam etdirərək İranın İran, Turanın isə Turan olduğunu təsdiq etmiş olur.

Sak (Turan) imperiyasnıdan sonra – e.ə. III əsrdə türklərin qurduqları ikinci möhtəşəm dövlət – Hun imperiyasıdır. Tümən yabqu e.ə. 220-ci ildə gərgin mübarizədən sonra əksəriyyəti türklərdən ibarət bir sıra xalq-

ları öz hakimiyyəti ətrafında toplayaraq Hun siyasi birliyini yaradır. Və bu birlik dünya tarixinə Böyük Türk Xaqanlığının başlanğıcı olaraq düşür.

E.ə. 209-cu ildə Tümən yabqunun oğlu Mete Hun hökmdarı olur. Bu böyük şəxsiyyəti türk mifologiyası (və eposu) Oğuz xan adı ilə yüz illər boyu tərənnüm etmişdir. Onun bir adı da «Göyün oğlu» idi.

Mete zamanında sərhədləri Sakit okeandan Xəzər dənizinə qədər uzanan imperiya möhtəşəm hərbi qüdrətə, mükəmməl idarəçilik texnologiyalarına malik idi. Böyük İpək Yolunu nəzarət altında saxlayır, Şərqlə Qərb arasında ticarətin inkişafını təmin edirdi.

Lakin e.ə. I əsrin ortalarında Hun imperiyası zəifləyib parçalanır, hətta cənub əraziləri Çinin nəzarəti altına keçir. Və tədricən hunların Qərbə doğru böyük axınları başlayır. Bununla belə Hun imperiyasının pərakəndə davamı olan Hun dövlətləri bir neçə əsr də öz mövcudluqlarını davam etdirirlər.

Eramızın ilk əsrlərindən etibarən hunların qərb və cənub-qərb imtiqamətində axınları türklərin cənub-qərbdə Hindistana, qərbdə isə Mərkəzi Avropaya qədər yayılmasına gətirib çıxarır. Hun sərkərdəsi, hökmdarı, kökü Mete (Oğuz) xaqana gedib çıxan Atilla bütün Avropanı lərzəyə salır. Və təsadüfi deyil ki, Avropa tarixində Atillanın roluna ziddiyyətli münasibət olsa da, həm qurucu, həm də dağıdıcı missiyasından danışılsa da, heç kəs inkar etmir ki, o, Avropa tarixinə yeni istiqamət vermişdir.

Turan və Hun imperiyalarından sonra türklərin yaratdıqları üçüncü böyük dövlət Göytürkdür. Dövlətin adında tarixdə ilk dəfə olaraq etnosun adı birbaşa işlədilməklə yanaşı, türklərin tanrıçı (Göy) dünyagörüşü də əks olunur.

Yabqu Uluğun oğulları olan iki qardaş Bumınla İsteminin 552-ci ildə qurduqları Göytürk dövlətinin mərkəzi Orxon çayı yaxınlığındakı Ötükən şəhəri idi. Hunlardan qalma ənənə ilə ölkənin şərqini böyük qardaş Bumın xaqan (o həm də Böyük xaqan sayılırdı), qərbini isə kiçik qardaş İstemi xaqan idarə edirdilər. Və hunlar kimi, göytürklərin də əsas rəqibi güclü dövlət olan Çin idi.

Çin qonşuluqdakı türk dövlətlərinə həmişə daha çox diplomatik yollarla təcavüz edir, yabquları bir-birinə qarşı qaldırır, sarayda iğtişaş salır, «parçala və hökm sür» siyasəti yürüdürdü. Göytürk dövləti – imperiyası da zaman-zaman bu cür müdaxilələrə məruz qalmışdı.

Ümumiyyətlə isə, göytürklərin dövründə türk hakimiyyəti Sakit okeandan Qafqaza qədər olduqca geniş bir coğrafiyanı əhatə edirdi. Çin, İran və Bizansla həm ticarət əlaqələri, həm də siyasi münasibətlər vardı. Lakin vaxtaşırı olaraq toqquşmalar, qanlı müharibələr də baş verirdi.

Qədim türklərin yazı mədəniyyətinin ən parlaq zamanı göytürklərin dövrünə aiddir. Və bu dövrdə «bənqü taş»lar (əbədi daşlar) üzərində Tonikuk (724-726), Kül tigin (732), Bilgə xaqan (735) yazıları həkk olunmuşdur ki, bu mətnlərin əsas mövzusu göytürklərin dövlət quruculuğu tarixidir.

Qədim dövrlərdən başlayaraq türkləri xarakterizə edərkən göstərilən ən mühüm keyfiyyətlərdən biri onların zəngin dövlət quruculuğu (və idarəçiliyi) mədəniyyətinə malik olmalarıdır.

Göy türklərin Kül tiqin abidəsi (732) məlumat verir:

«Yuxarıda mavi göy, aşağıda qara yer yaradıldıqda onların arasında insan oğlu yaradıldı. İnsan oğlu üzərin-

də dədə-babalarım Bumın kağanla İstemi kağan hakim oldular. Hakim olub türk xalqının elini (dövlətini), törəsini (idarəçilik qayda-qanunlarını) dirçəldib möhkəmləndirdilər»…

Göründüyü kimi, hər şeydən əvvəl, qədim türklər inanırlar ki, kağan (xaqan) hakimiyyətə Tanrının iradəsi (məsləhəti) ilə gəlir. Və bunu, maraqlıdır ki, kağan özü də «etiraf» edir:

«Türk xalqının adı-sanı (şərəfi) yox olmasın deyə atam kağanı, anam xatını yüksəldən Tanrı, el (dövlət) verən Tanrı türk xalqının adı-sanı (şərəfi) yox olmasın deyə məni taxta oturtdu».

Və beləliklə, Tanrı türk kağanını «seçir»… Türk kağanı hakimiyyətə ona görə gətirilir ki, xalqın normal yaşayışını, şərəfini təmin etsin… Bunun üçünsə türk törəsinə, dədə-babalardan qalmış möhkəm (və müqəddəs!) qayda-qanunlara əməl eləmək lazımdır.

Bu tələb həm kağana, həm də xalqa aiddir.

«Türk» sözünün bir neçə etimoloji mənalarından (törəmək, artmaq, güclü, qüdrətli və s.) biri də «törəsi (qayda-qanunları) olan, yaxud ona riayət edən» deməkdir. Əslində, «türk» sözünə verilən populyar tarixi interpretasiyalardan hər üçü məna-məzmunca bir-birilə səsləşir: törəmək – törə ilə yaşamaq – güclü-qüdrətli (passionar) olmaq…

Türk törəsinin ən əsas təzahürü gənəşik (məsləhətləşmə) idi.

Mete (Oğzu) kağanın mənbələrdə mühafiə edilmiş məşhur dövlət gənəşiyi, yəqin ki, türk dövlətçiliyi tarixində ilk gənəşik hadisəsi deyildi.

Düşmən tayfalar hələ zəif olan Hunlara elçi göndərib kağanın atını istəyirlər. Mete ətrafını toplayıb məsləhətləşir. «Yox» deyirlər… Ancaq kağan vəziyyəti nə-

zərə alıb atın verilməsi qərarına gəlir… Düşmən bir aha elçi göndərib Metenin xanımını istəyir. Yenə də məsləhətləşmə keçirilir. Nüfuzlu adamların əxlaqsız iddiaya kəskin etirazına baxmayaraq kağan bu dəfə də güzəştə gedir… Azğınlaşmış düşmən üçüncü dəfə ölkənin yarasız bir torpaq sahəsini tələb etdikdə məsləhət üçün toplananlardan bəziləri kağana «ver getsin», -deyirlər – «əvvəlki iddialarla müqayisədə bu tələb heç nədir». Kağan qəzəblənib həmin adamların başını vurdurur. Və deyir ki, «əvvəl güzəştə getdiklərim şəxsən mənə mənsub idi, torpaq isə dövlətindir, onu heç kim öz xoşuna düşmənə verə bilməz».

Bu əfsanə-mənbə qədim türklərdə həm dövlət gənəşiyinin olmasını, həm onun formatını, həm də qərar çıxarma fəlsəfəsini (üsul, metod, son sözün kimə məxsus olması və s.) əks etdirir.

Eramızın ilk əsrlərindən Şərqdən Qərbə «axan» hunlar həm bir sıra müasir türk (qıpçaq) xalqlarının əsasını qoyur, həm də türk törəsini (ümumən dövlətçilik mədəniyyətini) Avropaya yayırlar. Xüsusilə Atilla dövründə (I minilliyin ortalarında) Hunların (türklərin) Qərbi Avropaya təsiri yeni dinin (xristianlığın) qarşısındakı maneələri aradan qaldıraraq «qocalmış Avropanı cavanlaşdırmaq cəhdi» kimi xarakterizə oluna bilər.

Qərbi Avropada Hunlar (və Atilla) ilə bağlı mənfi stereotiplərin yaranmasına baxmayaraq, obyektiv araşdırmalar göstərir ki, türk dövlət idarəçiliyi ənənələri Avropaya əhəmiyyətli mədəni təsir göstərmişdir.

I minilliyin ortalarında Böyük Türk Kağanlığı – Göytürk dövləti (imperiyası) simasında təzahür edir…

Əvvəlki türk dövlətləri kimi əsas coğrafiyasını Böyük Çölün təşkil etdiyi Göytürk imperiyası dövründə türklərin dövlət quruculuğu (və idarəçiliyi) texnologiya-

ları barəsində yalnız şifahi yox, həm də zəngin yazılı mənbələr – Kül tiqin, Bilgə kağan, Tonikuk abidələri mövcuddur. Və bundan sonra Tarix türklərin dövlətçilik mədəniyyəti, o cümlədən dövlət gənəşiyi barədə təkcə danışmır, həm də yazır.

Turan, Hun və Göytürk dövlət-imperiyalarından sonra türklər dünyaya harmoniya gətirən bir sıra böyük siyasi birliklər də yaradırlar: Qaraxanlılar, Səlcuqlar, Moğollar, Qızıl Ordalılar, Səfəvilər, Osmanlılar…

E.ə. II minilliyin sonu I minilliyin əvvəllərindən başlayan (ondan bir neçə min il əvvəl isə ümumaltay «təcrübə»si olan!), təxminən beş min illik ardıcıl, davamlı tarixə malik türk dövlətçilik ənənəsinin kifayət qədər universal qanunauyğunluqlarından, modellərindən (və nəticə etibarilə, genotipologiyasından) bəhs etmək olar.

Və bu mövzuda daha əsaslı söhbət açmaq üçün böyük tarixçilər Əbdülqadir İnan, Bəhaəddin Ögəl, Mirəli Seyidov… kifayət qədər geniş imkanlar yaratmışlar.

Türk cəmiyyətinin strukturu, məlum olduğu kimi, 1) ailə (oğuş), 2) ailələr birliyi (uruğ), 3) tayfa (boy), 4) tayfalar birliyi (budun), 5) xalq (el) iyerarxiyasına əsaslanır.

Tayfanı (boyu) – bəy; tayfalar birliyini (budunu) – yabqu, şad və ya iltəbər; xalqı (eli) isə kağan idarə edir.

Böyük Türk Kağanlığı (imperatorluğu), əslində, «boylar konfederasiyası»dır ki, burada həm geniş idarəçilik demokratizmi, həm də mərkəzçiliyi sarsıda billəcək qədər «boy (tayfa) sərbəstliyi» vardır. Türk dövlət gənəşiyi kağanlıq təkhakimiyyətliliyi ilə xalqın (öz passionar azlığı vasitəsilə) dövlət idarəçiliyində iştirakı ehtiyacı arasındakı dialoq və ya diskurs (ünsiyyət) zərurətindən yaranmışdır. Ümumi qənaət bundan ibarətdir ki:

«Böyük Hunlardan başlayaraq (əslində, ondan da əvvəl – N.C.) hər türk dövlətində dövlət işlərinin müzakirə olunduğu (məsləhətləşildiyi) bir məclis vardır. Əvvəllər «toy», moğollardan sonra «qurultay» adlanan bu məclislərin quruluşu və burada iştirak edənlər müxtəlif türk dövlətlərində bir-birindən fərqlənmiş, səlahiyyət və müzakirə (məsləhətləşmə) mövzuları da dəyişilmişdir. Boy (tayfa) bəyləri bir sıra xanədan mənsubları və yüksək rütbəli dövlət məmurları bu məclisdə iştirak etmişlər» (Büyük Türk Klasikleri, I c., Ötüken-Söğüt).

Türk dövlət gənəşiyinin xarakterini müəyyənləşdirən cəhətlərdən birincisi, heç şübhəsiz, hökmdar, yaxud dövlət başçısı kultudur… Hunların əfsanəvi hökmdarı Mete – Oğuz kağan Çin imperatoruna yazdığı məktubu bu cür başlamışdı: «Hunların Göy (Tanrı) tərəfindən taxta çıxarılmış kağanı»… Göy Türklərin hökmdarı da xalqa müraciətində özünü məhz bu cür təqdim eləmişdi…

Lakin türklərdə kağan, bir sıra qədim xalqlardan fərqli olaraq, heç də Tanrı mənşəli deyil. Və ona görə də Tanrı (Göy) tərəfindən müqəddəs hökmdarlıq, xüsusi səlahiyyət (kut!) verilmiş kağan missiyasını məsuliyyətlə yerinə yetirməsə, Tanrı onu öz himayəsindən məhrum edib sərt cəzalandıra bilər.

Bununla belə kağan olmaq iddiası, prinsip etibarilə, yalnız kağan soyundan (nəslindən) gələnlərə düşür. Və çoxlu iddiaçılardan kimin kağan olacağını isə yenə də Tanrının iradəsi müəyyən edir.

Türk dövlətçilik təfəkküründə öz geniş əksini tapmış (hətta türklər arasında kütləviləşmiş!) bir mühüm məsələ də «Dünya dövləti» ideyasıdır ki, bunun məzmunu Tanrının türk kağanına bütün Dünyanı idarə etmək

səlahiyyətini verməsi inamıdır. Və bu inam Osmanlı imperiyasına qədər gəlib çıxmışdır.

Bütün bunlar isə o deməkdir ki, türk dövlət gənəşiyinin zəruriliyini, mövzusunu, vaxtını (məqamını), formatını, yerini və s. hökmdar (dövlət başçısı) müəyyən edir. Çünki o, müqəddəs bir missiya icra edən (Tanrının iradəsini yerinə yetirən) mütləq hakimdir. Lakin dövlət idarəçiliyi təcrübəsində türk hökmdarlarının məcburiyyət (aşağılardan aktiv və ya passiv təzyiq) üzündən də gənəşik keçirmələri faktları az olmamışdır. Və bu, adətən, «aşağılar»ın hakimiyyətdən narazılığını aradan qaldırmaq (onlara ya təzyiq göstərmək, ya da güzəştə getmək) məqsədi daşımışdır.

Bir də törə (türk törəsi) vardır ki, kağan nə qədər «hakimi-mütləq» olsa da ona riayət etməyə borcludur. Və buraya, əsasən, aşağıdakı qaydalar daxildir:

1) xalqın (dövlətin) taleyilə bağlı məsələləri kağan gənəşiksiz həll edə bilməz;

2) dövlət gənəşiyində xalq mümkün qədər maksimum təmsil olunmalıdır;

3) heç olmasa ildə bir dəfə (və hər dəfə eyni vaxtda), zəruri oldu-olmadı, dövlət gənəşiyi (toy, qurultay, divan və s. formatlarında) keçirilməlidir;

4) dövlət gənəşiyini kağan (hökmdar) yox, hamının hörmət etdiyi nüfuzlu ağsaqqal (bilgə) idarə etməlidir;

5) arzu edən hər kəsin danışmaq, fikir söyləmək, mövqe bildirmək hüququ vardır.

Türk dövlət gənəşiyinin xarakterini müəyyənləşdirən ikinci cəhət türk dövlət quruculuğu (və idarəçiliyi) ənənələrinin zənginliyidir, qayda-qanunlara (törəyə) ciddi riayət olunmasıdır. Əgər kağan türk törəsinin əsaslarını pozarsa, Tanrı da ondan üz döndərər. Və bu tələb

türklər islamı qəbul etdikdən sonra da özünəməxsus bir şəkildə (müsəlman dünyagörüşünə uyğun olaraq) davam etdirilmişdir.

Türk törəsinin əsas şərt-prinsipi isə «ədalətlilik»-dir!..

Kağan idarə etdiyi xalqın – cəmiyyətin (nəticə etibarilə, bütün insanlığın!) taleyinə cavabdehdir. Bunun həyata keçirilməsi üçünsə ən optimal (və populyar) yol dövlət gənəşiyi olmuşdur. Xalqla məsləhətləşmək (hətta buna ciddi ehtiyac görünməsə belə!) hökmdarın törəyə riayət etməsinin ən kütləvi nümayişi sayıla bilərdi.

Lakin türklərin tarixində elə qurultaylar da olmuşdur ki, hökmdarın türk törəsinə gətirdiyi yenilikləri, yeni qaydaları təsdiq etmək (bəyənmək), yaxud da onun məzmunu ilə tanış olmaq üçün çağrılmışdır.

Türk dövlət gənəşiyində törə özünün hamı tərəfindən qəbul olunmuş (ənənəvi) vəziyyətində «hökmdar (kağan) – xalq» münasibətlərinin qurulmasında, idarəçilik texnologiyalarının səmimiliyində, dövlətin (imperiyanın) uzunömürlülüyündə mühüm rol oynamışdır.

Törəyə əməl olunmasının məsuliyyətini ilk növbədə kağan daşıyırdı.

Türk dövlət gənəşiyinin xarakterini müəyyənləşdirən üçüncü cəhət dövlətlərin ərazicə geniş coğrafiyanı əhatə etməklə çoxlu sayda tayfa birliklərindən təşkil olunması idi. Dövlət daxili informasiya mübadiləsinin, xüsusilə hökmdar fərmanlarının «aşağılar»a çatdırılmasının, eləcə də «aşağılar»dakı vəziyyət barədə məlumat alınmasının operativ olmadığı (əksinə, çoxlu sayda texnoloji çətinliklərin olduğu) dövrlərdə toylar, qurultaylar və s. Miqyasında keçirilən gənəşiklərə böyük ehtiyac var idi. Və bu ehtiyac çox zaman hökmdarın «mütləq hakimiyyət» səlahiyyətlərini məhdudlaşdırır, gənəşiklə-

rin hətta vaxtaşırı olaraq keçirilməsi zərurətini doğururdu.

Məsələn, «Dədə Qorqud» eposunda (və onun əsasında yazıya alınmış «Kitabi-Dədə Qorqud»da) vaxtaşırı toy (gənəşik) keçirməyən hökmdara qarşı Oğuz bəylərinin ciddi narazılığından, ondan incimələrindən danışılır.

Türk dövlət gənəşiyində imperiyaların ərazinin genişliyindən irəli gələn problemləri həll etmək üçün bir sıra tədbirlər görülmüşdür:

1) tələsik keçirilməli olan dövlət gənəşiyinə yalnız az sayda zəruri şəxslər (dövlətin «irəli çıxanlar»ı) çağırılmışdır;

2) kağan (hökmdar) daha yaxın adamları (saray əyanlarını) toplayaraq gənəşik (müzakirə) aparmış, çıxarılan qərarlar «aşağılar»a göndərilmişdir.

Türk dövlət gənəşiyinin xarakterini müəyyənləşdirən dördüncü cəhət cəmiyyətin həyat tərzi, təsərrüfat ukladıdır. Sülh şəraitində, adətən, yüksək gənəşiyə o qədər də ehtiyac olmadığı halda axınlar və ya müharibələr zamanı bu, qaçılmaz olmuşdur. Hər şeydən əvvəl ona görə ki, hökmdar sərkərdələr tərəfindən idarə olunan ordunun ümumi başçısı, müasir təbirlə, «ali baş komandan»ı idi. İkincisi, axına gedəcək və ya ölkəni düşmən hücumlarından müdafiə edəcək ordunun böyük hissəsi məhz müharibə ərəfəsində xalq içərisindən toplanırdı. Və nəhayət, üçüncüsü isə, həmin ordunun əhval-ruhiyyəsini yüksəltmək, hansı ümumi ideallar (Vətən, şərəf, hökmdar və s.) uğrunda döyüşəcəyini izah etmək lazım gəlirdi.

Sülh şəraitində keçirilən dövlət gənəşiklərində təntənə, bayram əhval-ruhiyyəsi həmişə çox güclü olmuşdur. Və bu zaman dini ayinlərin icrasına, yemək-

içmək məclislərinə, müxtəlif xarakterli (və türklər üçün ənənəvi) yarışların keçirilməsinə, mükafatların təqdiminə xüsusi diqqət verilmişdir.

Türk dövlət gənəşiyinin xarakterini müəyyən edən beşinci cəhət türk dövlətinin beynəlxalq nüfuzu və ya beynəlxalq münasibətlər üçün məsuliyyətidir. Artıq qeyd edildiyi kimi, türklərdə «Dünya dövləti» ideyası (və iddiaları) kifayət qədər güclü olmuşdur. Geniş bir coğrafiyanı (Avrasiyanı!) məskunlaşdıran (və idarə edən) türk hökmdarları üçün dövlət gənəşiyi ehtiyacının miqyası da geniş idi. Gənəşiyə yalnız müxtəlif türk tayfaları deyil, «hüdudsuz» coğrafiyanın müxtəlif xalqları da qatılırdılar.

Türk dövlət gənəşiyinə dəvət olunanların içərisində nəinki müxtəlif dillərdə danışan (və müxtəlif mənşəli) xalqların (tayfaların), hətta xarici ölkələrin (dövlətlərin) nümayəndələri də olurdu. Bu mənada türk dövlət gənəşiyinin «dünyaya açıqlığ»ı barədə cəsarətlə danışmaq olar.

Və yeri gəlmişkən... Türk dövlət gənəşiyinin, ümumən türk dövlətçiliyinin həm yaranmasında, həm də inkişafında qədim Şərq dövlət idarəçiliyi ənənələrinin (məsələn, Çin) müəyyən təsirləri də olmuşdur ki, bu, əsasən, türklərin «Dünya dövləti» (dünyanı özlərinə cəlb etmək) iddialarından irəli gəlirdi. Və «dünya ilə ünsiyyət» is-təyinin (marağının və ya siyasətinin) nəticəsi idi. Burada «kənardan təsir və ya təzyiq»dən ona görə söhbət gedə bilməz ki, türklər dövlət idarəçiliyinə «beynəlmiləl (və təbii ki, mütərəqqi!) texnologiyalar»ı zəif, yaxud əsarətdə olduqları dövrlərdə deyil, məhz güclü və ya geniş bir coğrafiyada hakimiyyətdə olduqları dövrlərdə mənimsəmişlər.

Türk dövlət gənəşiyinin xarakterini müəyyən edən altıncı cəhət onun iştirakçılarının seçimindən və ya tərkibindən ibarətdir.

Qədimdən başlayaraq müxtəlif türk dövlətlərində (imperiyalarında), qüvvədə olan törəyə görə, dövlət gənəşinə ilk növbədə hökmdar soyundan olan şəxslər (qeyd edək ki, onların demək olar ki, hamısı dövlət idarəziliyində yüksək mövqe tuturdular), ikinci növbədə, tayfa başçıları (bəylər), üçüncü növbədə isə, hərbi, dini və s. liderlər, ağsaqqallar dəvət edilirdilər. Bu qayda o qədər möhkəm idi ki, kağan (hökmdar) tərəfindən ona əməl olunmasa, yəni dəvət olunmalı şəxs dəvət edilməsə, kifayət qədər ciddi problem, narazılıq yarana bilərdi.

Qurultay və ya toyun kağan tərəfindən irəlicədən müəyyən edilmiş miqyasından (formatından) asılı olaraq, xalq kütlələrinin iştirakı da gözlənilən idi. Burada əsas rolu dövlət gənəşiyinin «janr»ı, hansı məqsədlə keçirilməsi oynayırdı. Əgər gənəşik, məsələn, müharibə etmək və ya sülh bağlamaq üçün çağırılırdısa bir, törəyə dəyişiklik, yaxud təntənə-bayram üçün idisə başqa bir tərkib müəyyən edilə bilərdi. Ancaq əsas heyət, adətən, dəyişməz idi.

Türk dövlət gənəşiyinin xarakterini müəyyən edən yeddinci cəhət onun kifayət qədər mükəmməl keçirilmə qaydalarının, müasir terminlə desək, protokolunun mövcud olmasıdır.

Tarixi mənbələr (və onların verdiyi məlumatların müqayisəli araşdırılaraq ümumiləşdirilməsi) göstərir ki:

1) dövlət gənəşiyinin toy, qurultay, divan və s. Formasında keçirilməsinə uyğun xüsusi yeri (məqamı) olurdu (hətta bəzən at üstündə keçirilirdi);

2) həmin yer dövlət simvolları (bayraq, qədəh, damğa və s.)ilə «bəzədilirdi»;

3) hər kəsin oturmaq (hətta yatmaq, dincəlmək) üçün xüsusi yeri olurdu (heç kim heç kimin yerini tuta bilməzdi);

4) hər kəsə mövqeyinə, statusuna uyğun yeməklər verilirdi (və hər kəs atın, malın, yaxud qoyunun hansı hissəsini yeyəcəyinə qədər bilirdi);

5) dövlət gənəşində səs-küyün, qarışıqlığın olmamasına, nümayəndələrin nizam-intizama riayət etmələrinə (onlar buna onsuz da vərdiş eləmişdilər) xüsusi nəzarətçi (yasavul) cavabdeh idi və s.

Bütün bunlar onu göstərir ki, Böyük Çölün dövlətçilik ənənəsində dövlət gənəşiyi, doğrudan da, mükəmməl bir törə (qanunvericilik) qurumu (orqanı) olmuşdur.

## 4. Qədim türklərin dünyagörüşü

Türklərin ən qədim dövrlərdən başlayaraq zəngin ruhi-mənəvi aləmə, geniş dünyagörüşünə, xüsusilə çevik-praktik təfəkkürə malik olduqları heç bir şübhə doğurmur. Və bunu həm türk, həm də qeyri-türk mənşəli istər şifahi, istərsə də yazılı mənbələr dönə-dönə təsdiq edir.

Dini dünyagörüşü etibarilə türklər tanrıçı idilər. Göy Tanrıya inanırdılar.

Lakin tanrıçılıq inamına gəlib çıxana qədər onlar kifayət qədər uzun (ancaq ardıcıl, intensiv) idrak axtarışı prosesləri keçmişdilər ki, bunu sübut edən faktlardan ən mühümü zəngin Altay-türk mifologiyasıdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu mifologiya (və ümumən türk dünyagörüşü) geniş bir coğrafiyanın məhsuludur.

Qədim türklərin vətəni ilk orta əsrlərdən bəri Türküstan kimi tanınan hüdudsuz çöllərdir. Şimalda Köq-

mən (Sayan) dağlarına, Sibir meşələrinə; Cənubda Tibetə; Şərqdə Sakit okeana, Sarı dənizə; Qərbdə isə Aral gölünə, Xəzər dənizinə, sonralar isə Qərbi Avropaya qədər uzanan bu çöllərdə türk atlarının ayaq səslərini qədim dövrlərin tarixçiləri hələ də eşidirlər. Arxeoloji araşdırmalar göstərir ki, haqqında söhbət gedən geniş coğrafiyada türklərdən öncə hər hansı bir etnos-xalq tərəfinndən ardıcıl şəkildə yaradılmış maddi mədəniyyətin izlərinə təsadüf edilmir. Və həmin coğrafiyanın ilk inamlarını türklər yaratdıqları, ilk dastanlarını türklər söylədikləri kimi, ilk nəğmələrini də türklər oxumuş, ilk yazılarını da məhz türklər yazmışlar.

Altay imperiyasından sonra türklərin qurduqları (və Altaydan fərqli olaraq, tarixi əsasları bizə, demək olar ki, məlum) siyasi birlik Hun-türk imperiyasıdır (e.ə. III əsrdən eramızın V əsrinə qədər) ki, onun yüz illərlə mövcud olması, qədim dünyanın ən böyük siyasi birlikləri ilə intensiv əlaqələri türklərin tarixi qüdrətini – etnososial, mənəvi-ideoloji imkanlarını nümayiş etdirir. Hun–türk imperiyasının türk dünyagörüşünün inkişafına hansı səviyyədə təkan verdiyini göstərmək üçün yalnız bir faktı yada salmaq kifayətdir ki, qədim türk eposunun əsas qəhrəmanlarının prototipləri əsasən hun–türk xaqanlarından ibarətdir. Onların mübarizələri, ictimai-siyasi fəaliyyətləri, düşüncələri, mənəvi aləmi qədim türk ozanına daim bitib-tükənməz ilham vermişdir. Lakin bu, o demək deyil ki, qədim türk ozanı mədhiyyəci idi (əksinə, qədim türk eposunun, demək olar ki, bütün nümunələrində onları yaradan sənətkarın ideya müstəqilliyi, fikir-düşüncə sərbəstliyi özünü tam açıqlığı ilə göstərir: xaqan kimi ozan da qəti əmindir ki, öz yaradıcılığında Tanrının (və Tanrının himayəsində olan xalqın, dövlətin) iradəsini əks etdirir.

Hun–türk imperiyasından sonra türk düşüncəsinin, türk mədəniyyətinin təkamülünə, dünyanın geniş bir coğrafiyasında yayılmasına sosial-siyasi şərait yaradan dövlət Göytürk imperiyasıdır. Həmin dövləti yaradıb inkişaf etdirənlərin fəaliyyəti, hərbi qüdrəti, siyasi müdrikliyi barədə artıq ozan (epos!) dan daha çox yazılı abidələr, kitabələr məlumat verir. Lakin epik tarix ənənəsinə uyğun olaraq, bu yazı–kitabələrin də ifadə texnologiyası, intonasiyası xeyli dərəcədə bədii-estetik təfəkkürün məhsuludur. Daha doğrusu, əsasən VII əsrin sonu VIII əsrin ilk onilliklərinə aid olan bu əsərlərdə aydın (konkret) xronologiya ilə bədii-fəlsəfi ümumiləşdirmə üzvü vəhdətdə təzahür edir. Və bu vəhdət o qədər mükəmməldir ki, bugünün oxucusunda Tanrıdan gələn (türkcə!) kəlam-müqəddəs kitab təəssüratını yaradır.

Göytürk dövründə türklərin Çin, İran, rum, ərəb dünyası ilə çoxspektrli əlaqələri daha da intensivləşir, onlar (türklər) dünyanın müxtəlif dini dünyagörüşləri, mədəniyyətləri ilə sonsuz bir maraqla tanış olur, dünyagörüş arsenallarını daha da genişləndirir, o zamana qədər görünməmiş bir miqyasda şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçirlər. Türklərdə yazılı ədəbiyyatın daha geniş vüsət almasında maniliyi, buddizmi qəbul edərək Şərqi Türküstanda bir neçə əsr (I minilliyin sonu II minilliyin əvvəlləri) sürən hakimiyyət yaradan uyğurlar xüsusi rol oynayırlar. Lakin qeyd etmək lazımdır ki, haqqında söhbət gedən dini-fəlsəfi görüşlər əsasən uyğur aristokratiyası arasında yayıldığına, xalq, bir qayda olaraq, tanrıçılığa inanmaqda davam etdiyinə görə, maniçi, buddist dünyagörüşü məhz yuxarı təbəqənin maraq dairəsi ilə məhdudlaşır.

I minilliyin sonu II minilliyin əvvəllərinə – islamı qəbul edənə qədər türklər Türküstandan kənarda (Çində,

Hindistanda, Şərqi Avropada), möhtəşəm dövlətlər qurmaqla kifayətlənməyib Qafqaza, İrana, ərəb ölkələrinə, Bizansa, Qərbi Avropaya bir sıra yürüşlər edir, hərbi şücaətləri ilə yanaşı, ictimai-siyasi idarəçilik mədəniyyətlərini, geniş dünyagörüşlərini nümayiş etdirirlər. Və "dünyanın türklərə darlıq elədiyi" həmin dövrlərdə türk dünyagörüşünün həm ideya-məzmun, həm də sənətkarlıq baxımından nə qədər zəngin olacağını təsəvvür etmək çətin deyil. Sami mədəniyyətindən, həmin mədəniyyətdən xəbərdar olmayan yunanlardan sonra üçüncü beynəlxalq (ümumbəşəri!) mədəniyyəti yaradan (ikincilərdən, xüsusilə birincilərdən, dünyanın coğrafiyasını ehtiva etmək mənasında, daha çoxmiqyaslı olan!) türklər qədim dövrdən orta əsrlərə keçidin tarixi (!) hökmünə uyğun olaraq, yaratdıqları mədəniyyəti klassik orta əsrlərə birbaşa ötürə bilmədilər. Sami xalqları ümumiyyətlə "gizləndilər"; yunanlar rumlular vasitəsilə dünyaya bir daha gəlib xristian mədəniyyəti adı altında klassik orta əsrlərin ideya-estetik, yeni dövrün texnoloji mənzərəsini yaratdılar, türklər isə öz beynəlxalq miqyaslarını (vücudlarını!) nə gizlədə bildilər, nə də ilk orta əsrlərdəki şücaətlərini yeni dövrün texnologiyasına çevirdilər. Mənbəyini orta əsrlərin sonu yeni dövrün əvvəllərindən götürən (?) anqlosaksonlar isə daha beynəlxalq bir mədəniyyətin (!) təmsilçiləri olaraq müasir dünyaya öz (?!) harmoniyalarını gətirdilər. Odur ki, müasir dünyada anqlosakson mədəniyyəti ilə beynəlxalq tarixi mədəniyyət potensialı içərisində dialoqa girən üç güc mövcuddur: sami (yəhudi, daha sonra ərəb təzahüründə), yunan-rum və türk!..

Türk mədəniyyəti tarixinin görkəmli tədqiqatçısı İ.Kafesoğlu "Türk milli kültürü" əsərində yazır: "Bütün digər millətlər fərdləri toplu olaraq bir arada bulunduğu

üçün hər hansı bir zamandakı durumunu açıqca təsbit və tədqiq mümkün olduğu halda dağınıq şəkildə yaşayan türk kütlələrinin bir-birindən fərqli gəlişmə yolları təqib etmələri səbəbi ilə türk tarixini bəlirli bir zaman kəsimində bütün halında dəyərləndirmək asan olmamaqdadır". Ümumiyyətlə maraqlı olan bu mülahizədə mübahisəli, hətta metodoloji baxımdan qəbul edilməsi çətin olan məqamlar vardır: birincisi, bütün digər millətlərin fərdlərinin toplu olaraq bir arada bulunması əlamətini mütləqləşdirmək düzgün deyil – dünyanın böyük mədəniyyət tarixi yaşamış xalqlarının (məsələn, yəhudilərin, yunanların, ərəblərin, fransızların, almanların, ingilislərin) tarixində də aşağı-yuxarı həmin "dağınıqlıqlar" özünü göstərir; ikincisi, ən qədim dövrlərdən başlayaraq türk cəmiyyətində gedən tamamilə təbii sosial-siyasi, mədəni-mənəvi diferensiasiya həmin cəmiyyətin etnotipoloji bütövlüyünü heç zaman əsaslı şəkildə sarsıtmamışdır; üçüncüsü isə, türklərin ilk baxışdan dağınıq görünən yaşam tərzi onların ictimai təbiətinə xas olan elə bir bütöv kompleksdir ki, dünyaya açıq olmaq, onu özündə ehtiva etmək marağından irəli gəlir (həmin kompleks yuxarıda adlarını çəkdiyimiz xalqların çoxunda olmuşdur, ona görə də türklər istisna deyil). Və odur ki, böyük elm adamının "tarixləri sınırı bəlli bir coğrafi çevrə içində cərəyan edən digər millətlərin yayılmaları da dəyişməyən vətən torpaqları civarında vüqua gəlirkən çeşitli türk kütlələri əsrlərcə yeni iqlimlər, yeni yurdlar arayaraq tarixlərini çeşidli bölgələrdə yapmışlar" fikrinə də türk mədəniyyətinin tarixini araşdırarkən metodoloji əsas kimi istinad etmək çox-çox çətindir.

Qədim türk düşüncəsinin əsas mövzusu qədim türk insanının həyatı, onun ictimai-siyasi varlığı, arzu-ideallarıdır. Ən qədim zamanlardan başlayaraq türklər ailə

(oğuş) ilə cəmiyyət (uruğ, boy...) arasında nə isə (bugün bizim dərk etmədiyimiz) bir yaxınlıq, əlaqə görmüş, ailədə cəmiyyətin, cəmiyyətdə isə ailənin qanunları ilə davranmanın xoşbəxtlik gətirəcəyinə inanmışlar. Ona görə də qədim türklər insanın həm etnik, həm də sosial-siyasi birlik (dövlət) qarşısındakı məsuliyyətini sonsuz bir maraqla tərənnüm edərək həmin münasibəti fərdin mənəviyyatı səviyyəsinə yüksəldirlər.

Qədim türklərin xüsusilə ilk dövrlərdə (I minilliyin ortalarına qədər) daha çox atlı-köçəri həyat yaşamaları onların dünyagörüşünə əhəmiyyətli təsir göstərmiş, yayda yaylağa, qışda qışlağa köçən əhalinin təsərrüfat məşğuliyyətinin əsasını ovçuluq, heyvandarlıq, sənətkarlıq təşkil etmişdir. Bu isə xalqı təbiətlə sıx ünsiyyətdə yaşamağa, onun şıltaqlıqlarına səbrlə dözməyə, onu ilahiləşdirməyə gətirib çıxarmışdır. Xarakteri etibarilə bir əskər-döyüşçü kimi böyüyən türk oğlunun taleyini, birinci növbədə, özünü, ailəsini, tayfasını, daxil olduğu sosial-siyasi birliyi qorumaq inersiyası müəyyən edir. Qədim türklər əmindirlər ki, sosial-mənəvi problemlər əsasən məhz fərd (şəxsiyyət!) – ailə-tayfa-sosial-siyasi birlik maraqları arasındakı harmoniya pozulanda meydana çıxır.

Qədim türklərin ticarətlə geniş miqyasda (və bilavasitə) məşğul olduqlarını demək çətin olsa da, bir məsələ tamamilə təkzibedilməzdir ki, dünyanın əsas ticarət yolları, xüsusilə məşhur İpək Yolu əsrlər boyu onların siyasi-mədəni nəzarəti altında olmuş, bunun da nəticəsində həmin yollar, demək olar ki, həmişə maneəsiz işləmişdir. Eramızın ilk əsrlərindən, xüsusilə I minilliyin ortalarından etibarən türklərin yayıldığı geniş coğrafiyada şəhər mədəniyyətinin sürətlə inkişafı da İpək Yolunun iqtisadi-təsərrüfat məhsuldarlığı sayəsində baş ver-

mişdir. Lakin qeyd etmək lazımdır ki, qədim türk şəhərləri iqtisadi, sosial-siyasi həyatın intensiv dəyişkənliyi, mütəhərrikliyi ucbatından tez-tez dağılmış, şəhər əhalisi vaxtaşırı olaraq öz arxasında zəngin mədəniyyətin xarabalıqlarını buraxaraq yeni, daha münasib yerlərə köçmüşlər. Əlbəttə, qədim türk şəhərlərinin texniki mühafizəsinin o qədər etibarlı olmaması, müdafiə işinin əsasən canlı qüvvə (və müəyyən qədər də təbii istehkamlar) üzərinə düşməsi və imperiya, dövlət mərkəzlərinin müxtəlif səbəblər üzündən dəyişdirilməsi də şəhər mədəniyyətinin sürətli inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi.

Qədim türk düşüncəsinə, xüsusilə onun daha mütəşəkkil aristokratik səviyyəsinə xas olan dünya nizamı yaratmaq, Dünya dövləti qurmaq ideyası böyük türk imperiyaları dövründə formalaşsa da, I minilliyin sonu II minilliyin əvvəllərinə – etnososial, siyasi diferensiasiya dövrünə qədər, hətta müəyyən inersiya ilə ondan sonra da davam etmiş, xalqa dünyanın taleyində yaxından iştirak etmək, ona (dünyaya) mənəvi harmoniya gətirmək missiyası aşılamışdır ki, bu da öz növbəsində daxili ictimai-ruhi birliyin möhkəmlənməsinə, dünyanın bir-birindən uzaq mədəniyyət mərkəzlərində, oriyentasiya götürməyin çox çətin olduğu geniş çöllərdə yaranmış türk dünyagörüşünün əsasən eyni bir ideya-estetik mənbədən qaynaqlanmasına səbəb olmuşdur.

Türklərin özünəməxsus zəngin mifologiyaları, həmin mifologiya əsasında formalaşmış mükəmməl dini dünyagörüşləri (tanrıçılıq!) olmuşdur ki, qədim türk ədəbiyyatı ideya-estetik enerjisini məhz buradan götürmüşdür. Bununla belə qədim türk ədəbiyyatı onu yaradan xalqın, etnik-mədəni sistemin xarakterinə uyğun olaraq dünyaya açıq bir ədəbiyyatdır: eramızdan əvvəl I minil-

liyin ortalarından eramızın I minilliyinin sonu II minilliyinin əvvəllərinədək türklərin yaşadıqları geniş coğrafiyada baş vermiş ictimai-siyasi hadisələr onların ədəbiyyatında özünün kifayət qədər dərin izlərini qoymüş, eyni zamanda dünyanın müxtəlif dini dünyagörüşlərinin, ideologiyalırının təsiri ilə yaranmış əsərlər türkcəyə tərcümə edələrək qədim türklərin ədəbiyyatını zənginləşdirmiş, dünyanın ən beynəlmiləl, ən ümumbəşəri ədəbiyyatlarından biri səviyyəsinə qaldırmışdır.

Qədim türk dünyagörüşünün əsasında ən qədim dövrlərdən formalaşıb gələn türk mifologiyası dayanır dedikdə biz mifologiyanın ədəbiyyatın yaranmasına ilk təkanı ilə yanaşı sonrakı dövrlərdə, ardıcıl olaraq, ədəbi prosesi ideya-estetik baxımdan qidalandırmasını da nəzərdə tuturuq. Və qeyd etmək lazımdır ki, bu cür qidalanma türk ədəbiyyatının yalnız tamamilə orjinal əsərlərinə aid olmaqla qalmayıb, başqa dini dünyagörüşləri zəminində, türk tanrıçılığından müəyyən səviyyədə imtina olunduğu mühitlərdə yaranmış türkcə əsərlərdə də bu və ya digər dərəcədə özünü göstərməkdədir. Bu da ondan irəli gəlir ki, türklər nə maniliyi, nə buddizmi, nə xristianlığı, nə yəhudiliyi, nə də I minilliyin sonu II minilliyin əvvəllərindən etibarən onların əsas dini dünyagörüşlərinə çevrilən islamı bilavasitə deyil, türk mifologiyası, xüsusilə onun inkişafının keyfiyyətcə yeni mərhələsi olan tanrıçılıq əsasında qəbul edirlər.

Qədim türk mifologiyasına görə, yuxarıda Göy, aşağıda Yer yarandıqdan sonra onların arasında insan oğlu əmələ gəlmişdir. Dünyanın damı olan mavi Göydə doğan Günəş qədim türklər arasında xüsusi ilahi məzmun daşıdığından xaqanın-türk hökmdarının çadırı həmişə üzü şərqə qurularmış. Yer insanların məskunlaşdığı dörd tərəfdən ibarət, sonu dənizlərlə əhatə olunmuş

kifayət qədər geniş bir məkan kimi təsəvvür olunmuşdur. Gündoğan – irəli, Günbatan – geri, buradan irəli gələrək, Cənub – sağ, Şimal isə sol tərəf sayılmışdır ki, bu da qədim türklərin zəngin coğrafi maraqlarının olduğunu göstərir.

Qədim türklərə görə, dünya üç hissədən ibarətdir: yuxarı dünya, orta dünya, aşağı dünya.

Lakin qeyd etmək lazımdır ki, həmin təsəvvür o qədər də mükəmməl olmamış, dünyanın Göy və Yerdən ibarət olması düşüncəsi daha geniş yayılmışdır. Dünyanın dağılıb yenidən qurulması barədəki ümumbəşəri ideyanın meydana çıxmasında türk təfəkkürünün də xidməti olmuşdur: elə ki, "Göy yuxarıdan sıxır, Yer ayrılır", yaxud "Yer-Göy lərzəyə gəlir", o zaman işıq çəkilir, qaranlıq çökür, insanlar, heyvanlar, quşlar "yolunu azır"... Üç il sürən həmin xaos "Göyün rəhmi" ilə aradan qalxır, dünyanın harmoniyası bərpa olunur.

Eramızın I minilliyinin ortalarından etibarən türk təfəkküründə artıq xüsusi sistemi olan din səviyyəsinə yüksələn tanrıçılığın əsas obrazı – Tanrı anlayışı məhz türk mifik düşüncəsinin məhsuludur. Və maraqlıdır ki, hələ mifin güclü olduğu dövrlərdə də Tanrı obrazı müəyyən müstəqilliyə malik olmuş, Göy, yaxud Yer kimi dünyanın (kosmosun!) tərkibinə daxil edilməmiş, I minilliyin ortalarından isə artıq dünyanın, insanların, hadisələrin məhz Tanrı tərəfindən idarə olunması barədəki təsəvvür türk cəmiyyətində, xüsusilə onun yuxarı təbəqəsində aparıcı yer tutmuşdur. Lakin təbiidir ki, Tanrı anlayış-ideyası tanrıçılıq dininin əsası kimi formalaşana, yaxud mükəmməlləşənə qədər xeyli dərəcədə konkret, hətta antropomorf səciyyə daşımışdır. Həmin dövrdə türklər Tanrını hər şeyə qadir bir qəhrəman, yenilməz bir igid saymış, onun şərəfinə mərasimlər

keçirmiş, qurbanlar kəsmişlər. Doğum ilahəsi olan Umay isə Tanrının xanımı imiş.

Qədim türk mənbələri göstərir ki, xaqan, onun qvardiyası Tanrı ilə Umaya adətən birlikdə ibadət edər, apardıqları döyüşlərdən qələbə ilə qayıtmaq üçün onlardan yardım diləyərmişlər. Həmin mənbələrdə xaqanın vaxtaşırı Tanrı ilə söhbətləşməsi, ondan göstərişlər alması, bu ilahi göstərişə əməl etmədikdə isə cəzalandırılması barədə təsəvvürlər də əks olunur. Zaman keçdikcə Tanrı ideyasının güclənməsinin, mifdən dinə keçilməsinin nəticəsidir ki, xaqan özünü Tanrının himayəsində hiss edir, xalqı məhz onun iradəsi ilə idarə etdiyini inamla bildirərək özünün real ictimai-siyasi missiyasını ruhani-ilahi mənbəyə bağlayır. Və etiraf olunmalıdır ki, tanrıçılığın bir din kimi formalaşmasında, tanrıçı ruhanilərin yetişib müxtəlif formalarda fəaliyyət göstərmələrində, həmin dinin xalq içərisində təbliğində türk xaqanları, onları əhatə etmiş aristokratiya ilk dövrlərdən maraqlı olmuşlar.

Qədim türk mifologiyasında müqəddəs Yer – Su (ıdık Yer-Sub) obrazı da mövcud olmuşdur – həmin obrazın funksiyası müəyyən qədər Tanrı – Umayın ilahi funksiyasına uyğundur. Bununla belə Yer – Su, görünür, daha çox yurd – vətən hissinin təzahürüdür. Ümumiyyətlə, türklərdə "Vətən", "Vətən tutmaq" təsəvvürü çox güclü olmuşdur ki, bu da, heç şübhəsiz, onların mifologiyasına yeni ideyalar gətirmişdir.

Qədim türklərdə yeraltı dünya təsəvvürünün əsas qəhrəmanı Erlikdir. O, Tanrının qəzəbinə gəlmiş insanların, əgər belə demək mümkünsə, hamisi, bəd ruhların hökmdarıdır.

Qədim türk mifologiyasının ən çox maraq doğuran mövzularından biri etnosun öz genezisinə münasibəti,

daha doğrusu, etnik mənşəyinə verdiyi ilkin bədii-fəlsəfi interpretasiyadır. Ümumiyyətlə, qədim türklər inanmışlar ki, onlar Qurddan törəmişlər, əcdadları məhz Boz Qurddur. Bununla yanaşı Dağdan (Qayadan), Ağacdan törənmə təsəvvürləri də vardır ki, bu cür interpretasiya rəngarəngliyi qədim türk mifologiyasının dinamikliyini, qədim türk insanının idrak imkanının genişliyini göstərir.

Altay – protürk -türk mifologiyasından türk tanrıçılığına qədər gəlib çıxan prosesin tarixi zənginliyi özünü onda da göstərir ki, türklərin sonralar qəbul etdikləri dinlərin anlayışlar sistemi tanrıçılıq leksikonu ilə kifayət qədər mükəmməl ifadə olunur. Və lakin, təbii ki, istər manilik, istərsə də xüsusilə buddizm türkdilli maniçi, yaxud buddist ədəbiyyta özünəməxsus ideyalar, idrak texnologiyası ilə yanaşı, öz terminologiyasını, sözün geniş mənasında ifadə tərzini də gətirir.

Qədim türk düşüncəsinə hiss ediləcək qədər təsir göstərmiş gəlmə dini dünyagörüşlərdən birincisi, yəqin ki, manilikdir. Əslən iranlı olan Nəqqaş Maninin III əsrdə Şərq ölkələrində yaymağa başladığı maniliyin əsasında zərdüştlük – xeyirlə şərin, işıqla qaranlığın mübarizəsi dayansa da, burada qədim dövrün müxtəlif dinlərindən (zərdüştlük, buddizm, xristianlıq və s.) əxz olunmuş ideyalar komplektləşdirilmişdir. Özünü "həqiqət allahının elçisi" sayan Mani dünyada mövcud olan bütün dini dünyagörüşlərini birləşdirərək universal "dünya dini" yaratmaq iddiası ilə çıxış edirdi ki, bu da Dünya dövləti qurmaq barədə düşünən türklər üçün maraqlı olmaya bilməzdi. Lakin maniliyin asketizmi -işığı, xeyiri (ruhu!) qaranlıqdan, şərdən (bədəndən!) qurtarmaq barədəki göstərişi həyatsevər türklər arasında geniş yayılmaq, mənəvi-ideoloji dayaq tapmaq imkanına malik deyildi.

Maninin təlimində qədim türk mifologiyası, xüsusilə Dünyanın yaranması haqqındakı təsəvvürlərlə səsləşən məqamlar kifayət qədərdir. Tanrının qaranlığın, şərin, bədənin deyil, məhz işığın, xeyirin, ruhun yaradıcısı olması; insanın mahiyyətinin bədəndə yox, ruhda təzahürü, dünyanın (materiyanın) xaos, mükəmməl insanın (ruhun) kosmos səciyyəsi daşıması qənaətinə gələn Mani, görünür, yalnız müqəddəs kitabları öyrənməklə kifayətlənməmiş, öz təlimini yaradarkən qədim təsəvvürlərdən, miflərdən də istifadə etmişdir.

Qədim türk təfəkkürünə əhəmiyyətli təsir göstərmiş gəlmə dinlərdən biri də buddizmdir. Ən qədim dünya dini olan buddizm e. ə. I minilliyin ortalarında yaransa da, türklər arasında min il sonra yayılmağa başlamış, buddist türk ədəbiyyatı isə təxminən maniçi türk ədəbiyyatı ilə eyni dövrdə inkişaf etmişdir.

Buddizmin yaradıcısı olan Qautama Budda ("işıqlanmış" mənasında), tərcümeyi-halı əfsanələrə bürünmüş olsa da, tarixi şəxsiyyətdir. Mənbələr göstərir ki, Qautama Buddanın əsl adı Siddxartxadır. O, Şak tayfasının hökmdarı Suddxodanın oğlu, şahzadədir. Sarayda yaşayan, zəngin, firavan həyat sürən şahzadə yeniyetmə illərində insanların müxtəlif səbəblər üzündən çəkdikləri əzabları görüb onlara kömək etmək üçün bir çarə tapmaq ümidilə sarayı tərk edir. Uzun əziyyətlərə dözdükdən sonra, qırx yaşlarında Tanrıdan işıq alıb (vergi verilib) Budda olur. Və insanları xilas edən qüvvəyə çevrilir. Əfsanədə deyilir ki, Budda ruhən sabit, dayanıqlı olsa da, formasını -şəklini dəyişdirib müxtəlif təbəqələrdən olan insanların, hətta müxtəlif heyvanların, quşların cildində zühur etmişdir.

Buddizmin mahiyyətini onun dörd həqiqət barədəki kanonları aydın göstərir: 1) iztirab mövcuddur, 2) hər

bir iztirabın səbəbi var, 3) iztiraba son qoymaq olar, 4) ümumiyyətlə, iztirabların qarşısını almaq mümkündür. Buddizmə görə, iztirabdan xilas olmağın səkkiz yolu mövcuddur ki, buraya 1) idrak-anlamanın, 2) hərəkətin, 3) nitqin, 4) davranışın, 5) həyat tərzinin, 6) cəhdlərin, 7) görmə-seyrin və 8) düşüncə ilə hərəkət birliyinin düzgünlüyü, doğru-dürüstlüyü daxildir.

Hər bir insanın xilas yolu isə məhz "Buddanın yolu"dur.

Göründüyü kimi, həm maniçilikdə, həm də ondan daha mükəmməl bir dini-ideoloji sistem olan buddizmdə insan, təbiəti etibarilə, qeyri-mükəmməl sayılır, onun təkamülü, intibahı real dünyadan kənarda, ruhun dialektikasında axtarılır. Həmin axtarışların yaratdığı türkdilli ədəbiyyatın ideya-məzmunu ümumən maniçi, yaxud buddist ədəbiyyat kontekstində xüsusi orjinallığı ilə fərqlənməsə də, bu ədəbiyyatların türk təfəkkürünə mistik xarakterli yeni ideyalar gətirdiyi şübhəsizdir. Sonrakı orta əsrlərdə türk təfəkküründə geniş yayılmış sufizmin ən qədim köklərini də məhz burada axtarmaq lazım gəlir.

Qədim türk dünyagörüşünün son mərhələsi islamın türklər arasında yayılması, əsas dini-mənəvi dünyagörüşü formasına çevirilməsi ilə başlayır. Tanrıçılıqdan islama keçid, ümumiyyətlə, ilkin orta əsrlər türk təfəkkürü tarixinin ən qlobal problemlərindən biridir. XI-XIII əsrlər türk dünyagörüşünün genezisi araşdırılarkən daha çox qeyri-türk müsəlman mənbələrinə müraciət edildiyinə görə tanrıçılıqdan islama keçidin tipologiyası aydınlaşdırılmamışdır. Lakin "Tanrı–Allah" ("Kitabi–Dədə Qorqud") anlayış-ideyası islamın türklər arasında məhz tanrıçılıq əsasında qəbul olunmasını təsdiq edir.

Qədim türklər haqqında danışarkən, adətən, deyirlər ki, onlar tarix yazmaqdan daha çox, tarix yaradırdılar… Əlbəttə, qədim (eləcə də ümumən) türklər yaratdıqları (və bütün dünyanın ya etiraf etdiyi, ya da etiraf etməyə məhkum olduğu) tarixi lazımi səviyyədə (və miqyasda) yazmasalar da, hər halda onların həmişə kifayət qədər mükəmməl tarix dünyagörüşlərinin varlığı heç vəchlə şübhə doğurmur.

Bununla belə qədim türk tarix mənbələri göstərir ki, türklər təvazökar (və müdrik!) bir «tarixçi» olmuşlar.

Qədim türklərin tarix təfəkkürü özünü ən azı üç təzahür formasında nümayiş etdirir ki, onlardan birincisi mifoloji təzahürdür.

Məsələn:

«Hələ heç nə yox idi. Yalnız Tanrı Qara xanla Su vardı. Qara xandan başqa görən, Sudan başqa görünən yox idi.

Qara xan təklikdən darıxıb nə edəcəyini düşünən zaman Su dalğalandı. Ağ Ana peyda oldu. Qara xana «yarat!» deyib yenidən Suya daldı. Qara xan Kişini yaratdı. Və Qara xanla Kişi əbədi Suyun üzərində iki qara qaz kimi uçurdular…

Ancaq Kişi halından məmnun deyildi. Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Bundan xəbərdar olan Qara xan Kişinin uçmaq qabiliyyətini aldı. Və Kişi sonsuz Suya yuvarlandı. Boğulurdu… Etdiyinə peşiman olduğunu deyib Tanrı Qara xandan üzr istədi. Tanrı Qara xan Kişinin Sudan çıxmasını əmr etdi.

…Kişi ovcundakı torpağı Su üzərinə səpdikdə Tanrı Qara xan torpağa «böyü!» dedi. Və bu böyüyən torpaq Dünya oldu»… (Yaradılış dastanı).

Tarix təfəkkürünün mifoloji təzahürü üç mühüm (fundamental) mövzunu əhatə edir:

1) dünyanın (kainatın) yaranması;

2) insan övladının (bəşəriyyətin) yaranması;

3) türk etnosunun yaranması.

Göründüyü kimi, burada söhbət bütün hallarda (və mahiyyəti etibarilə!) mifoloji-mistik təsəvvürlərdən gedir.

Qədim türklərin tarix təfəkkürünün ikinci forması epik təzahürdür.

Məsələn:

«İsgəndər Səmərqəndi keçib Türk ellərini almaq istədiyi zaman Türk padşahı Şu adında bir gənc idi. Onun böyük bir ordusu vardı.

...Hökmdarın könlü rahatdı. Çünki İsgəndərin hərəkətlərini izləmək üçün kəşfiyyatçılar göndərmişdi.

...Ona «nə edək, döyüşə girəkmi?» sualı veriləndə arxayınlıqla hövuzu göstərib laqeydcəsinə «bu qazlara, ördəklərə baxın, nə gözəl üzürlər» dedi.

Xalq gördü ki, hökmdar nə döyüşə hazırlaşır, nə də qaçmağa.

...İsgəndər çəkilib ketdikdən sonra Şu geri döndü. Balasaquna gəlib Şu adlanan bir şəhər saldı»... (Şu dastanı).

Bu təzahür formasında tarixi təfəkkür, əsasən, aşağıdakı epik obrazları yaradır:

1) Hökmdar (xaqan) obrazı;

2) Türk dövləti (el) obrazı;

3) Türk xalqı (budun) obrazı.

Qədim türklərin tarix təfəkkürünün üçüncü forması realist-praktik təzahürdür.

Məsələn:

«Mən Bilgə Tonyukukam. Çin ölkəsində doğuldum. Türk xalqı Çinə tabe idi. Türk xalqı öz xanı olmadığı üçün Çindən ayrıldı, xan sahibi oldu.

Xanının atıb yenə Çinə tabe oldu. Tanrı dedi: Xan verdim, yenə də xanını atıb tabe oldun… Türk xalqı öldü, batdı, yox oldu…

Meşədə, ondan kənarda qalmış olanlar toplanıb yeddi yüz adam oldular. İki bölüyü atlı, bir bölüyü piyada idi. Yeddi yüz adamı idarə edənlərin böyüyü «şad» sayılırdı. «Mənə vəzir ol» dedi. Mən də oldum»… (Tonyukuk abidəsi).

Bu cür təzahür-mətnlərdə konkret tarixi adlar, coğrafiya, rəqəmlər və s. öz əksini tapır, təkrar olunur, siyasi-ideoloji mövqe nümayiş etdirilir.

Müşahidələr göstərir ki, qədim türk tarix mənbələri tarix təfəkkürünün təzahür formalarından hər hansı birinin üstünlüyü və ya aparıcılığı ilə seçilir.

Əgər bir mənbədə tarix təfəkkürünün həm mifoloji, həm epik, həm də realist-praktik təzahürü varsa, onlardan biri üstün və ya aparıcı, digəri (yaxud digərləri) «sitat» xarakterlidir. Ancaq bu «sitat» yaxud «sitatlar» ümumi mətnin ayrılmaz informativ (və fəlsəfi-metafizik!) tərkib hissəsidir.

Məsələn:

«Yuxarıda mavi göy, aşağıda qara yer yaradılanda, ikisinin arasında insan övladı yaradıldı. İnsan övladı üzərində əcdadlarım – Bumın xaqanla İstəmi xaqan hökmran oldular. Və hökmran olub Türk xalqının dövlətini, törəsini (qanun-qaydalarını) dirçəltdilər, qorudular… Dörd tərəf düşmən idi. Ordu çəkib dörd yandakı xalqı özlərinə tabe etdilər.

Başı olanı baş əyməyə, dizi olanı diz çökməyə məcbur elədilər»… *(Kül tiqin abidəsi).*

Və beləliklə, qədim türklərin tarix təfəkkürü birinci təzahür formasında dini-metafizik (fəlsəfi), ikincidə bədii-estetik, üçüncüdə isə siyasi-ideolojidir.

## 5.Qədim türk dili

Qədim türk və ya ümumtürk dili, artıq qeyd olunduğu kimi, Altay dilinin türk, monqol və tunqus-mancur dillərinə diferensiasiyası nəticəsində meydana çıxmışdır.

Ən azı üç min illik şifahi ənənədən sonra eramızın I minilliyinin ortalarında türk dili özünün zəngin yazı mədəniyyətini təqdim edir ki, bu, bir sıra nüfuzlu tədqiqatçıların güman etdiklərinin əksinə olaraq, təsadüfi deyil. Çünki olduqca mükəmməl qədim türk (run) yazısı bir neçə əsrdə təşəkkül tap bilməzdi. Və qədim türk yazı dilinin yüksək fonetik, leksik və qrammatik normativlik səviyyəsini, üslub imkanlarını da nəzərə alsaq, etiraf etməliyik ki, bu nitq təzahürünün bir neçə min illik tarixi vardır.

Qədim türk (run) yazısı ilə əlaqədar türkologiyada üç mühüm məqama xüsusi diqqətyetirilir:

1) əlifbanın (işarələrin) türk dilinin fonetik (səs) quruluşunu dolğun şəkildə əks etdirməsi;

2) qədim türk (run) yazısının Sibirdən Şərqi Avropaya qədər ucsuz-bucaqsız bir coğrafiyada yayılması (müqayisə üçün xatırladaq ki, adətən, bu cür yazılar lokal xarakter daşıyır, bu qədər geniş ərazini əhatə etmir);

3) ayrı-ayrı işarələrdə özünü göstərən qrafik variantlılıq və ya «dəst-xətt» fərqləri.

Bunlar göstərir ki, qədim türk yazısı, bir tərəfdən, türklər arasında geniş yayılmış, əgər belə demək mümkünsə, kütləvi səciyyə daşımış, digər tərəfdən isə, onların etnoqrafiyasının, məişətinin, təfəkkür mədəniyyətinin çox dərin (qədim!) qatları ilə bağlı olmuşdur. Halbuki həmin mülahizəni qədim türklərin istifadə etdikləri digər əlifbalar (məsələn, hətta müəyyən çevrədə geniş yayılmış türk-uyğur əlifbası) barədə söyləmək olmaz.

Qədim türk (ümumtürk) dili aşağıdakı fonetik, leksik və qrammatik xüsusiyyətlərə malikdir:

### Fonetik xüsusiyyətlər

1) Qədim türk dilinin fonetik (səs) tərkibi belədir:
*saitlər* – a, ı, o, u, e (ə), i, ö, ü;
*samitlər* – b, ç, d, ğ, k, k[1], q, l, m, n, ŋ, p, r, s, ş, t, y, z.

2) saitlər ahəngi mövcuddur: *kağan, kara, yablak, biliq, ilqərü, sünqü, sakın, başla, biti, erti, kəlti* və s.

3) sözün kökü, əsasən, birhecalı olub CVC (samit+ sait+ samit) strukturuna malikdir: *taş, kop, köl, bol, yok, bir, yir, yış, boz, bəq, kız. kör, tağ, yat və s.; lakin istisnalar da az deyil: iç, al, uç, at, kisi, sü, öl, tiqin, bodun, yağı, altı, yeqirmi, tenqri, artuk* və s.

### Leksik xüsusiyyətlər

1) Qədim türk dilində sözlərin mütləq əksəriyyəti Altay-türk mənşəlidir, az sayda Çin, İran alınmalarına rast gəlinir;

2) lüğət tərkibi leksik-semantik baxımdan a) adlar, b) feillər və c) köməkçi sözlərə bölünür;

3) ümumi sözlərlə yanaşı, xüsusi adların (antroponim, toponim, etnonim və s.) geniş işləndiyi müşahidə edilir ki, bunların əksəriyyəti etnik mənşəlidir: Bumın, İstemi, Tonikuk, Bilgə, Kül, Temirkapığ, Ötükən, Ertis, Köqmən, Tabğaç, Tüpüt, türk, oğuz, apar, kırkız və s.

### Qrammatik xüsusiyyətlər

1) Qədim türk dili aqqlütinativ (iltisaqi) quruluşa malikdir; hal, mənsubiyyət, kəmiyyət və xəbərlik kateqoriyaları mövcuddur;

2) həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçilər geniş yayılmışdır;

3) əsasən, sadə cümlələrdən istifadə olunsa da, həmin cümlələr, adətən, feli sifət və feli bağlama tərkibləri, həmcins üzvlərlə «mürəkkəbləşdirilir»; məsələn: *Tenqri təq tenqridə bolmış türk bilqə kağan bu ödkə olurtım... Eçim kağan olurtukda özüm tarduş bodun üzə şad ertim... İlqərü Kadırkan yışığ aşa bodınığ ança kopturtımız, ança itdimiz, kurığaru Kenü Tarmanka təqi türk bodınığ ança konturtımız, ança itdimiz...*

Bununla belə mürəkkəb cümlə strukturlarına da təsadüf edilir: Üze tenqri basmasar, asra yir təlinməsər, türk bodun, ilinqin, törünqin kim artatı?.. Anta ayığ kisi ança boşğurur ermis: *Irak ersər, yablak ağı birür; yağuq ersər, edqü ağı birür, -tip ança boşğurur ermis...*

Qədim türk (run, eləcə də uyğur) yazılarının dili, üslubu göstərir ki, o, hansısa dialekt təzahürü deyil, kifayət qədər mükəmməl bir ədəbi dil hadisəsidir.

Qədim türk dilinin köklərinin hansı minilliklərdən gəlməsi məsələsi türkologiyada mübahisəli olsa da, müəyyən təxminlər mövcuddur. Geniş yayılmış ənənəyə görə, «türk dillərinin tarixi» (əslində, «türk dilinin tarixi» olmalı idi, çünki qədimə getdikcə «dillər» anlayışı özünü doğrultmur) aşağıdakı dövrlərə bölünür:

I. Altay dövrü.

II. Hun dövrü.

III. Qədim türk dövrü.

IV. Orta türk dövrü.

V. Yeni türk dövrü.

VI. Ən yeni türk dövrü.

Həmin dövrləşdirmə müəyyən qədər təkmilləşdirilərək aşağıdakı şəkildə də verilir:

I. Ən qədim türk dövrü (e.ə. IV minillikdən V əsrə qədər).

II. Qədim türk dövrü (V əsrdən X əsrə qədər).

III. Orta türk dövrü (X əsrdən XVI əsrə qədər).

IV. Yeni türk dövrü (XVI əsrdən XX əsrə qədər).

V.Ən yeni türk dövrü (müasir dövr).

Bu bölgünün əsas nöqsanı ondadır ki, birbaşa türk dilinin təkamül tarixinə əsaslanmaq əvəzinə gah ümumi zaman xronologiyasını, gah siyasi-ictimai hadisələri, gah da «tarixdə qalmış» müasir türk dillərinin (məsələn, N.A.Baskakovun təcrübəsində özünü daha çox göstərdiyi kimi, çuvaş dilinin) materiallarını nəzərə almaqla mətləbdən (mahiyyətdən), prinsip etibarilə, yayınır.

Mətləb (və mahiyyət) isə bundan ibarətdir ki,

a) türk dili Altay dilinin (dil birliyinin) diferensiasiyası (təbii bölünməsi) nəticəsində (və təxminən e.ə. III, yaxud IV minillikdə) təşəkkül tapmışdır;

b) eramızın I minilliyinin ortalarında özünün mükəmməl fonetik, leksik və qrammatik quruluşu, üslub imkanlarının genişliyilə seçilən (və yazılı mənbələrdə təfsilatı ilə təzahür edən) türk dili mövcuddur;

c) müasir türk dilləri orta əsrlərdə həmin qədim türk (ümumtürk) dilinin, öz növbəsində, diferensiasiyasının (təbii bölünməsinin) məhsuludur.

Odur ki, məsələni mürəkkəbləşdirməmək və ya dolaşdırmamaq üçün hələlik a) konkret zaman, b) siyasi-ictimai proses və 3) əsaslandırılmamış müqayisə prinsiplərini bir yana qoysaq, türk dili tarixini aşağıdakı kimi dövrləşdirmək mümkündür:

I. Altay dilinin diferensiasiyası nəticəsində türk dilinin təşəkkülü prosesi.

II. Türk dilinin müstəqil bir ünsiyyət vasitəsi olaraq əvvəl şifahi, sonralar isə həm də yazılı mövcudluğu.

III. Türk dilinin müstəqil (və müasir) türk dillərinə diferensiasiyası.

Bu dövrləşdirmə, ilk növbədə, ona görə doğru (və məntiqli) sayıla bilər ki, həm keçmişə (retrospektiv), həm də gələcəyə (prostpektiv) münasibətdə türklərin ən mühüm dil-ünsiyyət təzahürünün – qədim türk (ümumtürk) dilinin varlığına istinad edir.

Fikrimizcə, Altay dilinin diferensiasiyası prosesi ən geci e.ə. III minillikdə başa çatmış, yeni bir dil-türk dili formalaşmışdır ki, bu dilin tarixinin təxminən üç min illik «yazıyaqədərki dövrü» olmuşdur. Və görünür, «yazıyaqədərki» türk dili eramızın I minilliyinə aid «yazı dili»nin bilavasitə varisi olaraq ondan keyfiyyətcə fərqlənməmiş, yalnız müəyyən kəmiyyət fərqlilikləri nümayiş etdirmişdir. Hər şeydən əvvəl ona görə ki, yazıyaqədərki türkcədə zəngin ədəbiyyatın (xüsusilə eposların) yarandığı məlumdur.

Qədim türk (ümumtürk) dili I minilliyin sonu II minilliyin əvvəllərindən etibarən 1) oğuz, 2) qıpçaq və 3) karluq türkcələrinə bölünmüşdür.

## 6.Qədim türk ədəbiyyatı

Türk ədəbiyyatı eposla başlayır…

Qədim türk eposu bir neçə min illik mifoloji-epik düşüncə axtarışlarının nəticəsi olaraq eramızdan əvvəl I minilliyin ortalarında formalaşmışdır. Xalqın mədəniyyət tarixində xüsusi hadisə olan həmin dövrə qədər türk ədəbi-fəlsəfi təfəkküründə hansı ictimai-kulturoloji idrak proseslərinin getdiyi barədə məlumatlar ya çox azdır, ya da ümumidir. Lakin bir məsələ məlumdur ki, qədim türk eposunun əsasında protürk-türk mifologiyası dayanır. Və artıq qeyd etdiyimiz kimi, protürk-türk mifolo-

giyası konkretlikdən ümumiliyə (mücərrədliyə) doğru inkişaf etmiş, bu ideya-mənəvi təkamül prosesi türk təfəkkürünü, xüsusilə onun qabaqcıl səviyyəsini tanrıçılığa gətirib çıxarmışdır. Tanrıçılıq türk eposunun ifadə texnologiyasının zənginləşməsi ilə təkmilləşmiş, onun (eposun) ideya-məzmun əsaslarını müəyyənləşdirən generator olmuşdur. Tanrıçılıq dünyagörüşünün müəyyənləşməsi ilə ona qədərki bütün etnik-ideoloji idrak formaları tanrıçılığa tabe olur, mifologiya bundan sonra məhz haqqında söhbət gedən mükəmməl dünyagörüşünün (tanrıçılığın) "məntiqi" ilə yaşayır, onu tamamlayır. Müşahidələr göstərir ki, qədim türk cəmiyyətində kütləvi düşüncədən fərqli olaraq, "professional" düşüncə (yuxarı silkin, cəmiyyətin yüksək təbəqələrinin düşüncəsi) daha çox tanrıçılığa əsaslanır.

Qədim türk eposu ilə təxminən eyni dövrdə təşəkkül tapan, türkçülük təfəkkürünün ideya-məzmun əsasını təşkil edən tanrıçılıq elə bir mükəmməl ideoloji-mənəvi sistemdir ki, qədim türk mədəniyyətini (o cümlədən ədəbiyyatını) həmin sistemdən kənarda izah etmək mümkün deyil. Çünki qədim türk idrakının ən böyük əsəri həmin idrakın gəlib çıxdığı "Tanrı" ideya-obrazıdır ki, türk varlığı onu bütün potensial imkanı ilə yaratmış, ən azı min illik (e.ə. I minilliyin ortalarından eramızın I minilliyinin ortalarına qədər) ictimai-mənəvi həyat təcrübəsinin etnik (univesal) idrak metodologiyasına çevrilmişdir.

Tanrı göylər aləmi ilə bağlıdır, lakin türkün yaşadığı torpağın da, cəmiyyətin də, qəbilənin də taleyini Tanrı müəyyənləşdirir. Əgər Tanrı istəməsə, kimsə türk cəmiyyətinin hökmdarı (kağanı) ola bilməz. Ona görə də türklərdə həm də hökmdar kultu mövcud olmuş, hətta tanrıçılığın tənəzzülündən sonra da yaşamışdır.

Ola bilsin ki, tanrıçılıq özünəqədərki mifoloji dünyagörüşünü tamamilə inkar etmək gücündə olmamışdır. Lakin o, mahiyyət etibarilə, türk düşüncəsində, ən azı, təkallahlığın ərəfəsi idi. Türküstanda geniş yayılmış əfsanəyə görə, Allahın rəsulu Məhəmməd meraca çıxdığı gecə peyğəmbərlər arasında tanımadığı bir şəxsi görmüş və Cəbrayıldan onun hansı peyğəmbər olduğunu soruşmuşdu. Cəbrayıl cavab vermişdi ki, o, peyğəmbər deyil, 333 il sonra Türküstanı dinimizə döndərəcək Satıq Buğra xanın ruhudur...

Türklərin İslamı qəbul etdiyi dövrün tarixçiləri yazırdılar ki, türklər həmişə tək bir Tanrıya inanır, ərəblərin də eynilə bir Allaha inanmaları onları islama yaxınlaşdırırdı.

Qədim türk mifologiyası ümumtürk eposunda tanrıçılıq qədər böyük rol oynamamışdır və oynaya də bilməzdi. Mükəmməl epos təfəkkürü üçün tək bir Tanrı (tək bir hökmdar, tək bir qəhrəman!..) lazım idi. Ona görə də qədim türk eposunun (müxtəlif mənbələrdə bu və ya digər şəkildə mühafizə olunmuş dastanların) əsas qəhrəmanları "Tanrı" obrazının transformları olan hökmdar-qəhrəmanlardır ki, onların iradəsi həmin dastanı yaradan epos təfəkkürünün (xalqın, etnosun, etnik-mədəni sistemin və s.) bilavasitə iradəsidir. Tanrı türk insanını, türk cəmiyyətini, türk dövlətini (və türk hökmdarını) hifz edir.

Qərbdə əvvəl xristianlığın, sonra islamın, Şərqdə islamın (oğuzlar arasında), buddizmin və maniçiliyin (karluq-uyğurlar arasında) yayılması qədim (ümum-) türk eposuna həmin dinlər – dünyagörüşlərilə əlaqədar müəyyən motivlər, ideyalar gətirir. Əsasən V–X əsrlərdə baş verən beynəlxalq mənəvi-ideoloji kontaktların nəticəsində türk eposu Şərqdə Çin-Tibet, Hind-İran,

ərəb, Qərbdə isə german, skandinav, slavyan eposları ilə qarşılaşır.

Beləliklə, qədim türk eposunun zənginliyi, ideya-estetik mükəmməlliyi tanrıçılığın fəlsəfi idrak imkanlarının genişliyi ilə, türklərin tarixinin, iqtisadi, ictimai və siyasi həyatlarının zənginliyi, çoxtərəfliliyi, fəallığı ilə, nəhayət, onların Altaydan Avropanın içərilərinə qədər geniş bir coğrafiyada, müxtəlif xalqlarla, etnoslarla fəal əlaqədə olub ümumdünya proseslərində ardıcıl iştirak etmələri ilə bilavasitə bağlıdır. Məhz bütün bunların vəhdətdə təsirinin nəticəsidir ki, qədim türk epik ənənəsi həm Şərq, həm də Qərb xalqlarının epos təfəkkürünə, ədəbiyyatına, mədəniyyətinə təsir göstərməklə yanaşı, xüsusilə I minillikdə, Şərq epik-mədəni ənənələrinin Qərbə daşınmasında çox mühüm rol oynamış, təxminən min il ərzində Şərqlə Qərb arasında əsas mənəvi-kulturoloji ötürücü olmuşdur.

Qədim türk epos təfəkkürünün müxtəlif mənbələrdə zəmanəmizə qədər gəlib çıxmış əsas əsərləri mətnşünaslıq səciyyəsinə, mühafizə olunma üsuluna görə bir-birlərindən fərqlənir: onların çox az bir hissəsi uzun zaman şifahi şəkildə xalq arasında dolaşmış, yalnız son dövrlərdə yazıya alınmışdır; əksər hissəsi isə orta əsrlərdə türk və ya qeyri-türk dilli mənbələrə səpələnmiş, həmin mənbələrdə ya bilavasitə əks olunmuş, ya da mətndə "gizlədilmiş" (məsələn, Ə.Firdovsinin "Şahnamə-"sində olduğu kimi) dir – türk epos təfəkkürünü (onun mətnlərini) bərpa etmək işi elmi vəzifə kimi bu gün də qarşıda dayanmaqdadır.

Qədim türk dastanları, əsasən, e.ə. I minilliyin ortalarından meydana çıxsa da, epos ənənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etik-estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır. Aparıcı

ovqat, dünyagörüşü, etnik-ictimai emosiya isə məhz dastanların formalaşdığı dövrə aiddir.

“Qədim türk eposu” bir anlayış kimi bir də ona görə şərtidir ki, onun təzahür formalarının həcmi, mənzum, yaxud mənsur formada olması, dil-üslub xüsusiyyətləri barədə konkret məlumat yoxdur; artıq qeyd edildiyi kimi, mənbələrdə həmin əsərlərin, əsasən, “qısa məzmunu” və ya “süjet”i mühafizə olunmuşdur. Belə məzmun və süjetlərin özü də bir sıra hallarda ya tam deyil, ya da “müasirləşdirilmiş”, müəyyən məqamları təhrifə məruz qalmışdır. Çin və ya İran mənbələrində mühafizə olunmuş qədim türk dastanlarında (əslində, dastan süjetlərində) nəinki bir sıra motivlər, hətta adlar belə dəyişikliyə məruz qalmış, türk adları Çin və ya İran adları ilə əvəz edilmişdir... Bütün bunlarla bərabər, qədim türk dastanları qədim (ümum-) türk eposunu “rekonstruksiya” etmək üçün yeganə mühüm mənbələrdir.

Əlbəttə, epos (eləcə də qədim türk eposu) sadəcə dastan deyil, aparıcı etnik-milli ideyanın təzyiqi ilə müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünün əsaslarını (və incə nüanslarını) bütövlükdə ifadə edən möhtəşəm dastan-potensiyadır. Onu tam halında bərpa etmək olmaz, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnologiya və s. Komponentlərin üzvü vəhdətini tələb edir.

Qədim türk mifoloji dünyagörüşünün (və epos təfəkkürünün) ilk mükəmməl məhsullarından olan Düyanın yaranması haqqında təsəvvür – dastanı XIX əsrdə böyük türkoloq V.Radlof Altaydan yazıya almışdır. Yarandığı dövrdən iki-üç min il sonra yazıya alınmasına baxmayaraq, dastan qədim ideya-məzmun xüsusiyyətlərini, demək olar ki, bütünlükdə mühafizə etmişdir. Bu

isə islamı (eləcə də başqa dinləri kütləvi şəkildə) qəbul etməmiş Altay türklərinin yeni dövrdə də hələ qədim zamanların ideoloji "əhval-ruhiyyə"si ilə yaşamaları nəticəsində mümkün olmuşdur.

Mifik dünyagörüşün təsiri altında olan dastanda qədim türklərin (hətta prototürklərin) dünyanın yaranması barədə epik təsəvvürü əks olunmuşdur. "Xaosdan kosmosa" məntiqinə əsaslanan həmin təsəvvürə bu və ya digər şəkildə dünya xalqlarının çoxunun düşüncə tarixində təsadüf olunur.

Qədim türklər inanır ki, dünyanın (kosmosun) təşəkkülündə Tanrı Qara xanın (ideyanın!) rolu aparıcıdır. Ancaq, görünür, o, bu dünyanı yalnız xeyirxah düşüncələr, əməllər dünyası kimi yaratmaq iqtidarında deyil – Tanrı Qara xan hadisələrə ancaq o halda müdaxilə edir ki, bədxahlıq xeyirxahlıqdan yüksəyə qalxmaq, dünyanı idarə etmək, "kosmos"a hökm eləmək iddiasına düşür. Ümumiyyətlə isə, varlıq Ağ Ananın hökmü, Tanrının (ideyanın!) iradəsi ilə yaranmışdır.

Türklərin törəyişi haqqındakı təsəvvür-dastanlar (Boz Qurd dastanları), çox güman ki, Dünyanın yaranması haqqındakı mifoloji-fəlsəfi-bədii düşüncə-konsepsiyadan sonra formalaşmışdır. E.ə. I minilliyin ortalarında təşəkkül tapdığını güman etdiyimiz həmin təsəvvür-dastan Göytürk dövründə (eramızın I minilliyinin ortalarından sonra), tarixi ideya-məzmununa ciddi xələl gəlmədən yenidən dirçəlmişdir. Dastanın iki variantı Göytürk, onlardan daha fərqli üçüncü variantı isə Uyğur dövrünə aiddir. Hər üç mətn Çin mənbələrində təsbit olunsa da, dastanların əsas motivlərinə orta əsrlər türk mənbələrində də təsadüf edilir.

Oğuz kağan dastanı qədim türk eposunun ən mükəmməl təzahürlərindən biri, bəlkə də birincisidir. Das-

tanın e.ə. I minilliyin sonlarında formalaşdığını güman etmək olar. Eramızın birinci minilliyində türklər arasında geniş yayılmış, təxminən həmin minilliyin sonu II minilliyin əvvəllərindən etibarən daha çox oğuz türklərinin epik tarixi funksiyasında çıxış etsə də, mənşəyi, tipologiyası baxımından ümumtürk miqyaslı hadisədir.

Oğuz kağan dastanının ideya-məzmunu, poetik xüsusiyyətləri barədə kifayət qədər təsəvvür yaradan aşağıdakı əsas yazılı mənbələr mövcuddur: təxminən XIII əsrdə uyğur əlifbası ilə Türküstanda yazılmış kiçik bir mətn (əvvəldən də, sondan da naqisdir), F.Rəşidəddinin XIV əsrə aid farsca "Came ət təvarix" kitabında böyük bir hissə, bizə gəlib çıxan nüsxəsi XVI əsrə aid (XI əsr mənbəsindən üzü müəyyən redaktə ilə köçürülən) "Kitabi–Dədə Qorqud", XVII əsrdə Əbülqazi xan Xivəlinin yazdığı "Şəcəreyi-tərakimə" və s. Oğuz kağan Tanrı mənşəlidir, mərkəzləşmiş türk cəmiyyətinin (dövlətinin) epik yaradıcısı, hökmdarı və hamisidir. Onun Tanrı mənşəyi ilə yanaşı Tanrı tipologiyası da vardır ki, bu da özünü, hər şeydən əvvəl, göy qızları ilə evlənməsində göstərir. Oğuza (və onun xalqına) yol göstərən, onu düşmən üzərində qələbəyə aparan, türklərin Dünya dövləti yaratmasına kömək edən Göy (Boz) Qurd da Oğuzun bilavasitə Tanrı himayəsində olduğunun ifadəsidir.

Oğuz kağan dastanının türk epik ənənəsində həm ideya-estetik, həm də forma-poetik baxımdan möhkəm yer tutması dastandan bəhs edən, demək olar ki, bütün araşdırmalarda qeyd olunmuşdur. Türk epos təfəkkürünü, görünür, Oğuz kağan dastanı (yaxud dastanları) qədər sistemli əks etdirən, bu dərəcədə mükəmməl bir əsərə təsadüf etmək çətindir.

Türk törəyiş təsəvvür-dastanlarının, Oğuz kağanın ideya motivləri əsasında I minilliyin ortalarına qədər

formalaşdığını güman etdiyimiz Siyenpi dastanı II əsrdə yaşamış Siyenpi hökmdarı Tanşe Hoay yabqunun qeyri-adi (ilahi!) doğuluşu, qəhrəmanlağı barədədir. Çin mənbələrində qısa məzmunu qorunub saxlanmış bu dastanın bir variantının da V.Radlof tərəfindən Altay türklərindən yazıya alınması göstərir ki, o, türklərin yaddaşından uzun zaman silinməmişdir.

Alp Ər Tonqa dastanı ən geci e.ə. I minilliyin sonlarında formalaşmış olsa da, həmin dastandan türkcə çox az şey, yalnız M.Kaşqari "Divan"ında qeydə alınmış məşhur ağı qalmışdır. Ancaq güman edilir ki, Turan hökmdarı Alp Ər Tonqa (Assuriya mənbələrində Maduva, Herodotun "Tarix"inda Madyes, İran mənbələrində Əfrasiyab) haqqında həm turanlılar (əslində, türklər), həm də iranlılar arasında xüsusi dastan təşkil edəcək qədər əfsanələr, rəvayətlər dolaşmış, Ə.Firdovsi "Şahnamə"ni yazarkən İran mənbələri ilə yanaşı, türk mənbələrindən də istifadə etmişdir. Ə.Firdovsiyə, haqqında söhbət gedən mövzuda əsər yazmağı sifariş verən türk hökmdarı Sultan Mahmud Qəznəvi həmin mövzunun türklər üçün şərəf gətirən hadisələrdən bəhs etdiyini bilirdi, "Şahnamə" müəllifinin iranpərəst mövqe tutduğunu gördükdə isə qəzəblənmiş, şairi mükafatlandırmaqdan, tamamilə təbii olaraq, imtina etmişdi.

Alp Ər Tonqa dastanı "Şahnamə" müəllifi tərəfindən "təhrif edilsə" də, burada türk hökmdarı Alp Ər Tonqanın cahangirlik ehtirasları, vətənpərvərliyi, haqq-ədalət (dünya nizamı) uğrunda mübarizəsi və s. heç də sonacan itirilməmişdir. Tanrının iradəsi ilə hərəkət edən hökmdar, nəticə etibarilə, taledən qaça bilmir, bədxahlıqla öldürülür və "dünya yiyəsiz, sahibsiz qalır".

Dastanda qədim türklərin geniş coğrafi təfəkkürü, dünyada gedən miqyaslı ictimai-siyasi proseslərə nəzarət

edə bilmək bacarığı, dövlətçilik təsəvvürləri və s. əks olunur.

M.Kaşqari "Divan"nındakı parçalar göstərir ki, Alp Ər Tonqa dastanı iri həcmli mənzum bir əsər imiş, çox güman ki, I minillyin sonu II minilliyin əvvəllərinə qədər türklər arasında onun müəyyən hissələrini, yaxud hamısını əzbər bilən ozanlar olmuşdur.

Şu dastanı Makedoniyalı İsgəndərin Türküstana yürüş etdiyi dövrün hadisələrindən bəhs edən, görünür, e.ə. I minilliyin sonu eramızın ilk əsrlərində ümumtürk eposu əsasında formalaşmış bir əsərdir ki, ondan rəvayətlər şəklində müəyyən hadisələr M.Kaşqari "Divan"ında öz əksini tapmışdır.

Qədim türk dastanlarında, əfsanələrində Makedoniyalı İsgəndərlə bağlı əhvalatlara təsadüf olunması dünyanın böyük cahangirinin yürüşlərinə, yəni konkret tarixi hadisələrə türk epos təfəkkürünün reaksiyasını göstərir: həmin reaksiyanın məzmununu bu cür ümumiləşdirmək olar ki, Makedoniyalı İsgəndər nə qədər məğlubedilməz sərkərdə, nə qədər müdrik hökmdar olsa da, türk dünyası üçün "gəldi-gedərdir", ona görə də Şu dastanının qəhrəmanı İsgəndərin gəlişini laqeyd qarşılayır, xüsusi bir tədbir görməyi mənasız sayır. Və ümumiyyətlə maraqlıdır ki, qədim dövrlərdən gələn ənənəyə uyğun olaraq, ilk orta əsrlər türk təfəkküründə (eləcə də sonralar) qədim dünyanın böyük cahangirinə münasibət kifayət qədər müsbət olmuş, dahi mütəfəkkir Nizami Gəncəvi də "İsgəndərnamə"ni həmin ənənənin təsiri altında yaratmışdır.

Ərgənəkon dastanı təxminən I minilliyin ortalarında formalaşmışdır. Dastanın məzmununu XIV əsrdə F.Rəşidəddin, XVII əsrdə isə Əbül Qazi xan danışır.

Türklərdə Ərgənəkondan çıxmaq yazın gəlişi ilə əlaqələndirilmiş, bu tarixi hadisəylə bağlı möhtəşəm mərasim yaranmışdır. Həmin mərasimdə dəmir döymək, yəni dəmirçiliyin müqəddəs (xilasedici) bir sənət olduğunu nümayiş etdirmək adəti zəmanəmizə qədər gəlib çıxmışdır.

Uyğur türklərinin mifoloji, tarixi-estetik düşüncəsinin məhsulu olan Köç dastanı onların Ötükəndən Tarım hövzəsinə köçmələrindən bəhs edir. Dastanın bir variantı Çin, digəri İran mənbələrində qorunub saxlanmışdır.

Qədim türk şerinin əsasını ruhu, məzmun-mündəricəsi etibarilə qədim türklərin özlərinəməxsus mənəvi ovqatını, sosial psixoloji maraqlarını əks etdirən lirika təşkil etsə də, müxtəlif dini-ruhani görüşlərin təsiri ilə yaranmış, lakin türk dilinin poetik imkanlarını təzahür etdirən nümunələr də kifayət qədər geniş yayılmışdır. Ümumiyyətlə, qədim türk hökmdarlarının saraylarında poeziyaya nə qədər yüksək qiymət verildiyi barədə əhəmiyyətli tarixi məlumatlar vardır; məsələn, Bizans elçisi Priskus Hun hökmdarı Atillanın ziyafət verdiyi zaman iki şairin məclisə təşrif buyuraraq hun dilində onun qəhrəmanlığı şərəfinə həsr etdikləri şeirlər oxuduqlarını yazır.

Qədim türk xaqanlarının poeziyaya xüsusi marağını göstərən tarixi faktlar kifayət qədərdir. Ümumiyyətlə, türk xalqının ən qədim zamanlardan başlayaraq şeirə məhəbbəti, şairin (və şeirin) müqəddəsləşdirilməsi sübuta ehtiyacı olmayan bir gerçəklikdir. M.Kaşqari "Divan"ının girişində türklərin müxtəlif əhval-ruhiyyələrə uyğun şerilər qoşub oxuduqlarını ayrıca qeyd etmişdir.

Müşahidələr göstərir ki, qədim türk şeiri biri digərindən həyat tərzi, mənəvi-estetik zövqü, dini-ideoloji düşüncələri etibarilə bu və ya digər dərəcədə fərqlənən

şərait, yaxud mühitlərdə yaranmışdır ki, bu baxımdan belə bir təsnifat aparmaq mümkündür:

1) obalarda yaranaraq kütlələrin əhval-ruhiyyəsini əks etdirən xalq şeiri;

2) siyasi-mədəni mərkəzlərdə yaranaraq xaqanların, hərb-dövlət xadimlərinin qəhrəmanlığını, müdrikliyini əks etdirən saray şeiri;

3) siyasi-mədəni mərkəzlərdə yaranaraq xalq arasında təbliğinə çalışılan, əsasən, gəlmə dünyagörüşlərini xalqa anlaşıqlı bir texnologiya ilə təqdim edən dini-mistik şeir.

Həmin təsnifat, prinsip etibarilə, qədim türk şeirinin ideya-mövzu imkanlarını da əks etdirir.

Qədim türk poeziyasının yaradıcılarından yalnız az bir qisminin adları ilk orta əsrlər mənbələrində əks olunsa da, həmin poeziyanın ideya-estetik zənginliyi göstərir ki, onların sayı bizə məlum olanlardan bir neçə dəfə çox imiş. Lakin çox təəssüf ki, nə M.Kaşqari, nə ondan əvvəlki, nə də sonrakı toplayıcılar bu məsələyə xüsusi diqqət verməmiş, toplayıb təqdim etdikləri poeziya nümunələrini, bir növ, müəllifsizləşdirilmişlər. Heç ola bilməzdi ki, türk ellərini qarış-qarış gəzən M.Kaşqari türk şairlərinə rast gəlib onlarla görüşməmiş, yaradıcılıqlarını bu və ya digər dərəcədə öyrənməmiş olsun. Tanrıçılıqdan islama keçid dövrünün böyük şair-mütəfəkkiri olan Yusif Xas Hacib Balasaqunlu da "Kutadqu Biliq" əsərində özünəqədərki türk şairlərinin yaradıcılıq təcrübəsindən faydalanmış olmasına baxmayaraq, demək olar ki, onların heç biri haqqında məlumat verməmişdir. Qədim türk şairinin bu cür "talesizliy"i onun fərdi yaradıcılıq fəaliyyətinin mənsub olduğu xalqın poetik dünyagörüşündə tamamilə ehtiva olunması, əgər belə demək mümkünsə, onda əriməsi ilə bağlıdır. Xalqla ruh

yaxınlığı o səviyyəyə çatır ki, fərdi üslub xalqın ümumi yaradıcılıq üslubunun üzvü tərkib hissəsi kimi təzahür edir.

Türk poeziyasının hələlik həm adı, həm də əsərləri məlum olan ilk şairi mani mühitində yetişmiş Aprınçur Tigindir. Onun iki şeirini Turfan yazıları içərisində taparaq A.Le Kok nəşr etdirmişdir. Şerlərdən hər ikisi ilahidir. Maniçi türk poeziyasının yaradıcıları sırasında mənbələr Aprınçur Tiginlə yanaşı başqa bir şairin – Kül Tarkanın da adını çəkir. Lakin onun məlum şeirlərdən hansıların müəllifi olması göstərilmir. Buddist türk poeziyasının nümayəndələrindən isə Ki-Ki, Pratyaya Şiri, Aşıq Tutunq, Çısuya Tutunq, Buyan Kaya Kal, Künçük Iduk Kut, Kamala Ananta Şiri, Sılıq Tigin, Kalım Keyşi, Çuçu və b. adları məlum olsa da (sonuncusu adı M.Kaşqari tərəfindən çəkilən yeganə şairdir, lakin “Divan”da onun yaradıcılığı barədə, demək olar ki, heç bir məlumat verilmir), həmin şairlər ya Aprınçur Tigin kimi, bir neçə şeirin müəllifidirlər, ya da mənbələrdə müəyyən münasibətlə sadəcə adları qalmışdır. Və tamamilə təbiidir ki, bu şairlər xalq arasında, demək olar ki, tanınmamış, onların əsərləri də yalnız müəyyən mühitdə (və müəyyən məqsədlə) yazılıb oxunmuş, yaxud müvafiq dini-mistik musiqinin müşayəti ilə ifa olunmuşdur.

İlk orta əsrlər türk mənbələri təsdiq edir ki, ərəb mənşəli “şeir” sözündən əvvəl türklər bu mənada *koşuq / koşma, takşut / takmak, ır / yır, küq* və s. sözlər işlətmişlər. Həmin söz-terminlər müasir türk dillərində də bu və ya digər fonetik fərqlərlə işlənməkdə davam edir. Türk dilinin fonetik, leksik, qrammatik potensialından ustalıqla istifadə edən qədim türk şairləri müxtəlif funksional poetik modellər yaratmışlar ki, burada əsas texniki diqqət, tamamilə təbii olaraq, alliterasiyanın, heca

tənasübünün, leksik-qrammatik təkrarların, sintaktik paralelizmin (konstruksiya təkrarlarının) gen-bol işlədilməsindən alınan bədii intonasiyaya, ritmə verilir.

Qədim türk şerinin həm məzmun, həm də forma xüsusiyyətlərini əks etdirən ən etibarlı mənbə, heç şübhəsiz, M.Kaşqarinin "Divani-lüğət it-türk"üdür. Burada verilmiş nümunələrdən görünür ki, qədim türk şeirinin heca (təqti) bölgüsü əsasən 4+4 (yaxud 3) dür. Bir-biri ilə qafiyələnən üç misra şeirin əvvəlki və sonrakı bəndlərinin sonuncu misralarıyla qafiyələnən "sərbəst"-aparıcı misra ilə tamamlanaraq həm məzmun, həm də formaca bütöv bir period (bənd) təşkil edir. Şerin poetexnoloji sistemini (bütövlüyünü) də məhz son misraların harmoniyası təmin edir. M.Kaşqari "Divan"ında pərakəndə halda verilərək, hansısa türk sözünün mətndə işlənmə xüsusiyyətini nümayiş etdirmək üçün nümunə gətirilmiş müxtəlif bəndlərin hansı şeir mətninə aid olması da həmin ümumi harmoniya prinsipi əsasında müəyyənləşdirilmişdir.

Lakin qeyd etmək lazımdır ki, qədim türk şeirinin tarixən müəyyənləşmiş həmin quruluş tipologiyası əsas olsa da, burada qafiyələnmənin misra əvvəlində təzahürünə, bəndin müxtəlif sayda misralardan təşkilinə, heca (təqti) bölgüsündə müxtəlif improvizasiyalara, yaxud az-çox sabitləşmiş fərqli qəliblərə də meydan verilir.

Qədim türk poeziyası barədə danışarkın onun yaranmasında, ifasında musiqinin əhəmiyyətini ayrıca qeyd etmək lazımdır. Müxtəlif yazılı mənbələrdə qorunub saxlanmış şeir nümunələrinin poetexnologiyası aydınca göstərir ki, musiqi onların ritminin, intonasiyasının qurulmasında mühüm rol oynamış, həmin şeir nümunələri yazıya alınarkan musiqinin tələbi ilə müəyyənləşmiş forma (məsələn, şeirin ideya-məzmunu ilə o qədər də

bağlı olmayan, hətta yazıda bir qədər də qeyri-poetik, yaxud qeyri-estetik görünən misra, bənd təkrarları) imkan daxilində saxlanılmışdır.

E. ə. V əsrdə Çar Skiflər tərəfindən Herodota söylənilmiş (və onun məşhur "Tarix"ində qədim yunanca əks olunmuş) qədim türk (quz-oğuz) eposundan bir parça-bəndi türkoloq Zaur Həsənov qədim türkcəyə tərcümə-rekonstruksiya etməklə qədim türk eposu ilə qə-dim türk şeirinin ideya-estetik (və linqvopoetik) əlaqəsini sübut etməyə çalışmışdır.

Herodotun verdiyi mətnin sətri tərcüməsi:

*Əgər siz, quşlar kimi göyə uçmasanız,*
*Əgər siçanlar kimi yerə girməsəniz,*
*Əgər qurbağa tək bataqlığa düşməsəniz,*
*Onda bu oxlarla vurulacaq və geri dönəcəksiniz*

*(Herodot, IV, 132).*

Zaur Həsənovun tərcümə-rekonstruksiyası:

*Qalı, qalı, qarğa qalıqa qalımasanız,*
*Qalı, qaraqu qarıma küliməsəniz,*
*Qalı, qurbağa çülimənə qalımasanız,*
*Qalı, çuramlarla qartlanmış qarşı bolmassınız.*

Qədim türk şeirinin zəmanəmizə qədər Çin mənbələrində (və Çin dilində) gəlib çıxan nümunəsi də düşmənin qəfil hücumuna məruz qalaraq yurd-yuvalarından didərgin düşməyə məcbur olmuş hun türklərinin mənəvi ağrısını ifadə edir. Eramızdan əvvəl II əsrə aid türkünün sətri tərcüməsi aşağıdakı kimidir:

*Yençi-şan dağını itirdik,*
*Qadınlarımızın gözəlliyini əlimizdən aldılar.*
*Silan-şan yaylalarını itirdik,*
*Heyvanlarımızı çoxaldacaq vəsaiti*
*əlimizdən aldılar.*

M.Atsız həmin türkünün poetik tərcümə-rekonstruksiyasını bu cür vermişdir:

*Yençi tağıq yitürdimiz,*
*Katun körkin alturdımız,*
*Silan yışıq kapturdımız,*
*Adqır, koçuq alıp bardı.*

Türklərin sosial-siyasi həyatının üzvü tərkib hissəsi olan müxtəlif miqyaslı, müxtəlif xarakterli müharibələr, döyüşlər, hərbi-etnoqrafik münaqişələr onların ən qədim dövrlərdən bəri xüsusi zövqlə yaratdıqları miflər, dastanlarla yanaşı poeziyanın da əsas mövzusuna çevrilmişdir. Cəsur igidlərin döyüşlərdə göstərdikləri qəhrəmanlığın tərənnümü diqqəti ilk növbədə cəlb etsə də, döyüş, yaxud qəhrəmanlıq türkülərində hərbi münaqişələrin doğurduğu qeyri-adi mənzərələr, döyüşçünün keçirdiyi hisslər də təsvir olunmuşdur. Türk döyüş sənətini bütün incəlikləri ilə əks etdirən bu türkülərin, adı bizə məlum olmayan müəlliflərinin, haqqında bəhs etdikləri hərbi səhnələrin bilavasitə iştirakçısı olduğunu söyləməyə, elə bilirik ki, hər cür əsas vardır.

Döyüş, yaxud qəhrəmanlıq türküləri M.Kaşqarinin "Divan"ında pərakəndə halda verilmiş bənd-nümunələrin ideya-məzmun, poetik forma baxımlarından ardıcıl düzülməsi yolu ilə tərtib edilmişdir. Bu şeirlərin çoxunda mövzu konkret, yəni münaqişə tərəfləri əsasən mə-

lum olsa da, döyüşlərin tarixi müəyyən deyil, odur ki, həmin türkülərin nə zaman yarandığını yalnız təxmin etmək mümkündür ki, bu da I minilliyin ikinci yarısını əhatə edən böyük bir epoxanı təsəvvürdə canlandırır. Bu və ya digər dərəcədə konkretlik özünü onomastikada: etnonim, yaxud etnotoponim (Tanqut, Basmıl, Çomul, Uyğur və s.), hidronim (Ertış – İrtış çayı, İla – İli çayı) və antroponimlərdə (Utar, Katun Sını, Oğraq və s.) də göstərir.

Döyüş, yaxud qəhrəmanlıq türküləri, bir qayda olaraq, döyüş qəhrəmanının dilindən söylənir ki, bu da şeirin həm məzmununa, həm də bədii intonasiyasına müəyyən səmimilik gətirir. Və həmin şeirlərdə müəllif-qəhrəmanın xarakteri açılır. Görünür ki, o yalnız öz el-obasının qoruyucusu olmaqla qalmır, eyni zamanda axın-basqınlara rəhbərlik edir, qənimət ələ keçirir, bir qalib kimi məğlubu qabiliyyətsizlikdə suçlayır, yad dinləri qəbul etmiş həmtayfalarına qarşı daha amansız olub onların tapınaqlarını dağıtmaqdan, müqəddəslərini təhqir etməkdən çəkinmir... Və bu cür hadisə-əhvalat bolluğu həmin türkülərə aydınca seçilən (şeirlərin ritm-intonasiyasına təsir edən) bir axar-süjet gətirir.

Qədim türk poeziyasının həm kəmiyyət, həm də keyfiyyət-sənətkarlıq baxımından əhəmiyyətli bir hissəsi qəhrəmanların ölümünə həsr olunmuş ağılardır. Bunlardan Turan hökmdarı Alp Ər Tonqa, Hun xaqanı Atilla haqqında deyilmiş ağılar qədim türklərin milli dövlətçilik hissələrinin nə qədər güclü olduğunu bir daha təsdiq edir. Həmin şeirlərdə hökmdar-qəhrəmanın tarixi qüdrətindən danışılır, onun ölümü ilə dünyanın yiyəsiz-sahibsiz qallması, ictimai nizamın pozulacağı göstərilir.

Alp Ər Tonqa ağısı böyük Turan hökmdarının şərəfinə yaradılmış dastanın davamı (bəlkə də, sonluğu)

olub M.Kaşğari "Divan"ının müxtəlif səhifələrinə bənd-bənd səpələnmişdir. Böyük hun-türk hökmdarı Attilanın ölümünə həsr olunmuş ağı barədə məlumatı isə VI əsr tarixçisi Yordanes verir. German-qot dilində mühafizə olunmuş həmin ağının sətri tərcüməsini böyük türk ədəbiyyatşünası Fuad Köprülü aşağıdakı şəkildə təqdim edir:

«Hunların ən böyük hökmdarı, Muncukun oğlu, ən cəsur tayfaların başında duran Attila özünə qədər görülməmiş bir qüvvə ilə Skitiya, Germaniya kimi böyük ölkələrə yiyələndi. O, bu böyük ölkələrin bir çox şəhərlərini tutub Romanı qorxuya saldı. Başqa yerlərin də onun pəncəsinə keçəcəyindən qorxan Roma Attilanı yalnız yalvar-yaxarla, hər il verdiyi vergilərlə sakitləşdirə bildi. Bütün bu qəhrəmanlıqlardan sonra o, taleyin xüsusi bir yardımıyla dünyadan getdi. Lakin düşmənlərinin hücumu, yaxud öz adamlarının xəyanətilə deyil, toy-düyün nəşələri içərisində, gücünə heç bir xələl gəlməyən xalqı arasında, ən kiçik bir ağrı-acı belə duymadan dünyadan getdi. Heç bir kəsin intiqam tələb edə bilməyəcəyi bu ölümü təsvir etməyi kim bacaracaqdır?..»

Qədim türklərin təbiətlə, xüsusilə yazın gəlişi ilə bağlı hissləri, duyğuları, əsasən ilin bu çağında keçirdikləri müxtəlif mərasimlər dövrün poeziyasında kifayət qədər geniş əks olunmuşdur. Ümidini təbiətə, onun nemətlərinə bağlayan, təbiət açılanda açılıb, tutulanda tutulan türk cəmiyyəti üçün dağların qarının əriməsi, ucsuz-bucaqsız çöllərin yaşıllaşması, ətrafda ov heyvanlarının çoxalması, at yürüyən, karvan keçən yolların açılması soyuq, insanları ən müxtəlif baxımlardan imtahana çəkən qışdan sonra içdən gələn bir bayram təntənəsi, dünyaya yenidən doğulma idi. Qədim türk şeiri türk insa-

nının bu təbii həyəcanını, hər il eyni həvəslə kükrəyən enerjisini özünəməxsus məharətlə təqdim edir.

Yazın gəlişi ilə əlaqədar keçirilən mərasimlər hələ ən qədim zamanlardan müəyyən dünyagörüşü əks etdirməklə xalqın ətraf aləmi, eləcə də özünün bu aləmdəki yerini dərk etmək üçün əhəmiyyətli ictimai stimul olmuşdur. Çoxlu sayda insanları birləşdirən, müxtəlif yarışmalarla, ümumən qarşılıqlı əlaqələrlə, sənətkarlıq elementləri ilə zəngin olan (və başlıcası, təbii axınla yaransa da böyük ideya-estetik məzmun daşıyan) mərasimlər türk cəmiyyətinin mənəvi-ruhi birliyinin möhkəmlənməsinə əhəmiyyətli təsir göstərmişdir.

Dünya poeziyasının əsas mövzularından biri olan sevgi bir kişinin bir qadına (yaxud əksinə) cinsi istəyindən başlayıb ilahi səviyyəyə qədər qalxan elə bir mənəvi enerjidir ki, onsuz ədəbiyyatı, sənəti təsəvvür etmək, demək olar ki, mümkün deyil. Türk poetik təfəkkürünün ilk gənclik dövründə sevgi türküləri, heç şübhəsiz, zəmanəmizə qədər gəlib çıxanlardan müqayisə edilməyəcək qədər çox olmuşdur. Lakin M.Kaşqari "Divan"ında öz əksini tapan şeir parçaları da göstərir ki, sevgi qədim (və ilk orta əsrlər) türkünün zəngin mənəvi aləminin üzvü tərkib hissəsidir.

Qədim türkləri bir az dost, bir az da düşməncəsinə səciyyələndirən müəlliflər onların xarakterində üç cəhətə zarafatyana önəm verirlər: ət yemək, at minmək və qadın sevmək... Nəzərdən keçirmək imkanımız olan nümunələr təsdiq edir ki, sonuncu cəhət yalnız təbii-cinsi ehtiyacın ödənilməsi mənasında deyil, eyni zamanda yüksək estetik hisslərin, düşüncələrin təzahürü kimi də dərk edilməlidir. Və unutmaq olmaz ki, orta əsrlərin zəngin türk sufi ədəbiyyatının, məhəbbət dastanlarının

ideya-estetik mənbəyində məhz qədim sevgi türküləri dayanır.

Qədim türk şeirinin M.Kaşqari "Divan"ında bu və ya digər dərəcədə öz ifadəsini tapmış müdriklik lirikası, yaxud fəlsəfi lirika istər-istəməz bu barədə ayrıca danışılmasını tələb edir. Həmin şeirlər qədim türk ədəbiyyatının əsasən son dövrlərinə aid olsa da, demək lazımdır ki, türk poeziyasında fəlsəfi düşüncə (müdriklik, ünsürləri ilk mərhələlərdən kifayət qədər əhəmiyyətli yer tutmuşdur. Yusif Xas Hacib Balasaqunlunun məşhur "Kudatqu biliq" i (XI əsr) də həmin mükəmməl ənənələrin bilavasitə davamıdır.

Qədim türk şeirinin I minilliyin ortalarından başlayan, lakin daha çox I minilliyin sonu II minilliyin əvvəllərində geniş miqyas alan ikinci qolu dini-mistik poeziyadır. Və artıq qeyd edildiyi kimi, həmin poeziyanı yaradanların adları da bu və ya digər şəkildə zəmanəmizə qədər gəlib çıxmışdır. Türk dini-mistik poeziyası iki istiqamətdə – maniçi və buddist şeir istiqamətlərində inkişaf etmişdir. Bu şeirlər əsl türk şeirlərindən (türkülərdən) yalnız ideya-məzmununa görə deyil, poetik formasına görə də əsaslı fərqlənir. Ən mühüm fərqlər ondan ibarətdir ki, ikincilərdə 1) həcm böyükdür, 2) bəndlər bəzən dörd yox, səkkiz misradan təşkil olunur, 3) misralar uzundur, 4) qafiyələnmə adətən misranın sonunda deyil əvvəlindədir və s.

Qədim türk dini-mistik şeirlərinin mətnləri XX əsrin əvvəllərində Şərqi Türküstanda (əsasən Turfanda) tapılmış məcmuələrdən götürülərək A. Le Kok, V.Banq, A.fon Qaben, R.R. Arat tərəfindən nəşr edilmişdir. Türk maniçi, yaxud buddist ruhani-mirzələrin uyğur (soqd) əlifbası ilə tərtib etdiyi bu məcmuələr min il ərzində nə qədər yaxşı qorunsa da, müəyyən səhifələri düşmüş, bir

sıra hallarda mətnlər pozulub oxunmaz olmuşdur. Ona görə də qədim türk dini-mistik şeirlərinin bir qismi tam deyil.

Haqqında söhbət gedən şeirlərin nə dərəcədə orjinal olub-olmaması türk filologiyasının mübahisəli məsələlərindən biridir. Və burada bir-birindən əsaslı şəkildə fərqlənən üç mülahizə mövcuddur:

1. Qədim türk dini-mistik poeziyası maniçi, yaxud buddist dini-ideoloji görüşləri bilavasitə təbliğ edən orjinal əsərlərdir.

2. Qədim türk dini-mistik poeziyası maniçi, yaxud buddist dini-ideoloji görüşlərini təbliğ edən qədim hind-sanskrit, İran, Çin, Tibet və s. dillərdə yaranmış zəngin poeziya nümunələrinin qədim türk dilinə bilavasitə tərcüməsidir.

3. Qədim türk dini-mistik poeziyası orjinal maniçi, yaxud buddist poeziyanın ideya-məzmun, poetik-forma tipologiyasının təzyiqi ilə türkcə yaranmış, bir növ, hibrid bir düşüncənin məhsulu olan əsərlərdir. Onları nə tam tərcümə, nə də tam orjinal hesab etmək olmaz.

Lakin bir məsələ tamamilə aydındır ki, qədim türk dini-mistik şeiri konkret ideoloji-təbliği məqsədlə –maniçiliyi, yaxud buddizmi yaymaq məqsədilə qələmə alınmış olsa da, həmin əsərlər sadəcə nəzm deyil, yüksək ədəbi-bədii keyfiyyətə malik olub qədim türklərin bədii-estetik mədəniyyətinin yüksək səviyyəsini bir daha nümayiş etdirir.

Qədim türk ədəbiyyatında şeirdən fərqli olaraq nəsrin ilk nümunələri xeyli gec – I minilliyin ortalarından sonra meydana çıxır. Və müşahidələr göstərir ki, həmin nümunələr öz ideya-məzmun, poetik texnologiya qaynağını qədim türk eposundan alır.

Qədim türk nəsrinin şah əsərləri Göytürk imperiiyasının son dövrlərində – VII əsrin son VIII əsrin ilk onilliklərində Orxon çayı hövzəsində "bənqü taşlar" üzərinə həkk olunmuş kitabələrdir. Yüksək dövlətçilik düşüncəsinin ifadəsi olan bu kitabə-əsərlər qədim türk eposundan gələn mükəmməl ədəbi-bədii təfəkkürün yeni tarixi dövrdəki davamı-inkişafıdır. Kitabələrdə nə qədər konkret tarixi şəxsiyyətlər, hadisələr barəsində danışılırsa danışılsın, mütləq həmin şəxsiyyət və ya hadisələrin qeyri-konkret epik mənşəyindən çıxış edilir, "tarixəqədərki" təsəvvürlərə istinad olunur. Məsələn, Kül tiqinin şərəfinə yazılmış abidədə Göytürk dövlətinin yaranıb formalaşması tarixi barədə söhbət getsə də, mətn qədim türk dastanlarının epik təhkiyəsini, bədii intonasiyasını mühafizə edir. Göytürk dövləti VI əsrin ortalarında formalaşdığı halda həmin abidədə onun (Göytürk dövlətinin) tarixinin az qala dünyanın yaranmasından başladığı göstərilir ki, bu da epos təfəkkürünün "təzyiq"inin nəticəsidir. Və həmin "təzyiq" özünü Göytürk dövlətini yaratmış kağanlardan, onların gördüyü böyük işlərdən, müxtəlif xalqların, tayfaların onların (kağanların) bu dünyadan getməsinə kədərlənməsindən – prinsip etibarilə, olmuş tarixi hadisələrdən danışılanda da göstərir.

Qədim türk (run) kitabələrindəki qəhrəmanlar tarixi şəxsiyyət olsalar da, onların ideya-bədii təqdimatı qədim türk eposundakı qəhrəmanların təqdim üsulunu xatırladır. İltəris kağan da, İlbilqə xatun da, Bilgə kağan da, Tonikuk da, Kül tiqin də real tarixi xidmətləri ilə təsvir olunmalarına baxmayaraq sanki epik qəhrəman taleyi yaşamışlar. Onlar (eləcə də onların obrazını yaradan Göytürk yazıçısı) qədim türk eposunda olduğu kimi yalnız bir Tanrıya inanır, hər bir hadisənin məhz Tanrının

iradəsi ilə baş verdiyinə qətiyyən şübhə etmirlər. Lakin Göytürk kağanları, qəhrəmanları apardıqları müqəddəs mübarizələrin mexaniki iştirakçıları da deyillər, onlar tez-tez dərin siyasi-ideoloji düşüncələrə dalır, xalqın, dövlətin taleyini düşünür, mürəkkəb vəziyyətlərdən çıxış yolu aramaqla hadisələrə istiqamət verməkdən çəkinmirlər. Və o da hiss olunur ki, Göytürk hökmdar-qəhrəmanı tanrıçılığı dini-mistik (fatalist) məzmunda qəbul etməklə yanaşı, onu konkret tarixi fəaliyyətinin, siyasi istəklərinin ideologiyasına çevirmək gücündədir.

Əminliklə demək olar ki, Göytürk nəsrinin, yaxud Göytürk dövrü türk nəsrinin əsas qəhrəmanı Tanrı (və müqəddəs Yer, Su) tərəfindən mühafizə olunan, mənsub olduğu xalqın, yaxud xalqlar birliyinin (dövlətin!) ictimai-siyasi, mənəvi ideallarını müdafiə edən türk kağanı – hökmdarıdır (yaxud şahzadədir). Onun mövcudluğu xalqın xoşbəxtliyi, ölümü isə böyük kədəri kimi təqdim olunur.

Göytürk nəsrinin yaradıcıları barədə məlumatlar yox dərəcəsində azdır: Tonikuk kitabəsini ya Tonikukun özü, ya da onun şəxsi katib-yazıçısı; Kül tiqin, Bilgə xaqan kitabələrini isə, mətnlərin özündə qeyd olunduğu kimi, onların nəslindən olan Yollığ tiqin yazmışdır. Kül tiqin, Bilgə kağan kitabələrinin eyni müəllif (məhz Yollığ tiqin) tərəfindən yazılmasını o da göstərir ki, hər iki kitabə üçün ümumi olan bütöv mətn parçaları, ifadə-obrazlar mövcuddur.

Qədim türk nəsrinin ikinci qolunu Maniçi və buddist dini-mistik əsərlər təşkil edir. Qədim Şərq (İran, sanskrit, Çin, Tibet) dillərindən tərcümə-təbdil edilmiş həmin əsərlərdə türk ideoloji-bədii təfəkkürünün nə dərəcədə, hansı səviyyədə iştirakı mübahisəli olsa da, qədim türk maniçi, yaxud buddist nəsrinin yalnız me-

xaniki çevirmə olduğunu qəbul edərək yüzlərlə yazılı abidədən ədəbi-bədii hadisə kimi imtina etmək düzgün olmazdı. Və onu da nəzərə alaq ki, haqqında söhbət gedən əsərlərin bir qisminin orjinalı əldə edilmədiyindən onların çoxu ümumiyyətlə maniçiliyin, yaxud buddizmin tarixini öyrənmək üçün orjinalı əvəz edəcək mənbələrdir.

Türk maniçi nəsrində ən çox maraq doğuran əsər VIII əsrə aid olduğu güman edilən "Xuastuanift" (Maniçilərin tövbə duası)dır. İran dillərinin birindən tərcümə təbdil edilmiş əsərin müxtəlif əlifbalarla bir neçə nüsxəsinin zəmanəmizə qədər gəlib çatması onun türk maniçilik mühitində müəyyən qədər geniş yayıldığını göstərir. "Nurlu tanrı Mani"nin şərəfinə yazılmış türkcə nəsr əsərləri içərisində tam mətnlərlə yanaşı, çoxlu natamam parçalar, fraqmentlər vardır ki, bu da türk maniçi nəsrinin həm ideya-məzmun, həm də ifadə-forma axtarışlarının şeirdə olduğu kimi intensiv getdiyini təsdiq edir.

Qədim türk buddist nəsrinin ən məhşur abidəsi Şərqi Türküstanın Beşbalıq şəhərindən olan Sınqku Seli Tutunqun X əsrdə Çin dilindən tərcümə-təbdil etdiyi "Altun yaruk" (Qızıl işıq)dır. Əsərin çoxlu nüsxələri mövcuddur. Buddizmin əsaslarını təbliğ etmək məqsədilə qələmə alınmış "Altun yaruk" ədəbi-bədii baxımdan da diqqəti çəkir.

Qədim türk buddist nəsrinin onlarla, hətta yüzlərlə orjinal, yaxud qeyri-orjinal nümunələri dünyanın müxtəlif kitabxanalarına səpələnmişdir.

# III BÖLMƏ

# TÜRKLƏRİN DİFERENSİASİYASI

## 1.«Türklərin diferensiasiyası» anlayışı

Türklər Altayların diferensiasiyasının nəticəsində təşəkkül tapdıqları kimi, türk xalqları da qədim türklərin coğrafi, siyasi, mədəni və s. şərtlər altında bölünməsinin məhsuludur. Və e.ə. I minilliyin ortalarından başlayan bu proses eramızın II minilliyinin ortalarında başa çatmışdır.

Türklərin diferensiasiyasının və ya müxtəlif xalqlara bölünməsinin biri digəri ilə sıx bağlı olan təzahür paradiqmaları, yaxud səbəbləri içərisində aşağıdakılar daha əsasdır:

a) məskunlaşma və ya «yurd» paradiqması;

b) siyasi-ictimai təşkilatlanma və ya dövlətçilik paradiqması;

c) dil və ya ünsiyyət paradiqması.

d) din və ya dünyagörüşü paradiqması.

Ümumiyyətlə, etnosun müxtəlif xalqlara bölünməsində universal qanunauyğunluqlar mövcuddur. Və german, roman, slavyan etnosları da, türklər kimi, həmin qanunauyğunluqlar əsasında bölünmüşlər.

Əlbəttə, yuxarıda göstərilən paradiqma və ya səbəblərin hamısı bu və ya digər xalqın təşəkkülü üçün şərtdir, lakin nəzərə almaq lazımdır ki, onlardan hər hansı biri konkret bir xalqın təşəkkülündə daha mühüm ola bilər. Məsələn, siyasi-ictimai hadisələrin daha fəal cərəyan etdiyi regionlarda (deyək ki, Azərbaycan, yaxud Kiçik Asiyada) siyasi-ictimai təşkilatlanma və ya dövlətçilik paradiqması aparıcıdır. Halbuki Sibirdə, Şərqi

Türküstanda, yaxud Şimali Qafqazda məskunlaşma və ya «yurd» paradiqması daha böyük rol oynayır... Saxaların, eləcə də çuvaşların digər türklərdən fərqlənmiş dilünsiyyət özünəməxsusluğu bu xalqların formalaşmasında, görünür, həlledici olur və s. Eyni zamanda buraya müəyyən qeyd-şərtlə din amilini də aid etmək mümkündür ki, onun nəticəsində xristian (məsələn, qaqauz), yaxud iudaist (məsələn, qaraim) türklər təşəkukül tapmışlar.

Türklərin pravətənlərinin Altay dağlarının ətəkləri olması türkologiyada ən çox qəbul edilən mövqedir. Və bu mövqe o qədər geniş yayılmışdır ki, hətta müasir mif səviyyəsinə gəlib çıxmışdır.

Lakin fərqli mülahizələr də vardır. Xüsusilə Şumer mədəniyyəti məlum olandan (və Şumerdə «türk izləri» tapılandan) sonra türklərin pravətəni olaraq Ön Asiya variantı da nəzərdən keçirilməyə başlanılmışdır. Bununla belə «Ön Asiya» nəzəriyyəsi çox gənc, təcrübəsiz və müəyyən qədər də emosional olduğundan klassik «Altay» nəzəriyyəsini (və mifini!) aradan qaldırmaq iqtidarında deyil. Odur ki, türklərin müasir dövrdə məskunlaşdıqları ərazilərə (geniş bir coğrafiyaya) məhz Altaylardan yayıldıqları fikrinə üstünlük vermək lazım gəlir.

Birincisi ona görə ki, türklərin qərbdən şərqə köç etmələrini sübut edən faktlar olmadığı halda, şərqdən qərbə axınları danılmaz bir həqiqətdir.

İkincisi, Ön Asiyanın (Şumerin) «yaddaş»ında «türk izləri» olsa da, türklərin «yaddaş»ında «Ön Asiya izləri» yoxdur.

Və nəhayət, üçüncüsü, eramızdan çox minilliklər qədimlərdə Ön Asiyada türklərin də daxil olduqları (və hələ mütəqil etnos kimi ayrılmadıqları) bir etnik birliyin

mövcudluğunu təsəvvür etsək belə, bu, türklər sayıla bilməz.

Lakin, fikrimizcə, Altay nəzəriyyəsi ilə Ön Asiya mülahizəsini «ortaq məxrəc»ə gətirəcək məqam da mövcuddur ki, bu, türklərin, hətta prototurklərin və ya Altayların şərqdən qərbə köçlərinin təsəvvür edildiyindən daha əvvəlki dövrlərdə baş vermiş olduğu təklifini müzakirəyə çıxarmaqdan ibarətdir. Hər şeydən əvvəl ona görə ki, Hun yürüşlərindən çox-çox əvvəllər də Qərbdə – nəinki Ön Asiyada, eləcə də Qafqazda, Şərqi Avropada türklərin məskunlaqdığı barədə müxtəlif mənbələr əsaslı məlumatlar verirlər…

Ümumiyyətlə, qədim türklərin, eləcə də onlardan daha əvvəl prototürklərin (Altayların) məskunlaşma və ya «yurd» tutma prosesləri müxtəlif tarixi dövrlərdə, mərhələlərdə «şərqdən qərbə» istiqamətində, yaxud modelində olmuşdur ki, bunun da aşağıdakı əsas səbəbləri barədə bəhs etmək mümkündür:

a) iqtisadi səbəblər (iqlim dəyişmələri, mal-qara üçün otlaqlar axtarışı və s.);

b) hərbi-siyasi səbəblər.

Türklərin məskunlaşdıqları elə regionlar vardır ki, tarixi əhəmiyyət daşıyır. Və həmin yerlərdə məskunlaşmanın kökləri çox qədim dövrlərə gedib çıxır:

1) Altay,
2) Şimali və Şimal-Qərbi Çin,
3) Tyan-Şan dağları regionu,
4) Ön Asiya,
5) Qərbi Asiya,
6) Mərkəzi Asiya,
7) Şimal-Qərbi Sibir,
8) Baykalətrafı,
9) İrtış və Ural çaylarının arası,

10) Ural – Volqaboyu,

11) Şərqi Avropa (Prof. Dr. Ə.B.Ərcilasun).

Məsələ burasındadır ki, türklərin bu regionlarda çox qədim dövrlərdən məskunlaşdıqlarını nəzərə alan bir sıra türkoloqlar belə bir maraqlı qərara gəlirlər ki, onların (adı çəkilən regionların) hər biri ayrı-ayrılıqda və ya birlikdə türklərin «ata yurdu» – pravətəni sayıla bilər.

Akademik Mirfatıx Zəkiyev «Türk xalqlarının dərin etnik kökləri» (Astana, 2011) kitabında yazır:

«...Türklər digər regionlara köçməyə e.ə. IV-III minilliklərdə başlamışlar. Ancaq nəzərə alsaq ki, formalaşmış türk dilinin izləri Amerika hindularının Asiya əcdadlarının bəzi dillərində – 30-20 min il bundan əvvəl müşahidə edilir, onda türklərin ilkin pravətəninin yeri və zamanı haqqındakı bütün mövcud nəzəriyyələrin əsassızlığını etiraf etmək lazım gəlir».

Əlbəttə, bu mövqeylə razılaşmaq heç cür mümkün deyil. Yer kürəsində mövcud olan hər bir etnosun müəyyən (və konkret) bir pravətəni hər halda vardır. Və bunun mübahisəli olması isə əsas vermir ki, «bütün mövcud nəzəriyyələrin əsassızlığı» etiraf edilsin.

Yuxarıda adı çəkilən «türk regionları»ndan yalnız birinin – Altayın və ya Altayların türklər üçün pravətən sayılması fikrinə üstünlük versək, digər regionları, prinsip etibarilə, sonrakı məskənlər, yaxud «yurd»lar adlandıra bilərik. Ancaq bir daha xatırlatmaq lazım gəlir ki, haqqında söhbət gedən məskunlaşmalar (köçlər) eramızdan əvvəlki minilliklərdən başlayır. Və bir sıra tədqiqatçıların güman etdiyinin əksinə olaraq, heç də ilk orta əsrlərə aid deyil. Əgər belə olsaydı, e.ə. -ki minilliklərdə, məsələn, Şərqi Avropadakı türk varlığına (xüsusilə, qədim türk dövlətlərinə), sadəcə, göz yummuş olardıq...

Lakin sual olunur: Türklər pravətəndən – Altaylardan min illər boyu köç edərək həmin regionlarda məskunlaşarkən – «yeni yurd» tutarkən buralarda yerli əhali, yaxud etnoslar olmuşlarmı?

Bu sualın, ilk növbədə nəzəri olaraq, üç cavabı mümkündür:

1) ya heç olmamışlar, ya da hansısa şərtlər altında regionu türklərin gəlişinə qədər boşaltmışlar (tərk etmişlər);

2) azsaylı, yaxud iqtisadi, sosial-siyasi və s. Baxımlardan zəif olduqlarına görə türklərin gəlişini, məskunlaşmalarını «sülh»lə qarşılamışlar;

3) nəhayət, yerli əhali, yaxud etnoslar daha güclü türk axınlarına qarşı müxtəlif yollarla müqavimət göstərsələr də, nəticə etibarilə məğlub olmuşlar.

Türklərin coğrafi məskunlaşmalarının sonuncu dövrünü 1) şimal-qərb (qıpçaq) və 2) cənub-qərb (oğuz) axınları müəyyən edir.

Türklərin müxtəlif xalqlara (türk xalqlarına) diferensiasiyasının birinci əsas səbəbi məskən və ya «yurd» tutmaq stixiyasıdırsa, ikinci siyasi-ictimai təşkilatlanma (əslində, qədim tarixi ənənə əsasında yenidən təşkilatlanma) və ya yeni dövlətçilik inersiyasıdır. Yalnız belə bir danılmaz faktı qeyd etmək kifayətdir ki, türklərin I minillyiin sonu II minilliyin əvvəllərindən etibarən ayrı-ayrı xalqlar şəklində ortaya çıxmasına fərqli coğrafiyalarda yaranmağa başlayan siyasi-ictimai qurumlar və ya dövlətlər nəinki əhəmiyyətli, bir sıra hallarda həlledici təsir göstərməyə başlayır. Xüsusilə o mənada ki, eyni bir dövlətin tərkibinə müxtəlif türk tayfaları daxil olurlar.

Türklərin siyasi-ictimai təşkilatlanma və ya dövlətçilik tarixinin orta əsrlər dövrü, heç şübhəsiz, qədim

dövrün (zəngin ənənlərin) birbaşa davamıdır. Və özünü üç geniş coğrafiyada göstərir: Türküstan (əslində, Altaylardan Xəzər dənizinə qədər), Türküstandan şimal-qərbə (Volqaboyu-Şərqi Avropa) və Türküstandan cənub-qərbə (Azərbaycan – Kiçik Asiya).

Məlum olduğu kimi, bu regionlarda türklərin tarixi taleyini həll (və onların müstəqil xalqlara bölünməsini təmin) etmiş dövlətlər formalaşır.

Türklərin e. ə. I minilliyin ortalarından etibarən başlanan diferensiallaşma və ya bölünmə prosesi özünü həm də dil-ünsiyyət fərqlənməsində göstərir ki, bunun ən mötəbər (və ensiklopedik) mənbəsi M.Kaşqarinin «Divani-lüğət-it-türk»üdür.

Türk dillərini (nəticə etibarilə, xalqlarını) özünün «Türk dillərinin öyrənilməsinə giriş»ində təsnif edərkən N.A.Baskakov türk dilləri (və xalqları) arasında mümkün qədər çox fərqli xüsusiyyətlər tapmağa «cəhd etdiyi»ndən, fikrimizcə, bölgüdə metodoloji yanlışlığa yol verir. Hər şeydən əvvəl ona görə ki, tarix boyu türk xalqları (və dilləri) arasındakı fərqlənmə (diferensiasiya) nə qədər hiss edilsə də, eynilik və ya oxşarlıq daha çox (və aparıcı) olmuşdur. Bunun da əsas səbəblərindən biri iltisaqi (aqqlütinativ) dil quruluşunun stabilliyidirsə, digəri türk coğrafiyasında orta əsrlərin sonlarına qədər kütləvi köçlərin (xüsusilə şərqdən qərbə) davam etməsi, etnik diferensiasiya prosesinin türklərin vaxtaşırı qarışması, qovuşması hesabına «pozulması»dır.

N.A.Baskakovun çox zaman tamamilə əhəmiyyətsiz, yalnız bir neçə sözdə təzahür edən fonetik fərqlərə əsaslanaraq təsnifatı «dərinləşdirmə»si ilə yanaşı, türk dilləri tarixinin hər dövründə müstəqil bir dil «icad etmə»si də (məsələn, bulqar dili, xəzər dili, X-XI əsrlərin oğuz dili və s.) özünü doğrultmur. Və «Türk dillə-

rinin öyrənilməsinə giriş»in elə qüsurları da vardır ki, siyasi-ideoloji konyukturdan irəli gəlir. Məsələn, müəllif Oktyabr sosialist inqilabının türk dillərinin (və xalqlarının) tarixindəki rolunu həddindən artıq qiymətləndirdiyi kimi, rus dilinin bu dillərə təsirini də bütün hallarda müsbət hesab edib şişirtməklə mütəfəkkir dilçi Vilhelm Humboldtun «xalqın dili onun ruhudur» kəlamını unutmuş olur.

N.A.Baskakov yazır: «… Rus dili ilə türk dillərinin qarşılıqlı əlaqələri tarixin qədim dərinliklərinə aiddir. Ruslarla türk tayfaları – bulqarlar, xəzərlər və peçeneqlər arasındakı münasibət barədə rus və Bizans mənbələrində rast gəlinən məlumatlar X əsrə aiddir. «Ötən illərin salnaməsi»ndə türk xalqları 985-ci ildən etibarən xatırlanır, Rusda ilk əhəmiyyətli türk məskunlaşmaları isə X əsrin sonu XI əsrin əvvəlinə aiddir».

Bu fikirlərə diqqət yetirmək ona görə maraqlıdır ki, yalnız onların müəllifinin deyil, ümumən rus-sovet türkologiyasının (və bütövlükdə etnosşünaslığının) mövqeyini əks etdirmişdir. Heç şübhəsiz, velikorus şovinizminin təzahürüdür.

Belə çıxır ki, eramızın ilk əsrlərindən Qərbi Avropaya axan Hun türkləri yolları üstündə yerləşən «Rus dövləti»nin ərazisində yalnız X əsrin sonu XI əsrin əvvəllərində məskunlaşmağa başlamışlar… Və guya həmin dövrdə yerli rus monolitliyi qarşısında gəlmə türk etnik pərakəndəliyi dayanırdı.

N.A.Baskakov sonra yazır: «Xəzər və bulqarlardan mənimsənilmiş türk terminologiyası artıq XI əsrdən məlumdur ki, bu, məsələn, Kiyev knyazı Müqəddəs Vladimirə münasibətdə türk (xəzər) titulu «xaqan»ın istifadəsində görünür».

Bu cür «ədalı» üslubla, əlbəttə, nəyisə gizlətmək (və tarixi həqiqəti pərdələmək) mümkün deyil. Həqiqət isə ondan ibarətdir ki, haqqında söhbət gedən dövrlərdə ruslar ən müxtəlif səviyyələrdə türk dilini, türk mədəniyyətini qəbul etməli idilər. Hər şeydən əvvəl ona görə ki, türk idarəçiliyi altında idilər. Və bundan şərəf duyurdular.

Sonrakı dövrlərə münasibətdə də rus türkologiyası doğru mövqedə deyil. Məsələn: «Afanasi Nikitin (söhbət XV əsrin ortalarında Qafqazda olmuş rus tacir-səyyahından gedir – N.C.) şərq dillərini, o cümlədən türk (tureçskiy) və tatar (Azərbaycan) dillərini yaxşı öyrənmişdi» (N.A.Baskakov).

Halbuki, həmin dövrdə bu dillər, yəni Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsi arasında elə bir fərq yox idi ki, hansısa bir tacirin qulağına dəymiş və o, bu dilləri fərqləndirmiş olsun.

N.A.Baskakov türk dillərinin (və prinsip etibarilə, xalqlarının) geneoloji təsnifini aşağıdakı şəkildə təqdim edir:

I. Türk dilləri Qərbi hun və Şərqi hun olmaqla iki budağa ayrılır.

II. Qərbi hun budağı 1) bulqar, 2) oğuz, 3) qıpçaq və 4) karluq qruplarına bölünür.

III. Bulqar qrupuna 1) qədim bulqar, 2) qədim xəzər dilləri və müasir çuvaş dili daxildir.

IV. Oğuz qrupu 1) oğuz-türkmən, 2) oğuz-bulqar və 3) oğuz-səlcuq yarımqruplarından ibarətdir.

V. Oğuz-türkmən yarımqrupuna X-XI əsrlərin qədim oğuz dili; 1) müasir türkmən və 2) müasir truxmen dilləri daxildir.

VI. Oğuz-bulqar yarımqruplarına 1) qədim uzların dili və 2) qədim peçenek dili; 1) müasir qaqauz və 2) müasir Balkan türklərinin dilləri daxildir.

VII. Oğuz-səlcuq yarımqrupuna 1) qədim səlcuq dili, 2) əski osmanlı dili və 3) köhnə Azərbaycan dili; 1) müasir Azərbaycan, 2) müasir türk və 3) müasir Krım tatar dilinin cənub sahili dialekti daxildir.

VIII. Qıpçaq qrupu 1) qıpçaq-poloves, 2) qıpçaq-bulqar və 3) qıpçaq-noqay yarımqruplarından ibarətdir.

XI. Qıpçaq-poloves yarımqrupuna monqollara qədərki və sonrakı qədim qıpçaq (kuman və ya poloves) dili; 1) müasir qaraim, 2) müasir qumık, 3) müasir qaraçay-balkar, 4) müasir Krım tatar dilləri daxildir.

X. Qıçpaq-bulqar yarımqrupuna 1) qədim Qızıl Orda (qərb) dili; 1) müasir tatar və 2) müasir başqırd dilləri daxildir.

XI. Qıpçaq-noqay yarımqrupuna 1) müasir noqay, 2) müasir qaraqalpak, 3) müasir qazax dilləri və 4) özbək dilinin qıpçaq dialektləri daxildir.

XII. Karluq qrupu 1) karluq-uyğur və 2) karluq-xarəzm yarımqruplarından ibarətdir.

XIII. Karluq-uyğur yarımqrupuna 1 (Qaraxanilər dövrü qədim uyğur (M.Kaşqari. Y.Balasaqunlu) və 2) Qaraxanilərdən sonrakı dövr qədim uyğur (Ə.Yüqnəki, N.Rəbquzi) dilləri daxildir.

XIV. Karluq-xarəzm yarımqrupuna 1) qədim karluq-xarəzm (Ə.Yəsəvi), 2) qədim Qızıl Orda (şərq),3) qədim cığatay (XIII-XIV əsrlər) və 4) köhnə özbək dilləri; 1) müasir özbək və müasir yeni uyğur dilləri daxildir.

XV. Şərqi hun budağı 1) uyğur-oğuz və 2) qırğız-qıpçaq qruplarına bölünür.

XVI. Uyğur-oğuz qrupu 1) uyğur-tukyu, 2) yakut və 3) xakas yarımqruplarından ibarətdir.

XVII. Uyğur-tukyu yarımqrupuna 1) qədim oğuzların (göytürklərin) və 2) qədim uyğurların; 1) müasir tuva və 2) müasir tofalar (qaraqas) dilləri daxildir.

XVIII. Yakut yarımqrupuna müasir yakut (saxa) dili daxildir.

XIX. Xakas yarımqrupuna 1) müasir xakas dili, 2) müasir şor dili, 3) müasir çulım tatarlarının dili, 4) müasir kamasin dili, 5) müasir Altay dilinin şimal dialektləri və 5) müasir sarı uyğur dili daxildir.

XX. Qırğız-qıpçaq yarımqrupuna qədim qırğız dili; 1) müasir qırğız və 2) müasir Altay dilləri daxildir.

Türk dillərinin (və xalqlarının) tarixi diferensiasiyasını (bölünməsini, budaqlanmasını, şaxələnməsini və s.) göstərən bu geneoloji təsnifat türkologiyada uzun zaman öz mötəbərliyini saxlamışdır. Və əslində, bu günə qədər də onun daha uğurlu alternativi təklif edilməmişdir. Lakin ciddi metodoloji qüsurlarının olduğu da göstərilmişdir ki, bunlar, əsasən, aşağıdakılardan ibarətdir:

I. Təsnifat, ehtiyac olmadığı halda, həddindən artıq «genişləndirilmiş», ümumiləşdirmə (mükəmməllik) prinsipi pozulmuş, əhəmiyyətsiz təfsilata yol verilmişdir.

II. Biri digərinin bilavasitə varisi olan dil təzahürləri (məsələn, Azərbaycan və ya özbək dillərinin tarixinin müxtəlif dövrlərindəki təzahürlər – yazılı mənbələrin dili) təsnifata müxtəlif (və müstəqil) dillər kimi daxil edilmişdir.

III. Müasir türk (məsələn, Altay, yaxud tatar) dillərinin dialektləri fərqli qruplara aid edilməklə bu dillərin sistematik mövcudluğu ümumiyyətlə şübhə altına alınmış, bu cür hallarda əhəmiyyətli olan mərkəzləşdirici amillərə (məsələn, ədəbi dilin birləşdirici funksiyası,

milli özünüdərk, sosial-siyasi bütövlük və s.) diqqət yetirilməmişdir.

Türklərin diferensiasiyasının son təzahür forması dindir… Lakin din tarixin müəyyən dövrlərində, xüsusilə orta əsrlərdə yalnız inam, ictimai dünyagörüşü deyil, həm də böyük siyasi qüvvə olmuşdur. Və xalqların etnik mənsubiyyətlərindən daha çox dini mənsubiyyətləri əsasında birləşməsi özünü aydın göstərir.

## 2. Türk xalqlarının təşəkkülü

Türklərin e.ə. I minilliyin ortalarından başlayan, I minilliyin sonlarına doğru güclənən diferensiasiya (bölünmə) prosesinin nəticəsi olaraq II minilliyin ortalarında türk xalqları təşəkkül tapır. Yuxarıda göstərdiyimiz səbəblər və ya paradiqmaların əsasında baş verən bu fundamental tarixi hadisə bir sıra ümumi əlamətlər də nümayiş etdirir:

a) təbii (coğrafi) bölünmənin genişmiqyaslılığı, yaxud «dərin»liyi («mərkəzdənqaçma») müşahidə olunur, yəni türklər çoxsaylı sosial birliklərə parçalanırlar ki, bu özünü tarixi mənbələrdə əksini tapmış yüzlərlə tayfa (boy) adında – etnonimlərdə də göstərir;

b) müxtəlif türk tayfaları (boyları) öz adlarını məskunlaşdıqları yerlərə – «yurd»lara verməklə etnik coğrafiyalarını «işarələyirlər» ki, bu da nəticə etibarilə onların həm xüsusi (özlərinəməxsus), həm də ümumi «siyasi xəritə»lərini müəyyənləşdirir;

c) ən mühüm amil isə budur ki, müxtəlif türk tayfaları (boyları) öz adları ilə siyasi birlik (dövlət) sülalələri yaradaraq ətrafdakı türk, eləcə də qeyri-türk mənşəli etnosları özlərinə tabe etməklə dövlətlər, imperiya-

lar qururlar (tədricən bu funksiyanı ailə sülalələri mənimsəyir).

Türklərin həm etnik, həm də siyasi tarixinin təhlilləri göstərir ki, müasir türk xalqlarının təşəkkülü prosesi, ümumiyyətlə, üç dövrə bölünür:

1) müəyyən diferensial əlamətlər «yurd», siyasi-ictimai təşkilatlanma, dil-ünsiyyət mühiti, din və s.) qazanmış, lakin hələ o qədər də möhkəm olmayan bu əlamətlərin kütləvi köçlər, işğallar və s. nəticəsində dəyişdiyi dövr (e.ə. I minilliyin ortalarından I minilliyin sonlarına qədər);

2) məskunlaşmanın («yurd»un), siyasi-ictimai təşkilatlanmanın, dil-ünsiyyət mühitinin, dinin və s., əsasən, stabilləşdiyi dövr (II minilliyin birinci yarısı);

3) təşəkkül tapma və ya formalaşma dövrü (II minilliyin ortaları, yaxud orta əsrlərin sonu yeni dövrün əvvəlləri).

Türkiyə türklərinin müstəqil (və sayca ən böyük) türk xalqı olaraq təşəkkülü tarixinə diqqət yetirək… Türküstandan Anadolu yarımadasına – Kiçik Asiyaya (Bizansa) axan türklər (oğuz-səlcuqlar) burada geniş yayılaraq əvvəl Səlcuqlu (XI-XIII əsrlər), sonra isə uzun zaman davam etmiş Osmanlı (XIV-XX əsrlər) imperiyalarını qururlar… Türk xalqı Osmanlı hakimiyyətinin ilk əsrlərindən formalaşmağa başladı. Konstantinopolun (İstanbulun) fəthi, türk varlığının burada məskunlaşmasından sonra «osmanlılar» («ottoman»), «Osmanlı dövləti (imperiyası)», «osmanlı dili» anlayışları sürətlə bütün dünyada məşhurlaşdı.

Bir sıra güclü qonşu dövlətlərlə (və xalqlarla) həm hərb, həm də sülh şəraitində yaşayan osmanlı türkləri uzun zaman nəinki türk, ümumən müsəlman dünyasının

önündə getmişlər. Və türk sultanları «xəlifə» titulunu daşımışlar.

Qafqazlardan Balkanlara, Krımdan Şimali Afrikaya qədər geniş bir coğrafiyanı əhatə edən Osmanlı imperiyasının tərkibində türklərdən başqa bir sıra xalqlar da yaşamışlar ki, ənənəvi dövlət idarəçiliyi təcrübəsi bu xalqların varlığının qorunmasında olduğu kimi, mədəniyyətlərinin inkişafında da mühüm rol oynamışdır. Və təsadüfi deyil ki, XIX əsrdə belə bir aforizm meydana çıxmışdı: «Osmanlı imperiyasında bütün xalqların hüququ müdafiə edilir, hətta türklərin də»…

Osmanlı türkcəsi ərəb və fars dillərinin ciddi təsirinə məruz qalmış bir türkcə idi. Həm farsları, həm də ərəbləri siyasi baxımdan özlərinə tabe etmiş osmanlılar da, səlcuqlular kimi, nə qədər paradoksal olsa da, saraylarda, rəsmi yazışmalarda ərəbcəyə, farscaya üstünlük verirdilər. Və qeyd edək ki, türk dili tarixinin əvəzedilməz araşdırıcısı Prof. Dr.Əhməd Cəfəroğlu bu vəziyyəti tamamilə qeyri-təbii hesab edir.

XVIII əsrin əvvəllərindən başlayaraq türk ədəbi dilində, eləcə də ədəbi-bədii təfəkküründə demokratikləşmə müşahidə olunur, canlı xalq dilinin nüfuzu güclənir. Xüsusilə «Lalə dövrü ədəbiyyatı», eləcə də Əhməd Nədimin poeziyası bunun ifadəsi idi. Lakin saray mühiti öz klassik normativliyini hər sahədə mühafizə etməyə çalışır.

Beləliklə, türk xalqı və ya Türkiyə türkləri təşəkkül prosesinə «yeni yurd» tutmaqla başlayır, ancaq buna qədər onlar islam dinini qəbul edib daha da təmərküzləşmişdilər. Və bu təmərküzləşmə eyni zamanda əvvəl səlcuqların, sonra isə osmanlıların güclü (mütəşəkkil) siyasi təşkilatlanmaları, nəticə etibarilə, böyük bir

imperiya yaratmaları (hətta «Dünya dövləti» idealları) ilə müşayiət olunurdu.

Sayca ikinci böyük türk xalqı azərbaycanlıların və ya Azərbaycan türklərinin təşəkkülü isə başqa şərtlər altında baş verir…

Azərbaycan coğrafiyasında türklərin məskunlaşmasının tarixi eramızdan əvvəlki minilliklərə gedib çıxır. Lakin Azərbaycan xalqı və ya Azərbaycan türklərinin elmə məlum olan formalaşma prosesi e.ə.-ki son əsrlərdə hun-qıpçaqların Xəzər dənizinin qərb sahillərinə hücumu ilə başlayır. Və onu sonrakı əsrlərdə uzun zaman davam edən oğuz yürüşləri tamamlayır.

Azərbaycan türkləri ilə Türkiyə türklərinin müstəqil xalqlar olaraq ayrılması orta əsrlərin sonlarına düşür. Və siyasi proseslərlə bağlıdır. XVI əsrin ilk illərində yaranan Azərbaycan səfəvilər dövləti Azərbaycan xalqının həm siyasi coğrafiyasını müəyyənləşdirir, həm də etnik konsolidasiyasını təmin edir. Şah İsmayıl Xətainin liderliyilə təşəkkül tapan bu dövlətin mövcudluğu dövründə Azərbaycan xalqı formalaşır. Azərbaycan dilinin Şah İsmayıl Xətaidən (XVI əsrdən) başlayan özünəməxsusluq axtarışları Molla Pənah Vaqiflə (XVIII əsr) yekunlaşır ki, artıq bundan sonra Azərbaycan dili (türkcəsi) barədə inamla danışmaq mümkündür.

XVIII əsrin ortalarında Azərbaycan kiçik xanlıqlara parçalanır, XIX əsrin əvvəllərindən isə Şimalı Rusiya imperiyası tərəfindən işğal olunur, Cənubu isə İranın tərkibinə düşür. Və beləliklə, bu günə qədər Şimali və Cənubi olmaq üzrə iki Azərbaycan, ancaq bir xalq (və dil) mövcuddur.

Azərbaycanın şimalı Rusiya tərəfindən işğal edildikdən sonra ölkədə müəyyən mədəni inkişafın getməsi, şübhəsiz, etiraf edilməlidir. Lakin o da etiraf edilməlidir

ki, xalqın siyasi iradəsi bütünlüklə əlindən alındı. Və XIX əsrin sonu XX əsrin əvvəllərində özünü göstərən milli mücadilə hərəkatı sübut etdi ki, xalq  öz müstəqilliyini heç də sonacan əldən vermək düşüncəsində deyilmiş.

Göründüyü kimi, azərbaycanlıların və ya Azərbaycan türklərinin «yurd» tutma tarixi üç dövrdən keçir:

a) «tarixəqədərki» dövr (yəni ən qədim zamanlardan regionda Qafqaz və İran mənşəli xalqlarla yanaşı, türklərin də məskun olması);

b) qıpçaq axınları;

c) oğuz axınları.

Siyasi-ictimai təşkilatlanma bütün orta əsrlər boyu (səfəvilərə qədər) pərakəndə gedir. Səfəvilər milli təmərküzləşmənin əsasını qoyurlar, lakin bu da davamlı olmadığından Azərbaycan xalqı yeni dövrün əvvəllərindən müxtəlif hakimiyyətlərin siyasi nüfuzu altında parçalanır.

Əsas birləşdirici amil isə dil-ünsiyyət texnologiyaları olur.

Sayca üçüncü böyük türk xalqı uyğurların tarixi taleyi isə tamamilə fərqlidir…

Uyğurlar hələ ilk orta əsrlərdə öz siyasi iradələrini nümayiş etdirmiş türk xalqıdır. Və formalaşma tarixi bütün türk xalqlarından bir neçə əsr əvvələ düşür. Manixeyliyi və buddizmi qəbul edən uyğurlar eyni zamanda şəhər mədəniyyətinə malik idilər. Və zəngin ədəbiyyat yaratmışdılar.

XI-XII əsrlərdən islamı qəbul etdilər. Və Çinin tərkibində nisbi muxtariyyətə malik olan bu çoxsaylı xalq zəngin mədəniyyəti ilə əsrlər boyu əsarətdə qaldı.

Sayca dördüncü böyük türk xalqı olan özbəklər tarix səhnəsinə XIV-XV əsrlərdə çıxmışlar. Özbək dilinin

(və ədəbiyyatının) ilk ən görkəmli nümayəndəsi Əlişir Nəvaidir ki, ortaq (ümumtürk) mədəniyyətindən özbək mədəniyyətinə keçidi təmin etmişdir.

Orta əsrlərdə Türküstanda mövcud olmuş bir sıra güclü dövlətlərin qurucusu məhz özbəklər olmuşlar. İran xalqları ilə yaxın təmas özbək mədəniyyətinin xarakterinə müəyyən təsir göstərsə də, bu xalq öz milli mənliyini, siyasi iradəsini tarixinin bütün mərhələlərində qabarıq nümayiş etdirmişdir.

Türklərin barlas tayfasından çıxaraq XIV əsrin ortalarından sonra Türküstanda böyük bir dövlət yaradan Əmir Teymuru özbəklər, tamamilə doğru olaraq, öz əcdadları sayırlar. Çingiz xandan  sonra Avrasiyanın geniş bir coğrafiyasına hakim olan Əmir Teymurun türklərin siyasi birliyinin təmin edilməsində tarixi xidmətləri danılmazdır. Lakin o da danılmazdır ki, orta əsrlərin sonlarına – türk xalqlarının təşəkkül-formalaşma dövrünə doğru türk hökmdarları arasındakı münaqişələr, qanlı toqquşmalar türk dünyasını siyasi baxımdan zəiflədib, güclənməkdə olan Rusiyanın sərəncamına verdi.

Özbək xanlığının (eləcə də digər feodal dövlətlərinin) yaradıcısı olan özbəklər Rusiya işğalına qarşı nə qədər inadla mübarizə aparsalar da siyasi hakimiyyətlərini itirməli oldular. Lakin milli mənliklərini heç zaman güzəştə getmədilər.

Sayca beşinci böyük türk xalqı olan qazaxlar XV əsrin ortalarından sonra ilk dövlətlərinin – Qazax xanlığının əsasını  qoydular.

Ümumiyyətlə, orta əsrlərin sonlarında Türküstan xalqları tarix səhnəsinə öz etnik (milli) adları, «yurd»ları, siyasi-ictimai təşkilatlanmaları və ya dövlətləri ilə çıxmağa başladılar.

Sayca altıncı olan tatarlar, yəqin ki, türk xalqları içərisində ən maraqlı (və mürəkkəb) təşəkkül tarixinə malikdirlər.

XV əsrdə Qərbi Sibirdə ilk tatar dövləti olan Tümən xanlığı yaranır. XVI əsrin sonlarında isə Sibir xanlığı təşəkkül tapır. Xanlığın mərkəzi İrtış çayının sahilində salınmış Kaşlıq şəhəri olmuşdur.

Lakin Sibir xanlığı tezliklə Rusiya tərəfindən işğal edilir.

Tatarların əsas siyasi mərkəzi XV əsrdən Qazan xanlığı olmuşdur. Və XVI əsrin ortalarına – Rusiya işğalına qədər bu xanlıq tatarların etnik-siyasi konsolidasiyasında əhəmiyyətli rol oynamışdır. Həştərxan, Krım xanlıqları da tatarlara məxsus idi.

Türk coğrafiyasının böyük hissəsini işğal edən ruslar, türklərin demək olar ki, əksəriyyətini «tatar» adlandırmağa başladılar ki, bu da monqol-tatarlar haqındakı tarixi təsəvvürdən irəli gəlirdi. Və belə bir adlandırma modeli bir neçə əsr davam etdi: region + «tatar». Məsələn: «Kazan tatarları», «Volqaboyu tatarları», «Sibir tatarları»… Hətta: «Zaqafqaziya tatarları».

Sayca yeddinci olan türkmənlər XVII əsrdə artıq Əbülqazi xan Xivəlinin başçılığı ilə öz milli kimliklərini əvvəl «Şəcəreyi-tərakimə»də, sonra isə Məhtumqulunun yaradıcılığında təsdiq etdilər.

Sayca səkkizinci olan qırğızlar da digər Türküstan türkləri kimi tarix səhnəsinə mükəmməl eposları («Manas»), köçəri həyat tərzi və müəyyən milli konsolidasiya təcrübəsi ilə çıxdılar.

Sayca doqqucuncu olan çuvaşların I minilliyin sonlarına doğru Bulqar dövlətinin tərkibində olduqları, xalq kimi formalaşmalarının əsasının da bu dövrdən qoyulduğu məlumdur. Lakin türk mənşəli xalq bir sıra Ural (uq-

ro-fin) xalqlarının təsirinə məruz qaldığından dili türk dillərindən xeyli fərqlənir. Son formalaşma tarixi II minilliyin ortalarına – Rusiya tərkibinə düşdüyü dövrə aiddir.

Dini dünyagörüşü etibarilə şamançı olan çuvaşlar XVIII əsrdə zorla xristianlaşdırılmışlar.

Sayca onuncu olan başqırdların müstəqil bir xalq olaraq formalaşması prosesi I minilliyin sonu II minilliyin əvvəllərindən başlayır. Və bu xalq əvvəl Bulqar dövlətinə, sonra Qızıl Ordaya, sonra isə müxtəlif xanlıqlara tabe olmuşdur. XVI əsrdən Rusiyanın tərkibinə qatılması başqırdların bir xalq olaraq formalaşması prosesini gücləndirdi. XVII-XVIII əsrlərdə Başqırdıstanda vaxtaşırı olaraq baş verən üsyanlar, etnik-sosial zəmində etirazlar, qiyamlar xalqın milli özünüdərkinin (və müstəqillik maraqlarının) təzahürü idi. Xüsusilə çarizm idarəçiliyinə, iqtisadi istismara, xristianlığın zorla qəbul etdirilməsinə qarşı başqırdların heç zaman kəsilməmiş mübarizəsi tarixin yaddaşından silinməmişdir.

Sayları bir milyondan az olan türk xalqlarının – qaraqalpaqların, saxaların, qumuqların, tuvaların, qaqauzların, qaraçayların, balqarların, xakasların, noqayların, altayların, şorların, qaraimlərin xalq kimi formalaşması tarixlərinə gəldikdə isə, o, belə bir ümumi təşəkkül modeli üzrə getmişdir: kökü qədimlərə gedən «dərin» mənşə + bu və ya digər güclü siyasi birliyin (dövlətin) tərkibində, əsasən, etnoqrafik səviyyədə özünütəsdiq + XVII-XVIII əsrlərdən etibarən milli özünəməxsusluğunu hiss etdirmə (və Rusiyanın tərkibində şərti muxtariyyət).

## 3.Ümumtürk ədəbi dili (türki): təşəkkülü, təkamülü, tənəzzülü

Ümumtürk ədəbi dili (türki) barədə aparılmış araşdırmalar (xüsusilə 50-ci illərdən sonra) gözlərimiz önündə, min ilə qədər tarixi olan mükəmməl bir dil təzahürünün mənzərəsini cızır-həmin dil təzahürü orta əsrlər türk bədii, elmi, ictimai-siyasi... təfəkkürünün əsas ifadə forması olmuş, XVII-XVIII əsrlərdə isə milli (müasir) türk ədəbi dillərinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Ümumtürk ədəbi dilinin (türkinin) təşəkkülü, təkamülü – gələ-gələ regional xüsusiyyətlər kəsb etməsi, tənəzzülü – milli (müasir) türk ədəbi dillərinin formalaşması türkologiyanın aktual poblemlərindən biri olaraq qalır: ümumtürk ədəbi dili (türki) nə zaman, hansı linqvistik, etnokulturoloji, sosial-siyasi əsaslar üzərində təşəkkül tapır? Nə cür inkişaf edir? Necə regionallaşır? Türkinin regionallaşması ilə milli (müasir) türk ədəbi dillərinin təşəkkülü arasında hansı münasibətlər mövcuddur?.. -kimi suallar müasir türk dilçiliyini, ümumən filologiyasını düşündürməkdədir. Və türkinin ümumtürk mədəniyyəti tarixində oynadığı rolun miqyasını təsəvvür etmək üçün təkcə onu demək kifayətdir ki, II minilliyin əvvəllərindən (Y.Balasaqunlunun "Kutadqu biliq"indən, Ə.Yüqnəkinin "Atibət-ül-həqaiq"indən, Ə.Yəsəvinin "Divani-hikmət"indən) XVII-XVIII əsrlərə (...Əbülqazi xanın "Şəcəreyi-tərakimə"si"nə, bir sıra rəsmi-işgüzar sənədlərə) qədər yüzlərlə, minlərlə bu və ya digər dərəcədə mükəmməl yazılı abidə məhz bu dildə, yaxud onun müxtəlif (əsasən üç) regional təzahür formalarında qələmə alınmışdır. Orta əsrlərdə türk şairləri, mütəfəkkirləri, ictimai-siyasi (dövlət) xadimləri... türkidə nə qədər böyük əsərlər yazmışlarsa, həmin əsrlərin türk

katibləri, xəttatları, rəssamları da eyni dərəcədə böyük ustalıqla, şövqlə həmin əsərlərin üzünü köçürmüş, gözəl sənət nümunələri (əlyazma kitabları) yaratmışlar.

Lakin müəyyən cəhdləri çıxmaq şərti ilə, ümumtürk ədəbi dili (türki) bu günə qədər ətraflı (və düzgün elmi metodologiya ilə) araşdırılmamışdır ki, bunun da səbəbləri əsasən aşağıdakılardan ibarətdir:

1) xüsusilə əsrimizin 30-cu illərindən etibarən türkologiyada hər bir müasir türk dilinin (eləcə də xalqının) tarixini "müstəqilləşdirmək", faktiki olaraq ümumtürk kontekstindən çıxarmaq, hər bir türk xalqı üçün "müstəqil" genezis" uydurmaq tendensiyası mövcud olmuşdur;

2) "sovet türkologiyası" ümumiyyətlə türkcənin tarixini canlı funksional bir proses kimi, geniş mənada dünya mədəniyyəti tarixinin üzvi tərkib hissəsi kimi deyil, əlaqəsiz hadisələr yığımı, bir növ "muzey materialı" kimi təqdim etmiş, "tarixi qrammatika" hər yerdə" "ədəbi dil tarixi"ni üstələmişdir;

3) ümumtürkoloji miqyasda işləməyə, araşdırmalar aparmağa qadir olan kadrların yetişməsi üçün (xüsusilə milli respublikalarda) nəinki şərait yaradılmamış, əksinə, bu cür araşdırmalar Moskva tərəfindən ardıcıl olaraq məhdudlaşdırılmış və ciddi nəzarətə götürülmüşdür.

Lakin bu bir həqiqətdir ki, ümumtürk ədəbi dili (türki) düzgün metodologiya ilə (və hərtərəfli) öyrənilməsə, müasir (milli) türk ədəbi dillərinin mənşəyi, tipologiyası barədə az-çox elmi bir söz demək çətindir.

Hər bir mükəmməl ədəbi dil təzahürü kimi, türki də təşəkkül, təkamül və tənəzzül dövrləri keçirmişdir:

1.Təşəkkül dövrü (IX-XII əsrlər) .

2.Təkamül (regionallaşma) dövrü (XIII-XVI əsrlər).

3.Tənəzzül (süqut) dövrü (XVII-XVIII əsrlər).

Müşahidələr göstərir ki, ümumtürk ədəbi dilinin (türkinin) ilk, eyni zamanda yüksək normativliyə, funksional-üslubi imkanlara malik nümunələri XI-XII əsrlərdə meydana çıxır, bu isə o deməkdir ki, türki bu və ya digər şəkildə təxminən I minilliyin sonlarından mövcuddur. I minilliyin sonu II minilliyin əvvəllərində Türküstanda (xüsusilə Şərqi Türküstanda) olduqca intensiv gedən ictimai-siyasi, etnokulturoloji proseslər türkinin formalaşmasına əsaslı təsir göstərir ki, həmin proseslər aşağıdakılardır:

a) müxtəlif türk etnoslarının–tayfalarının, yaxud boylarının, tayfa birliklərinin (türk budun), eləcə də mənşəcə türk olmayan türkdilli etnosların Türküstanda, xüsusilə onun Şərqində təmərküzləşməsi, Türküstanın çox sürətlə türklüyün etnocoğrafi mərkəzinə çevrilməsi;

b) yazı mədəniyyətinin (burada söhbət kağız üzərində yazıdan gedir) əvvəlki dövrlərlə müqayisə olunmayacaq qədər inkişaf etməsi, ərəb əlifbasının türk mədəni mühitində yayılması və s.

Türkinin təşəkkülünün etnolinqvistik şərti, XI əsrin böyük türkoloqu M.Kaşqarinin dahiyanə bir aydınlıqla göstərdiyi kimi, müxtəlif türk tayfa dillərinin ədəbi səviyyədə təmərküzləşmə-inteqrasiyasıdır. "Divani-lüğət - it-türk" müəllifi, əsərinin əsas ideyası olan həmin ədəbi təmərküzləşmə-inteqrasiya mövqeyində duraraq, müxtəlif türk tayfa dillərinə məxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri təbii haldan daha çox "normadan yayınma", "normanı pozma" kimi şərh edir. Bu isə o deməkdir ki, I minilliyin sonu II minilliyin əvvəllərində (IX-XI əsrlərdə), bir tərəfdən, türk tayfa dillərinin (oğuz, qıpçaq, karluq-uyğur...) diferensiasiyası gedirsə (xalq dili səviyyəsində), digər tərəfdən, ədəbi dil, yaxud

yazı dili səviyyəsində təmərküzləşmə-inteqrasiya güclənir.

V-X əsrlərdə Mərkəzi Asiyada geniş yayılan dialektfövqü (demək olar ki, ədəbi) dil təzahürləri türkinin təşəkkülü üçün mənbə olmuşdur; həmin dövrə aid yazılı abidələrin (qədim türk yazılı abidələrinin) dili üzərindəki müşahidələr göstərir ki, qədim türkcə (türkiyə qədərki yazılı türkcə) kifayət qədər yüksək normativliyə malik olub, hansısa siyasi hegemonluğa çatmış bir tayfanın dili, yaxud müxtəlif türk tayfa dillərinin mexaniki (necə gəldi) yığımı deyil, mükəmməl, mərkəzləşmiş, hətta konservativ bir epos dilidir. Bu dil ən azı şifahi şəkildə, yaxud şifahi ədəbi dil olaraq bir neçə min illik bir təkamül dövrü keçmişdir ki, onun da ən azı yarısı yazılı dövrdür...

Qədim türk yazılı abidələrinin dili də ümumtürkcədir, lakin bununla (qədim türkcə ilə) türki arasında əsaslı fərqlər vardır:

a) qədim türkcə, əsasən V-X əsrlərdə yazı dili kimi işlənmiş, türk epos təfəkkürünün ifadəsi olan, xalq dili ilə əlaqəsi "üzülməmiş", dialektfövqü (demək olar ki, ədəbi) dil təzahürüdür, türki isə orta əsrlərin bundan sonrakı dövründə mövcud olmuş, daha geniş coğrafiyanı əhatə edən, daha çox stilizasiya imkanlarına malik, daha ədəbi dil təzahürüdür;

b) qədim türkcə, əsasən öztürkcədir, türki isə geniş, intensiv və ardıcıl beynəlxalq ədəbi-mədəni dil münasibətləri meydanında olub, həmin münasibətləri (başqa dillərin təsirini) bilavasitə əks etdirir;

c) qədim türkcə run, sonra isə uyğur əlifbasında, türki isə, ərəb əlifbasında yazılmışdır.

Bununla belə, türki qədim türkcənin varisidir. Və həmin varislikdə uyğur yazılı abidələrinin (IX-XI əsrlər)

dili kifayət qədər əhəmiyyətli mövqeyə malikdir; qədim türkcənin türkiyə, yəni keyfiyyətcə yeni hadisəyə "çevrilmə"sində" uyğur yazılı abidələrinin dili özünəməxsus keçid mərhələsi təşkil edir. Qədim türkcəni etnik (milli) zəmində saxlayan, yad" ünsürlərin müdaxiləsinə, demək olar ki, imkan verməyən qədim türklər"dən fərqli olaraq, uyğur türkləri türkcəni müxtəlif dillərin (Hind, Çin, Tibet, İran və s.) təsiri üçün açdılar, müsəlman türklər isə daha da irəli gedərək türkcəni ərəb, fars dilləri qarşısında, demək olar ki, müdafiəsiz qoydular.

I minilliyin sonlarında türkinin norma mənzərəsinin necə olacağını müəyyən edən həm linqvistik, həm də ekstralinqvistik prinsiplər qərarlaşır ki, bunlar əsasən aşağıdakılardan ibarətdir:

1) I minilliyin ortalarında formalaşmış qədim türkcənin, bu və ya digər dərəcədə uyğur türkcəsi"nin norma-struktur, funksional-üslub ənənələri, təcrübə"si davam etdirilir;

2) türkcə müsəlman dünyagörüşü, ideologiyası baxımından xüsusilə leksik-semantik sahədə müəyyən redaktəyə" məruz qalır;

3) İslam xalqlarının – ərəblərin, farsların dillərinin türkcəyə təsiri üçün geniş mədəni-ideoloji meydan açılır;

4) ərəb əlifbası əsaslı bir dəyişikliyə uğramadan türkcənin (türkinin) əlifbası olur;

5) türkinin geniş coğrafiyada (Şərqi Türküstandan Avropanın içərilərinə qədər) fəaliyyəti, müxtəlif regionlarda türk xalq (tayfa) dillərinin, yaxud ləhcələrinin təsirinə müxtəlif cür reaksiya verməsi ilə əlaqədar, onun (türkinin) regional təzahür formalarının təşəkkülü üçün şərait yaranır.

IX-XI əsrlərdə türkinin hansı etnolinqvistik əsasda təşəkkül tapdığını müəyyənləşdirməyə imkan verən ən mühüm mənbə M.Kaşqarinin "Divani-lüğət-it-türk"ü"-dür. "Divan" müəllifi müxtəlif türk tayfa dilləri ilə yanaşı, həmin tayfa dillərinin (dialektlərinin) fövqündə dayanan "xaqaniyyə türkcəsi"ndən bəhs edir. Xaqaniyyə türkcəsi" oğuz, qıpçaq və karluq-uyğur xüsusiyyətlərinin funksional inteqrasiyasından ibarət olub, XI-XII əsrlər türk ədəbi dilinin əsaslarını təşkil etməkdədir.

"Divani-lüğət-it-türk" türkinin mənbələri barədə elmi-linqvistik məlumat verməklə yanaşı, orta əsrlər türk, yaxud ümumtürk ədəbi dilinin (türkinin) ilk nümunələrini əks etdirir:

*Körklük topuğ özünqə,*
*Tatlığ aşığ azınqa,*
*Tutqıl qonuq ağırlığ,*
*Yazsun çavın budunqa.*

Yaxud:

*Bardı ərən qonuq bulub qutqa saqar,*
*Qaldı alığ oyuq görüb evni yıqar.*

XI-XII əsrlərdə M.Kaşqarinin "Divan"ı ilə aşağı-yuxarı eyni dövrdə Y.Balasaqunlunun "Kutadqu biliq" (XI əsr), Ə.Yüqnəkinin "Atibət ül-həqaiq" və Ə.Yəsəvinin "Divani-hikmət" (XII əsr) əsərləri meydana çıxır. Bu əsərlərin, eləcə də "Qurani Kərim"in türkcə tərcümə-təfsirlərinin (İslamın türklər arasında daha sürətlə yayılmasına çalışan Buxara ruhaniləri bu zaman hətta, mövcud ənənəni pozaraq, "Quran"ın "ilahi" mənşəli" ərəb dilindən türkcəyə çevrilməsini təqdir edən fitva vermişdilər) dili türkinin təşəkkül-formalaşma prosesinə əhəmiyyətli təsir göstərmişdir.

Ümumtürk, yaxud orta əsrlər türk ədəbi dili (türki) XI-XII əsrlər mənbələrində "Xaqaniyyə türkcəsi", "Kaşqar dili", "Kaşqar türkcəsi" və s. adlandırılmış, "türki" terminini isə sonralar (XVI əsrdə) Nəvainin sələfi olan cığatay şairləri işlətmişlər.

XI-XII əsrlərdə təşəkkül tapan türkinin yenə də həmin əsrlərdə gedən etnososial proseslərin nəticəsi olaraq müxtəlif türk etnokulturoloji regionlarının diferensiasiyası ilə əlaqədar olaraq regional təzahür formaları meydana çıxır ki, bunlar aşağıdakılardır:

1.Şərq (yaxud Türküstan) türkisi;
2.Şimal-Qərb (qıpçaq) türkisi;
3.Cənub-Qərb (oğuz) türkisi.

Şərq (Türküstan) türkisi Şimal-Qərb (qıpçaq) və Cənub-Qərb (oğuz) türkiləri ilə müqayisədə daha zəngin, daha geniş funksional imkanlara malik olmuş və sonunculardan fərqli olaraq, eyni zamanda müxtəlif türk tayfa dillərinin – Şərqdən karluq, Şimaldan və Şimal-Şərqdən qıpçaq, Cənubdan və Cənub-Qərbdən oğuz təsirini həmişə öz üzərində hiss etmişdir. Lakin zaman-zaman uyğurların – karluqların Türküstanda sosial-siyasi, etnik-mədəni üstünlük qazanması ilə qıpçaqlar daha çox Şimal-Qərbə, oğuzlar daha çox Cənub-Qərbə sıxışdırıldılar (XI-XII əsrlərdə. Əslində, sonralar da), karluq (cığatay) ünsürünün mövqeyi yüksəldi.

Şərq (yaxud Türküstan) türkisi türkinin təşəkkül dövrünə düşən yazılı abidələrin: M.Kaşqarinin "Divan"ı, Y.Balasaqunlunun "Kutadqu-biliq"i, Ə.Yüqnəkinin "Atibət-ül-həqaiq"i və Ə. Yasəvinin "Divani-hikmət"inin dil təcrübəsinin bilavasitə davamıdır. Türküstanın mürəkkəb etnokulturoloji təbiəti, müxtəlif türk (və bir sıra qeyri-türk) etnoslarının həmin regionda birlikdə yaşamalırı yalnız təşəkkül dövründə deyil, təkamül dövründə də

burada (Türküstanda) müxtəlif dil tipologiyalarının təzahürü üçün tarixi-coğrafi şərait yaratmışdır. Bununla belə, yuxarıda qeyd edildiyi kimi, aparıcı mövqe keyfiyyətcə karluq-uyğur (onun davamı olan cığatay) qoluna mənsubdur.

Türküstan yazılı abidələrini türkinin bu və ya digər təzahür formasına aid olması baxımından aşağıdakı şəkildə təsnif etmək mümkündür:

a) oğuz abidələri – "Oğuznamə" (uyğur oğuznaməsi), "Məhəbbətnamə" (XIII əsr), Rəbquzinin "Qisasül-ənbiya"sı (XIV əsr), Zəməhşarinin "Müqəddimat ül-ədəb"i (XIV əsr), bir sıra tərcümə lüğətləri və s.

b) qıpçaq abidələri-Mahmud ibn Əlinin "Nəhcül-fəradis"i (XIV əsr), bir sıra tərcümə lüğətləri və s.

v) karluq-uyğur abidələri – Ə.Nəvainin sələfləri sayılan şairlərin əsərləri (XIV əsr), Ə.Nəvainin əsərləri (XV əsr), Ə.Nəvainin bilavasitə davamçılarının əsərləri (XVI əsr), bir sıra dini əsərlər, Türküstan dövlətlərinin türkcə rəsmi sənədləri və s.

Şimal-Qərb (qıpçaq) türkisi Şərq (Türkistan), xüsusilə Cənub-Qərb (oğuz) türkisindən daha geniş bir ərazidə yayılmışdır. Buraya əsasən aşağıdakı ərazilər daxildir: Qərbi Asiya, Şərqi Avropa, Qərbi Avropa, Şimal-Şərqi Afrika (Misir) və s. Şimal-Qərb (qıpçaq) türkisində yazılmış abidələr içərisində lüğətlər xüsusi yer tutur. "Kitabi-məcmueyi-tərcümani-türki və əcəmi və moğoli və farsi" (XIII əsr)", "Codex Cumanicus" (XIV əsr), Əbu Həyyan əl-Əndəlusinin "Kitabi əl-idrak li-lisan əl-ətrak" (XIV əsr), "Kitab ət-töhfət üz-zəkiyyə fi l-lüğət-it türkiyyə" (XIV əsr),Cəmaləddin ət-Türkinin "Kitabi-bulqat əl-müştaq fi lüğət it-türk və l-kıfçaq"(XV əsr) və s.

Şimal-Qərb (qıpçaq) türkisi eyni zamanda Seyfi Sarayinin "Gülüstan bit-Türki" (XIV əsr), Qütbün "Xos-

rov və Şirin" (XIV əsr), S.Fəqihin "İrşadül-mülk və s-səlatin" (XIV əsr), fitvaların toplandığı "Kitab fil-fiqh bi-lisanit-türk" (XIV əsr), M.Abdullahın "Şərhül-mənar" (XV əsr) və s. əsərlərində təmsil olunur ki, bunların hamısı ya bilavasitə, ya da bilvasitə tərcümə kitablarıdır… Əsas əlamətləri:

1) Şimal-Qərb (qıpçaq) türkisi, artıq qeyd olunduğu kimi, əsasən, praktik məqsədlərə xidmət edən tərcümə lüğətlərinin, dini-əxlaqi məzmunlu tərcümə kitablarının, rəsmi, yaxud işgüzar sənədlərin dilidir və türkinin həmin regional təzahür formasında orijinal bədii, elmi əsərlər, demək olar ki, yazılmamışdır;

2) Şərq (Türküstan) və Cənub-Qərb (oğuz) türkisindən fərqli olaraq, Şimal-Qərb (qıpçaq) türkisi yalnız müsəlman dünyası ilə deyil, xristian (Qərb) dünyası ilə əlaqədə olmuş, əgər belə demək mümkünsə, dini-mədəni ehkamlara münasibətdə daha çox sərbəst bir cəmiyyətin dili keyfiyyətini qazanmışdır;

3) karluq-uyğurlara və "İslamın qılıncı", yaxud "qılınc müsəlmanı" adını almış oğuzlara nisbətən qıpçaqlar daha sərbəst, daha liberal" düşüncə (və həyat) tərzinə malik olduqlarına görə Şimal-Qərb (qıpçaq) türkisinin ədəbilik səviyyəsi türkinin digər təzahür formaları ilə müqayisədə aşağı olmuş, xalq dilində gedən prosesləri (eləcə də Qərbi Avropa dilləri ilə ardıcıl və ya təsadüfi kontaktları) özündə dərhal əks etdirmişdir;

4) qıpçaq yazılı abidələri çox müxtəlif areallarda yarandığına, qıpçaq türklərinin düşüncə sərbəstliyinə görədir ki, türkinin həmin təzahür forması Cənub–Qərb (oğuz), xüsusilə Şərq (Türküstan) türkisinin fəal təsirinə məruz qalmışdır və bu təsirlər bəzən o həddə çatır ki, qıpçaqlar tərəfindən yaradılması heç bir mübahisə törət-

məyən bu və ya digər abidənin məhz qıpçaq türkisində olduğu mübahisə törədir;

5) Şimal-Qərb (qıpçaq) türkisində yazılmış abidələrin orfoqrafiyasında izaha gələn və ya gəlməyən bir sərbəstlik (türkcənin fonetikası mövqeyindən ərəb əlifbasının ənənəvi yazı normalarına müdaxilə və ya "təcavüz") müşahidə edilir. Bu da yazı sərbəstliyinin nəticəsidir ki, bir sıra hallarda bu və ya digər abidənin hansı xətt növündə yazıldığını müəyyənləşdirmək olmur və s.

Cənub-Qərb (oğuz) türkisi şərti olaraq "Kitabi-Dədə Qorqud"la (XI əsr) -"Kitabi-Dədəm Qorqud əla lisani-taifeyi-oğuzan"la başlayır... Lakin oğuzlar (xüsusilə Azərbaycana, oradan Kiçik Asiyaya yayılan səlcuqlar) Türküstandakı sələfləri kimi ərəb, fars dillərinə üstünlük verdiklərinə görə bu dillər XI-XIII əsrlərdə Azərbaycanda, Kiçik Asiyada böyük sosial-mədəni nüfuza malik olur; elmi əsərlər, əsasən, ərəbcə, bədii əsərlər, əsasən, farsca yazılır. Xətib Təbrizi, Əbül üla Gəncəvi, Qətran Təbrizi, Bəhmənyar əl-Azərbaycani, Əfzələddin Xaqani, Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Cəlaləddin Rumi kimi böyük mütəfəkkirlər, sənətkarlar "türk oğlu türk" olsalar da əsərlərini məhz ərəb və ya fars dilində qələmə almışlar. Bununla belə, onların dilindən, təfəkküründən türklük süzüldüyünü, demək olar ki, mütəxəssislərin hamısı bu və ya digər şəkildə etiraf edir.

Cənub-Qərb (oğuz) türkisi XIII-XVI əsplərdə aşağıdakı yazılı abidələrlə təmsil olunur: İ.Həsənoğlunun qəzəlləri (XIII əsr), "Dastani-Əhməd Hərami" (XIII-XIV əsrlər), Əlinin "Qisseyi-Yusif"i (XIII-XIV əsrlər), M.Zəririn "Yusif və Züleyxa"sı (XIV əsr), Qazi Bürhanəddinin, İ.Nəsiminin divanları (XIV əsr), Həqirinin "Leyli və Məcnun"u (XV əsr), M.C.Həqiqinin, Kişvə-

rinin divanları (XV əsr), Həbibinin, Ş.İ.Xətainin, M.Füzulinin, M.Əmaninin əsərləri (XVI əsr) və s. Buraya Cəmaləddin ibn Mühənna, H.Naxçıvani, Hüsam və başqalarının bir sıra məşhur tərcümə lüğətlərini də əlavə etmək lazım gəlir.

Cənub-Qərb (oğuz) türkisi mükəmməl ədəbi dil təzahürü kimi bir sıra özünəməxsus əlamətlərə malik olmuşdur:

1) müsəlman dünyasında, xüsusilə XII-XIII əsrlərdən etibarən oğuz türklərinin siyasi-mənəvi nüfuzlarının yüksəlməsi, eləcə də onların tutduqları əlverişli geopolitik mövqe (həmin mövqe həm Şərq, həm də Qərb dünyası ilə ardıcıl əlaqələrə şərait yaradırdı) Cənub-Qərb (oğuz) türkisinin təkamülü üçün hər cür imkanlar açır;

2) Kiçik Asiyaya, oradan da Qərbi Avropaya yürüş edən oğuzlar İslam bayrağını, müsəlman ideologiyasını o dərəcədə yüksəklərə qaldırdılar ki, məhz onların gücünə türk dili üç böyük İslam dilindən birinə çevrildi;

3) oğuz türklərinin saraylarda ərəb, fars, türk dilləri bir sıra hallarda müvazi olaraq işlənməyə başladı, böyük sənətkarlar (məsələn, M.Füzuli) üç dildə əsərlər yaratdılar.

4) türk dilini aparıcı İslam dilinə çevirmək iddiasının nəticəsi idi ki, türkcə ərəb, fars dillərindən alınmalar hesabına türki süni şəkildə "zənginləşdirildi" və "üçayaqlı" bir dil"ə çevrildi;

5) Cənub-Qərb (oğuz) türkisi uzun zaman Şimal-Qərb (qıpçaq) türkisi ilə qarşılıqlı əlaqədə olmuşdur (həmin əlaqənin fəallığı birinci növbədə oğuzlarla qıpçaqların əsrlər boyu yanaşı yaşamaları, xüsusilə Misirdə sıx mədəni kontaktlara girmələrinin nəticəsi idi – xüsusilə XV əsrdən etibarən Şərq (Türkistan) türkisinin Şimal-

Qərb (qıpçaq) və Cənub-Qərb (oğuz) türkilərinə linqvo-kulturoloji təsiri sonuncular arasındakı uyğunluqları bir qədər də artırmış oldu.

Ümumtürk ədəbi dilinin (türkinin) regional təzahür formaları arasındakı linqvistik norma fərqləri o qədər də böyük deyil: a) ən böyük fərq, əslində, fonetik normada olmalı idi, lakin ərəb əlifbasının, yazı qaydalarının həmin təzahür formalarının hər üçü üçün, əsasən, ümumi olması bu fərqləri gizlədir; b) leksik norma ilə bağlı daha çox diqqəti o cəlb edir ki, Şərq (Türküstan) türkisində ərəb, fars mənşəli alınma sözlər Cənub-Qərb (oğuz) türkisindəkindən az, Şimal-Qərb (qıpçaq) türkisindəkindən çoxdur; c) bir sıra ümumi qrammatik kateqoriyalarda (xüsusilə hal, xəbərlik və mənsubiyyət), felə məxsus bəzi xüsusi qrammatik kateqoriyalarda cüzi norma fərqləri müşahidə edilir.

Ümumtürk ədəbi dili (türki) XVI əsrdən sonra tədricən özünün tənəzzül dövrünü keçirir və XVII – XVIII əsrlərdə müxtəlif türk etnokulturoloji regionlarında meydana çıxmış yazılı abidələr həmin tənəzzül dövrünün əlamətlərini əks etdirir:

a) əsasən türkidə yazılmış bir sıra abidələrin dilində bu və ya digər regionun o zamana qədər qeyri-ədəbi sayılan fonetik, leksik və qrammatik xüsusiyyətləri get-gedə daha çox görünməyə başlayır;

b) müxtəlif türk etnokulturoloji regionlarında yerli əhəmiyyətli (miqyaslı) folklorun yazıya köçürülməsi prosesi diqqəti cəlb edir – “xalq kitabları” yaranır;

c) türkiyə (yaxud “klassik üslub”a”) qarşı duran, get-gedə linqvistik-mədəni mövqeyi yüksələn “folklor üslubu” tədricən yazı sahəsində də türkinin fəaliyyətini faktik olaraq məhdudlaşdırır və s.

Türkinin tənəzzülü, fikrimizcə, aşağıdakı sosial-kulturoloji səbəblərdən irəli gəlir:

1) XVII–XVIII əsrlərdən etibarən türk xalqları, yaxud millətləri (bununla əlaqədar olaraq türk milli ədəbi dilləri) formalaşmağa başlayır ki, bu proses istər-istəməz ümumtürk ədəbi dilini (türkini) etnik-mədəni əsaslardan tədricən məhrum edir;

2) müstəqil türk dövlətlərinin meydana çıxması, həmin dövlətlərin az-çox sabit sərhədlərinin müəyyənləşməsi, milli intibah hərəkatı və s. stixiyalı bir şəkildə olsa da bu və ya digər türk ədəbi dili üçün özünəməxsus sosial-kulturoloji inkişaf meyylləri müəyyən edir;

3) türk xalqları, millətləri (və dövlətləri) arasındakı orta əsrlərə məxsus fəal iqtisadi, ictimai-siyasi və mədəni-ədəbi əlaqələr yeni dövrdə kifayət qədər passivləşir, bu cür əlaqə zəifliyi türkinin tarixi coğrafiyasının dağılmasına gətirib çıxarır;

4) ümumtürk mədəniyyət mərkəzləri süqut edir, bunun əvəzində isə ayrı-ayrı dillərin inkişafı üçün sosial-mədəni şərt olan milli mərkəzlər meydana çıxır və s.

XVII-XVIII əsrlərdə formalaşmaqda olan milli (müasir) türk dilləri ilə tənəzzül dövrü keçirən türki (onun regional formaları) arasında sıx, çoxspektrli əlaqələr olmuşdur. Türkinin yazı-kitab dili normaları ədəbiləşmə prosesi keçirən xalq-folklor dili üçün nümunə təşkil etmiş və beləliklə, milli türk ədəbi dilləri türkinin regional təzahür formalarının bilavasitə "nəzarəti" altında" formalaşmışdır:

a) Şərq (Türküstan) türkisi – özbək, uyğur ədəbi dilləri;

b) Şimal – Qərb (qıpçaq) əvvəl tatar, başqırd, sonra qazax, qırğız, kumık, daha sonra qaraçay, balkar, noqay, qaraqalpaq, Altay ədəbi dilləri;

c) Cənub-Qərb (oğuz) türkisi-Azərbaycan, türk, türkmən ədəbi dilləri.

Ümumtürk ədəbi dili (türki), buraya qədər deyilənlərdən də göründüyü kimi, türk sistemli ədəbi dillər içərisində tarixi mövqeyinə (əhəmiyyətinə) görə heç biri ilə müqayisəyə gəlmir; Asiyanın şərqindən Avropanın qərbinə qədər müxtəlif mədəniyyət mərkəzlərində işlənən, müxtəlif xarakterli, üslublu yazılı abidələrdə təzahür edən bu dil orta əsrlər türk təfəkkürünün əsas ifadə forması kimi geniş yayılmış, dünyanın bir sıra mükəmməl ədəbi dilləri ilə yanaşı dayanmışdır. Onu, forma, məzmun və funksiya baxımından latın dili ilə müqayisə etmək mümkündür.

Türki qədim türk ədəbi (epos) dili əsasında təşəkkül tapmış, xüsusilə II minilliyin birinci yarısında zəngin bir təkamül tarixi keçirmiş, həmin minilliyin ikinci yarısında isə müasir türk dillərinin formalaşması üçün nümunə verməklə öz tarixi-mədəni missiyasını başa çatdırmışdır.

## 4.Tanrıçılıqdan islama

Türklərin islam dinini həmin dinin meydana çıxdığı ilk zamanlardan (həzrəti peyğəmbərin sağlığından) başlayaraq qəbul etməsini müxtəlif mənbələr təsdiq edir. "İslamın qılıncı", yaxud daha geniş yayıldığı kimi, "qılınc müsəlmanı" adlanan türklər islamı sadəcə qəbul etməklə kifayətlənməmiş, eyni zamanda ilk çağlardan etibarən onun yayılmasına çalışmışlar. Düzdür, onlar islamı qəbul etdikləri bir sıra ölkələrdə bu dinin incəlikləri barədə ətraflı izahat verə bilməmişlər, çünki ilk əsrlərdə türklər islamın yalnız əsaslarına bələd idilər, onların həyat tərzi də həmin dinin mistikasını mənimsə-

məyə imkan vermirdi, bununla belə, türklərin etnik psixologiyası, təbiəti üçün xarakterik olan sədaqətlilik, iman kamilliyi, onları yeni dinə möhkəm bağlamışdı. Digər tərəfdən, islam Altaydan Türküstana (Mərkəzi Asiyaya), Türküstandan isə Kiçik Asiyaya (və daha Qərbə) axın edən, yeni ərazilərdə məskunlaşan türklər üçün təşkiledici bir ideologiya olmuşdu.

Türklərin tanrıçılıqdan islama keçidinin fəlsəfəsini ən dolğun şəkildə təqdim edən mənbə «Dədə Qorqud» eposudur…

"Kitabi-Dədə Qorqud"da islam dini motivləri, bir sıra araşdırıcıların dönə-dönə qeyd etdikləri kimi, sonradan edilmiş əlavə (katib əlavəsi!) deyildir, əksinə, "Kitab"ın ideya-estetik, poetik əsaslarından biridir. Və hətta müqayisələr, təhlillər göstərir ki, müxtəlif dövrlərdə (görünür, təxminən I–V əsrlərdə), oğuz türklərinin yaşadıqları müxtəlif ərazilərdə (xüsusilə Türküstanda) yaranmış süjetlər həm də islamın qəbulu ehtiyacı, yaxud islam ideologiyası əsasında bir yerə yığılmış, bütöv bir dastana çevrilmişdir. Əgər həmin ehtiyac, həmin ideoloji-mənəvi mühit olmasa idi, şübhəsiz, "Dədə Qorqud" dastanı (xüsusilə "Kitabi-Dədə Qorqud") bu keyfiyyətdə, bu poetik tipologiyada olmazdı.

Müxtəlif dinlərdən (xüsusilə tanrıçılıqdan) islama keçid həm "Dədə Qorqud" dastanının, eposunun, həm də "Kitabi-Dədə Qorqud"un başlıca mövzusudur... "Kitab" eposun məntiqini, ideya-estetik marağını düzgün ifadə etdiyinə görədir ki, orta əsrlərdə türk dünyasında gedən dini, ideoloji-mənəvi prosesləri kifayət qədər obyektiv əks etdirir.

Müqayisələr göstərir ki, "Dədə Qorqud eposu"nun təşəkkülü (VII–IX əsrlər) ilə son əlyazmaların təzahürü (XV–XVI əsrlər) arasında təxminən min ilə qədər bir

məsafə var – həmin dövrün bütün mərhələləri deyil, yalnız ilk mərhələləri "Kitab"da dolğun əksini tapır, sonrakı mərhələlər daha çox "katib əlavələri" hesabına faktlaşır. Azərbaycanda (və Şərqi Anadoluda) islam hərəkatı da eposun (və "Kitab"ın) xüsusi maraq göstərdiyi mərhələlərə düşür.

Qədim türk eposu təşəkkül tapana, daha doğrusu, Altay yaxud protürk eposundan diferensiasiya olunana, "doğulana" qədər "dünya eposu" təxminən üç min ildən artıq bir dövr yaşamışdı ki, həmin dövrdə Altay, yaxud protürk eposunun "dünya eposu" ilə əlaqələrinin olması heç bir şübhə doğurmur.

Orta əsrlər epos tiplərinin (Mərkəzi Asiya, qıpçaq, oğuz) diferensial şəkildə nəzərdən keçirilməsi müəyyən mənada şərtidir, çünki burada ümumtürklülük xüsusiyyətləri aparıcıdır, fərqli (coğrafiya, ictimai inkişaf, etnokulturoloji əlaqələr və s.-dən irəli gələn) xüsusiyyətlər isə tədricən müəyyənləşərək keyfiyyət həddinə çatır. Onu da qeyd edək ki, Mərkəzi Asiya eposu Qıpçaq eposundan, Qıpçaq eposu isə Oğuz eposundan daha mühafizəkar olur, ümumtürk epik təfəkkürünü daha çox saxlayır... Oğuz eposu aşağıdakı səbəblərə görə ilk orta əsrlər türk epos tiplərindən öz müasirliyi, modernliyi ilə seçilir:

1) I minilliyin ortalarından başlayaraq oğuz türklərinin get-gedə daha çox sayda Qərbi Türküstan-Azərbaycan-Kiçik Asiya istiqamətində yayılmaları nəticəsində yeni coğrafiyalara yiyələnmələri, yeni etnik-mədəni əlaqələrə, yeni beynəlxalq münasibətlərə girmələri;

2) türk tanrıçılığı əsasında islam dininin qəbul edilməsi;

3) oğüz türklərinin, xüsusilə XI əsrdən etibarən islam Şərqində aparıcı ictimai-siyasi qüvvəyə çevrilmələri...

«Dədə Qorqud» dastanı, artıq qeyd edildiyi kimi, ilk orta əsrlərin oğuz eposudur – bu isə o deməkdir ki, birincisi, Dədə Qorqud dastanında qədim türk epos təfəkkürünün müəyyən əlamətləri mühafizə edilir; ikincisi, həmin dastanda son orta əsrlər Azərbaycan türk eposunun ideya-estetik əsasları müəyyənləşir. Və ona görə də "Dədə Qorqud" dastanında (faktiki olaraq "Kitabi-Dədə Qorqud"da) həm qədim türk eposunun (e.ə. I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına qədər), həm də Azərbaycan türk eposunun (XV əsrdən sonra) ünsürlərini, motivlərini, formullarını tapmaq mümkündür, lakin bütün bunlar həmin dastanın məhz ilk orta əsrlər oğuz epik təfəkkürünün məhsulu, hadisəsi olduğunu inkar etmir. Müşahidələr göstərir ki, ümumən türk epik təfəkkürünün keçdiyi (və buraya qədər haqqında söhbət gedən) üç tarixi dövrü – qədim, ilk orta əsrlər (daha doğrusu I minilliyin ortalarından təxminən II minilliyin ortalarına qədər) və son orta əsrlər dövrlərini mexaniki əvəzlənmələr deyil, türk eposunun təkamül dövrləri hesab etmək lazım gəlir. Həmin dövrləşdirmə müxtəlif prinsiplər baxımından özünü doğrultsa da, biz yalnız bir prinsipi (və kifayət qədər əsas prinsip) nəzərdən keçirəcəyik.

Müqayisə edək:

I. Qədim türk eposunun əsas qəhrəmanları mifik obrazlardır – Su, Yer, Göy, Ağac, Quş, Boz Qurd, Tanrı xan... Qədim türk eposunun sonrakı mərhələlərində artıq Tanrı obrazının mükəmməlləşərək mifologiyanı özünə tabe etməyə başladığı diqqəti çəkir.

II. İlk orta əsrlər türk eposunun əsas qəhrəmanı Tanrıdır (yaxud onun təzahürü olan xaqandır). Türklər (oğuzlar) islam dinini qəbul etdikdən sonra türk Tanrısı tədricən Allaha çevrilir.

III. Türk (burada oğuz) xalqlarının diferensiasiyası müstəqil türk millətlərinin formalaşması ərəfəsində (və gedişində) son orta əsrlərdə Azərbaycan türk eposunun əsas qəhrəmanı nə Tanrı, nə də Allahdır, Tanrı-Allahın himayəsində olan sufi-aşiqdir (İnsandır).

“Kitabi-Dədə Qorqud”un mifologiyasından danışan araşdırıcılar (məsələn, professor Süleyman Əlyarlı), adətən, “Kitab”da bir neçə min il əvvəlin olmayan (!) “epik tarix”ini axtarır, göz qabağındakı tarixi isə nədənsə görmək istəmirlər.

Yalnız onu demək kifayətdir ki, “Kitabi-Dədə Qorqud” (daha doğrusu, “Dədə Qorqud” dastanı) dövründə oğuzların epik təfəkküründən Boz Qurd obrazı, demək olar ki, silinmişdi, bir az sonra oğuzlar özlərini hətta qaraqoyunlular, ağqoyunlular adlandırdılar.

Bəzi tədqiqatçılar təkcə tarixi prinsipləri deyil, etnocoğrafi prinsipləri də pozaraq “Kitab”dakı mifoloji arxaizmləri orta əsrlərin qıpçaq eposunun təzahürləri ilə müqayisə edirlər. Halbuki qədim türk eposu orta əsrlər qıpçaq eposunda daha çox mühafizə olunur, qıpçaqlar oğuzlar qədər fəal müsəlman düşüncə mədəniyyətini qəbul etmirlər. Və bu da təsadüfi deyil ki, qıpçaq xalqlarının ədəbiyyatı oğuz xalqlarının ədəbiyyatı ilə müqayisədə daha az inkişaf dövrlərindən, yaxud mərhələlərindən keçmişdir (məsələn, “Maaday Kara”, “Manas” bu günə qədər altayların, qırğızların canlı yaddaşındadır, halbuki Azərbaycan, yaxud Anadolu türkləri “Dədə Qorqud” dastanını II minilliyin ortalarında unutmuşlar).

"Kitab"da qədim türk mifologiyasının süqutunu görürük – burada mifoloji obrazlar dastanın ideya-estetik məzmununa əhəmiyyətli təsir göstərməməklə yanaşı, süjetin, hadisələrin hərəkətinə təkan verməkdən də məhrumdur. Lakin ilk (və sonrakı) orta əsrlərin öz mifoloji dünyası vardır, çünki kütləvi ümumxalq fantaziyası, hər hansı dövr olursa olsun, ətraf aləmi özünəməxsus şəkildə ümumiləşdirməyə bilməz...

"Kitab"da öz əksini tapmış (və dastanın ideya-estetik məzmununa əhəmiyyətli dərəcədə təsir edən) epizodlar, motivlər, təfərrüatlar islam dini ünsürlərinin abidəyə sonralar katiblər tərəfindən əlavə olunduğu fikrini söyləyənlərin yanlış mövqedə durduqlarını göstərir. Tanrıçılıqdan islama keçid "Dədə Qorqud" dastanının formalaşdığı dövrdə (I minilliyin ikinci yarısında) Azərbaycan cəmiyyətinin əsas etnokulturoloji, ideoloji problemlərindən biri olduğuna görə həmin məsələ "Kitab"a katib əlavəsi olaraq, yəni subyektiv şəkildə daxil edilə bilməzdi. Və bilavasitə islam dininin yayıldığı, müxtəlif ictimai-siyasi, etnokulturoloji maneələrlə qarşılaşdığı əsrlərdə formalaşdığına görədir ki, Azərbaycan türk xalqının təşəkkülünə əhəmiyyətli təsir göstərmiş oğuz-qıpçaq münasibətləri dastanda məhz həmin etnosların islama münasibəti mövqeyindən interpretasiya edilir.

"Dədə Qorqud" dastanında ümumtürk epos təfəkkürü, əgər belə demək mümkünsə, məhdudlaşır.

Və bu cür "məhdudlaşma" nəticəsində həm dastanda, həm də "Kitab"da Azərbaycanın, Anadolunun, bir sıra qonşu ölkələrin epik tarixi, epik coğrafiyası bu və ya digər səviyyədə konkret əks olunur.

...Türk cəmiyyəti islam dinini zəngin düşüncə mədəniyyəti, mükəmməl idrak təcrübəsi əsasında qəbul edir. Ona görə də islam müxtəlif inkişaf səviyyəsində

olan dini dünyagörüşlərlə polemikaya girməli olur. Və həmin polemika öz əksini daha çox müsəlmanlarla qeyri-müsəlmanların münaqişəsində, müharibəsində tapsa da, "Kitab" islam dininin məhz intellektual-mənəvi, ideoloji qələbəsini nümayiş etdirməyə meyllidir...

"Rəsul əleyhüssəlam zamanına yaqın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu. Oğuzun ol kişi təmam bilicisiydi, nə dersə olardı, qayibdən dürlü xəbər söylərdi. Həq-təala onun könlünə ilham edərdi.

Qorqud Ata ayıtdı:

– Axır zamanda xanlıq gerü – Qayıya dönə, kimsənə əllərindən alammıya, axır zaman olub qiyamət qopunca...

Bu dedigi Osman nəslidir, işdə sürülüb gedəyüdür. Dəxi neçə buna bənzər sözlər söylədi.

Qorqud Ata Oğuz qövminin müşkülünü həll edirdi. Hər nə iş olsa, Qorqud Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa, qəbul edilərdi, sözün tutub təmam edərlərdi".

Göründüyü kimi, burada söhbət cəmiyyətin sıravi bir üzvünün deyil, onun mənəvi-ideoloji rəhbərinin islam dünyagörüşünü qəbul etməsindən gedir. Və onun aşağıdakı sözləri də həmin dünyagörüşün ifadəsidir:

*Allah, Allah deməyincə işlər onmaz,*
*Qadir Tanrı verməyincə ər bayımaz.*
*Əzəldən yazılmasa, qul başına qəza gəlməz,*
*Əcəl vədə irməyincə kimsə ölməz.*
*Çıxan can gerü gəlməz.*
*Bir yigidin qara dağ yumurusunca malı olsa,*
*yığar, dirər, tələb eylər -*
*Nəsibindən artığın yiyə bilməz.*
*Ulaşıban sular daşsa, dəniz dolmaz,*

*Təkəbbürlük eyləyəni Tanrı sevməz...*

Qorqud Ata, yaxud "Kitab"da daha çox işləndiyi kimi, Dədə Qorqud islam müqəddəslərini yüksək tutur – ona görə də "söyləmiş, görəlim, xanım, nə söyləmiş":"

*Ağız açıb ögər olsam, üstümüzdə Tanrı görklü,*
*Tanrı dostu, din sərvəri Məhəmməd görklü.*
*Məhəmmədin sağ yanında namaz qılan*
*Əbubəkr Siddiq görklü,*
*Axır separə başıdır, "Əmmə" görklü,*
*Hecasinləyin, düz oqunsa, "Yasin" görklü*
*Qılıc çaldı, din açdı, Şahmərdan Əli görklü...*
*Əlinin oğulları, peyğəmbər nəvələri.*

Bununla belə İslama qədərki mənəvi-əxlaqi təsəvvürlər, dəyərlər də unudulmur, eyni dərəcədə yüksək tutulur:

*Dizin basıb oturanda halal görklü,*
*Dölümündən ağarsa, baba görklü.*
*Ağ südün doya əmizsə, ana görklü,*
*Yanaşıb yola girəndə qara buğur görklü.*
*Uzunca tənəfi görklü.*
*Oğul görklü...*

Qorqud Atanın, yaxud Dədə Qorqudun "Kitab"ın müqəddiməsində islam dini təbliğatçısı, ideoloqu kimi təqdim olunması bizi bir sıra mətləblərdən hali edir:

Hər şeydən əvvəl, Dədə Qorqud müsəlman olmaqla islama qədərki türk dünyagörüşünün, mənəviyyatının islami əsaslar üzərində yenidən təşkilini simvolizə edir;

ikincisi, türk ruhunun, mənəviyyatının (ümumən türklüyün!) islamdan əvvəlki mərhələsi ilə sonrakı mərhələsini özündə birləşdirir, bütöv təqdim edir;

üçüncüsü, eposun (və "Kitab"ın) əfsanəvi müəllifi kimi onun ideya-estetik xarakterini, qayəsini, məqsədini əks etdirir.

Görünür, "Dədə Qorqud" eposunda Dədə Qorqud daha çox (bəlkə də yalnız!) müəllif olmuş, "Dədə Qorqud" Kitab"ında isə daha çox obraza çevrilmişdir ki, bunun da əsas səbəbi eposun müdrik müəllifinin yazıda böyük ideoloji semantika daşıyan bir obraz kimi təzahürünə xüsusi ehtiyac olması idi. Və bizim fikrimizcə, Dədə Qorqudun müəllifdən daha çox obraza çevrilməsində onun islam ideoloqu kimi yenidən təzahürü əhəmiyyətli rol oynamışdır. Eyni zamanda dastanı yazıya köçürən hər bir şəxs özünü bu və ya digər dərəcədə müəllif (katib yox!) sayması ilə Dədə Qorqudu müəlliflikdən bir qədər də "kənarlaşdırmış", bir qədər də obrazlaşdırmışdır. Həmin müəllif-katiblər hər boyun sonunda Dədə Qorqudun sözünü davam etdirirmişlər kimi öz sözlərini (əslində, zəmanələrinin sözlərini) də "yum verəyim, xanım" -deyə əlavə etmişlər:

*Ağ alnında beş kəlmə dua qaldıq, qəbul olsun!*
*Yığışdırsın, duruşdursun,*
*Günahlarını adı görklü Məhəmməd*
*Mustafa yüzü suyuna bağışlasın!..*

"Kitab"ın müqəddiməsində öz əksini tapmış islam dünyagörüşü, heç şübhəsiz, bir qədər deklorativ (təbliğat) xarakter daşıyır, lakin bununla belə, o həmin müqəddimədə islama qədərki türk-oğuz dünyagörüşünün qeydsiz-şərtsiz inkarı, yaxud müxtəlif dini-ideoloji dün-

yagörüşlərin eklektikası, mexaniki yığımı ilə deyil, üzvi vəhdəti ilə qarşılaşırıq. Və bütün aydınlığı ilə görünür ki, islam dini özünə qədərki ideya-mənəvi əxlaqi görüşləri ehtiva etmiş türk düşüncəsinə, əgər belə demək mümkünsə, prinsip etibarilə hakim olmuşdur.

Türk dünyasının möhtəşəm kitabı olan "Divani-lüğət-it-türk"ün əsas ideyalarından biri məhz islama keçidin tarixi zərurət olduğunu təsdiq etməkdən ibarətdir: "Hər cür tərif – böyük yaxşılıqlar, gözəl işlər sahibi olan Tanrı adı üçündür. Xalqın ən çox danışanı lal, ən sağlamı çürük olduğu bir zamanda Tanrı Cəbrayılı açıq anlayış və hərtərəfli məlumatla Məhəmmədə içərisində haramı, halalı anladan Quranı göndərdi; beləliklə, əsl yönü nədən ibarət olduğunu göstərdi...

İndi bunlan sonra Mühəmməd oğlu Hüseyn, Hüseyn oğlu Mahmud deyir ki, Tanrının dövlət günəşini türk bürclərində doğdurmuş olduğunu... gördüm. Tanrı onlara türk adını verdi və onları yer üzünə başçı etdi. Zəmanəmizin xaqanlarını onlardan seçdi, dünya millətlərinin idarə işlərini onların əllərinə verdi, onları hər kəsdən üstün elədi, ilahi qüdrətlə mükafatlandırdı..."

Beləliklə, türklər islamı heç də amansız müharibələrdə, döyüşlərdə məğlub olmuş bir etnos, cəmiyyət, xalq kimi deyil, kifayət qədər aydın hiss olunan qalib emosiyası, əhvali-ruhiyyəsi ilə qəbul edirlər. M.Kaşqari öz "Divan"ında göstərir ki, Tanrı türklərlə "birlikdə çalışanı, onların tərəfində duranı əziz tutdu və türklərə görə onları hər bir arzusuna çatdırdı, pislərin şərindən qorudu. Ağıllı odur ki, özünü onların (türklərin – N.C.) oxlarından qoruya bilmək üçün gərək arxalarınca getsin. Dərdini anlatmaq və türklərin könlünü almaqdan ötrü onların dilləri ilə danışmaqdan başqa yol yoxdur..."

"Kitabi-Dədə Qorqud" M.Kaşqarinin tamamilə haqlı olduğunu təsdiq edir.

Tanrını, Allahı tanımaq, ondan qorxmaq ideyasının "Kitab"da ən kəskin şəkildə irəli sürüldüyü boy – "Duxa qoca oğlu Dəli Domrul boyu"dur.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Allah-Tanrı obrazının bu cür sərbəst, sadəlövhcəsinə, bir qədər də ərkyana yaradılması, birincisi, epos təfəkkürünün xarakteri ilə bağlıdırsa, ikinci tərəfdən, türk düşüncəsinin tipologiyasından irəli gəlir. Türklər qədim dövrlərdən başlayaraq öz Tanrıları ilə sıx mənəvi-ruhi təmasda olmuş, ondan qorxub-çəkinməmiş, əksinə, ona könüldən bağlanmış, islamı qəbul edəndən sonra həmin sadəlövhlük, səmimilik müsəlman Allahına münasibətdə də özünü göstərmişdir. Lakin ilk dövrdə belə olmuşdur... Tədricən sadəlövhlük mistika, səmimilik isə mənəvi-ruhi diplomatiya ilə əvəz olunmağa başlamış, müxtəlif təriqətlər, ruhani məktəblər, tendensiyalar yaranmışdır.

"Kitab"da Tanrı-Allah sevgisi ata-ana sevgisi qədər munis, isti və səmimidir.

Qorqudşünaslıqda "Duxa Qoca oğlu Dəli Domrul boyu" özünün qeyri-adi, orijinal məzmunu ilə həmişə diqqət mərkəzində olmuş, mübahisə doğurmuşdur. Akademik V.V.Bartold həmin boyun dastana sonradan əlavə edildiyini söyləmiş, professor M.H.Təhmasib isə həmin fikri müdafiə edərək daha irəli getmişdir; o, (M.H.Təhmasib) Dəli Domrul obrazının "təkamül"ünü bu cür xarakterizə edir: "Qədim variantda Allaha asi kəsilən, al qanadlı Əzrail"i saymayan, onu öldürüb yaxşı yigidləri xilas etmək" istəyən bu məğrur gənc yeni dastanda bir quru çayın üstündə körpü yapdırıb keçəndən otuz axça, keçməyəndən döyə-döyə qırx axça alan" yelbeyin,

avam, cahil, nadan bir dəlisov şəklinə salınmış, al-çaldılmış, miskinləşdirilmişdir. Boyun son variantını işləyən dastançı Ozan onu elə bir hala gətirib çıxarır ki, axırda o, öz qanmazlığını, nadanlığını "dərk" edir".

Görkəmli Azərbaycan folklorşünasının həmin mülahizəsini haqlı olaraq tənqid edən tələbələrindən biri (professor B.Abdulla) da öz növbəsində məsələni, demək olar ki, düzgün qoymur: guya boyun yaradılmasında məqsəd "Allahın ucalığını, vahidliyini, islami ənənələrin geniş yayılmağa başladığını (bu sonuncunun nə demək olduğu məlum deyil – N.C.), Tanrı mələklərindən olan Əzrailin mövqeyini bildirmək" imiş. "Oğuz türklərinin müsəlmanlığı qəbul etdikləri dövrdə yaranan "Dəli Domrul boyu" (X.Koroğlu) bizim fikrimizcə, is-lama qədərki türk dünyagörüşü ilə islamın qarşılaşmasını (və bu zaman ortaya çıxan idrak problemlərini!) özünəməxsus bir şəkildə – orta əsrlər epos məntiqi ilə əks etdirir. Boyda şərabın xatırladılması da təsadüfi deyil – eposun "arı könüldə pas olsa şərab açar" məntiqi ("Bəkil oğlu Əmran boyu"nda xatunu Bəkilə deyir) burada yerimir, əksinə, Dəli Domrul günahını şərab içməsi ilə əlaqələndirir. Qeyd edək ki, "Bamsı Beyrək boyu"nda qəhrəman bazirganları yağmalamış kafir üzərinə ge-dəndə "şərab içərkən içməz" olur", "altun ayağı yerə" çalır". Və beləliklə, islam eposda, ehtiyatla da olsa, şəraba öz klassik münasibətini bildirir.

"Dəli Domrul boyu" göstərir ki, islama qədərki türk oğuz təfəkkürü islamı müəyyən mühakimələrlə, sorğu-suallarla, qeyd-şərtlə qəbul edir, İslam türk təfəkküründə boşluğa, ideyasızlığa düşmür...

Oğuz igidləri bu və ya digər çətinliyə düşəndə Allah-təalaya sığınıb ona dua edirlər:

*Yucalardan yucasan,*
*Kimsə bilməz necəsən,*
*Əziz Tanrı.*
*Sən anadan doğmadın,*
*Sən atadan olmadın.*
*Kimsə rizqin yemədin,*
*Kimsəyə güc etmədin.*
*Qamu yerdə əhədsən,*
*Allahi-səmədsən...*

Müsəlman Allahının müəyyən xüsusiyyətlərini yada salan oğuz igidi onu şəxsləndirir, mükəmməl bir obraza çevirir. Və ona aşağıdakı təyinləri aid edir:

a) mistik-ruhani təyinlər;

b) insani, yaxud bəşəri təyinlər.

Mistik – ruhani təyinlərin, demək olar ki, hamısı dini kitablardan, hədislərdən gəlir-burda "epos müəllifi" orijinallıq eləmir. İnsani, yaxud bəşəri təyinlərə gəldikdə isə bunların əksəriyyəti islamın qəbulunun ilk dövründə xalq təfəkküründə müəyyənləşmiş, əsasən orijinal ifadələrdir: yucalardan yucasan, kimsə bilməz necəsən, urduğun ulatmıyan, basdığın bəlirtməyən, götürdügün gökə yetirən, qaqıdığın qəhr edən və s. Allah-Tanrıya edilən dualarda mistik-ruhani təyinlərlə insani, yaxud bəşəri təyinlər ideya-məzmunca səsləşir, təyin olunan barədə bütöv təsəvvür yaradır. Ona görə də bizə belə gəlir ki, Allah-Tanrıya aid edilən mistik-ruhani təyinlərin əksəriyyəti dini mənbələrdən əvvəl eposun dilinə keçmiş müəyyən müddət şifahi ömrünü yaşamış, sonra "Kitab"da əks olunmuşdur.

Eposda islam dini başqa dinlərlə müqayisə edilir və birincinin üstünlüyü müxtəlif formalarda sübut, yaxud təsdiq olunur.

Müsəlman Allahı həm xristian Allahından, həm də bütlərdən müqayisə olunmaz dərəcədə qüdrətli, hər şeyə qadir hesab edilir.

Eposun qəhrəmanlarında belə bir təsəvvür var ki, Allah-Tanrı qoyarsa, imkan verərsə, onlar hər hansı çətinliyin öhdəsindən asanlıqla gələ bilərlər. Bununla belə, Allahın insanın öz daxilində olması fikri müəyyən qədər deklorativ şəkildə irəli sürülsə də ("sən xoş möminlər könlündəsən!"), eposun qəhrəmanları xüsusi hallarda Allah-təalaya müraciət edir, onun müdafiəsinə ehtiyacları olduğunu bəyan edirlər ("Allahıma sığındım!" deyə). Bu isə Allah-Tanrı inamının "Kitab"da hələ lazımi ruhi-mənəvi, intellektual səviyyəyə çatmadığını, yaxud oğuz igidinin epik düşüncə sərbəstliyini bir daha təsdiq edir. "Bəkil oğlu Əmranın boyu"nda kafiri yenmək üçün Allaha yalvaran gənc igidlə kafir arasında dini dünyagörüşlərin müqayisəsinə əsaslanan dramatik bir söhbət gedir:

"Kafir aydır:

– Oğlan alındınsa, Tanrınamı yalvarırsan? Sənin bir Tanrın varsa, mənim yetmiş iki bütxanəm var, –dedi.

Oğlan aydır:

– Ya asi məlun, sən bütlərinə yalvarırsan, mən aləmləri yoqdan var edən Allahıma sığındım, –dedi.

Həqq-təala Cəbrayıla buyurdu kim, ya Cəbrayıl, var şol quluma qırq ərcə qüvvət verdim, –dedi.

Oğlan kafiri götürdü yerə vurdu, burnundan qanı düdük kibi şorladı. Sıçrayıb şahin gibi kafirin boğazın ələ aldı. Kafir aydır:

– Yigit, aman! Szin dinə nə derlər? Dininə girdim, –dedi. Barmaq götürüb, şəhatə gətirüb müsəlman oldu. Qalan kafirlər bilüb meydanı salub qaçdı".

Allah-Tanrı oğuz igidinə ilham, emosinal güc verir, Allah eşqi ilə silahlanmış qazi ərən hər cür fiziki maneəni dəf edir.

Təpəgözün qurduğu tələyə düşən Basatın dilinə kəlmeyi-şəhadət gəlir: “La ilahə illəllah, Məhəmməd rəsul allah, –dedi. Dedi, həmin dəm günbəd yarıldı, yeddi yerdən qapı açıldı, birindən daşra gəldi.

...Təpəgöz aydır:

– Oğlan, qurtuldunmu?

Basat aydır:

– Tanrım qutardı, –dedi”.

İslam dininə, onun kanonlarına, obrazlarına hörmət, ürəkdən inanmaq, sədaqət göstərmək eposun ideya-məzmununa əhəmiyyətli təsir göstərən, bir sıra hallarda isə onu hətta müəyyən edən motivlərdir. Bizim qəti inamımıza görə, oğuz igidinin yenicə qəbul etdiyi, yalnız əsaslarını bildiyi, təfsilatına hələ dərindən bələd olmadığı islam dininə sədaqəti islam ideologiyasının imkanlarından daha çox həmin oğuz igidinin xarakteri – ümumiyyətlə sədaqətliliyi, ümumiyyətlə səmimiliyi, ümumiyyətlə ünsiyyətcilliyi ilə əlaqədardır.

“Kitab”ın “Dirsə xan oğlu Buğac boyu”nda islamın qəbulu, sonrakı bir sıra boylardan fərqli olaraq, bilavasitə ideya-mənəvi problem kimi qoyulmur. Lakin məsələnin ondan az vacib olmayan başqa bir tərəfinə toxunulur ki, bu da islama qədərki düşüncə tərzi, etnopsixologiya ilə müsəlman dünyagörüşünün əlaqələndirilməsindən ibarətdir. Düzdür, həmin əlaqələndirmə hələ zəifdir, üzdəndir, bununla belə, hiss edilir ki, islama qədərki türk mənəviyyatından islama birbaşa çıxış mövcuddur:

“Xanlar xanı Xan Bayındır ildə bir kərə toy edib Oğuz bəglərin qonaqlardı. Genə toy edib atdan, ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə

ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdurmuşdu.

– Kimin ki, oğlu-qızı yoq, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin. Yersə, yesin, yeməzsə dursun getsin, –demişdi.

-Oğlu-qızı olmayanı allah-təala qarğayıbdır, biz dəxi qarğarız, bəlli bilsin, –demişdi".

Bayındır xanın göstərişi təsadüfi deyil, o kimisə təhqir etmək, cəmiyyətin gözündən salmaq məqsədi də güdmür, qədim bir adəti, mərasimi yerinə yetirir... Bayındır xanın məclisinə gələn Dirsə xan bu göstərişdən, yəni oğlu, qızı olmadığı üçün qara çadıra oturulmasından narazı qalsa da, günahı özündə, yaxud xanımında görür. Oturmayıb evinə qayıdır.

Məsələ burasındadır ki, Bayındır xanının göstərişi elə onun özü tərəfindən islamı məntiqlə əsaslandırılır: "Allah-təala qarğayıbdır, biz dəxi qarğarız"...

Lakin "Kitabi-Dədə Qorqud"da islama qədərki dünyagörüşlərin, dini inamların hələ kifayət qədər canlı olduğu məlumdur; məsələn, Dirsə xanın oğlundan nigaran xanımı öz emosiyasını bu cür ifadə edir:

*...Çıxsın bənim kor gözüm,*
*A Dirsə xan, yaman səgrir!*
*Kəsilsin oğlan əmən süd damarım,*
*Yaman sızlar!..*
*Sarı yılan soqmaqdan aqca tənim qalqıb şişər,*
*Yalnızca oğul görünməz, bağrım yanar...*

Yaralanıb özündən getmiş oğlu Buğacı axtarıb tapan ana ona belə müraciət edir:

*Qara qıyma gözlərin*
*uyxu almış, açqıl axı.*
*Ol ennicə sinəcigün*

*Uzunalmış yığışır axı.*
*Tanrı verən datlı canın*
*Seyrandaymış indi, axı.*
*Yüz-gözündə canın varsa,*
*Oğul, ver xəbər mana,*
*Qara başım qurban olsun, oğul, sana!..*

"Yalnızca oğul"u itirəcəyindən qorxub həyəcanlanan, çılğınlaşan ana oğlunun gəlib çıxdığı Qazlıq dağına qarğayır. Huşu özünə gəlmiş Buğac anasını bundan çəkindirir:

*Bəri gəlgil,*
*Ağ südün əmdiyim qadınım ana!*
*Ağ birçəkli, izzətli canım ana!..*
*Aqarına qarğamagil,*
*Qazlıq dağının suçu yoqdur.*
*Qaçar keyklərinə qarğamagil,*
*Qazlıq dağının günahı yoqdur...*
*Qarğasan, babama qarğa,*
*Bu suç, bu günah babamdandır.*

Xızırın məsləhəti ilə Buğacın yarasını ana südü, dağ çiçəyi ilə müalicə edib sağaldırlar...

Kafirə özünün kimliyini, əslini, kökünü izah edən" Qazan xan müsəlman olduğunu, "Məhəmmədin dini eşqinə qılınc urduğunu", kafir şəhərləri aldığını" deməklə yanaşı onu da əlavə edir:

*Ağqayanın qaplanın erkəgində bir köküm var,*
*Ortac qırda sizin keyiklərinizi durqurmaya.*
*Ağ sazın aslanında bir köküm var,*
*Qazalaca yondunuz durqurmaya.*
*Əzvay qurd ənigi erkəyində bir köküm var,*

*Ağca yunlu tümən qoyunun gəzdirməyə.*
*Ağ sonqur quşu erkəgində bir köküm var,*
*Ala ördək, qara qazın uçurmaya...*

İslama qədərki inamların "Kitabi-Dədə Qorqud"-dakı çoxçeşidliliyi müxtəlif dövrlərin düşüncə tərzinin, dünyagörüşünün müəyyən idrak qanunlarına müvafiq olaraq sinxronlaşması ilə bağlıdır – müşahidələr göstərir ki, "Kitab"da (və deməli, eposda) aşağıdakı dini dünyagörüş formaları bu və ya digər miqyasda (və keyfiyyətdə) əks olunur:

1) ibtidai inamlar (xüsusilə təbiətə inam, yaxud təbiəti canlı təsəvvür etmək), mifologiya;

2) tanrıçılıq;

3) islam.

Su ilə xəbərləşmək, sudan xəbər soruşmaq qədim türklərin su ilə bağlı zəngin inamlarının ifadəsidir. Həmin inamların bir çoxu İslam dini ilə birləşərək bu günə qədər yaşamaqdadır. Həyat mənbəyi olan suyun qədim türk təfəkküründə bu cür möhkəm yer tutması tamamilə təbiidir.

"Kitab"da su kultu ilə yanaşı ağac kultu da diqqəti çəkir – Qazan xanın oğlu Uruzu kafirlər dara çəkmək (ağacdan asmaq) istərkən ağaca belə müraciət edir:

*Ağac, ağac dersəm sana ərlənmə, ağac!..*
*Məkkə ilə Mədinənin qapısı ağac,*
*Musayi-kəlimin əsası ağac!*
*Böyük-böyük suların körpüsü ağac,*
*Qara-qara dənizlərin gəmisi ağac,*
*Şahi-Mərdan Əlinin Düldülünün əyəri ağac...*

"Kitab"da öz əksini tapmış inamlardan biri də qurd (boz qurd) inamıdır, lakin bu inam da arxaikləşmiş, hətta demək olar ki, totemlə heyvan (canavar) arasındakı fərq götürülmüşdür. Ona görə də Qazan xanın qurda müraciətində kifayət qədər sıravi, adi təyinlər işlədilir, qurdun totem funksiyası arxa planda qalır:

*Qaranqu axşam olandı günü doğan,*
*Qar ilə yağmur yağanda ər kibi duran,*
*qaraqoç atları kişnəşdirən,*
*Qızıl dəvə gördügündə bozlaşdıran,*
*Ağca qoyun gördügündə quyruq çırpıb qamçılayan,*
*Arxasını urub bərk ağılın ardın sökən...*

Müşahidələr, müqayisələr göstərir ki, "Kitab"da islamaqədərki əsas dini dünyagörüşü tanrıçılıqdır, lakin ibtidai inamların, mifoloji obrazların bu və ya digər şəkildə təzahürü barədə danışmaq mümkün olsa da, islamaqədərki Tanrı (türk Tanrısı) "Kitab"da bilavasitə iştirak etmir. Bunun da əsas səbəbi, fikrimizcə, aşağıdakılardan ibarətdir:

1) tanrıçılıq ibtidai dinlərlə, inamlarla müqayisədə yüksək səviyyəyə qalxmış dünyagörüşü forması olduğuna görə onlardan daha asan islamlaşmış, daha az relikt vermişdir;

2) islamı (heç olmasa onun əsas prinsiplərini) qəbul etmiş cəmiyyət, xalq öz eposunda (ümumən epik təfəkküründə islam Allah-Tanrısı ilə rəqabət apara biləcək ikinci Tanrıdan (türk Tanrısından) imtina etməli olmuşdur;

3) tanrıçılığın bir sıra xüsusiyyətləri islam dini tərəfindən ehtiva edilmiş, beləliklə, islamın "türk islamı" adlandıra biləcəyimiz variasiyası meydana çıxmışdır.

Və bütün bunlara görə "Dədə Qorqud" eposunda biri digərini əvəz etmiş müxtəlif dini dünyagörüşü formalarının İslam dininin üstünlüyü ilə bir iyerarxiyası əmələ gəlmişdir.

"Kitab"dakı həmin dini-mənəvi, ideoloji iyerarxiya özünü yığcam şəkildə daha çox boyların axırında gələn "yum"larda göstərir:

*Yerli qara dağların yıqılmasın!*
*Kölgəlikcə qaba ağacın kəsilməsin!*
*Qamən aqan görklü suyun qurumasın!*
*Qanadların ucları qırılmasın!*
*Çaparkən ağ-boz atın büdrəməsin!*
*Çalışanda qara polad uz qılıncın kütəlməsin!*
*Dürtüşərkən al göndərin ufanmasın!*
*Ağ birçəkli anan yeri behişt olsun!*
*Ağ saqqallı baban yeri uçmaq olsun!*
*Haqq yandıran çırağın yana dursun!*
*Qadir Tanrı səni namərdə möhtac eləməsin!*

Göründüyü kimi, burada müxtəlif dini dünyagörüş formaları süxurlaşır, – türklər tərəfindən qəbul edilmiş islam dini islama qədərki dünyagörüş formalarını dərhal inkar etmir, müsəlmanlaşma prosesi mənəvi sahədə tədricən gedir.

Ümumiyyətlə, "Kitab"da İslamlın qəbulunun iki məqamını ayırmaq lazımdır:

1) islamın oğuz türkləri tərəfindən qəbulu;

2) islamın qıpçaq türkləri, eləcə də qeyri-türklər (ümumən kafirlər) tərəfindən qəbulu.

İslamın oğuz türkləri tərəfindən qəbulu "Kitab"da üzdə olan bir məqam deyildir, – o, daha çox "Kitab"ın daxili məzmununu təşkil edən mənəvi məsələdir. İsla-

mın qıpçaq türkləri, eləcə də qeyri-türklər (ümumən kafirlər) tərəfindən qəbuluna gəldikdə isə, bu məqam kifayət qədər üzdədir... “Kitab”ın, artıq qeyd olunduğu kimi, əsas ideyalarından birini məhz bu – kafirlərin müxtəlif münasibətlərlə islamı qəbul etməsi təşkil edir.

“Kitab”dan görünür ki, islam dini oğuzların – müsəlman türklərin etnoqrafiyasına da daxil olmuşdur – bu baxımdan “Bayburanın oğlu Bamsı Beyrək boyu”nda Dədə Qorqudun Dəli Qarcarın bacısı Banı Çiçəyə elçi getməsi hadisəsi müəyyən maraq doğurur... Dədə Qorqud qızı bu cür istəyir: “Qarşı yatan qara dağını aşmağa gəlmişəm, aqıntılı-görklü suyunu keçməgə gəlmişəm, gen ətəginə, dar qoltuquna qısılmağa gəlmişəm. Tanrının buyuruğu ilə, peyğəmbərin qövlilə, bəgim, aydan arı, gündən görklü qız qardaşın Banı Çiçəyi Bamsı Beyrəgə diləməgə gəlmişəm”…

“Kitab”da İslam dininin artıq dövlətçilik düşüncəsi ilə əlaqədar olduğunu göstərən məqamlara təsadüf olunur; məsələn, “Bəkil oğlu Əmranın boyu”nda Qazan xandan incimiş, padşaha asi olmuş Bəkilə xanımı belə deyir: “Yigidim, bəg yigidim! Padşahlar tanrının kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz”...

Lakin istər eposda, istərsə də “Kitab”da islam dini qədim türk dövlətçilik ənənələrinə əhəmiyyətli təsir edə bilmir. Ona görə ki, həmin dinin təşəkkül tapıb formalaşdığı mühitdə dövlət quruculuğu təcrübəsi güclü deyildi. İslam dinini qəbul etmiş türklər mövcud dövlətçilik ənənələrinə əsaslanaraq orta əsrlərin möhtəşəm islam türk imperiyalarını yaratdılar. Və qədim türk dövlətçilik təfəkkürü islam mədəniyyətini yüksəltdi, zənginləşdirdi, mühafizə etdi.

Eposda müsəlman türklərin, əgər belə demək mümkündürsə, əsas vəzifəsi (bəlkə də, stixiyası, təbii

istəyi, marağı!) kafirlər üzərinə axına getməkdən ibarətdir... Ona görə də "eposun əsas məzmununu oğuzların istila olunmuş Qafqaz torpaqlarında öz hakimiyyətlərini təsdiq etmək üçün kafirlər"lə döyüşləri təşkil edir" fikri (həmin fikrin müəllifi türk dünyasının görkəmli folklorşünası Xalıq Koroğludur) ilə razılaşmamaq mümkün deyil.

"Qazlıq Qoca oğlu Yegnəgin boyu" belə başlayır:

"Qamğan oğlu xan Bayındır yerindən durmuşdu. Qara yerin üzərinə ağ ban evin dikmişdi. Ala seyvan gök yüzünə aşınmışdı. Bin yerdə ipək xaliçə döşənmişdi. İç Oğuz, Daş Oğuz bəkləri söhbətə dərilmişdi. Yemə-içmə idi.

Qazlıq Qoca derlərdi, bir kişi vardı. Bayındır xanın vəziri idi. Şərabın itisi başına çıqdı. Qaba dizinin üzərinə çökdü, Bayındır xandan aqın dilədi.

Bayındır xan dəstur verdi: Nərəyə dilərsən var" – dedi.

Qazlıq Qoca iş görmüş, işə yarar adam idi. Yarar qocaları yanına cəm eylədi. Yadığı-yarağı ilə yola girdi.

Çoq dağlar, dərə-təpə keçdi. Günlərdə bir gün Düzmürd qələsinə gəldi. Qara dəniz kənarında idi. Ona iribən qondular. Ol qələnin bir təkuru var idi, adına Arşın oğlu Dirək təkur deyərlərdi. Ol kafirin altmış arşın qaməti vardı. Altmış batman gürz salırdı, qatı möhkəm yay çəkirdi. Qazlıq Qoca qələyə yetdügiylən cəngə başladı"…

Axına, yaxud qəzaya getməyin bir forması da eposda "ova getmək" şəklində təzahür edir. "Salur Qazanın evi yağmalandığı boy"da Qazan xan yeyib-içib oturarkən qəflətən belə bir qərar çıxarır ki, "yürüyəlim, a bəglər, av avlayalım, quş quşlayalım, sığın-keyik yı-ğalım"... Və Qazan xan böyük bir dəstə ilə həqiqətən ova çıxır.

Lakin bu ov nəticə etibarilə kafirlər üzərinə müzəffər yürüşlə sona yetir.

Beləliklə, eposda qəzaya getməyin aşağıdakı formalarından bəhs edilmişdir:

1) xüsusi (konkret) bir səbəb olmadan, hansısa daxili ruhi-mənəvi ehtiyac nəticəsində kafir üzərinə yerimək;

2) bir yerdə oturmaq"dan yorulub, yerindən qalxmaq", kafir sərhədinə ova getmək, kafirlərin gizli basqınları müqabilində onları əzib məhv etmək;

3) əsir düşmüş oğuz igidini qurtarmaq üçün kafir qalasına yürüş edib "din düşməni"ni darmadağın etmək.

"Kitab"ın verdiyi material əsasında, qəzaya getməyin bir sıra səbəb"lərini müəyyənləşdirmək mümkün olsa da, həmin səbəb"lərin hamısı şərtidir – əsl səbəb isə ondan ibarətdir ki, müsəlman türklüyü özünün inkişaf, coğrafi genişlənmə, passionarlıq dövrünü yaşayır. Belə ki, Mərkəzi Asiyadan Qərbə doğru (Xəzər dənizinin Cənubu ilə) axın edən, müsəlman dinini qəbul etmiş oğuz türkləri xüsusilə XI əsrdən etibarən Şərqi Ana-doluda möhkəmlənirlər. Bundan sonra isə onların Kiçik Asiya yarımadasının içərilərinə hərəkəti xüsusi ehtiyaca çevrilir. İslamın türklər arasında daha geniş yayılması, kafirlər üzərinə yürüşün ideologiyasına çevrilməsi ilə həmin ehtiyac böyük bir mənəvi qüvvə alır. Və islam bayrağı altına toplaşmış səlcuqlar, sonra isə osmanlılar Bizansı diz çökdürürlər... Həmin tarixi hadisələr "Dədə Qorqud" eposunun ilk süjetlərini "redaktə" edir", yeni süjetlərin (xüsusilə qəzavətnamə formasında) ya-ranmasına səbəb olur. Haqqında söhbət gedən "redaktə" işi" epos yazıya alınarkən (və üzü köçürülərkən) daha sistemli şəkildə aparılır...

Kafirin üzərindəki hər bir qələbə onunla nəticələnir ki, düşmənin var-yoxu yağmalanır, hətta xanlar xanı Bayındır xana da hədiyyə aparılır... Lakin qazilər, adətən, qaçanı qovmurlar, aman diləyəni öldürmürlər.

Kafirlər Oğuza bac-xərac verirlər, "Kitab"da "Doqquz tümən Gürcüstanın xəracı gəldi" deyə bəhs olunur. Bəzən xərac az göndərilir və bu zaman Oğuz hökmdarı Bayındır xan narahat olur.

Elə hallar da olur ki, kafirlərin (burada söhbət yalnız xristianlardan gedir, çünki müsəlmanlar, məsələn, bütpərəstlərdən, yaxud ibtidai dinlərə sitayiş edənlərdən xərac almırlar – onlar mütləq islamı qəbul etməli idilər) xərac vermələrinə baxmayaraq oğuz igidləri onların üzərinə yürüş edirlər. Məsələn, "Salur Qazan dutsaq olub oğlu Uruzu çıqardığı boy"da kafirlər əsir düşmüş Qazanın qarşısında belə bir şərt qoyurlar ki, "xəraca müti olalım. Sən dəxi and iç kim, bu bizim elə yağılığa gəlməyəsən"... Bu isə onu göstərir ki, qazilər o hallarda kafirin xərac verməsi ilə razılaşırlar ki, onları məğlub etmək üçün kifayət qədər qüvvətləri yoxdur; elə ki, lazımi səviyyədə güclənirlər, dərhal axına, qəzaya getmək yolunu seçirlər.

Axına bir qayda olaraq, gənclər gedirlər, – bu da onların xarakterinə, ailədəki, cəmiyyətdəki mövqelərinə əhəmiyyətli təsir göstərir. Və ümumiyyətlə, ictimai maraq oğlan uşaqlarını tezliklə böyüyüb igid olmağa, "baş kəsib, qan töküb" ad çıxarmağa" təhrik edir.

Beləliklə, "Dədə Qorqud" eposu (və "Kitab"), birinci növbədə, islam dininin yayılması uğrunda mübarizə aparan, yürüşlərə çıxan qazilərin eposuna (və "Kitab"ına) çevrilir ki, bu özünü yalnız abidənin ideya-məzmununda deyil, bir sıra poetik-forma göstəricilərində də təsdiq edir.

Və heç də təsadüfi deyil ki, əksər boyların sonunda Dədə Qorqud gələrək məhz "qazi ərənlər başına nə gəldiyini" söyləyir, xüsusi olaraq nəzərə çarpdırır ki, onun danışdığı dastan məhz qazilər haqqındadır – o məhz qaziləri öyür... Eyni zamanda yeni dövr gəldiyi, "bəg ərənlər"in yoxa çıxması", "fani dünya"nın qazisiz qalması" ("fani dünya kimə qaldı?!") barədə danışılır.

Eposu yazıya alan, "Kitab"ın üzünü köçürən katiblər onun ideyasını dərindən başa düşdüklərinə görə, abidəni məhz qəzavatnamə formasına salmağa çalışmış, sonralar hər cür imkan olduğu halda (söhbət XIII–XVI əsrlərdən gedir) "Kitab" islamın dini-fəlsəfi ehkamları ilə yüklənməmiş, ilk orta əsrlər sadəlövh dünyagörüşü son orta əsrlərin polemik mühakimələri ilə ağırlaşdırılmamışdır.

"Kitab"ın mətni üzərində müşahidələr göstərir ki, oğuz türklərinin müsəlmançılığı daha çox kafirlərlə üz-üzə dayanarkən, döyüşdən əvvəl meydana çıxır. Qalan vaxtlarda onlar demək olar ki, ibadət etmirlər. Bu, aşağıdakı səbəblərdən irəli gələ bilər:

a) islama bütün dərinliyi ilə hələ bələd olmayan bir sıra mühüm dini işləri kənardan gələnlərə verən (diqqət edək: "Saqqalı uzun tat əri banladıqda") oğuz türkləri islam dünyası qarşısında öz öhdələrinə əsasən qəzaya getməyi, kafirləri məğlub edərək kilsələrini yıxıb məscid yapmağı, "ban banlatmağ"ı" (yəqin onu da "tat əri" icra edir) götürmüşlər;

b) epos təfəkkürü üçün müsəlmançılığın xırdalıqlar"ına getmək o qədər də maraqlı olmadığına görə, ozanlar sülh dövrü"nün islam həyatına fikir verməmiş, ancaq müsəlmanlarla kafirlərin üz-üzə durduğu dramatik məqamlarda müsəlman olmağın üstünlüklərini göstərmək məqsədini izləmişlər.

Eposda etnik münaqişədən söhbət getmir, bütün ziddiyyətlər dini-ideoloji mahiyyət daşıyır, müsəlmanlarla kafirlər arasında baş verir. Lakin müsəlmanların

əsas oğuz türklərindən, kafirlərin isə qıpçaq türklərindən, gürcülərdən (ümumən iber-Qafqazlardan), yunanlardan (rumlardan) və s. olması həmin münaqişələrə müəyyən dərəcədə etnik məzmun verir. Müsəlmanlar kafirlərə "it kibi gu-gu edən" deməklə, yəqin ki, onların (qeyri-müsəlmanların, həm də qeyri-türklərin) başa düşmədikləri dillərini nəzərdə tuturlar...

Müsəlmanlar kafirlə döyüşdə, müharibədə şəhid verirlər. Məsələn, "Kitab"ın "Salur Qazanın evi yağmalandığı boy"da elin qoca oğlu Sarı Gülmaş Qazan bəgin evi üzərinə şəhid oldu", Qaraçuq Çobanın "iki qardaşı oxa düşdü, şəhid oldu... Çoban şəhid olan qardaşlarını həqqinə qoydu"... Eləcə də əlavə olaraq, "beş yüz Oğuz yigitləri şəhid oldu" -deyilir... Epos qəzaya getməyin faciəvi reallığını göstərməklə, hər şeydən əvvəl, islamın qələbəsini, islam dini uğrunda mübarizənin gərginliyini, dramatizmini nümayiş etdirir. Həmin gərginlik, dramatizm yalnız eposu yaradanların fantaziyası deyil, həm də epoxal tarixi həqiqətin inikasıdır. "Kitab"da oğuz bəylərinin İslam dini qarşısındakı xidmətləri yalnız bu və ya digər hadisənin (kafirə qarşı bilavasitə mübarizənin) təsvirində deyil, onların stabil təyinlərində də aydın şəkildə özünü göstərir; məsələn: Varıban peyğəmbərin yüzü görən, gəlibəni Oğuzda səhabəsi olan, acığı tutanda bığlarından qan çıqan, dəmir qapıyı dəpib alan, altmış tutam ala göndərinin ucundə ər bögürdən Qıyan Səlcuq oğlu Dəli Dondar"; Həmdilən Mərdin qələsini dəpib yıqan, dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gəlibən Qazanın qızın ərliklə alan, Oğuzun ağ saqqallı qocaları görəndə ol yigidi təhsinləyən... Qaragünə oğlu Qarabudaq"; Dəstursuca Bayındır xanının yağısın basan, altmış bin kafirə qan qusturan, ağ-boz atının yelisi üzərində qan durduran Qəflət Qoca oğlu Şir Şəm-

səddin"; Kafirləri it ardınca bırağıb xorlayan, eldən çıqıb Ayğırgözlü suyundan at yüzdürən, əlli yeddi qələnin kilidin alan Ağ məlik Çeşmə qızına nigah edən, Süni Sandal məlikə qan qusduran, qırq cübbə bürünüb, otuz yeddi qələ bəginin məhbub qızlarını çalıb bir-bir boyunun qucan, yüzündən, dodağından öpən, Elin qoca oğlu Alp Ərən" və s.

Bu isə o deməkdir ki, həmin oğuz igidləri öz dövrlərinin – islama keçid dövrünün övladları olub, həmin dövrün tarixini bütün dramatik gərginliyi ilə yaşayırlar...

"Kitab" müsəlmanlarla kafirlər arasında müəyyən münasibətlərin, əlaqələrin olmasını da göstərir – bazirganlar, bəzi anlaşılmazlıqları nəzərə almasaq, sərhədləri maneəsiz keçirlər, Oğuz igidləri kafirlərdən qız alırlar, hətta "Baybura oğlu Bamsı Beyrək boyu"ndan belə məlum olur ki, Baybecan qızı Banı Çiçəyi bir tərəfdən Beyrəklə beşikkərtmə nişanlı edir, digər tərəfdən, kafirə – Bayburd qalasının bəyinə söz verir ki, qız onundur...

Qanturalının atası Qanlı Qoca oğlunu evləndirmək fikrinə düşərkən ona layiq qızı yalnız Oğuzda deyil, kafir ellərində də axtarır…

Eposda kafirlərlə müsəlmanların münasibətindən belə məlum olur ki, kafirlər Oğuzdan inciyib onların yanına gələn, dinlərini qəbul edib onlara tabe olan igidləri məmnuniyyətlə qəbul edirlər.

"Dədə Qorqud" eposu (xüsusilə "Kitabi-Dədə Qorqud") tarixi mənəvi-mədəni bir prosesi — islama keçidi, islam dini uğrunda müzəffər mübarizəni bütün dolğunluğu, mürəkkəbliyi, məhrumiyyətləri ilə birlikdə əks etdirir. Və məlum olduğu kimi, islam yarandığı dövrdə (eləcə də sonralar) mütərəqqi bir dünyagörüşü forması

kimi yayılaraq müxtəlif xalqların mədəniy-yət-lərinin inkişafına güclü təkan vermişdir.

Hər şeydən əvvəl ona görə ki, iudaizm, buddizm və xristianlıqdan fərqli olaraq islam dünyanın daha ağıllı dövründə, yəni zəkanın (fəlsəfənin) ibtidai inamları, mifologiyanı sıxışdırdığı bir dövrdə formalaşdığına görə əvvəlki dünya dinlərindən daha çox fəlsəfi olmuşdur;

İkincisi, islam həm təşəkkül-formalaşma, həm də yayılma – mənimsənilmə (ictimai şüura yiyələnmə) prosesində əvvəlki dinlərin, dünyagörüşlərin proqressiv təsirini öz üzərində hiss etdiyi üçün dünyaya həmin dinlərdən, dünyagörüşlərindən daha çox açıq olmuş, fikir plüralizminə kifayət qədər geniş imkan vermişdir;

Üçüncüsü isə, müxtəlif etnik mənşəyə, etnopsixologiya və etnik dünyagörüşlərinə mənsub xalqlar (ərəblər, farslar, türklər və b.) tərəfindən bir neçə əsr ərzində (və islama qədərki zəngin düşüncə mədəniyyəti əsasında!) qəbul edilən islam istər-istəməz çevik təfəkkür mühitləri ilə hesablaşmalı olmuşdur...

Lakin islama keçidin eposunu, maraqlıdır ki, nə ərəblər, nə də fasrlar deyil, məhz türklər – oğuz türkləri yaratmışlar; bu isə o deməkdir ki, islam dünyagörüşü, mənəviyyatı nə ərəblərin, nə də farsların deyil, məhz türklərin epik təfəkküründə rezonans vermişdir.

Və beləliklə, "Dədə Qorqud" eposunun təşəkkül tapıb yayılması, yazıya alınması, üzünün köçürülməsi və s. proseslər öz enerjisini aşağıdakı mənbələrdən almışdır:

a) qədim türk epik təfəkkürü;

b) islam dini;

c) oğuz türklərinin (prinsip etibarilə türklərin) getgedə daha çox islama əsaslanan ideya-estetik marağı, yaradıcılıq ehtirası, mənəvi mədəniyyəti.

# IV BÖLMƏ

# MÜASİR TÜRK DÜNYASI

## 1.«Müasir türk dünyası» anlayışı

«Müasir türk dünyası» dedikdə Yer kürəsindəki türklərin (türk xalqlarının), əsasən, etnik-mədəni və ictimai-siyasi birliyi nəzərdə tutulur. Eyni zamanda buraya, müəyyən münasibətlərlə, geniş spektrli iqtisa-di məsələlər də aid oluna bilir.

Müasir türk dünyası, ilk növbədə, heç şübhəsiz, tarixi təkamülün, insan cəmiyyətinin müxtəlif dövrlərdən, mərhələlərdən keçən (və müxtəlif təsirlər altında baş verən) inkişafının məhsulu olduğu kimi, böyük perspektivlərə də malikdir.

Türk dünyasını biri digərini tamamlayan iki fundamental proses səciyyələndirir ki, onlardan birincisi diferensiasiya, ikincisi isə inteqrasiyadır.

Müasir dünyada mövcud olan türk xalqlarının tam (və dəqiq) bir siyahısını təqdim etmək o qədər də asan deyil, bir sıra etnoqrafik, eləcə də sosial-siyasi problemlərlə bağlı olaraq müəyyən pərakəndəlik və ya sistemsizlik yaradır. Hər şeydən əvvəl ona görə ki, a) bəzi türk xalqlarında etnosiyasi təmərküzləşmənin mükəmməl olmaması; b) bu və ya digər türk xalqı daxilində ayrı-ayrı tayfaların və ya etnik birliklərin «müstəqilliyi», yaxud müstəqillik iddialarının mövcudluğu; c) qeyri-türk mənşəli etnosiyasi cəmiyyətlər (dövlətlər) tərkibində olduğundan öz müqəddəratanı normal şəkildə təmin etməmiş türklərin yaşaması və s. kimi hallar vardır.

Türk xalqlarının təsnifi zamanı həmin hallar ciddi maneçiliyə səbəb olmaqla tamamilə mükəmməl bir təs-

nifatın (bölgünün) verilməsini, demək olar ki, qeyri-mümkün edir.

Ümumiyyətlə isə, türkologiyada müasir türk xalqlarının aşağıdakı təsnif prinsipləri təcrübəsi özünü göstərir:

1) coğrafi prinsip;
2) linqvistik prinsip;
3) dini mənsubiyyət prinsipi;
4) siyasi prinsip.

Coğrafi prinsipə görə, türklər aşağıdakı regionlara ayrılırlar:

I. Sibir türkləri: saxalar, tuvalar, xakaslar, al-taylar, şorlar.

II. Türküstan türkləri: uyğurlar, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, qaraqalpaqlar.

III. Ural-Volqaboyu türkləri: tatarlar, çuvaşlar, başqırdlar.

IV. Şərqi Avropa türkləri: qaqauzlar, qaraimlər.

V. Şimali Qafqaz türkləri: qumıqlar, qaraçaylar, balqarlar, noqaylar.

VI. Azərbaycan – Kiçik Asiya türkləri: Türkiyə türkləri, azərbaycanlılar.

Linqvistik prinsipə görə, türklər aşağıdakı dil qruplarına bölünürlər:

I. Oğuzdillilər: Türkiyə türkləri, azərbaycanlılar, türkmənlər, qaqauzlar.

II.Qıpçaqdillilər: qazaxlar, tatarlar, qırğızlar, başqırdlar, qaraqalpaqlar, qumıqlar, qaraçaylar, balqarlar, altaylar, noqaylar.

III. Karluqdillilər: uyğurlar, özbəklər.

IV. Ümumi bölgüdən kənarda qalanlar: çuvaşlar, saxalar, tuvalar, şorlar.

Türk xalqları, əsasən, aşağıdakı dinlərə mənsubdurlar:

I. İslam dini: Türkiyə türkləri, azərbaycanlılar, uyğurlar, özbəklər, tatarlar (əksəriyyəti), türkmənlər, qır-

ğızlar, başqırdlar, qaraqalpaqlar, qumıqlar, qaraçaylar, balqarlar, noqaylar.

II. Xristian dini: çuvaşlar, qaqauzlar, şorlar (əksəriyyəti).

III. İudaizm: qaraimlər.

IV. Şamanizm: saxalar, tuvalar, xakaslar, altaylar.

Siyasi prisipə görə türk xalqlarını aşağıdakı şəkildə təsnif etmək mümkündür:

I. Müstəqil (yəni öz dövlətləri olan) türk xalqları: Türkiyə türkləri, azərbaycanlılar, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar.

II. Yarımmüstəqil (yəni bu və ya digər dövlətin tərkibində muxtariyyəti olan) türk xalqları: uyğurlar, tatarlar, çuvaşlar, başqırdlar, saxalar, qaraqalpaqlar, tuvalar, qaraçaylar, xakaslar, balqarlar, altaylar.

III. Müstəqil olmayan türk xalqları: qaqauzlar, qumıqlar, noqaylar, şorlar, qaraimlər.

## 2.Yeni türklər…
## Və türkçülük ideologiyası

Orta əsrlərin sonu yeni dövrün əvvəllərində tarix səhnəsinə çıxan türk xalqlarının (xüsusilə onların qabaqcıllarının) XIX əsrin ortalarından etibarən həm daxili (təbii) enerji, həm də dünyada gedən pro-ses-lə-rin təsiri altında milli özünüdərk hərəkatına başladıqları müşahidə olunur.

Yusif Akçuranın məşhur «Türkçülüyün tarixi» kitabında həmin tarixin başlanğıcı (və gedişi) barədə müfəssəl məlumat verilmişdir.

XIX əsrin sonlarına doğru formalaşan (və os-manlını da əhatə edən) türkçülük, onun ardınca isə «gənc türklər» hərəkatı «klassik normativlər»ə gizli və ya açıq müharibə elan edir. Eyni zamanda imperiyanın tarixi

düşmənləri «xəstə adam» deyə Osmanlı imperiyasını hər tərəfdən təhdid etməyə başlayırlar.

1923-cü ildə Mustafa Kamal Atatürkün liderliyi ilə yaradılan Türkiyə Cümhuriyyəti türk xalqının çoxəsrlik həyatında yeni dövrün təməlini qoydu. Və bundan sonra yeniləşmə, müasir dünyanın üzvi tərkib hissəsi olma istiqamətində bir sıra inqilablar – «Atatürk inqilabları» həyata keçirildi. «Osmanlı imperi-yası»nı «Türkiyə Cümhuriyyəti» əvəz etdiyi kimi, «osmanlı xalqı» yerinə «türk xalqı», «osmanlı dili» ye-rinə «türk dili» anlayışları işlədilməyə başladı. Və Atatürkün məşhur «türkəm» deyən nə xoşbəxtdir» (ne mutlu «türküm» deyene) ifadəsi türklüyünü həm milli, həm də siyasi baxımdan dərk etməkdə olan Türkiyə türkləri üçün «vizit kartı»na çevrildi.

Türkiyə Cümhuriyyətini geniş bir miqyasda əhatə etmiş «mədəni inqilab»ın bir mühüm təzahürü də «dil inqilabı» idi. 1930-cu illərdə başlamış bu inqilab Türkiyə türkcəsindəki yabançı sözlərin, qrammmatik elementlərin kütləvi şəkildə çıxarılması ilə nəticələndi. Onların yerinə a) qədim türkcə («öztürkçe»)dən; b) Anadolu dialektlərindən («ağızlar»dan) dil vahidləri, xüsusiyyətləri gətirildi və yaxud c) purizm yolu ilə yeniləri yaradıldı.

M.K.Atatürkün əsas missiyası Türkiyə türklərini yeni (modern) dünyaya qovuşdurmaq olsa da, ümumən türklərin (türk dünyasının) xilası barədə də düşünürdü. Və bu sözdər həmin düşüncələrin ideya-məzmununu olduqca aydın əks etdirir: *‘‘Bugün Sovyetler Birliği dostumuzdur, müttefikimizdir. Bu dostluğa ihtiyacımız vardır. Fakat yarın ne olacağını kimse bugünden kestiremez. Tıpkı Osmanlı gibi, tıpkı Avusturya-Macar-istan gibi parçalanabilir, ufalanabilir. Bugün elinde sımsıkı tuttuğu milletler avuçlarından kaçabilirler. Dünya yeni bir dengeye*

*ulaşabilir. İste o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim dostumuzun idaresinde dili bir, inancı bir, özü bir kardeşlerimiz vardır. Onlara sahip çıkmaya hazır olmalıyız. Hazır olmak yalnız o günü susup beklemek değildir. Hazırlanmak lazımdır. Milletler buna nasıl hazırlanır? Manevi köprüleri sağlam tutarak. Dil bir köprüdür... İnanç bir köprüdür... Tarih bir köprüdür...*

*Köklerimize inmeli ve olayların böldüğü tarihimiz içinde bütünleşmeliyiz. Onların bize yaklaşmasını beklememeliyiz. Bizim onlara yaklaşmamız gerekir."*

…Hər bir xalqın romantik ictimai-siyasi fikir tarixinin zirvəsi milli ideologiyanın formalaşmasıdırsa, hər bir xalqın ən böyük mütəfəkkiri (və romantiki!) də həmin ideologiyanı formalaşdırandır!.. Türk dünyasında bu möhtəşəm milli-mənəvi, intellektual-idraki missiya Əli bəy Hüseynzadənin üzərinə düşdü…

Qafqaz şeyxülislamının nəvəsi olan Əli bəy Salyanda doğulmuş, valideynlərini uşaq yaşlarında itir-diyindən babasının yanında böyümüş, onun himayəsi ilə Tiflisdə orta təhsil almışdı. Fars, ərəb dillərini, ədə-biy-yatlarını dərindən bilsə də, doğma türk dilindən, ədəbiyyatından «daha çox zövq alan» Şeyxülislam Əhməd Səlyani fitrətən istedadlı olan nəvəsinin həyatda düzgün yol tutmasında, dünyagörüşünün formalaşmasında xüsusi rol oynamışdı.

Təhsil ardınca əvvəl Peterburqa, sonra İstanbula gedən, həm Qərb, həm də Şərq təmayüllü düşüncə mədəniyyətlərini özündə birləşdirən Əli bəy ictimai-siyasi fəaliyyətə çox gənc – iyirmi yaşlarında «türk birliyi»nin ideoloqu kimi başladı… Xüsusilə Peterburq Uni-ver-sitetində təhsil aldığı illərdə Rusiya türklərini imperiya əsarətindən xilas etməyin yollarını aramış, dövrün ideoloji mühiti üçün səciyyəvi olan romantik duyğularla bu bir-

liyin mütləqliyinə inam (və iman!) bəsləmişdi. Elə ona görə də uğurla bitirdiyi Peterburq Universitetində qalıb işləmək təklifini qəbul etməyib, daha geniş (və münbit!) mübarizə meydanına çıxmaq üçün İstanbula getmiş, gizli fəaliyyət göstərən «İttihadi – Osmani» cəmiyyətini yaradaraq ona rəhbərlik etməklə yanaşı hərbi tibb məktəbində təhsilini davam etdirmişdi…

Ümumiyyətlə, XIX əsrin sonlarına doğru maarifçilik hərəkatının təzyiqi ilə türklər arasında güclənən milli oyanış (və birlik!) meylləri yalnız Rusiyada deyil, Osmanlıda da hakimiyyətin müqavimətinə rast gəlir, gizli cəmiyyətlər adətən amansızlıqla təqib olunurdu. Sultan Əbdülhəmid özünü ümumən müsəlman dünyasının hökmdarı saydığına, ümmətçi təfəkkürünə malik olduğuna görə türk millətçilərinə Osmanlı dövlətinin düşməni kimi baxırdı… Ona görə də Əli bəy Hüseynzadə İstanbul Tibb Univerersitetindəki müəllimlik (və təbii ki, bundan daha vacib olan siyasi) fəaliyyətinə fasilə verib Azərbaycana qaytmalı olur.

Gənc mütəfəkkirin Peterburqda müəyyənləşən, İstanbulda – hər halda doğma mühitdə mükəmməlləşən ittihadçı düşüncəsi (və siyasi mübarizə təcrübəsi!) XX əsrin əvvəllərində Azərbaycanda elə bir enerji ilə təzahür edir ki, Bakı o zamana qədər görünməmiş bir şəkildə türkçü (və millətçi!) hərəkatın mərkəzlərindən birinə, hətta demək olar ki, birincisinə çevrilir. Geniş maraq doğuran ilk türkçü-turançı məqaləsini 1904-cü ildə Misirdə çıxan «Türk» qəzetində «Ə.Turan» imzası ilə çap etdirən Əli bəy yaxşı bilirdi ki, türk birliyinə lazımi səviyyədə xidmət etmək üçün onun mətbuat orqanı olmalıdır. Və 1905-ci il Rusiya inqilabı belə bir orqanın yaradılmasına təkan verdi… Hacı Zeynalabdin Tağıyevin imtiyaz sahibliyi ilə nəşrə başlayan «Həyat» qəzeti döv-

rün görkəmli ziyalılarını, ictimai-siyasi xadimlərini öz ətrafında birləşdirməklə türklərin «İttihada doğru tərəqqi»si (birliyə doğru inkişafı) yolunda nəhəng addımlar atdı. Senzuranın ardıcıl təzyiqi ilə qarşılaşmasına, cəmisi bir ildən bir qədər artıq nəşr olunmasına baxmayaraq, «Həyat» Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, N.Nərimanov, H.Zərdabi, Sabir, C.Məmmədquluzadə, A.Səhhət. M.Hadi, F.Köçərli kimi «türk birliyi» məsələsinə müxtəlif yönlərdən yanaşan Azərbaycan ziyalılarının milli düşün-cə həyatında xüsusi mərhələ oldu. «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?», «Yazımız, dilimiz, «İkinci il»imiz»… məqalələri ilə özü-nün maarifçi-ittihadçı görüşlərini təbliğ edən Əli bəy Hüseynzadə sonralar azərbaycançılıq ideologiyasının əsas-larını müəyyən edən «türkləşmək, islamlaşmaq, avropalaşmaq» şüarını da ilk dəfə məhz «Həyat» qəzetində elan etmişdi… «Həyat»ın süqutundan dərhal sonra yenə də H.Z.Tağıyevin maddi köməyi ilə işıq üzü görən «Füyuzat» jurnalı, «Həyat»dan fərqli olaraq, bütünlükdə Əli bə-yə məxsus idi və jurnalın təbliğ etdiyi ideyalarla yanaşı, təqdim etdiyi qeyri-adi dərəcədə mükəmməl romantik üslub, intellektual pafos da böyük mütəfəkkirin təfəkkür-düşüncə intonasiyasını bütün vüsəti ilə əks etdirirdi.

Füyuzatçılıq, yaxud Füyuzat məktəbi Azərbaycanın ictimai, ədəbi-mədəni, ümumən, ideoloji fikir tarixində müxtəlif mərhələlərdə müxtəlif mövqelərdən qiy-mət-lən-dirilməsinə baxmayaraq, həqiqətən, möhtəşəm hadisə olmuş, türk birliyinin nəzəri əsaslarının müəy-yən-ləşdi-rilməsində önəmli rol oynamışdı… Osmanlı türklüyünü ümumtürk birliyinin çıxış nöqtəsi, nüvəsi sayan, İstanbul türkcəsini ümumtürk ədəbi dili olaraq inamla işlədən Əli bəy Hüseynzadənin tarixi uzaqgö-

rənliyi, bütün müba-hisəli tərəfləri ilə birlikdə, bir də XX əsrin sonu XXI əsrin əvvəllərində özünü təsdiq etdi. Və ümumictimai təfəkkür səviyyəsində dərk olundu ki, Əli bəy Hüseynzadə o za-mankı dar dünyagörüşlü «Azərbaycan millətçiliyi» nümayəndələrindən fərqli olaraq, azərbaycançılıqla türkçülüyü əlaqələndirməyə, ümumtürk miqyasını, yaxud kontekstini hər bir türk xalqının tərəqqisinin etnososial məkanı olaraq qəbul etməyə çalışır, gələcəyə mütəşəkkil şəkildə məhz «genotip»dən getməyin mümkünlüyünü deyirdi.

«Türkçülüyün tarixi»nin müəllifi Yusif Akçura Əli bəyin turançı-türkçü görüşləri barədə bəhs edərkən yazır: «…daima həyatda anlaşma və sükun arayan Hüseynzadə Əli bəy, turaniliyini şiddət, qətiyyət və israrla müdafiə etməmişdir»… Və davam edir: «Bununla bərabər, onun şairanə turançılığı, 1908-ci ildən sonra İstanbulda digər turançıları, başlıca, Göyalp Ziyanı yaratmışdır».

«Füyuzat» bağlandıqdan sonra bir neçə il Bakını tərk etməyən Əli bəy müxtəlif işlərdə çalışır, ədəbi-bədii yaradıcılıqla məşğul olur, başlıcası isə, özünün ən mühüm əsərlərindən biri, bəlkə də, birincisi olan «Siyasəti-fürusət» əsərini yazıb çap etdirir. Bu əsər türk xalqları tarixinin haradan haraya gəldiyi, hansı problemlərlə üzləşdiyi, türklər içərisindən doğan milli azadlıq hərəkatlarının səbəbləri, gedişi və nəticələri barədə müəllifin tarixi-fəlsəfi mülahizələrindən, ümumiləşdirmələrindən ibarətdir… Milli əsarətin ən dözülməz təzahürlərindən olan İran şahlıq idarəçiliyinə, ümu-mən bu cür idarəçilik texnologiyalarına qarşı çıxan Əli bəy Hüseynzadə «Siyasəti-fürusət»də yazır ki, İran şahlarının Avropaya gedib-gələni də öz ölkəsinə «balet rəqsi»ndən başqa bir şey gətirmədi. Və qəribəsi də o oldu ki,

Avropa səyahətindən bu cür əliboş gələn şahı İran əhli böyük sevinclə qarşıladı.

…Bakıda (Rusiyada!) irticanın azad sözə qarşı mübarizəni gücləndirdiyini, İstanbulda isə «gənc türklər» hərəkatının vüsət aldığını görən Əli bəy 1910-cu ildə yenidən Osmanlı paytaxtına gedir. Və bundan sonra türk xalqlarının birliyi uğrunda özünün, müasirləri demişkən, «təmkinli mübarizəsini» ömrünün axırına qədər, əsasən, İstanbuldan aparır… Lakin nə qədər müxtəlif sahələrdə (həkim, müəllim, tərcüməçi və s.) çalışsa da, XIX əsrin sonu XX əsrin əvvəllərində gördüyü möhtəşəm işlər səviyyəsinə qalxacaq bir iş görmək ona müyəssər olmur. Və 1940 – cı ildə öz vətəni saydığı İstanbulda vəfat edir.

Əli bəy daha çox siyasətə (realizmə!) çəkən Qərb mütəfəkkirlərindən fərqli olaraq, daha çox ədəbiyyata (romantizmə!) çəkən bir Şərq mütəfəkkiri idi. Təsadüfi deyildi ki, öz türk birliyi ideyalarını ilk olaraq şeirlə ifadə etmişdi:

*Sizlərsiniz, ey qövmi – macar, bizlərə ixvan,*
*Əcdadımızın müştərəkan mənşəyi Turan.*
*Bir dindəyiz biz, həpimiz həqpərəstan,*
*Mümkünmü ayırsın bizi İncil ilə Quran?*

Türkləri (turanlıları) bir-birindən ən çox dinlərin, təriqətlərin ayırdığı bir dövrdə Əli bəy «bir dindəyiz» deməklə romantik bir vüsətlə türk birliyini özünəməxsus məntiqlə bir daha elan edirdi.

Sülhpərvər mütəfəkkir dünyanı bürüyən iğtişaşlara, üsyanlara, qətl-qarətlərə dözə bilmir, «bir mələk» dili ilə insanlara «xitab edirdi»:

Səmadan bir mələk heyrətlə der: İnsanlar! İnsanlar!

*Nədir bu, ruyi – ərzi qaplıyor al qanlar, İnsanlar!*
*Şəhid etdiyiniz ixvanınızdan almasın fəryad!*
*Əcəb kimdir şu xunalud olan bicanlar, insanlar!*

Dərin (və mükəmməl) romantik duyğular üzərində köklənmiş, öz milləti ilə yanaşı beynəlmiləl dünyaya, ümumən insana ünvanlanmış Əli bəy Hüseynzadə poeziyası üsyankar deyil, olduqca təmkinli, olduqca sülhpərvərdir. Bununla belə, həqiqəti deməkdən qorxmayan poeziyadır:

*Ucundadır dilimin*
*Həqiqətin böyüyü.*
*Nə qoydular deyəyim,*
*Nə kəsdilər dilimi...*

*Bilirmisin cahillər*
*Nə etdilər vətənə –*
*Nə qoydular uyuya,*
*Nə qoydular oyana...*

... *Düşmən qırar qapıyı,*
*Biz evdə bixəbəriz.*
*Nə başqa – başqalarız,*
*Nə ittihad edəriz...*

Milli-ictimai şəxsiyyətində mənsub olduğu, qövmü-milləti birləşdirməyə, bu mənəvi-psixoloji birliyi bütün səmimiliyi ilə ifadə etməyə qadir olan Əli bəy üçün dil məsələsi olduqca önəmli idi; o, gözəl bilirdi ki, bir-birindən coğrafiya, din, etnoqrafiya, hətta inkişaf səviy-

yəsi baxımından ayrılmış türkləri birləşdirəcək elə bir atribut var ki, bu birliyə ən aqressiv antitürkçü də qarşı çıxa bilməz. Ona görə də Türkiyədə 30-cu illərin əvvəllərindən başlayaraq dil məsələsinə xüsusi diqqət yetirilməsi – dil cəmiyyətinin qurulması, dil qurultaylarının keçirilməsi və s. Əli bəyi yalnız bir milli mütəfəkkir kimi deyil, bir milli şair olaraq da maraqlandırmış, bir sıra şeirlərində Atatürkün dil inqilabını vəsf eləmişdi:

*... Ünlü kölgəsində ol Atatürkün*
*Dəgişib yüksəlmə oranla olur.*
*Ucadır ülgüsü ulu öndərin,*
*Diləgi ölkədə türkcə söylənsin...*
*Ey türk ozanları! İləri gəlin,*
*Bu işlər bir az da ozanla olur...*

30-cu illərin əvvəllərindən etibarən, Atatürkün türk kimliyinə, türk birliyinə diqqət yetirməyə, hətta önəm verməyə başlaması ilə əski turançılar, öz və-tənlərindən ümumtürk birliyi eşqilə didərgin düşüb Türkiyəyə pənah gətirmiş «mühacirlər», o cümlədən də Əli bəy türklüyün mücadilə tarixində yeni bir dövrün gəldiyini düşünürdülər:

*...Yurdun sevgisiylə olmuşam ozan,*
*Ara-sıra böylə düzgülər yazan.*
*Olsun yazım bənim yurda ərməğan,*
*Altındakı « Turan » Turanla olur...*

Əli bəy neçə on illər bundan əvvəl işlətdiyi «Ə. Turan» imzasını yada salır, öz-özü ilə romantik bir zarafat eləyirdi; deyirdi ki, əgər arzuladığımız Turan yox-

durrsa, daşıdığımız bu «Turan» imzası da şeirin altına yazılmaqdan başqa bir işə yarımaz…

…Onuncu illərin sonu 20-ci illərin əvvəllərində əvvəl Rusiyada, sonra isə Osmanlıda elə böyük inqilabi hadisələr baş verdi ki, türkçülüyün babaları, o cümlədən Əli bəy Hüseynzadə bir daha həmin hadisələrin fövqünə qalxa, dövrün konyukturasına uyğunlaşa bilmədilər. Onların böyük ideallarını qısaca «millətlərin öz müqəddəratını təyin etmək hüququ» kimi xülasə edən «genişmiqyaslı» sosialist, antiimperialist hərəkatı (və onun aktual olduğu qədər də populyar ideologiyası) hər cür millətçiliyi, eləcə də türkçülüyü bir ideologiya olaraq dəbdən saldı… Rusiya imperiyasının əsarət altında saxladığı bütün millətlərə «azadlıq» verən Leninin arxasınca Atatürk Osmanlı imperiyasını Türkiyəyə – türklərin dövlətinə çevirdi, hətta mənşəcə türk olmayan Osmanlı təbəələri də türk adını daşımağa məcbur edildi… Və belə bir təsəvvür yarandı ki, türklər öz siyasi müstəqilliklərini, faktiki olaraq, əldə etmişlər…Doğrudur, bu, turançılıq-türk birliyi ideologiyasının ideallarına cavab vermirdi, ancaq bu ideealların tərəfdarlarını məmnun etməyə, ən azından, çaşbaş salmaya da bilməzdi. Çünki romantik turançılığın həm nəzəriyyəsinin, həm də praktikasının süqutu göz qabağında olduğu kimi, Atatürkçülüyün (kamalizmin) türkçülükdən önə çıxdığı bir dövrdə Türkiyədə məskunlaşmış Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əhməd Cəfəroğlu kimi «pantürkçülər»in aqibətinin necə olacağı da məlum idi… 1926-ci ildə Bakıda keçirilən I Türkoloji Qurultaya Türkiyə tərəfinin nümayəndəsi olaraq gələn Əli bəy artıq iyirmi il əvvəlki iddialarında deyildi, hətta guya bir vaxtlar osmanlıca yazdığına, xalqın dilinə biganə olduğuna görə peşiman da olubmuş; məsələnin maraqlı cəhəti isə ondan ibarət-

dir ki, Azərbaycanda osmanlı (ədəbi) dilinin təbliğatçısı kimi tanınan Əli bəyi Türkiyədə gözəl Azərbaycan şivəsinə görə sevirlərmiş.

...Sovetlər Birliyi ilə «qardaşlıq» əlaqəsini kəsdikdən sonra Atatürk Türkiyəsində türkçülük ideologiyası müəyyən qədər güclənsə də, dünyagörüşü XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmış türkçülər, o cümlədən (və xüsusilə) Əli bəy Hüseynzadə artıq qocalmışdılar. Sürətlə dəyişən zaman (və onun konyukturası!) artıq onları xatirə danışıb-yazmağa məcbur edirdi. Və bu xatirələrin hamısında uğrunda axıra qədər mübarizə aparılmış, lakin qalibiyyətlə sona çatmamış ideallların ağrısı ilə yanaşı, nə zamansa həyata keçəcəyinin, qalibiyyətlə nəticələnəcəyinin nisgili, həsrəti də var.

Maraqlıdır ki, «türkçülüyün babası» Əli bəy HüseynzadəTürkiyədə yaşayıb işlədiyi təxminən otuz illik bir dövrdə özünü nə Əhməd Ağaoğlu, nə Məmməd Əmin Rəsulzadə, nə də Əhməd Cəfəroğlu qədər «fəal» göstərmədi, ənənəvi «azadlıq uğrunda mücadilələrə» bilavasitə qoşulmadı, hətta bu ad ilə tutulanda belə məhkəmə salonundaca alqışlar altında bəraət aldı. Ona görə yox ki, «mücadilə»dən yorulmuşdu; ona görə ki. Əli bəy taktiki mücadilə deyil, strateji mübarizə (düşüncə!) qəhrəmanı idi. O, mənsub olduğu türk millətinə – ümumən türklərə, o cümlədən də Azərbaycan türklərinə elə bir tərəqqi-təkamül formulu vermişdi ki, heç bir taktiki mücadilə bu səviyyəyə qalxa bilməzdi.

...Əli bəy Hüseynzadənin bu gün müstəqil Azərbaycanda – onun doğma vətənində uğurla tətbiq olunan a) türkləşmək, b) islamlaşmaq və c) müasirləşmək triadası, heç şübhə etmirik ki, bütün türk dünyası üçün birlik və inkişaf formuludur. İdeyasını (və ideallarını) üsyanlarda, inqilablarda tökülən qanlara bulaşdırmayan Əli bəy Hüseynzadə həmişə zamanın fövqündə, təkcə türklüyün deyil, ümumən insanlığın önündədir. O, dünyada sülh, harmoniya yaratmağa çalışan, mənsub olduğu xalqı

dünya xalqlarından nə aşağıda, nə də yuxarıda görmək istəməyən cəngavər babaları kimi, millətı üçün nə istəyirdisə, bütün millətlər üçün də onu istəyirdi.

Əli bəy Hüseynzadə siyasətində də, fəlsəfəsində də, bədii yaradıcılığında da romantik idi… Mütəfəkkir nə qədər romantik ola bilərdisə, o qədər yox; romantik nə qədər mütəfəkkir ola bilərdisə, o qədər mütəfəkkir idi. Və insana, insanlığa təcavüz başlayan yerdə Əli bəy Hüseynzadənin fəlsəfəsi bitirdi…

Millətin öz tarixini dərindən bilməsi, onunla fəxr etməsi milli özünüdərk baxımından nə qədər mühümdürsə, həmin tarixə analitik-tənqidi münasibət bəsləməsi də o qədər əhəmiyyətlidir. Mirzə Ələkbər Sabirin ilk dəfə «Molla Nəsrəddin» məcmuəsinin 26 avqust 1907-ci il tarixli 32-ci nömrəsində imzasız çap olunmuş məşhur «Fəx-riyyə» şeiri türk xalqlarının tarixinə bu cür analitik-tənqidi (və ayıq fəlsəfi!) münasibətin, sözün əsl mənasında, tarixi nümunəsidir. «Fəxriyyə»də böyük şair yalnız həqiqəti deməklə kifayətlənmir, həm də mənsub olduğu xalqın tari-xini nə qədər dərindən bildiyini bütün parlaqlığı ilə nümayiş etdirir.

Sabir öz «Fəxriyyə»sini turançı Azərbaycan şairi Əbdülxaliq Cənnətinin «Fəxriyyə»sinə satirik nəzirə olaraq yazmışdı. Cənnəti deyirdi:

*Hərçənd düçari-mihəni-əhli-cəfayız,*
*Hərçənd bu əyyamdə pabəndi-bəlayız,-*
*Ey xar görən bizləri, bizlər nücəbayız,*
*Meydani-həmiyyətdə ələmdari-vəfayız..*
*Turanlılarız, sahibi-şani-şərəfiz biz!*
*Əslafımızın naibi xeyrülxələfiz biz!*

Ən geri qalmış xalqların bədii yaradıcılığında (xüsusilə eposlarında!) belə milli tarix, onun qəhrəmanları

(liderləri!) həmişə xüsusi bir məhəbbətlə tərənnüm olunmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində – türklərdə milli idealların (və hərəkatların) gücləndiyi bir dövrdə onlarla, hətta yüzlərlə bu cür şeirlərin yaranması təbii olduğu qədər də təqdirəlayiq idi. Bütün ziddiyyətlərinə, problemlərinə baxmayaraq (bunlar hansı xalqın tarixində olmamışdır ki?) qədim dövrlərdən etibarən dünyanın yaddaşında qalmış möhtəşəm bir tarix sahibi olan türklərin öz keçmişləri ilə fəxr etməyə, doğrudan da, haqları vardı.

Ancaq Cənnəti yalnız öz xalqının tarixi ilə fəxr etməklə kifayətlənmir, tarixin ehtişamını yada salmaqla türulərin düçar olduğu bəlalara, düşdüyü vəziyyətə görə onlara, yuxarıdan aşağı baxanlarda obyektiv təsəvvür yaratmağa çalışır: İndiki dövrdə möhnətlərə, cəfalara düçar olsaq da, bəlalara düşsək də, ey bizləri zəlil sayanlar, əslində, biz aristokratıq, qeyrət-namus meydanında vəfa-etibar bayraqdarıyıq… Turanlılarıq, şan-şöhrət sahibiyik, ata-babalarımızın davamçılarıyıq, onların yetirmələriyik.

Və əslində, Cənnəti xalqın müasir vəziyyətinə kifayət qədər tənqidi yanaşır; üslubü etibarilə romantik olduğundan məsələnin üzərindən üsulluca keçsə də, təəssübkeşlik etsə də, daxili narahatlığını, həyəcanını gizlətmir (təxminən Əli bəy Hüseynzadə kimi)…

Həm Cənnətinin, həm də Sabirin «Fəxriyyə»si meydana çıxanda Azərbaycanda və ümumən türk dünyasında türkçülük ideologiyası geniş miqyasda yayılmaqda, xüsusilə dövrün ziyalılarının təfəkküründə miləti gerilikdən xilas edəcək möhtəşəm bir proqramın idyea əsasını təşkil etməkdə idi.

Zahirən elə görünə bilərdi ki, Cənnətidən fərqli olaraq Sabir-böyük şair-mütəfəkkir həmin ideologiyaya qarşı çıxır, yaxud lağ edir…

Ancaq, təbii ki, belə deyildi.

Böyük Sabirin «bütün türk xalqlarının tarixinə və onların min ildən bəri gəlib keçmiş məşhur hökm-darlarına qarşı şiddətli bir ittihamnamə» (Əkrəm Cəfər) yazması mümkün deyildi. Burada söhbət türk dünyasının inkişafına (və bütövlüyünə) zərbə vurmuş ixtilafların tənqidindən gedə bilər…

Sabir özünəməxsus üslubu ilə tarixdən ibrət götürməyə, qədim dövrlərdən bəri türk dövlətləri, xüsusilə hökmdarları arasındakı yersiz, mənhus, münaqişələrin nələrə gətirib çıxardığını, türkləri nə günə qoyduğunu anlamağa çağırırdı. Və bunu hər kəsə təsir edəcək qədər həyəcanla (sərt!) deməkdən çəkinmirdi:

*Hərçənd əsirani-qüyudan – zəmanız,*
*Hərçənd düçarani – bəliyyati – cəhanız,*
*Zənn etmə ki, bu əsrdə avaraye-nanız,*
*Əvvəl nə idiksə, yenə biz simdi həmanız...*
*Turanlılarız, adiyi-şüğli-sələfiz biz!*
*Öz qovmümüzün başına əngəlkələfiz biz!*

Şair deyir ki, hərçənd zamanın zəncirinin əsir-ləriyik, dünyanın bəlalarına düçar olmuşuq, zənn eləmə ki, bu əsrdə çörək avarasıyıq, yəni adam kimi yaşamağın yolunu axtarırıq; əvvəl nə idiksə, yenə də həminki kimiyik… Turanlılarıq, sələflərimizin görmüş olduqları işi adət üzrə biz də görməkdəyik, öz millətimizin başına bəlayıq.

Və əlavə edir:

*Zülmətsevər insanlarız üç-beş yaşımızdan,*
*Fitnə göyərir torpağımızdan, daşımızdan,*
*Tarac edərək bac alırız qardaşımızdan,*
*Çıxmaz, çıxa bilməz də bu adət başımızdan..*
*Əslafımıza çünki həqiqi xələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Birinci bəndə nisbətən daha aydın dildə olan ikinci bənddə şair milli mənafe naminə insanların birləşdiyi, xalqların inkişaf etdiyi, əməkdaşlığın gücləndiyi bir dövrdə – XX əsrin əvvəllərində türk-müsəlman dünyasının hələ qaranlıqdan çıxmadığını, xəyanətlər, qardaş düşmənziliyi, münaqişələr girdabında boğulduğunu, milləti parçalayan, üz-üzə qoyan köhnə adətlərin davam etdiyini göstərir.

Və tarixə müraciət edir:

*Ol gün ki Məlik şah Büzürg eylədi zihlət,*
*Etdik iki namərd vəzirə təbəiyyət,*
*Qırdıq o qədər bir-birimizdən ki, nəhayət,*
*Düşmən qatıb əl, taxtımızı eylədi qarət...*
*Öz həqqimizi gözləməyə bitərəfiz biz!*
*Turanlılarız, adiyi-şüğli-sələfiz biz!*

Söhbət o Məlik şahdan gedir ki, on səkkiz yaşında Böyük Türk xaqanlığı taxtına çıxmış, yüksək mənəviyyatı, müdrikliyi və böyük dövlət idarəçiliy məharəti nəticəsində Çindən Bizansa – Anadoluya, Qafqazdan Hindistana qədər uzanan geniş bir coğrafiyada möhtəşəm Səlcuqlular İmperiyasını yaratmışdı. 1092-ci ildə Bağdadda qırx yaşında ikən zəhərlənərək öldürülən Məlik şahdan sonra onun «xələflər»i bu türk-müsəlman dövlətini daxili çəkişmələr nəticəsində viran qoydular.

XIII əsrdə isə Şərqdən Qərbə doğru hərəkət edərək əvvəl Xarəzəm, sonra digər türk-müsəlman dövlətlərini məhv edən Çingiz xanın dövrü gəldi:

*Bir vəqt olub ləşkəri-Çingizə tərəfdar*
*Xarəzmləri məhv eylədik qətl ilə yekbar.*
*Xarəzmlərin şahı fərar eylədi naçar,*
*Məscidləri, məktəbləri yıxdıq yerə təkrar...*
*Həqqa ki, səravari-nişanü şərəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Çingiz xan müsəlman deyildi, ona görə də türk-müsəlman İntibahı dövrünün (IX-XIII əsrlər) məhsulları olan məscidləri, məktəbləri dağıdır, adət etdiyi «çöl həya-tı»nın təsiri ilə neçə əsrlik tarixi olan böyük şəhərləri xarabaya çevirirdi. Onun məğlubedilməz ordusunun mütləq əksəriyyətini tədricən türklər təşkil etdilər ki, Sabir «bir vəqt olub ləşkəri-Çingizə tərəfdar» deyəndə bunu nəzərdə tutur.

XI əsrdən başlayaraq Qafqaza, oradan da Anadoluya axan və Bizansa diz çökdürərək bu yerlərdə məskunlaşan oğuz – səlcuq türkləri Avropadan başlanmış uzun sürən bir hərəkatın-səlib (xaçlı) yürüşlərinin qarşısını əvvəllər ala bilsələr də, sonralar daxili münaqişələr, hakimiyyət davaları ucbatından zəif düşdülər:

*Bir vəqt də dəvayi – Səlib oldu mühəyya,-*
*Dəvada firəngilərə qalib gəlib, əmma*
*Dincəlməyib etdik yenə bir faciə bərpa,*
*Öz tiqimiz öz rişəmizi kəsdi sərapa...*
*Guya ki, biyabanda bitən bir ələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Ümumiyyətlə, türk-müsəlman dövlətləri, hökmdarları arasında nəinki bütün orta əsrlər boyu davam edən, hətta yeni dövrə də keçən amansız münaqişələr, qardaş qırğınları, çox təəssüf ki, kifayət qədər mütərəqqi hadisə-lərlə birlikdə bizim tariximizin üzvü tərkib hissəsi olmuşdur. Bir çox hallarda hətta bilavasitə xələflər belə öz sələflərinin yolunu davam etdirə, qoyduqları qanunlara riayət edə və nəticə etibarilə, tarixin varisliyini saxlaya bilməmişlər ki, bu da tarixi hər dəfə yenidən (özündən!) başlamaq kimi neqativ (və anti-tarixi!) bir «ənənə»nin əsasını qoymuşdur.

XV əsrdə Şərqdən – Orta Asiyadan Qərbə-Azərbaycana, Anadoluya yenidən güclü türk axınları başladı:

*Bir vəqt dəxi Qarəqoyun, Ağqoyun olduq,*
*Azərbaycana, həm də Anadoluya dolduq;*
*Ol qədr qırıb bir-birimizdən ki yorulduq,*
*Qırdıqca yorulduq və yorulduqca qırıldıq...*
*Turanlılarız, adiyi-süğli-sələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Böyük şairin dediyi kimi, əvvəl Qaraqoyunluların, sonra isə Ağqoyunluların Şərqdən Qərbə hərəkatları ciddi münaqişələrlə, qırğınlarla müşaiyət olunurdu.

Əmir Teymurun hakimiyyəti zəbt edib güclü qoşunla Azərbaycana, oradan da Anadoluya hücumu isə daha böyük faciələrə səbəb olmuşdu. Ankara yaxınlığında İldırım Bəyazidi məğlub edən Əmir Teymur, əslində, türklərin Avropanın Qərbinə yayılmalarının qarşısını aldı.

*Bir vəqt salıb təfriqə olduq iki qismət,*
*Teymur şəhə bir paramız etdi himayət,*

*Xan İldırıma bir paramız qıldı itaət,*
*Qanlar saçılıb Ankarada qopdu qiyamət...*
*Əhsən bizə! Həm tirəzəniz, həm hədəfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Əmir Teymurun Toxtamış xana (və Qızıl Orda dövlətinə) düşmən münasibəti ona gətirib çıxardı ki, şairin qeyd etdiyi kimi, Moskva mərkəz olmaqla Rus dövləti güclənməyə, nəticə etibarilə, türklərin kütləvi şəkildə ruslaşmasının əsası qoyulmağa başladı…

*Teymur şəhi-ləngə olub taleyi-fərman*
*Xan Toxtamışı eylədik al qanına qəltan;*
*Ta oldu qızıl Ordaların dövləti talan,*
*Məsko şəhinə faidəbəxş oldu bu meydan...*
*Əlyövm uruslaşmaq ilə rişənəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Şair tamamilə haqlıdır ki, əsrlər boyu türklərin siyasi, iqtisadi və mədəni təsiri altında olmuş, bir sıra xalqlar (ruslar, farslar və b.) sonralar türklərin deyil, məhz türk hökmdarlarının «mənəm-mənəmlik»ləri, günahları, əsassız iddiaları, düzgün siyasət yürütməmələri nəticəsində hakimiyyəti ələ aldılar.

Şah İsmayılla Sultan Səlimin şiəlik və sünnülük bayraqları altında apardıqları «mübarizə» isə müsəlman türklər arasında elə bir təfriqə saldı ki, əsrlər boyu davam etdi:

*Bir vəqt Şah İsmayilü Sultani-Səlimə*
*Məftun olaraq eylədik islamı dünimə,*
*Qoyduq iki tazə adı bir dini-qədimə;*
*Saldı bu təşəyyö, bu təsənnüm biri bimə...*
*Qaldıqca bu halətlə sərayi-əsəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Təşəyyö-təsənnüm (şiələşmə-sünnüləşmə) hərəkatının dərinləşməsi (və kütləviləşməsi!) ilə ortaya çıxan münaqişədən bugün belə türk-müsəlman dünyasının düşmənləri istifadə etməyə, türkləri parçalamağa çalışırlar.

Xalq içərisindən çıxmış, öz qüdrəti, qabiliyyəti nəticəsində hakimiyyət taxtına çıxmış Nadir şah şiə-sünnü ədavətini aradan qaldırmağa çalışsa da, buna nail ola bilmədi:

*Nadir bu iki xəstəliyi tutdu nəzərdə,*
*İstərdi əlac eyləyə bu qorxulu dərdə,-*
*Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,*
*Məqtulən onun nəşini qoyduq quru yerdə...*
*Bir şeyi-əcəbiz, nə bilim, bir tühəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Şiəlik-sünnülük ədavətinin arxasınca isə iranlılıq-osmanlılıq ədavəti gəldi:

*İndi yenə var tazə xəbər, yaxşı təmaşa,*
*İranlılıq-osmanlılıq ismi olub ehya;*
*Bir qitə yer üstündə qopub bir yekə dəva,*
*Meydan ki, qızışdı, olarıq məhv sərapa..*
*Onsuz da, əgərçənd ki, yeksər tələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Sabirin mənsub olduğu xalqın tarixinə «şiddətli tənqidi münasibət»i (unutmayaq ki, bu onun üslubu idi) arxasındakı ondan qat-qat şiddətli məhəbbətini gör-məmək, duymamaq (və dəyərləndirməmək!) mümkün deyil.

## 3.Müasir türk dünyasının siyasi-ictimai mənzərəsi

Məlum olduğu kimi, türk xalqlarının siyasi birliyi bizim günlərdə, yaxud müasir dövrdə meydana çıxmış yeni bir ideya və ya hərəkat olmayıb kifayətə qədər dərin tarixi köklərə malikdir. XIX əsrin sonlarında bütövlükdə türk dünyası miqyasında irəli sürülmüş «dildə, fikirdə və işdə birlik» (İsmayıl bəy Qasprinski) şüarı türklərin ortaq ictimai-siyasi yaddaşının nə qədər canlı, möhkəm olduğunun prinsipial göstəricisi idi. Və xüsusilə XX əsrin əvvəllərində daha geniş yayılaraq türk xalqları arasında milli şüura təsir göstərən ən populyar ideyaya çevrilmişdi.

Fikrimizcə, müasir türk məkanında siyasi inteq-rasiya problemini araşdırarkən əsas diqqət aşağıdakı aspektlərə verilməlidir:

1) türk birliyi idyasının təşəkkülü, təkamül mərhələləri və həmin idyeanın reallaşdırılması istiqamətindəki mübarizələrin tarixi nəticələri, təcrübəsi və perspektivləri;

2) müasir dövrdə müstəqil türk dövlətlərinin siyasi inteqrasiyasını və ya qarşılıqlı siyasi münasibətlərini yenidən şəkilləndirən, genişləndirən üsullar, formalar;

3) qloballaşan dünyada və ya müasir beynəlxalq münasibətlər sistemində türk siyasi birliyinə nail olmaq uğrunda mübarizənin metodları.

Müşahidələr göstərir ki, dünyada iqtisadi, yaxud mədni-mənəvi münasibətlərdən təcrid olunmuş, «saf» siyasi münasibətlərdən danışmaq, demək olar ki, mümkün deyil. Və o da təsadüfi sayıla bilməz ki, bugün «iqtisadi siyasət», «mədəniyyət siyasəti» və s. kimi anlayışlar «siyasət» anlayışı qədər populyardır. Odur ki,

türk məkanında gedən siyasi inteqrasiya prosesləri və ya qarşılıqlı siyasi münasibətlər dedikdə elə bir geniş kompleks nəzərdə tutulur ki, buraya, əslində, mədəniyyət aktı hesab edilən latın əlifbasına keçiddən başlamış tamamilə iqtisadi məzmun daşıyan neft ixracına qədər çox müxtəlif hadisələr daxildir.

Sovetlər Birlyinin dağılması, onun tərkibindəki türk xalqlarının ya tamamilə, ya da qismən müstəqillik əldə etməsi və müstəqil türk dövlətlərinin tədricən dünya birliyinin bərabər hüquqlu üzvlərinə çevrilməsi günümüzün siyasi reallığıdır. Doğrudur, müstəqil türk dövlətlərinin meydana çıxması, formalaşması prosesləri bir sıra siyasi problemlərlə müşayiət olundu və bugün də olunmaqdadır, lakin fakt öz faktlığında qalır ki, müasir mərhələdə

a) müstəqil türk respublikaları öz suverenlikləri uğrunda ardıcıl mübarizə aparır, daxili və xarici siyasətdə daha inamlı addımlar atmağa çalışır, özgürlüklərini möhkəmləndirirlər;

b) yarımmüstəqil türk respublikaları öz sosial-iqtisadi, mədəni inkişaflarını gücləndirməklə dövlət müstəqilliklərini əldə etməyə çalışırlar;

c) müstəqil olmayan türk xalqları milli varlıqlarını qorumağa, daxil olduqları ölkənin siyasi həyatında bu və ya digər səviyyədə iştirak etməyə can atırlar.

Müstəqilliyini əldə etmiş türk respublikalarında xüsusilə ilk illərdə biri digərinə əks olan iki siyasi meyl müşahidə edilirdi:

1) tam müstəqilliyə nail olmaq üçün heç bir birliyə, hətta türk birliyinə belə qoşulmamaq;

2) müstəqilliyi qorumaq üçün hər cür beynəlxalq birliyə, ilk növbədə türk birlyinə qoşulmaq.

İllər keçdikdən sonra müstəqillik eyforiyasından xilas olmaqda olan türk respublikaları tədricən dünyanın (və dövrün) konyukturları ilə kontakta və ya dialoqa girməyin təcrübəsini qazandılar. Məsələn, Azərbaycanın təcrübəsini ümumiləşdirməyə cəhd edən azərbaycanlı tədqiqatçı Sevda Əhədova yazır: «Bu gün müstəqil Azərbaycan dövlətinin həllinə çalışdığı mühüm vəzifələrdən biri də dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq aləmdə gedən inteqrasiya proseslərində yaxından iştirak etmək, xarici ölkələrlə, beynəlxalq və regional qurumlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığı genişləndirmək və bununla da öz milli maraqlarını təmin etməkdən ibarətdir. Azərbaycan dövlətinin xarici siyasəti məhz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu faydalı əlaqələri inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədlərinə xidmət edir» .

Azərbaycan dövlətinin xarici siyasətində prioritet olan həmin məqamlar, demək olar ki, bütün türk respublikalarının müvafiq siyasətlərinin əsasını təşkil edir. Lakin nəzərə almaq lazımdır ki, dünyada mövcud olan «ikili standartlar» müstəqilliyini son dövrdə qazanmış türk respublikalarının bu cür demokratik (və açıq) xarici siyasətinə hər dəfə «düzəliş» edir. Bununla belə təcrübə də göstərir ki, daha uğurlu bir alternativ təsəvvür etmək mümkün deyil. Və türk respublikalarının xarici siyasəti ilk növbədə daxili stabilliyin qorunmasına, beynəlxalq aləmlə sağlam rəqabətə girəcək milli potensial və ya imkanların yaranmasına xidmət edir.

Artıq qeyd etdiyimiz kimi, dövlət müstəqilliyi əldə etdikləri ilk illərdə türk respublikaları, müxtəlif xarici

təsirlər altında, qarşılıqlı anlaşma və ya inteqrasiyadan daha çox beynəlxalq aləmdə «özünü təsdiq»ə meyl edirdilər ki, bu da özünü bugünə qədər göstərən bir sıra deinteqrasiya problemləri yaratmışdı. Tarix isə göstərdi ki, məsələ yalnız türk etnik-mədəni birliyini kortəbii bir inersiya ilə, reflekslərlə qorumaqda, yaxud ona qarşı çıxmaqda deyil, məsələnin mahiyyəti ondadır ki, qloballaşan dünya bir və ya bir neçə mərkəzdən idarə olunduğuna, görə parçalanıb həmin mərkəzlərin təsiri altına düşməklə yanaşı, alternativlər axtarmaq imkanı da mövcuddur. Həmin imkan isə türk siyasi birliyinə nail olmaq perspektivlərini istisna etmir.

Türk dünyasının liderləri Süleyman Dəmirəl, Heydər Əliyev və Nursultan Nazarbayev müxtəlif münasibətlərlə əlaqədar olaraq, xüsusilə türk dövlət başçılarının Zirvə Toplantılarındakı çıxışlarında dəfələrlə göstərmişlər ki, türk dünyasının etnik-mədəni birliyini onun siyasi birliyi tamamlamalıdır.

Ümumiyyətlə, türk məkanında siyasi birlik iddialarının və ya cəhdlərinin tarixinə nəzər salsaq, bu sahədə kifayət qədər zəngin bir ənənənin mövcudluğunun şahidi olarıq. Belə ki, hələ orta əsrlərdən etibarən əvvəl Çingiz xan, sonra isə Əmir Teymur türk dünyasının dövlət bütövlüyü uğrunda mübarizə aparmışlar ki, daha sonralar həmin istiqamətdəki mübarizələr, bir qayda olaraq, lokal və ya regional xarakter daşımışdır. Türk məkanı orta əsrlərin sonu yeni dövrün əvvəllərindən etibarən müxtəlif sülalələrin idarə etdikləri, çox zaman biri digəri ilə münaqişə, müharibə münasibətində olan böyük və ya kiçik dövlətlərə parçalanmışdır. Ən təəssüfedici hal isə ondan ibarət olmuşdur ki, həmin dövlətlərin bir qismi xalqın deyil, məhz onu idarə edən sülalənin laqeydli-

yindən tədricən milli xarakterini itirmiş, ərəbləşmiş, farslaşmış, yaxud ruslaşmışdır.

Türk dünyasının siyasi birliyi ideyası bir də XIX əsrin sonu XX əsrin əvvəllərində bütün gücü ilə meydana çıxmış, müəyyən qədər romantik səciyyə daşısa da, dövrün qabaqcıl türk ziyalılarının, demək olar ki, hamısının dünyagörüşündə, düşüncələrində və xüsusilə ideoloji-publisistik fəaliyyətlərində əhəmiyyətli mövqeyə malik olmuşdur. Eyni zamanda vahid (və bütöv!) türk dövləti yaratmaq uğrunda mübarizə yalnız ideoloji-publisistik miqyasda qalmamış, hətta diplomatik, siyasi-hərbi cəhdlər də olmuşdur ki, bunun ən bariz nümunəsi Osmanlı imperiyasının hərbi naziri Ənvər paşanın Türküstanda – Orta Asiyada göstərdiyi tarixi fəaliyyətdir. Doğrudur, bu heç də yaxşı planlaşdırılmamış, üsul və formaları dəqiq müəyyənləşdirilməmiş bir mübarizə idi, lakin heç də tamamilə mənasız cəhd deyildi.

XIX əsrin sonu XX əsrin əvvəllərində türk birliyi ideyası bir də ona görə romantik xarakter daşıyırdı ki, artıq bir-birindən dil, inzibati-ərazi, həyat tərzi, müəyyən qədər də mədəniyyət baxımından ayrılmış, fərqli xüsusiyyətləri ilə təzahür edən türk xalqlarının, demək olar ki, hamısını vahid bir dövlət – Turan dövləti tərkibində birləşdirmək iddiası ilə ortaya çıxmışdı. Bu isə nə qədər cəlbedici görünsə də, praktik olaraq mümkün deyildi. Hər şeydən əvvəl ona görə ki, Osmanlı türklərini çıxmaq şərtilə digər türklər artıq müxtəlif dövlətlərin (Rusiya, İran, Çin və s.) tərkibində idilər. Və həmin dövlətlərin kifayət qədər qərarlaşmış özünəməxsus antitürk idarə üsulları vardı.

Ümumiyyətlə, araşdırmalar göstərir ki, türk məkanında siyasi birlik ideyası (və hərəkatı) aşağıdakı tarixi inkişaf mərhələlərindən keçmişdir:

1) XIX əsrin sonlarına qədər;
2) XIX əsrin sonu XX əsrin əvvəlləri;
3) XX əsrin əvvəllərindən sonlarına qədər;
4) XX əsrin sonu XXI əsrin əvvəlləri.

Türkçülük hərəkatının ən faciəli və ya kritik mərhələsi XX əsrin 30-cu illərindən başlayıb 90-sı illərinə qədər davam etmişdir. Sovetlər Birliyi möhkəmləndikcə türk birliyinə qarşı aparılan amansız mübarizə də getgedə güclənmiş, sovet kommunist imperiyasının tərkibindəki türk xalqlarının qarşılıqlı əlaqələrinin məhdudlaşdırılması üçün hər cür vasitələrdən istifadə olunmuşdur ki, buraya əsasən aşağıdakılar daxil idi:

1) türkçülük, yaxud türk məkanında siyasi birlik ideyasının (və hərəkatının) bütünlüklə qadağan olunması, ona ən kiçik cəhdlərin belə «pantürkizm təzahürü» adı altında amansızcasına cəzalandırılması;

2) formal olaraq müstəqillik verilmiş türk respublikalarında milli qürur, iftixar və ya «özündənrazılıq» yarada biləcək təşəbbüslərin qarşısının alınması, rus dilinin və mədəniyyətinin təbliği, «yerli» dilin və mədəniyyətin ikinci planda olduğu fikrinin aşılanması;

3) nəinki Türkiyə Respublikası ilə, eləcə də eyni dövlətin (Sovetlər Birliyinin) tərkibindəki türk dövlətləri, xalqları arasındakı hər cür birbaşa əlaqələrin aradan qaldırılması, ümumi və ya ortaq türk yaddaşının pozulmasına çalışılması.

Belə bir faktı xatırlatmaq kifayətdir ki, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji qurultayın Sovet türklərindən olan bütün nümayəndələri 30-cu illərdə «pantürkist» ittihamı ilə məhv edildilər. Bu isə o demək idi ki, sovet ideologiyası Sovetlər Birliyinin formalaşdığı ilk illərdə türkçülük hərəkatına qarşı müəyyən loyallıq göstərsə də, 30-cu illərdən etibarən ona açıq müharibə elan

etdi. Və həmin münasibət 50-ci illərə qədər bütün kəskinliyi ilə davam elədi.

Doğrudur, keçən əsrin 50-ci illərindən etibarən Sovetlər Birlyiinin siyasi-ideoloji həyatında müəyyən «yumşalma» müşahidə olunmağa başladı. Stalin rejimi ciddi tənqidə məruz qaldı. Lakin bu hələ də türkçülük hərəkatına (və ideologiyasına) bəraət verilməsi demək deyildi. Gənc qazax (ümumən türk) şair-tədqiqatçısı Oljas Süleymenovun bütün türk dünyasını silkələyən «Az i ya» kitabını 70-ci illərdə rəsmi sovet ideologiyası qəzəblə qarşılayıb müəllifi «pantürkist» elan etməkdən çəkinmədi. Lakin bu, antitürkçülüyün imperiya səviyyəsindəki son cəhdlərindən biri idi.

Sovetlər Birliyi tərkibindəki türk dövlətləri siyasi müstəqillik əldə etdikdən sonra «mərkəzdənqaçma» qüvvəsi nə qədər güclü olsa da, tezliklə yeni «mərkəzləşmə» – türk dünyası miqyasında qarşılıqlı münasibətləri inkişaf etdirmək maraqları artmağa başladı ki, bu da beynəlxalq aləmdə birmənalı qarşılanmadı. Belə ki, bir tərəfdən Rusiya faktoru, başqa sözlə, postsovet türklərinin MDB məkanında (və formatında) yenidən birləşməsi, digər tərəfdən ABŞ və Avropa Birliyi ilə qarşılıqlı təmaslar müstəqil türk dövləti önündə hələ adət edilməmiş üfüqlər açdı. Həmin mürəkkəb münasibətlər sistemində yenicə qazanılmış dövlət müstəqilliyini qorumaqla hərəkət etmək, əlbəttə, o qədər də asan deyildi. Və türk birliyinə edilən cəhdlər də bir sıra hallarda guya Turan dövləti yaratmağa mənasız təşəbbüslər kimi şərh edilirdi. Halbuki türk dövlətlərinin qarşılıqlı münasibətləri bugün olduğu kimi, müstəqilliyin ilk illərində də hansısa romantik birlik, konkret olaraq, vahid türk dövləti qurmaq ideyasına və ya cəhdlərinə əsaslanmamışdır. Türk dövlət başçılarının, siyasi liderlərin və ciddi bey-

nəlxalq ekspertlərin məsələyə münasibətləri də sübut edir ki, burada söhbət hər bir türk dövlətinin həqiqi müstəqilliyni təmin etməklə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindən gedir.

Buna ən parlaq birinci nümunə Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan Prezidenti Heydər Əliyevin «Yeni il, yeni əsr və yeni minillik ərəfəsində Azərbaycan xalqına müraciəti» idisə, ikinci nümunə qazax xalqının milli lideri, Qazaxstan Prezidenti Nursultan Nazarbayevin Qazaxstan xalqına 17 yanvar 2014-cü il tarixli «Müraciət»idir. Hər iki sənəddə ölkələrin müstəqilliyinin əbədiliyi birinci şərtdir.

Müşahidələr göstərir ki, türk məkanında siyasi inteqrasiya, əsasən, aşağıdakı forma və ya formatlarda həyata keçirilir:

1) dövlət və ya hökumət başçıları səviyyəsində;

2) parlamentlər səviyyəsində;

3) nazirliklər və ya səfirliklər səviyyəsində;

4) qeyri-hökumət təşkilatları və ya «xalq diplomatiyası» səviyyəsində.

Türk dövlət və ya hökumət başçıları səviyyəsində türk məkanında qarşılıqlı siyasi münasibətlər, həmişə aparıcı mövqedə olub ən azı iki şəkildə gerçəkləşir:

1) türk dövlətləri başçılarının ikitərəfli görüşləri və ya qarşılıqlı səfərləri;

2) dövlət başçılarının Zirvə toplantıları və ya ümumiyyətlə, çoxtərəfli görüşləri.

Əslində, türk dövlət və ya hökumət başçılarının ikitərəfli və çoxtərəfli görüşləri diplomatik qayda-qanunlar və ya beynəlxalq ənənə baxımından müxtəlif formatlar hesab olunsa da, türk məkanında siyasi münasibətlərin möhkəmlənməsinə, demək olar ki, eyni dərəcədə xidmət edir. Hər şeydən əvvəl ona görə ki, türk dövlət-

ləri arasında prinsipial olaraq ziddiyyət, yaxud münaqişə yarada biləcək hər hansı problemi təsəvvür etmək mümkün deyil ki, onun ətrafında siyasi «qruplaşma» yaratmağa potensial ehtiyac əmələ gəlsin. Müəyyən fikir müxtəlifliklərinə (bunların isə əksəriyyəti beynəlxalq münasibətlərin konyukturundan və ya «ikili standartlar»-dan irəli gəlir) gəldikdə isə, onlar təsadüfi, yaxud keçici olub türk dünyasının siyasi münasibətlər strategiyasına təsir etmək səviyyəsinə qalxmır.

Türk dövlət başçılarının bilavasitə görüşləri ilə yanaşı, həm ümumdünya, həm də regional səviyyələrdəki beynəlxalq görüşlərdə iştirakları (və bu formatdakı əməkdaşlıqları) da türk məkanında siyasi inteqrasiyanın güclənməsinə əhəmiyyətli təsir göstərir. Belə ki, dünya və ya region maraqları kontekstində türk dövlətlərinin ayrı-ayrılıqdakı maraqlarını koordinasiya etmək, analitik bir şəkildə əlaqələndirmək imkanı yaranır. Əlbəttə, Avrasiyanın geniş bir coğrafiyasını məskunlaşdırmış türk dünyasında hər bir müstəqil və ya yarımmüstəqil türk dövlətinin tarixən müəyyənləşmiş regional siyasi münasibətlər sistemi, yaxud konteksti mövcuddur ki, onu nəzərə almadan türk məkanında qarşılıqlı siyasi münasibətlər prosesini düzgün istiqamətləndirmək heç də asan olmazdı.

Türk dövlətləri başçılarının ikitərəfli görüşləri və ya qarşılıqlı səfərləri həmin dövlətlərin öz müstəqilliklərini elan etdikləri günlərdən başlayır ki, bu, tamamilə təbiidir. Və burada Türkiyə Respublikasının rolunu xüsusi qeyd etmək lazım gəlir. Hər şeydən əvvəl ona görə ki, yenicə müstəqilliyni qazanmış türk dövlətlərini ilk olaraq tanıyan, həmin dövlətlərin öz müstəqilliyini qoruyub saxlaması, möhkəmləndirməsi üçün hərtərəfli yardım göstərən ilk ölkə qardaş Türkiyə olmuşdur.

Türkiyənin Azərbaycan, Qazaxstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanla qurduğu ikitərəfli əlaqələr ilk illərdən yalnız bu ölkənin xarici siyasətinin ən mühüm prioritetlərindən birinə çevrilməklə qalmamış, eyni zamanda türk dövlətləri arasında əməkdaşlığın üfüqlərinin genişlənməsinə, siyasi inteqrasiyanın sürətlənməsinə, ümumiyyətlə türk dünyasında siyasi birliyə nail olunmasına əhəmiyyətli təsir göstərmişdir. Təsadüfi deyil ki, Türkiyə dövlət başçılarının digər türk respublikalarına, eləcə də türk dövlət başçılarının Türkiyəyə etdikləri rəsmi və ya işgüzar səfərlərin sayı postsovet məkanındakı türk dövlətləri arasındakı yüksək səviyyəli görüşlərdən müqayisəyə gəlməyəcək qədər çox olmuşdur.

Ümumiyyətlə, türk dövlət başçılarının ikitərəfli görüşlərində müzakirə olunan məsələləri aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1) iki müstəqil türk dövlətinin qarşılıqlı sosial-siyasi, iqtisadi və mədəni münasibətlərinin inkişafı və tənzimlənməsi məsələləri;

2) türk məkanında mədəni, iqtisadi və sosial-siyasi bütövlüyün təmin olunması ilə bağlı məsələlər;

3) regional əməkdaşlıq (məsələn, Qaradəniz, yaxud Xəzər dənizi hövzəsi ölkələri və ya Mərkəzi Asiya ölkələri miqyasında) məsələləri;

4) dünya miqyasında, xüsusilə beynəlxalq təşkilatlar səviyyəsində (məsələn, BMT, ATƏT, İƏT, MDB və s) əməkdaşlığın genişləndirilməsi, milli maraqların qarşılıqlı təminatı.

Türkdilli ölkələrin dövlət başçılarının Zirvə Toplantıları artıq müəyyən ənənəsi olan, müstəqil türk respublikalarının qarşılıqlı siyasi münasibətlərini tənzimləyən ali forumlar və ya sammitlərdir. Keçən əsrin 90-cı illərinin əvvəllərində – 1992-ci ildə start götürən bu

toplantılar türk dövlət başçılarının ikitərəfli görüşlərindən sonra türk dünyasında siyasi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qalxması demək idi. Müstəqilliyi yenicə qazanmış türk respublikalarının Zirvə Toplantılarında bir araya gəlməsi ümumi maraqlardan irəli gələn bir sıra məsələlərdə davamlı əməkdaşlığın prinsiplərini, miqyasını müəyyən etməkdən ibarət idi ki, buraya aşağıdakı sahələr ilk növbədə aid olunurdu: xarici siyasət, iqtisadi inkişaf, ticarət, sənaye, kənd təsərrüfatı, enerji, nəqliyyat, rabitə, maliyyə-bank, təhsil, mədəniyyət, elm, ətraf mühit, turizm və s.

Göründüyü kimi, burada gənc türk respublikalarının siyasi, iqtisadi və mədəni həyatının elə bir məsələsi yoxdur ki, əhatə olunmasın. Xüsusilə ilk illərdən Zirvə Toplantılarında müzakirə və ya məsləhətləşmələr üçün bu qədər genişspektrli məsələnin gündəliyə çıxarılması zərurət idi.

Qazax xalqının lideri, müstəqil Qazaxstan dövlətinin qurucusu, prezident Nursultan Nazarbayevin faktlar və mülahizələrlə zəngin olan «Qazaxstan yolu» kitabı ilə tanışlıq kifayətdir ki, Sovetlər Birlyiinin «şinelindən çıxmış» türk respublikasının müstəqilliyinin ilk illərində hansı mürəkkəb problemlərlə üz-üzə dayanmış olduğunu təsəvvür edəsən. Təcrübəli siyasətçi, müdrik dövlət xadimi on beş illik gərgin mübarizə nəticəsində aşağıdakı problemlərin uğurla həllindən bəhs edir:

a) siyasi sahədə güclü prezident hakimiyyətinin bərqərar edilməsi,

b) iqtisadi sahədə sürətli və fəal islahatlar aparılaraq demokratikləşməyə nail olunması,

c) mədəni sahədə etnik və dini konsessusun qorunub saxlanması.

Əlbəttə, ilk baxışda adi görünən bu məsələlərin həlli üçün ilk illərdə həm hakimiyyət, həm də millət səviyyəsində nə qədər böyük siyasi iradə nümayiş etdirildiyi heç də uzaq tarixə çerilməmişdir. Və güclü siyasi iradənin olmadığı yerlərdə, məsələn, Qırğızıstanda hadisələr başqa cür cərəyan etmiş, ölkədə stabilliyin bərpası xeyli ləngimişdir.

Zirvə Toplantılarında aparılan müzakirələr və ya məsləhətləşmələr postsovet türk məkanı üçün əsasən ümumi olsa da, bir sıra türk respublikalarının özlərinə məxsus, spesifik problemləri də mövcud idi. Və həmin problemlərin bəziləri indiyə qədər qalmaqda, get-gedə ümumi problemə çevrilərək bütün türk məkanını narahat etməkdədir.

Məsələn, Ermənistanın Sovetlər Birliyi dağılmağa başladığı illərdəki hərcmərclikdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməsi ilk illərdə heç də bütün türk respublikaları üçün birmənalı anlaşılan məsələ deyildi. Və bunun nəticəsi idi ki, Qırğızıstan prezidenti Askar Akayev Yerevana rəsmi səfəri zamanı erməni soyqırımı abidəsi önünə əklil qoymuş, guya 1915-ci ildə türklər tərəfindən kütləvi surətdə məhv edilmiş ermənilərin xatirəsini yad etmişdi. Yaxud Türkmənistan prezidenti Saparmurad Niyazov (Türkmənbaşı) özünün «Ruhnamə» kitabında bütün oğuz xalqlarının türkmənlərdən törədiyi barədə antitarixi bir mülahizə irəli sürərək, heç bir əsası olmadan, mübahisə, anlaşılmazlıq yaratmışdı.

Zirvə Toplantılarının bir mühüm əhəmiyyəti də onda oldu ki, dövlət başçıları digər türk dövlətlərinin, xalqlarının həm tarixi, həm də müasir dövrdəki problemlərilə tanış oldular. Və bu tanışlıq həmin problemlərin

ortaq siyasi iradə ilə həll olunması üçün kifayət qədər geniş və münbit şərait yaratdı.

Ümumiyyətlə, Zirvə Toplantıları müasir dövrdə müstəqil türk dövlətlərinin ən mötəbər forumu olub türk dünyasının çoxşaxəli inteqrasiyasında, onun (türk dünyasının) və onların (türk dövlətlərinin) mənafelərinin müdafiəsində həm real rola, həm də hələ reallaşmamış böyük imkanlara malikdir.

Türkdilli dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) son illərdə (ilk iclası 20 oktyabr 2011-ci ildə Astanada keçirilmişdir) yaranmış bir qurum olsa da, türk dövlətlərinin və xalqlarının siyasi inteqrasiyası proseslərinin canlanmasına artıq əhəmiyyətli təsirini göstərmişdir.

Son illər türk respublikaları arasındakı yüksək səviyyəli görüşlərdə biri digəri ilə bağlı olan iki məsələyə daha çox diqqət verilməsi müşahidə edilir. Bunlardan birincisi türk məkanında kollektiv təhlükəsizlik, ikincisi isə türk dövlətləri arasında vizasız gediş-gəliş məsələsidir. Həmin məsələlər eyni zamanda həm türk parlamentləri, həm də QHT-ləri səviyyəsində də ardıcıl olaraq müzakirələrə çıxarılır.

Doğrudur, bu məsələlərdən birincisi daha çox siyasi məzmuna malik olub müasir dünyada son illər xeyli artmış hərbi münaqişələrdən qorunmaq ehtiyacından doğur. Belə ki, türk dünyasını hədələyən potensial hərbi təhlükələr mövcuddur. Və həmin təhlükələr türk məkanında sülhün, stabilliyin mühafizəsi üçün strateji əməkdaşlığın daha da gücləndirilməsini, xüsusilə hər bir müstəqil türk respublikası hər hansı regional və ya beynəlxalq bloka daxil olarkən, yaxud ikitərəfli müqavilələr bağlayarkən bütün digər türk respublikalarının təh-lükəsizlik maraqlarını nəzərə almasını tələb edir.

İkinci məsələ isə, prinsip etibarilə, sosial-iqtisadi əhəmiyyətə malikdir. Və ümumiyyətlə, türk məkanında gediş-gəlişin asanlaşdırılması, xüsusilə əmək miqrasiyasının, eləcə də elmi-mədəni miqrasiyanın müdafiə olunması türk dünyasında inteqrasiyanın güclənməsində real, praktik addımlar sayıla bilər.

Müstəqil türk dövlətləri arasındakı qarşılıqlı siyasi əməkdaşlıq birdən-birə deyil, tədricən möhkəmlənmiş, ideyadan reallığa müəyyən mərhələlərlə keçmişdir. Araşdırmalar həmin mərhələləri təxminən aşağıdakı şəkildə təsəvvür etməyə imkan verir:

1) axtarışlar, yaxud münasibətlərin aydınlaşdırılması, yaxud da əməkdaşlıq formalarının müəyyənləşdirilməsi mərhələsi (keçən əsrin 90-cı illəri);

2) ikitərəfli, çoxtərəfli və beynəlxalq təşkilatlar səviyyəsində əməkdaşlığın qurulub inkişaf etdirilməsi, bu sahədə müəyyən təcrübənin qazanılması mərhələsi (2000-2010-cu illər);

3) əməkdaşlığın prinsiplərinin stabilləşməsi, miqyasca genişlənməsi və qloballaşan dünyanın çağırışlarına uyğun olaraq yeni əməkdaşlıq forma və üsullarının axtarışı mərhələsi (2010-cu ildən sonra).

Türk dövlətləri arasında parlamentlər səviyyəsində sıx əməkdaşlığın yaradılması ideyası, əslində, keçən əsrin 90-cı illərinin sonlarından aktuallaşmağa başlasa da, Türkdilli ölkələrin Parlament Assambleyası – TÜRKPA 2010-cu ildə təsis olunmuşdur.

TÜRKPA fəaliyyət göstərdiyi illər ərzində həm plenar toplantılarda, həm də komitə iclaslarında türk dünyasının bir sıra ortaq mədəniyyət, iqtisadiyyat, hüquq və beynəlxalq münasibətlər məsələlərini müzakirə etmiş, tövsiyyə qərarları vermişdir.

Türk dövlət başçılarının ikitərəfli görüşlərindən, Zirvə toplantılarından fərqli olaraq TÜRKPA daha geniş müzakirələr aparmaq, türk məkanında qarşılıqlı siyasi münasibətlərin ən xırda detallarını da nəzərdən keçirmək imkanlarına malikdir. Artıq kifayət qədər formalaşmış bir beynəlxalq təşkilat kimi tanınan bu qurum, əsasən, aşağıdakı sahələrdə etiraf olunan uğurlar (və iş təcrübəsi) qazanmışdır:

-türk ölkələri parlamentlərinin fəaliyyətlərinin əlaqələndirilməsi;

-qanunların unifikasiyası və xüsusilə qanunvericilik təcrübəsinin mübadiləsi;

-siyasi, iqtisadi və mədəni səviyyələrdə ortaq türk dəyərlərinin müəyyənləşdirilərək türk dünyası miqyasında təbliği üçün tövsiyyələrin verilməsi;

-beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın və birgə fəaliyyətin müasir üsul və formalarından qarşılıqlı istifadə;

-türk respublikalarında keçirilən seçkilərdə beynəlxalq müşahidəçi statusunda xeyirxah məramla yaxından iştirak və s.

TÜRKPA-nın ən mühüm problemlərindən biri burada türk dövlətləri parlamentlərinin heç də hamısının təmsil olunmamasıdır. Halbuki TÜRKPA-nın yaradılması idyeası ortaya çıxanda ictimai rəy onun üç mərhələdə (və daha böyük miqyasda) formalaşacağını, bütün türk dünyasını əhatə edəcəyini təsəvvür edirdi:

I mərhələ. Müstəqil türk ölkələrinin parlamentlərinin iştirakı ilə;

II mərhələ. Yarımmüstəqil türk ölkələrinin parlamentlərinin iştirakı ilə;

III mərhələ. Müstəqil olmayan türk xalqlarının parlamentarilərinin iştirakı ilə.

Onu da nəzərə almaq lazımdır ki, türkdilli ölkələrin parlamentlərinin bu birliyi beynəlxalq təşkilatların yaranması prinsiplərinə tamamilə uyğun olub humanist, ümumbəşəri ideallara, insan hüquqlarının qorunmasına, dünyada sülhün bərqərar olunmasına xidmət edir.

Türk respublikalarının nazirlikləri və ya səfirlikləri səviyyəsində qarşılıqlı əlaqələrin inkişafı, hər şeydən əvvəl, özünün praktikliyi, çevikliyi və işgüzarlığı ilə diqqəti cəlb edir. Müşahidələr göstərir ki, xüsusilə xarici və daxili işlər, müdafiə, təhsil, mədəniyyət, səhiyyə və s. nazirliklər arasındakı əməkdaşlıq artıq müəyyən təcrübəyə malikdir. Lakin bu sahədə də «Türkiyə – türk respublikaları» formatındakı münasibətlər hələ ki daha fəaldır. Və aydın hiss olunur ki, postsovet məkanındakı türk respublikaları arasında nazirliklər və ya səfirliklər səviyyəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə ehtiyac vardır.

Türkiyənin Azərbaycandakı səfirlərindən birinin məşhur sözləri ilə desək, Türkiyə-Azərbaycan münasibətləri yalnız rəsmi diplomatik qayda-qanunlarla deyil, həm də reflekslərlə, emosiyalarla idarə olunur. Bu, əslində, bütün türk dövlətləri arasındakı münasibətlərin xarakterini ifadə edən bir fikirolub həmin münasibətlərin nə qədər yaxın olduğunu göstərir.

Türk dövlətlərinin və xalqlarının qarşılıqlı siyasi münasibətlərinin miqyasca genişlənməsində qeyri-hökumət təşkilatları və ya «xalq diplomatiyası» əhəmiyyətli rola malikdir.

Məlum olduğu kimi, bugün dünyada, eləcə də türk məkanında QHT-lərin geniş bir şəbəkəsi formalaşmışdır ki, onların fəaliyyəti cəmiyyətin sosial həyatının ən müxtəlif sferalarını əhatə edir. Doğrudur, müxtəlif adlarla (və missiyalarla) meydana çıxan QHT-lər heç də hə-

mişə ictimai-siyasi proseslərə obyektiv mövqedən yanaşmır və hətta obyektiv mövqedən yanaşmaq üçün yaradılmır. Hər yerdə olduğu kimi bu sahədə də beynəlxalq «ikili standart» siyasəti özünü kifayət qədər açıq şəkildə göstərir. Bununla belə türk dünyası dünyanın siyasi konyukturunu həm ayrı-ayrı türk dövlətləri, həm də bütövlükdə türk siyasi məkanı səviyyəsində nəzərə almağa məhkumdur.

Müşahidələr göstərir ki, türk ölkələrində fəaliyyət göstərən QHT-lər əsasən aşağıdakı sahələri əhatə edir:

a) ictimai-siyasi sahə – buraya insan hüquqları müdafiəçiləri, milli azadlıq hərəkatları, sülh tərəfdarları birlikləri və s. aiddir;

b) elmi-mədəni sahə – buraya elm adamlarının, mədəniyyət xadimlərinin (yazıçıların, musiqiçilərin, rəssamların və b.) qurduqları ittifaqlar daxildir.

c) iqtisadi və ya işgüzar sahə – buraya iş adamlarının, biznes sahəsindəki peşəkarların yaratdıqları cəmiyyətlər, qurumlar aid edilir.

Türk dünyasında QHT-lərlə bağlı siyasət, fikrimizcə, aşağıdakı münasibətlərdə özünü daha uğurlu göstərir:

-həm türk respublikalarında, həm bütövlükdə türk məkanında, həm də dünyada gedən proseslərə milli mənafedən obyektiv təsir göstərə bilən müstəqil QHT-lərin formalaşması üçün demokratik şəraitin yaradılması;

-türk ölkələri QHT-lərinin geniş miqyasda əməkdaşlığının, fikir mübadilələrinin təmin olunması, eləcə də proqressiv ictimai hərəkatların fəaliyyətlərinin əlaqələndirilməsi;

-nüfuzlu beynəlxalq QHT-lərlə milli mənafelərin müdafiəsi baxımından sıx əməkdaşlığa nail olunması.

Türk məkanında siyasi inteqrasiya proseslərinin çox mühüm göstəricilərindən biri beynəlxalq miqyasda, başqa sözlə beynəlxalq təşkilatlar səviyyəsində əməkdaşlığın get-gedə genişlənməsindən ibarətdir.

TÜRKPA-nını 2014-cü ildə Bakıda keçirilən plenar toplantısında «Türkdilli ölkələrin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətləri» haqqında tövsiyə qərarı qəbul edilmişdir ki, həmin qərarın preambulasında deyilir:

«1.TÜRKPA Türkdilli ölkələr arasında beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verir.

2.TÜRKPA beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq doğuran müəyyən məsələlərdə üzv ölkələrin milli nümayəndə heyətləri arasında əlaqələrin inkişaf etdirilməsinin onun əsas məqsədlərindən biri olduğunu təsdiq edir.

3.TÜRKPA beynəlxalq təşkilatlar çərçivəsində üzv ölkələrin birgə fəaliyyətlərinin Türkdilli Ölkələrin Parlament Assamblyeasının İstanbul Anlaşmasında əks olunmuş parlamentlərarası əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi ilə bağlı məqsəd və vəzifələri ilə üst-üstə düşdüyünü ifadə edir».

Ümumiyyətlə, türk məkanında siyasi inteqrasiya proseslərinin düzgün, məhsuldar və perspektivli bir şəkildə yönləndirilməsi üçün beynəlxalq təşkilatlar səviyyəsində əməkdaşlıq qloballaşan dünyanın ən mühüm tələblərindən biridir… Və həmin əməkdaşlığın forma və üsulları yaxud taktikası mövcud təcrübənin göstərdiyi kimi, əsasən aşağıdakılardan ibarətdir:

a) müzakirə olunacaq məsələlərin mahiyyəti barədə öncədən ətraflı təhlillərin birlikdə aparılması, ayrı-

ayrı türk respublikalarının və ya bütövlükdə türk dünyasının lehinə, yaxud əleyhinə olacaq məqamların dəqiq müəyyənləşdirilməsi və ümumi mövqeyin hazırlanması;

b) müzakirə prosesində hazırlanmış ümumi mövqeyin müdafiə olunması, şəraitə uyğun olaraq həmin mövqedə müəyyən taktiki dəyişikliklərə ehtiyac olarsa, birgə məsləhətləşmələr aparılması;

c) qəbul edilmiş qərarların, ümumiyyətlə beynəlxalq toplantıların nəticələrinin birgə müzakirəolunması, qazanılmış uğurların və ya yol verilmiş qüsurların müəyyənləşdirilərək səbəblərinin təhlil edilməsi.

Beynəlxalq təşkilatlarda türk dövlətləri nümayəndə heyətlərinin strateji əməkdaşlığı aşağıdakı sahələri birinci növbədə əhatə edir:

1) ayrı-ayrı türk dövlətlərinin daxili və xarici siyasi, iqtisadi və mədəni-mənəvi mənafelərinin müdafiəsi;

2) beynəlxalq təşkilatlarda təmsil olunmayan ayrı-ayrı yarımmüstəqil və ya qeyri-müstəqil türk xalqlarının mənafelərinin müdafiəsi;

3) ümumən türk məkanının və ya türk dünyasının mənafelərinin müdafiəsi.

Lakin türk dövlətləri nümayəndə heyətlərinin beynəlxalq təşkilatlardakı əməkdaşlığı, heç şübhəsiz, yalnız türk dünyasının mənafeyini müdafiə etməklə məhdudlaşmır. Dünyanın elə qlobal və ya regional problemləri mövcuddur ki, türk birliyinin ümumi (ümumtürk) mövqeyindən çıxış edib planetar maraqları müdafiə etməsi lazım gəlir. Bu isə türk dövlətləri nümayəndə heyətlərinin digər dövlətlərin nümayəndə heyətləri ilə çoxtərəfli əməkdaşlığını tələb edir.

Məlum olduğu kimi, beynəlxalq təşkilatların fəaliyyətində müəyyən siyasi konyukturlar mövcuddur ki, onu nəzərə almadan müasir dünyada siyasət yapmaq,

praktik olaraq, nəinki kiçik, hətta böyük dövlətlər üçün də, demək olar ki, mümkün deyil. Ona görə də türk dövlətlərinin beynəlxalq aləmdə ümumtürk mənafelərini nəzərə almaqla etdikləri siyasi manevrlər, əlbəttə, məqbul sayılmalıdır.

Müasir dünyada gedən siyasi proseslər özünün mürəkkəbliyi, hətta müəyyən mənada gözlənilməzliyi ilə diqqəti cəlb edir. Və belə bir «planlaşdırılmamış» dünyada türk dövlətlərinin siyasi oriyentasiya götürməsi, əlbəttə, çoxsaylı problemlərlə müşayiət olunur.

Elə beynəlxalq təşkilatlar vardır ki, məsələn, BMT və ya Avropa Şurası kimi, ümumdünya maraqları səviyyəsində fəaliyyət göstərir. Universal dəyərlərin ən azından nəzəri şəkildə müdafiə olunduğu bu cür təşkilatlarda türk dövlətlərinin iştirakı mübahisə doğurmadığı halda, məsələn, MDB çərçivəsindəki əməkdaşlıq bir sıra problemlərlə müşayiət olunur ki, bu da türk dövlətlərindən həmin çərçivədə qəbul olunan qərarlara «loyal», yaxud müəyyən qeyd-şərtlə münasibət göstərməsini tələb edir.

Türk respublikalarının beynəlxalq təşkilatlardakı fəaliyyətinin mühüm missiyalarından biri də siyasi müqəddəratını təyin etməmiş, bu və ya digər dövlətin tərkibində olan türk xalqlarının hüquqlarını müdafiə etməkdən ibarətdir ki, bu türk dünyasının bütövlüyünü qorumaq, türk məkanında inteqrasiyanı təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Məsələn, tarixi vətənləri olan Gürcüstan Respublikasının ərazisindən vaxtilə qovulmuş, repressiyaya məruz qalmış Axıska türklərinin, Çində uyğurların, Əfqanıstanda özbəklərin, İranda Azərbaycan türklərinin, İraqda türkmanların, Krım tatarlarının, Balkanlardakı türklərin və b.-nın uzun illərdən bəri pozulan insan (və millət) hüquqlarının bərpası isti-

qamətində beynəlxalq təşkilatlarda qaldırılan məsələlər yalnız siyasi yox, həm də mənəvi məzmuna malik olub türk dünyasının ən azından ideoloji bütövlüyünü təmin edir. Və nəzərə alsaq ki, qloballaşan dünyada milli azlıqların, eləcə də öz siyasi məqəddəratını təyin etməmiş xalqların taleyi ümumən bəşəriyyəti narahat edir, onda müxtəlif rejimlərdən asılı türklərin taleyi ilə maraqlanmaq, təbii ki, «pantürkizm» deyil, ümumbəşəri (və qlobal!) bir hadisədir.

Türk məkanında siyasi inteqrasiyanın çox mühüm aktlarından biri də müstəqil türk dövlətləri ərazilərindəki milli azlıqların hüquqlarının təmin olunmasından ibarətdir ki, bu sahədə dünya (beynəlxalq təşkilatlar) səviyyəsində etiraf olunan uğurlar qazanılmışdır. Xüsusilə Azərbaycanın, Qazaxstanın və Özbəkistanın təcrübəsi bunu sübut edir.

Müşahidələr göstərir ki, qloballaşan dünyada və inteqrasiya olunan türk məkanında milli azlıqlarla bağlı aparılan siyasət, əsasən, aşağıdakıları əhatə edir:

1) milli azlıqların mənəvi-mədəni özünəməxsusluqlarının qorunması;

2) milli azlıqların ölkənin ictimai-siyasi həyatında iştirakına mane olan səbəblərin aradan qaldırılması.

Bu isə milli azlıqların özlərini həm ikinci, yaxud üçüncü «sort» insanlar kimi qəbul etməsini potensial aşağılıq kompleksini aradan qaldırır, həm də ölkənin sosial-siyasi bütövlüyünü, cəmiyyət-dövlət münasibətlərinin stabilliyini təmin edir.

Türk diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi, koordinasiya edilməsi bugün türk dünyasının və ayrı-ayrı türk dövlətlərinin həm daxili, həm də beynəlxalq problemlərinin həlli baxımından mühüm əhə-

miyyət kəsb edir. Türk diasporlarının aşağıdakı struktur və ya formaları müəyyənləşmişdir:

1) Qərb dövlətlərindəki türk diaspor təşkilatları;

2) Şərq ölkələrindəki türk diaspor təşkilatları;

3) Rusiyadakı türk diaspor təşkilatları;

4) Türk respublikalarındakı türk diaspor təşkilatları.

Türk diaspor təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi isə, əsasən, aşağıdakı formatlarda həyata keçirilir:

1) ayrı-ayrı türk respublikalarının diaspor təşkilatlarının qurultayları;

2) iki türk respublikasının (məsələn, Azərbaycan – Türkiyə) diaspor təşkilatlarının birgə qurultayları;

3) bütövlükdə türk dünyası diaspor təşkilatlarının birgə toplantıları və ya forumları.

Dünyanın siyasi mənzərəsi və ya quruluşu, həm nəzəri, həm də praktik olaraq, aşağıdakı şəkillərdə qütbləşmək imkanına malikdir:

a) birqütblü;

b) ikiqütblü;

c) çoxqütblü.

Tarixin təcrübəsi isə göstərir ki, demokratiyanın, insan (və millət) hüquqlarının təminatı üçün ən optimal forma çoxqütblü dünyadır. Və Türk birliyi, yaxud Konfederasiyası üçün də çox qütblü dünya daha əlverişlidir ki, o həmin qütblərdən birinə çevrilə bilsin.

Ümumiyyətlə, müasir türk məkanında siyasi inteqrasiyanın müəyyən təcrübəsi əldə olunmuşdur, bununla belə türk dünyası daha böyük siyasi inteqrasiya potensialına və perspektivlərinə malikdir.

## 4.Müasir türk dünyasının mədəni mənzərəsi

Müasir türk məkanında mədəni inteqrasiya siyasi, eləcə də iqtisadi inteqrasiyadan daha qədim köklərə və ya əsaslara malik olduğu kimi, daha çoxspektrlidir. Və mədəni inteqrasiyanın nə qədər mühüm amil olduğunu göstərmək üçün yalnız belə bir faktı xatırlatmaq kifayətdir ki, siyasi inteqrasiya «böyük güclər»in manevrlərindən, iqtisadi inteqrasiya isə güclü transmilli şirkətlərin konyuktur maraqlarından birbaşa asılı olduğu halda mədəniyyət etnosun, əgər belə demək mümkündürsə, təbii yaradıcı gücü və ya passionarlığı ilə şərtlənən xeyli dərəcədə mənəvi hadisədir.

Akademik D.S.Lixaçov tamamilə doğru olaraq göstərir ki, «mədəniyyət müəyyən məkanda yaşayan insanları adi əhalidən xalqa, millətə çevirən bütöv hadisədir. Mədəniyyət anlayışına din, elm, təhsil, eləcə də insanların və dövlətin mənəvi, əxlaqi davranış normaları daxil olmalıdır. Və daxildir. Mədəniyyət Allah qarşısında xalqın və millətin varlığını zəruri edən amildir».

Əslində, «mədəniyyət» dedikdə müasir dövrdə hər şeyi başa düşmək mümkündür, yəni bu anlayışın özündə ehtiva edə bilməyəcəyi çox az şey vardır. Lakin türk məkanında mədəni inteqrasiyanın əsas spektrlərini müəyyənləşdirmək üçün biz daha çox aşağıdakı sahələrə diqqət yetirməyi zəruri hesab edirik: 1) dil; 2) ədəbiyyat; 3) incəsənət; 4) din; 5) elm; 6) təhsil; 7) KİV; 8) turizm; 9) idman və 10) milli bayramlar.

Qloballaşan dünyada mədəniyyətlərin inteqrasiyası problemi ilə məşğul olan mütəxəssislər qloballaşmada milli mədəniyyətlərin taleyinə dair üç ssenarinin mövcudluğunu qeyd edirlər:

1) qarşıdurma;

2) dialoq;

3) lokal mədəniyyətlərin əriyib qlobal hakim mədəniyyətə qarışması.

Əlbəttə, türk xalqları arasında mədəni əlaqələrin miqyasının genişlənməsi və intensivliyinin artması, ilk növbədə, dialoqa əsaslanır. Burada nə qarşıdıurmadan, nə də lokal mədəniyyətlərin əriyib hakim mədəniyyətə qarışmasından söhbət gedə bilməz. Çünki türk məkanıda özünü göstərən inteqrasiya, demək olar ki, vahid etnik-mədəni kontekstdə baş verir.

Türk mədəniyyətlərinin qarşılıqlı əlaqələri əsrin sonlarından başlayaraq bir sıra milli və beynəlxalq qurumların fəaliyyəti, əməkdaşlığı nəticəsində xeyli intensivləşmiş, davamlı hal almışdır. Bugün türk xalqlarının mədəni inteqrasiyası, əsasən, aşağıdakı forma və ya üsullarla rəsmən həyata keçirilir:

1) Türkiyə Respublikasının təşəbbüsü ilə.

2) ayrı-ayrı türk dövlətləri, xüsusilə onların mədəniyyət nazirlikləri, mərkəzləri, yaxud universitetlərinin təşəbbüsilə ikitərəfli və ya çoxtərəfli qaydada;

3) TÜRKSOY xətti ilə.

Birinci forma və ya üsul türk dünyasının müstəqillik əldə etdiyi ilk illərdə daha çox diqqəti cəlb edir, inteqrasiya baxımından daha məhsuldar idi. Hər şeydən əvvəl ona görə ki, yenicə müstəqilliyə qovuşmuş türk dövlətlərinin və xalqlarının bu istiqamətdə genişmiqyaslı tədbirlər keçirməyə imkanları olmadığından həmin zəruri missiyanı qardaş Türkiyə öz üzərinə götürməli olmuşdu. Keçən əsrin 90-cı illərində Türkiyədə ardıcıl olaraq keçirilən Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayları yüzlərlə ziyalıların toplaşaraq türk dünyasının ən müxtəlif, xüsusilə

mədəni problemlərini müzakirə etdikləri ən kütləvi (və mötəbər) forum idi. Türkiyə Respublikasının görkəmli dövlət, siyasət və mədəniyyət xadimlərinin böyük dəstək verdikləri həmin qurultaylar ilk illərdə, tamamilə təbii olaraq, daha çox romantik və ya eyforik səciyyə daşısa da, get-gedə ciddi, konkret qərarlar qəbul etməyə başladı ki, bunun da türk dünyasında qarşılıqlı mədəni-mənəvi münasibətlərin inkişafına böyük təsiri oldu. Çox keçmədi ki, türk məkanının hər yerindən Türkiyədə çalışmaq üçün elm, sənət adamları, bunun ardınca isə tələbələr dəvət edildilər. Və qeyd etmək lazımdır ki, bu cür genişmiqyaslı əməkdaşlıq yalnız «Türkiyə+müxtəlif türk xalqları» formatında qalmayıb bütövlükdə türk xalqları arasında intellektual-mədəni əlaqələrin əsasını qoydu.

Bugün də Türkiyənin müxtəlif inzibati qurumlarının, eləcə də qeyri-hökumət təşkilatlarının istər Türkiyədə, istərsə də Türk dünyasının müxtəlif yerlərində vaxtaşırı olaraq təşkil etdikləri mədəni tədbirlər böyük maraq doğurur.

İkinci forma və ya üsul müstəqilliyini qazanmış türk dövlətlərinin tədricən güclənərək biri-digəri ilə, yaxud ümumtürk miqyasında mədəni-mənəvi əlaqələrə təşəbbüs etməsindən ibarətdir ki, son illər bu istiqamətdə nəzərə çarpacaq uğurlar müşahidə edilməkdədir.

Fikrimizcə, türk məkanında qeyri-bərabər inkişaf faktını nəzərə alaraq, həmin əlaqələrin daha məhsuldar olması, türk dünyasının diqqətdən kənarda qalan məkanlarına da nüfuz etməsi üçün «iyerarxik format»da aparılmasına ehtiyac duyulur; məsələn:

1) Türkiyə
   - Balkan türkləri
   - Axıska türkləri
   - Şimali Kipr və b.

2) Azərbaycan
   - İran(Cənubi Azərbaycan) türkləri
   - Gürcüstan (Borçalı) türkləri
   - Dağıstan türkləri
   - İraq türkləri və b.

3) Tatarstan
   - Volqaboyu tatarları
   - Sibir tatarları
   - Krım tatarları və b.

Bunun ardınca isə iyerarxiyanın ikinci səviyyəsi gəlir; məsələn:

1) Qazaxstan
   - tatarlar
   - başqırdlar
   - noqaylar və b.

2) Özbəkistan
   - uyğurlar
   - Əfqanıstan türkləri və b.

3) Qırğızıstan — altaylar, xakaslar, tuvalılar və b.

Üçüncü səviyyə isə mədəni əlaqələrdə 1) oğuz, 2) qıpçaq və 3) karluq məkanlarının koordinasiya edilməsini nəzərdə tutur ki, burada türk dövlətlərinin aşağıdakı formatlarda sıx qarşılıqlı əməkdaşlığı tələb olunur:

I. Türkiyə – Azərbaycan – Türkmənistan.
II. Qazaxstan – Qarğızıstan – Tatarstan.
III. Özbəkistan – Uyğurstan (Çin tərkibində).

Türk xalqları arasında mədəni inteqrasiyanın həyata keçirilməsində üçüncü forma və ya üsul TÜRKSOY xəttidir. Bu Beynəlxalq Türk Mədəniyyət Təşkilatı, bir növ, türk dövlətlərinin YUNESKO-sudur. Yarandığı dövrdən etibarən çoxlu sayda tədbirlər keçirən təşkilatın proqram missiyasına, əsasən, aşağıdakılar daxildir:

-müxtəlif etnoqrafik mərasimlərin (məsələn, novruz, sabantoy və s.) keçirilməsi, milli adət-ənənələrin təbliği;

-böyük türk mədəniyyət xadimlərinin yubileylərinin qeyd olunması, türk dünyasında və ümumən dünyada tanıdılması;

-hər il türk məkanındakı bir şəhəri «türk dünyasının mədəniyyət paytaxtı» elan edib onun mədəni-tarixi özünəməxsusluğunun ortaya çıxarılması;

-türk respublikalarının bədii yaradıcılıq təşkilatlarının fəaliyyətlərinin ümumtürk miqyasında əlaqələndirilməsi;

-müxtəlif sənət sahələrinə aid festivalların keçirilməsi;

-türk mədəniyyətinin inteqrasiyasına xidmət edən görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin mükafatlandırılması və s.

Əlbəttə, türk məkanında mədəni-mənəvi inteqrasiyanın forma və ya üsulları yuxarıda qeyd olunanlarla bitmir, daxili istək və maraqlarla yanaşı, dünya miqyasında qloballaşma özünün yeni interaktiv vasitə-texnologiyalarını təklif edir.

Türk dilləri (və dialektləri) orta əsrlərin sonu yeni dövrün əvvəllərindən (XVI-XVII əsrlərdən) etibarən biri digərindən ayrılmağa, müstəqil türk dilləri, xüsusilə ədəbi (yazılı) dilləri formalaşmağa başlamışdır. Bununla belə XX əsrin 30-cu illərinə qədər türk dilləri arasında qarşılıqlı əlaqələr, hətta ortaq türk ünsiyyət dilinin formalaşdırılmasına etnik-mədəni (ideoloji) cəhdlər, inersion maraqlar da olmuşdur. Həsən bəy Zərdabinin «Əkinçi», İsmayıl bəy Qaspralının «Tərcüman», Əli bəy Hüseynzadənin «Füyuzat» qəzet və jurnallarının dil təcrübəsi, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda aparılan müzakirələr bunu təsdiq edir. Lakin sonrakı dövrlərdə getdikcə özünü daha çox göstərən antitürk hərəkatları türk dillərinin (və xalqlarının) bir-birindən daha çox təcrid olunmasına gətirib çıxarmışdı ki, həmin proses XX əsrin 90-cı illərinə – Sovetlər Birliyinin dağılmasına qədər davam etmişdir. Yarım əsrdən artıq bir dövrdə nəinki türk dünyasının ən böyük dövləti olan Türkiyənin türk xalqları ilə əlaqəsi demək olar ki, tamamilə kəsilmiş, hətta Sovetlər Birliyi daxilində olan türk xalqlarının da ünsiyyəti, bir qayda olaraq, rus dili (və Moskva) vasitəsilə həyata keçirilmişdi. Doğrudur, yarım əsr elə böyük bir dövr deyildi ki, XX əsrə kifayət qədər yüksək dil mədəniyyətləri ilə gəlib çıxmış türklər öz ortaq milli ünsiyyət stixiyalarını, daxili istək

və ideallarını itirsinlər, ancaq bu da mübahisəsizdir ki, böyük siyasi güclərin təcridetmə siyasəti elə bir vəziyyət-mənzərə yaratmışdır ki, türk xalqlarının birinin digərini anlaşması üçün çoxlu problemlər də meydana çıxmışdır. Əlbəttə, biz heç də o fikirdə deyilik ki, XX əsrdə türk dilləri, xüsusilə türk ədəbi dilləri arasındakı fərqlərin dərinləşməsi yalnız siyasi təsirlərlə bağlı olmuş, həmişə süni xarakter daşımışdır. Təbii diferensiasiya prosesinin rolu da inkar olunmazdır. Lakin türk xalqlarının birinin digərindən siyasi baxımdan təcrid edilməsi, dil-ünsiyyət əlaqələrinin minimuma endirilməsi, hətta türk dövlətlərindən (və tayfalarından) yeni türk «dillər»i (və «xalqlar»ı) yaradılmasına cəhdlər olunması, yəni diferensiasiyanın (əslində, parçalanmanın) «dərinləşdirilmə»si tamamilə süni hadisələr idi. İş o yerə gəlib çıxmışdı ki, türk xalqlarının tanınmış ziyalıları özlərinin türk mənşəli olduqlarını çox yaxşı bildikləri halda mötəbər məclislərdə «türk» sözünü işlətməkdən çəkinir, yaxud «türklər»in bir etnos olaraq artıq çoxdan tarixin qaranlıq dövrlərində qaldıqları barədə danışaraq özlərini sığortalayırdılar.

Türk dillərinin (və xalqlarının) bir-birindən ayrılmasının əsas faktı «sovet türkləri»nin Türkiyədən təcrid edilməsi oldu ki, bunun bütövlükdə Türk dünyasının tərəqqisi üçün nə qədər böyük tarixi zərbə olması XX əsrin sonlarında, yəni əlaqələr bərpa olunanda dərk edildi. Dünyanın tanınmış siyasi analitikləri etiraf etdilər ki, əvvəl Osmanlı dövləti, sonra isə Türkiyə elə bir lakomotivi olmuşdur ki, onsuz Türk dünyasının nizamlı bir şəkildə irəli getməsi çox çətindir. Və əlaqələr bərpa olunandan sonra Türk dünyasının Türkiyəyə (eləcə də Türkiyə türkcəsinə) böyük marağı bunu bir daha təsdiq etdi.

Türkiyənin Türk dünyasından təcrid edilməsində əsas «rol», heç şübhəsiz, Sovetlər Birliyinə məxsus idi. Çində uyğurların, İranda və İraqda Azərbaycan türklərinin, Əfqanıstanda özbəklərin ayrı düşməsində də onun xidmətlərinin, yaxud yürütdüyü xarici siyasətin təsiri az olmamışdı. Lakin ən paradoksal hadisə özünü Sovetlər Birliyi tərkibindəki türk xalqlarına olan münasibətdə göstərirdi. Belə ki, həm iqtisadi, həm də mədəni səviyyələrdə müəyyən inkişaf var idi, lakin bu çox zaman etnokulturoloji mənliyin ya saxtalaşdırılması, ya da ümumiyyətlə danılması hesabına baş verirdi. Hər bir türk xalqı üçün fərqli bir etnogenez, hər bir türk dili üçün fərqli bir qlottogenez uydurmaq «sovet türkologiyası»nın qarşısına qoyulmuş əsas ideoloji prinsiplərdən birinə çevrilmişdi ki, bu da eyni mənşəyə malik türk xalqlarının ziyalıları arasında ziddiyyətlər yaradacaq bir səviyyəyə qədər gedib çıxırdı. Məsələn, deyək ki, ortaq türk dəyərlərinin ayrı-ayrı türk xalqları arasında « bölüşdürülməsi» təhlükəsi özünü göstərirdi.

Əgər Sovetlər Birliyinin formalaşdığı ilk illərdə – «kommunist demokratiyası» dövründə türk dilləri üçün ortaq əlifba, ortaq terminologiya yaratmaq cəhdləri müəyyən qədər məhsuldar idisə, 20-ci illərin sonu 30-cu illərin əvvəllərindən etibarən həmin cəhdlər «pantürkizm» sayılaraq, demək olar ki, nəinki aradan qaldırıldı, hətta təqib edilməyə başlandı. Və nəticə etibarilə, türk dilləri arasında «süni diferensiasiya» aparılaraq türk xalqlarının qarşılıqlı ünsiyyəti üçün rus dilinin perspektivləri genişləndirildi. Belə bir təsəvvür yaradıldı ki, a) türk xalqları bir-birini anlamır; b) türk dilləri müasir ünsiyyətin tələblərinə cavab vermir və c) Sovetlər Birliyində rus dilindən başqa heç bir dilin gələcəyi yoxdur.

Türk respublikalarında, vilayətlərində, xüsusilə şəhərlərdə rus məktəbləri şəbəkəsinin genişləndirilməsi, rəsmi yazışmaların rus dilində aparılması, rusdilli «sovet aristokratiyası»nın formalaşdırılması türk dillərinin həm ictimai-siyasi, həm də mədəni-mənəvi nüfuzuna böyük xələl gətirsə də, Moskvanın bu proqramı heç də hər yerdə maneəsiz və ya müqavimətsiz qəbul olunmurdu. Belə ki,

1) türk xalqları bu və ya digər səviyyədə öz dillərini qoruyub saxlayır, xüsusilə kiçik şəhərlərdə, kəndlərdə rus dilinin yayılmasına imkan vermirdilər;

2) rus dilini ya az, ya da mükəmməl bilən bir çox ziyalılar – elm, mədəniyyət xadimləri, xüsusilə yazıçılar ana dilinə üstünlük verirdilər;

3) rus dilini yaxşı bilən milli dövlət xadimləri mərkəzin maneələrinə və ya qadağalarına baxmayaraq imkan daxilində ana dilinin rəsmi hüquqlarını qorumağa çalışırdılar.

Məlum olduğu kimi, Sovetlər Birliyində türk xalqları slavyan xalqlarından sonra ikinci böyük dil ailəsini təmsil edirdilər. Və rus dilinin beynəlxalq dil olaraq tanınmasında türklərin rolu slavyanlardan sonra həlledici idi ki, bu rol indiyə qədər, Sovetlər Birliyi dağılandan sonra da davam etməkdədir. Ona görə də türk xalqlarının ziyalıları bütün yasaqlara baxmayaraq yaxşı dərk edirdilər ki, türklər bütöv bir etnik-mədəni hadisə olaraq kifayət qədər böyük potensiala malikdirlər və onları tamamilə ruslaşdırmaq, ana dilindən məhrum etmək mümkün deyil. Odur ki, bütün süni tədbirlərə (və təcavüzlərə) baxmayaraq «türklük», eləcə də çox mühüm amil olan «yerli xalq» ideya-iddiası türk xalqlarını həm ruslaşmaqdan qoruyur, həm də «sovet xalqı» uydurmasına ironiya ilə yanaşılmasına gətirib çıxarırdı.

Rus dilinin təbliğinə gəldikdə isə, bütün tipoloji hallarda olduğu kimi, bu elə həyata keçirilirdi ki, insanlar həmin dili sevdikləri üçün deyil, daha çox ən müxtəlif münasibətlərə görə ehtiyac olduğundan öyrənir, yaxud övladlarını rusdilli məktəblərə qoyurdular. Təbii ki, ikinci hal daha geniş yayılmışdı və daha təhlükəli idi. Hər şeydən əvvəl ona görə ki, uşaq ana dilini normal mənimsəmədən rus dilinin təsiri altına düşür, ailənin (və millətin) mənəvi dünyasına yadlaşırdı. Nəticə etibarilə, bu cür uşaqlar böyüdükcə öz dil (və mənəviyyat) mühitlərini qurmağa məhkum olurdular ki, həmin yolu keçmiş yeniyetmələr və ya gənclər, bir qayda olaraq, mənsub olduqları xalqın dilini, ədəbiyyatını, tarixini yaxşı bilmədikləri üçün rusdilli məktəblərin təsiri altında ona (öz xalqlarına) ya etinasız yanaşır, ya da yuxarıdan aşağı baxırdılar. Bununla belə etiraf etmək lazımdır ki, xüsusi hallar da müşahidə olunurdu; elə ailələr vardı ki, uşaqlarını rusdilli məktəblərə qoysalar da onların millətə bu cür yadlaşmasına imkan vermirdilər. Lakin bu, o qədər də asan deyildi.

Keçən əsrin 90-cı illərinin əvvəllərində meydana çıxan müstəqil türk dövlətləri dərhal öz müstəqil dil siyasətlərini də müəyyən etməyə başladılar. Azərbaycan, Qazaxstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanda milli dillər dövlət dili elan edildi. Rus dilinin nüfuzunu dərhal aradan qaldırmaq mümkün olmasa da, milli dilin təhsil, dövlət idarəçiliyi kimi prioritet sahələrdə aparıcı rolu təmin olundu.

Rusiya Federasiyası tərkibindəki türk respublikalarında yürüdülən mədəniyyət, xüsusilə dil siyasətinə gəldikdə isə bunun nə vəziyyətdə olduğunu təsəvvür etmək üçün Tatarstan təcrübəsini nəzərdən keçirək:

Ümumiyyətlə isə, 1990-cı illərdə Tatarstan Respublikasında dil siyasəti aşağıdakı prioritetləri əhatə etmişdir:

1) tatar dilinin nüfuzunun yüksəldilməsi;

2) rus dilinin mövqeyinin qorunub saxlanması və yaxşılaşdırılması;

3) Tatarstan Respublikasından kənarda yaşayan tatarların ana dillərinin inkişafı üçün tədbirlər görülməsi.

Sovetlər Birliyi dağıldıqdan sonra türk xalqları (və dilləri) arasında başlayan qarşılıqlı əlaqələr və ya inteqrasiya ilk illərdə daha çox romantik xarakter daşıyırdı ki, bu, tamamilə təbiidir. Ümumiyyətlə, biri digərindən on illər boyu təcrid olunmuş türk xalqlarının sərbəst buraxılması, yaxud azadlığa çıxması beynəlxalq güclərin nə qədər nəzarətində olsa da, onlar (türk xalqları) əsas dəstəyi məhz bir-birlərindən, xüsusilə Türkiyədən gözləyirdilər. Və təsadüfi deyildi ki, ilk mənəvi kömək də məhz Türkiyədən gəldi. Türk dünyasının kifayət qədər yüksək beynəlxalq nüfuzu olan bu böyük ölkəsində keçirilən Türk xalqlarının qurultaylarında əsas məsələ həmişə «türk birliyi» ideyası olmuşdur ki, onun da ən mühüm tərkib hissələrindən biri, heç şübhəsiz, ortaq türkcə məsələsidir. İstər həmin qurultaylarda, istərsə də digər müxtəlif miqyaslı toplantı və ya müzakirələrdə bu barədə irəli sürülmüş mülahizələri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1) ortaq türkcə funksiyasını daha çox inkişaf etmiş, daha çox əhalinin danışdığı bir türk dili yerinə yetirməlidir ki, bu da, təbii ki, Türkiyə türkcəsidir;

2) müxtəlif türk dillərinin fonetik, leksik və qrammatik materialları əsasında ortaq türkcə yaradılmalı və Türk dünyasının istifadəsinə verilməlidir;

3) qədim dövrlərdən bəri türk dillərinin ortaq tarixinə müraciət olunmalı, ortaq türkcə ortaq tarixdən alınıb müasirləşdirilməlidir;

4) xüsusi olaraq hər hansı türk dilinin ortaq ünsiyyət vasitəsi kimi qəbuluna ehtiyac yoxdur və türklər arasında ünsiyyətin miqyasının genişlənməsi – iqtisadi, siyasi və mədəni inteqrasiya prosesi öz ortaq ünsiyyət vasitəsini tədricən yaradacaqdır.

5) hər bir türk xalqı artıq formalaşmış dilində danışmalı, onun inkişafı üçün tədbirlər görməlidir, lakin ortaq ünsiyyət problemi Türk dünyası miqyasında deyil, qloballaşma prosesinin təsiri altında ümumən dünya miqyasında həll olunacaqdır.

Fikrimizcə, bu təklif-mülahizələrdə iki paradiqmanı ilk növbədə fərqləndirmək lazımdır: təbii və süni. Hər şeydən əvvəl ona görə ki, tarix süni dillərin geniş yayılması, kütlələrə yiyələnməsi təcrübəsini vermir və odur ki, 2-ci təklif-mülahizə, yəni müxtəlif türk dillərinin materialları əsasında ortaq bir dil yaradılmasının, xüsusilə bunun türk xalqları tərəfindən ortaq ünsiyyətdə işlədilməsinin perspektivi bizə olduqca mübahisəli, hətta qeyri-mümkün görünür. Hətta nəzərə alsaq ki, belə bir cəhd az və ya çox dərəcədə inkişaf etmiş bütün türk dillərini əhatə eləməklə, bir növ, balans yaradır və heç bir türk xalqının «inciməsinə» səbəb olmur, yenə də ona haqq qazandırmaq mümkün deyil. Çünki istənilən türk dilini şərti olaraq ortaq türk dili kimi nəzərdən keçirsək görərik ki, burada bütün türk dillərinin fonetik, leksik və ya qrammatik quruluşundan, materiallarından çox şey var. Ona görə də, təbii ki, söhbətin mövzusu daha çox inkişaf etmiş bir türk dili olmalıdır ki, ondan çuvaş da, saxa da, xakas da, şor da incimədən, heç bir kompleks-siz istifadə edə bilər. Və onu da nəzərə alsaq ki, ortaq

ünsiyyət vasitəsi kimi qəbul olunan hər hansı türk dili, məsələn, Türkiyə türkcəsi istifadə prosesində tədricən müxtəlif türk dillərinin materialları ilə zənginləşməli olacaqdır, onda inciməyə ümumiyyətlə heç bir əsas yoxdur.

Ortaq türk dili məsələsi ilə ardıcıl məşğul olmuş özbək alimi B.R.Kərimov bu fikirdədir ki, türk dünyasının inteqrasiyasında əsas məsələlərdən biri dil ümumiliyidir. Lakin o hər hansı bir türk dilinin deyil, türk dilləri əsasında yaradılacaq ortaq dildən (anatürkdən) bəhs edir. Və hətta «dünyanın bütün dilləri əsasında ümumi bir insan dili yaratmaq» ideyasını irəli sürür. Fikrimizcə, bu yolla həm ortaq türk, həm də ortaq dünya dilinin (ortaq ünsiyyət vasitəsinin) yaradılması təklifi nə qədər maraqlı görünsə də, praktik olaraq, mümkün deyil. İndiyə qədər yaradılmış süni dillərin nikbin olmayan «təcrübə»si də bunu sübut edir.

Ortaq türkcənin tarixdən alınmasına gəldikdə isə burada da xeyli anlaşılmazlıqlarla qarşılaşmalı oluruq. Ən qədim (və ən ortaq) türkcəmiz olan Orxon abidələrinin dili bizim üçün nə qədər müqəddəs olsa da artıq tarixə çevrilmişdir və müasir dünyanın çoxüslublu təfəkkürünü əks etdirə bilməz. Eləcə də orta əsrlərin «türki» adlandırdığımız ədəbi dilləri… Və tamamilə aydındır ki, türk xalqlarına yalnız, formal olaraq, fəxri bir ortaq ünsiyyət vasitəsi yox, dünyanın inkişaf etmiş (beynəlxalq!) dilləri səviyyəsində bir ortaq türkcə lazımdır ki, qloballaşmanın tələblərinə və ya çağırışlarına cavab versin.

Ortaq türk dili məsələsinə münasibətdə a) fəal və b) qeyri-fəal mövqe, yaxud paradiqmanı da fərqləndirməyə ehtiyac vardır. 1-ci, 2-ci və 3-cü təklif-mülahizələrin tərəfdarları, fikrimizcə, fəal, 4-cü və 5-cinin tərəfdarları isə qeyri-fəal mövqe tuturlar; belə ki, sonuncular

Türk dünyası (və dünya) miqyasında gedən inteqrasiya-qloballaşma prosesinə hər hansı müdaxilənin, prinsip etibarilə, nəticəsiz, yaxud əhəmiyyətsiz olduğu qənaətindədirlər ki, bu cür qeyri-fəallıqla hər halda hesablaşmaq lazım gəlir. Çünki inteqrasiya, daha geniş miqyasda isə qloballaşma prosesləri, doğrudan da, elə obyektiv, yaxud həlledici hadisələrdir ki, öz prinsiplərini, demək olar ki, maneəsiz diqtə edir. Bununla belə nə inteqrasiya, nə də qloballaşma təsadüflərə də əsaslanmır, kifayət qədər qanunauyğun proseslər olub müəyyən proqnozlar təklif etməyə də imkan verir. Odur ki, 4-cü və 5-ci təklif-mülahizələrin tərəfdarlarının yüngül «liberalizm»ini bir kənara qoysaq, onların nə vaxtsa, prinsip etibarilə, nə 2-ci, nə də 3-cü yox, məhz 1-ci təklif-mülahizə ilə həmrəy olacaqları qaçılmazdır. Hər şeydən əvvəl ona görə ki, Türkiyə türkcəsinin ortaq ünsiyyət vasitəsi olmasını həm Türk dünyasında gedən çoxşaxəli inteqrasiya prosesləri, həm də dünyanın qloballaşması tələb edir:

a) türk dünyasının inteqrasiyası onu dil-ünsiyyət baxımından bütövləşdirən, vahid etnik-mədəni məkana çevirən «güclü», nüfuzlu bir ünsiyyət vasitəsinə ehtiyac duyur; elə bir ünsiyyət vasitəsinə ki, bütün türk xalqları üçün az və ya çox dərəcədə təbiətən, yaxud genetik baxımdan doğmadır.

b) qloballaşan dünya isə türklərlə onların müxtəlif dilləri vasitəsilə deyil, yalnız bir dillə ünsiyyətə girmək marağındadır.

Bugün dünyada qloballaşmanın ruporu kimi çıxış edən, heç bir müqayisəsiz üstünlüyü ələ almış ingilis dili ilə yanaşı müxtəlif «dil imperiyaları» da vardır ki, buraya fransız, ispan, ərəb, rus, Çin dilləri ilə yanaşı artıq türkcəni (hələlik Türkiyə türkcəsini) də əlavə etmək olar.

Türk məkanında dil əlaqələrinin genişlənməsi və ya dil inteqrasiyası bir sıra ekstralinqvistik proseslərlə şərtlənir ki, buraya ilk növbədə aşağıdakıları aid etmək olar:

a) siyasi əlaqələrin güclənməsi.

b) iqtisadi əlaəqələrin güclənməsi;

c) mədəni əlaqələrin güclənməsi.

Türk dünyası azadlıq əldə etdikdən sonra xüsusilə müstəqil, yaxud yarımmüstəqil türk dövlətləri arasında müxtəlif səviyyəli (və xarakterli) münasibətlər sürətlə formalaşmağa başladı. Dövlət başçılarının Zirvə toplantıları, Türkdilli ölkələrin Əməkdaşlıq Şurası, Türkdilli ölkələrin Parlament Assambleyası, Türk xalqlarının qurultayları, eləcə də Türk dövlətləri arasında diplomatik missiyaların yaradılması, ümumiyyətlə ikitərəfli və çoxtərəfli beynəlxalq görüşlər türk dilləri arasındakı əlaqələrin, bütövlükdə isə Türk xalqlarının çoxdan gözlənilən ünsiyyətini həm təmin etdi, həm də bu təminatın möhkəmlənməsi üçün hüquqi baza hazırladı.

Məsələn, Türkdilli ölkələrin Parlament Assambleyasının (TÜRKPA-nın) işçi və ya rəsmi dili Assambleyaya üzv ölkələrin dillərindən ibarətdir. Belə ki, iclaslarda çıxışlar Azərbaycan, qazax, qırğız dillərində və Türkiyə türkcəsində edildiyi kimi sənədlər də bu dillərdə hazırlanır. Təbii ki, hər bir nümayəndə heyəti öz dövlət dilindən istifadə edir, çıxışlar digər türk dillərinə sinxron tərcümə edilir. Bununla belə nümayəndə heyətlərinin hər bir üzvü müxtəlif türk dillərindəki çıxışlara birbaşa qulaq asmaq, sənədlərlə tanış olmaq imkanına malikdir. TÜRKPA-nın beş il ərzində dil inteqrasiyası sahəsində göstərdiyi xidmətlər, doğrudan da, təqdirə layiqdir.

Dillərin inteqrasiyasında siyasi iradə, heç şübhəsiz, həlledici əhəmiyyətə malik olsa da, iqtisadi, xüsusilə mədəni proseslər də mühüm rol oynayır. Çünki ayrı-ayrı dillər öz-özlüyündə yalnız bir xalq və ya millət səviyyəsində ünsiyyət ehtiyacını ödəmək üçün formalaşır. Dillərin inteqrasiyası, nəticə etibarilə, beynəlxalq (bu və ya digər səviyyədə qlobal) ünsiyyət vasitəsinin meydana çıxması üçünsə davamlı siyasi, iqtisadi və mədəni əlaqələrin bütöv bir şəbəkəsinin qərarlaşması lazım gəlir.

Uzun zaman iqtisadi münasibətlərdən, demək olar ki, tamamilə məhrum edilmiş türk xalqları müstəqillik əldə etdikdən sonra ticarət, tikinti, nəqliyyat, turizm və s. sahələrdə bir sıra möhtəşəm layihələrin həyata keçirilməsinə imza atmışlar. Xüsusilə Türkiyə şirkətlərinin türk dünyasının müxtəlif ölkələri ilə iqtisadi əlaqələrində qazanılmış təcrübə böyük əhəmiyyətə malikdir.

Türk xalqlarının inteqrasiyasında, ümumi ünsiyyətin miqyasının genişlənməsində mədəni əlaqələrin nə qədər önəmli olduğunu təsəvvür etmək çətin deyil. Eyni etnik-mədəni sistemin üzvü tərkib hissəsi olan türk xalqlarının hər hansı sahədəki əlaqələri müasir dövrdə, tamamilə təbii olaraq, bütöv türk tarixi yaddaşının oyanması, həmin sistemin bütün koordinatları ilə bərpası deməkdir ki, bu da öz növbəsində vahid dil ünsiyyəti amilini gündəmə gətirir. Son illər xüsusilə TÜRKSOY-un, əgər belə demək mümkünsə, türk dünyasının baş mədəniyyət təşkilatının həyata keçirdyi layihələr mədəni əlaqələrin ardıcıl, sistemli və məqsədyönlü şəkildə aparılmasına mühüm təsir göstərir. Hər il türklərin bir tarixi şəhərinin türk dünyasının Mədəniyyət Paytaxtı elan edilməsi, görkəmli türk yazıçılarının, incəsənət xadimlərinin yubileylərinin keçirilməsi, müxtəlif mədəni tədbirlərin dəstəklənməsi və s. uğurlu ənənələrə çevrilmişdir. Eyni

zamanda mədəniyyətin çox mühüm tərkib hissəsi olan elm sahəsində, xüsusilə türkologiyada görülən işlərin müasir tələblər səviyyəsinə qaldırılması vacibdir. Bu baxımdan Türk Akademiyasının təsisi yalnız simvolik hadisə olmayıb qloballaşan dünyada türk humanitar intellektinin yüksəldilməsi məqsədindən irəli gəlir. Sovet dövründə daha çox türklərin, eləcə də türk dillərinin parçalanmasına, ikinci, hətta üçüncü növ millət olması ideyasına xidmət edən, bütöv bir etnik-mədəni sistemi «idarə etməy»ə çalışan türkologiya artıq öz ömrünü başa vurmuşdur. Və bugün bizə elə bir türkologiya lazımdır ki, türk xalqlarının, bütövlükdə türk dünyasının hansı böyük irsin varisi olduğunu, hansı mədəni-intellektual inkişaf potensialını gerçəkləşdirmək imkanları daşıdığını konkret faktlara əsaslanaraq obyektiv şəkildə göstərə bilsin. Və türk dillərinin (və xalqlarının) bölünməsinə, parçalanmasına, ayrı-ayrı siyasi, iqtisadi və mədəni təsirlər altına düşməsinə deyil, get-gedə güclənən bütövlüyünə, inteqrasiyasına xidmət etsin.

TÜRKPA 2014-cü ildə Bakıda keçirilən Beşinci Plenar Sessiyasında bir sıra təklifləri nəzərə alaraq türkdilli dövlətlərin təhsil müəssisələrində türk dilləri üzrə ixtisaslı tərcüməçilərin hazırlanmasını TÜRKPA üzvü olan ölkələrin parlament və hökumətlərinə tövsiyyə etmişdir.

Əlbəttə, bu yalnız Parlament Assambleyasının mövcud dil təcrübəsindən irəli gəlmir, həm də türk dünyasında gedən çoxşaxəli, xüsusilə informasiya mübadiləsi sahəsini əhatə etməkdə olan inteqrasiya ehtiyacının nəticəsidir. Türk dilləri arasında tərcüməçi çatışmazlığı artıq bütün kəskinliyi ilə hiss edilməkdədir ki, bu, təbii ki, türk dilləri (və xalqları) arasındakı əlaqə-ünsiyyətin zəruriliyinin göstəricisidir.

Əlbəttə, postsovet türkləri bu günə qədər rus dilindən ünsiyyət vasitəsi kimi geniş istifadə edirlər, qlobal ünsiyyətin hadisəsi olan ingilis dili də xüsusilə yeni nəslin simasında qapılarımızı döyərək öz perspektivlərini inamla diqtə edir. Ona görə də biz türklər hər iki reallıqla hesablaşmağa, hər iki dili istər-istəməz öz ünsiyyət menyümüzə daxil etməyə məcburuq. Lakin bu, milli dillərin etnik-mədəni hüquqlarının pozulması hesabına olmamalıdır.

Bu cür faktlar isə mövcuddur. Məsələn, Rusiya Federasiyasında bir sıra türk xalqlarının, İranda Azərbaycan türklərinin, Çində uyğurların… ana dilindən istifadəsinin məhdudlaşdırılması insan hüquqlarına tamamilə zidd olmaqla yanaşı türk dünyasının mədəni birliyinə xələl gətirməkdədir.

Türk dilləri arasındakı inteqrasiya proseslərinin ən mühüm göstəricilərindən biri də latın əlifbasına keçidlə bağlıdır. Güman etmək olar ki, keçid prosesi ümumtürk miqyasında uğurla başa çatacaqdır. Lakin bu sahədə elə indidən özünü aydın şəkildə göstərən problemlər vardır. İlk növbədə əlifbanın uyğunlaşdırılması və ya unifikasiyası problemi diqqəti cəlb edir. Belə ki, xüsusilə keçən əsrin 90-cı illərində mütəxəssislərin iştirakı ilə aparılan müzakirələrdə tövsiyyə olunan bir prinsipə ayrı-ayrı türk dilləri səviyyəsində müəyyən laqeydlik göstərildiyi ortaya çıxır ki, bu da «eyni səsin bütün türk əlifbalarında eyni işarə və ya hərflə əks etdirilməsi» prinsipidir. Və fikrimizcə, həmin laqeydlik türk dünyasında əlifba quruculuğu ilə məşqul olan mütəxəssisləri vaxtında narahat etməlidir.

Türk dillərinin qarşılıqlı əlaqələrinin güclənməsi və ortaq türk ünsiyyət dili problemi nəzərdən keçirilərkən diqqəti cəlb edən məsələlərdən biri də müasir dövr-

də qarşılıqlı anlamanın türk dünyası miqyasındakı «iyerarxiya»sıdır. Məlum olduğu kimi, müəyyən istisnalar fövqündə, müasir türk ədəbi dilləri üç əsas qrupda və ya ailədə birləşirlər:

I. Oğuz dilləri: Türkiyə türkcəsi, Azərbaycan və türkmən dilləri.

II. Qıpçaq dilləri: qazax, qırğız, tatar, başqırd və s. dilləri.

III. Karluq dilləri: özbək və uyğur dilləri.

Və bu dil ailələri daxilindəki anlaşmanın imkanları onun xaricindəkindən daha geniş olduğuna görə dil-ünsiyyət inteqrasiyasının «iyerarxiya»sından danışmaq olar. Təsadüfi deyil ki, yarandığı ilk illərdən TÜRKPA-nın iclaslarında, əgər belə demək mümkünsə, faktiki olaraq iki dildən istifadə olunur: 1) Azərbaycan dili Türkiyə türkcəsi və 2) qazax qırğız dilləri. TÜRKPA öz layihə miqyasında fəaliyyətə başlayanda isə, yəqin ki, bu sıraya yalnız üçüncü dil-özbək dili əlavə olunacaq, türkmən dili isə Azərbaycan dili Türkiyə türkcəsi türkmən dili qrupunda gedəcəkdir. Nəhayət, türk xalqları arasında müasir dövrdə Türkiyə türkcəsinin getdikcə daha geniş yayılması ümumən türk məkanında gedən dil-ünsiyyət inteqrasiyasının, bütün mübahisəli məqamlarına baxmayaraq, ən çox siyasi, iqtisadi və mədəni prioritet qazanmış göstəricisidir. Türkiyənin yalnız türk dünyasında deyil, ümumən dünyadakı nüfuzu, Türkiyə türkcəsində yayılan kütləvi informasiya vasitələrinin geniş şəbəkəsi, türk universitetləri və liseyləri, şirkətləri bu dilin (Türkiyə türkcəsinin) digər türk dillərinə müsbət təsirini həyata keçirməklə yanaşı onlarda (digər türk dillərində) ortaq xüsusiyyətlərin əmələ gəlməsini təmin edir. Latın əlifbasına keçiddən, yəni kifayət qədər formal bir əlamətdən başlayan bu ortaqlıq artıq xüsusilə inkişaf etmiş

türk ədəbi dillərinin həm fonetik, həm leksik, həm də qrammatik normalarında özünü göstərir.

Müasir türk məkanında mədəni, hətta demək olar ki, mənəvi-ideoloji inteqrasiyanın ən mühüm sahələrindən biri, bəlkə də birincisi ədəbiyyatdır. Müşahidələr göstərir ki, türk xalqlarının ədəbi-bədii təfəkküründə inteqrasiya, əsasən, aşağıdakı istiqamətləri əhatə edir:

1. Türk folkloru nümunələrinin toplanmasında, yazıya alınmasında, araşdırılmasında mütəxəssislərin əməkdaşlığı. Folklor ifası festivallarının ümumtürk miqyasında keçirilməsi. Folklor mətnləri əsasında kütləvi nəşrlərin, filmlərin hazırlanması və s.

2. Türk dünyasının həm qədim dövrlər, həm də orta əsrlər üçün ortaq olan yazılı abidələrinin əməkdaşlıq əsasında bir sıra türk respublikalarında ümumtürk mədəniyyəti hadisəsi kimi nəşr edilməsi, araşdırılması və təbliğ olunması işinin miqyasca genişləndirilməsi, bu sahədəki fəaliyyətin elmi-metodoloji səviyyəsinin keyfiyyətcə yaxşılaşdırılması və milli əsaslar üzərində yenidən qurulması.

3. Əsrlər boyu diqqətdən kənarda qalmış azsaylı türk xalqlarının, xüsusilə Sibir türklərinin mifologiyasının, folklorunun, etnoqrafiyasının ümumtürk miqyasında araşdırılıb təbliğ olunması.

4. Türk xalqlarının ədəbiyyat tarixlərinin müqayisəli öyrənilməsinə, artetiplərin müəyyənləşdirilməsinə, ortaq və fərqli xüsusiyyətlərin üzə çıxarılmasına, bir sözlə, müqayisəli türk ədəbiyyatşünaslığına marağın əvvəlki dövrlərə nisbətən xeyli artması.

5. Müasir türk məkanında gedən ədəbi prosesdə qarşılıqlı əlaqələrin güclənməsi, diqqəti cəlb edən şeir, nəsr, dramaturgiya nümunələrinin rus dili vasitəsilə

deyil türk dillərindən bir-birinə birbaşa tərcüməsi sahəsində nəzərə çarpacaq inkişafa nail olunması.

6. Müxtəlif türk respublikalarındakı yazıçılar birlikləri, təşkilatları, qrupları arasında yaradıcılıq əməkdaşlığının daha intensiv xarakter daşımağa başlaması, Türk dünyası qələm adamlarının, söz ustalarının ümumi yaradıcılıq ittifaqı olan Türk Dünyası Yazarlar Birliyinin təsis edilməsi.

7. TÜRKSOY-un öz fəaliyyətini genişləndirməsi nəticəsində böyük ədəbi hadisələrin və ya şəxsiyyətlərin yubileylərinin bütün Türk Dünyası miqyasında keçirilməsi. Və ümumiyyətlə, Türk Dünyasının ən böyük transmilli mədəniyyət qurumu olan həmin təşkilatın milli yaradıcılıq qurumları, xüsusilə mədəniyyət nazirlikləri ilə əməkdaşlıq şəraitində türk ədəbi-mədəni sərvətlərini bir bütöv (kompleks) halında dünya miqyasında davamlı şəkildə təbliğ edilməsi.

Məlum olduğu kimi, hər bir xalqın milli mənəvi varlığının əsaslarından birini təşkil edən ədəbiyyat eyni zamanda çox böyük inteqrativ (birləşdirici) xarakter daşıyır. Və təsadüfi deyil ki, hər bir milli ədəbiyyatda ümumbəşəri və ya ümumdünya əhəmiyyətli mövzular, ideyalar, ifadə texnologiyaları özünün geniş əksini tapır. Genetik baxımdan qohum olan xalqların ədəbiyatlarında isə yaxınlıq, eynitiplilik daha güclüdür ki, türk xalqlarının ədəbi mədəniyyəti də bu mənada istisna təşkil etmir.

Lakin təbiidir ki, eyni mənşəli ədəbiyyatlar da həmin ədəbiyyatı yaradan xalqlar kimi zaman-zaman diferensiasiya olunur. Xüsusilə xalqın ictimai-siyasi taleyi, digər xalqlarla iqtisadi, siyasi və mədəni-mənəvi əlaqələri eyni mənşəli ədəbiyyatlara diferensial xüsusiyyətlər qazandırır. Məsələn, Türkiyə türklərinin müasir ədə-

biyyatı nəinki coğrafi baxımdan uzaq olan qazax, qırğız, özbək xalqlarının, hətta yaxın Azərbaycan ədəbiyyatından mövzu, ideya, üslub və s. etibarilə fərqlənir. Bununla belə həm etnik-mədəni kökdən gələn, həm də müasir dövrdə türk dünyasının ortaq idyea-mənəvi maraqları ilə diqtə olunan elə ümumi (universal) dəyərlər vardır ki, onlar böyük türk söz ustalarının – şairlərin, nasirlərin, dramaturqların yaradıcılığı timsalında parlaq bir şəkildə təzahür edir. Çingiz Aytmatov, Bəxtiyar Vahabzadə, İsa Muğanna, Oljas Süleymenov, Anar, Muxtar Şaxanov kimi görkəmli yazıçıların əsərləri bütövlükdə türk dünyasının mənəvi sərvətidir.

Türk ədəbiyyatlarının qarşılıqlı əlaqələrinin genişlənməsi baxımından əhəmiyyətli hadisələrdən biri türk xalqları ədəbiyyatlarının ortaq (ümumi) tarixlərinin yazılmasına marağın artmasıdır. Doğrudan da, etnosun ümumi tarixini təsəvvür etməyə ehtiyac yaranırsa, bu o deməkdir ki, milli ictimai şüur diferensial dəyərləri ümumiləşdirmək, etnik-mədəni sistemi bütövlükdə dərk etmək iqtidarındadır. Məsələ isə burasındadır ki, həmin proses həm ədəbiyyatın tarixinə, həm də bugününə münasibətdə özünü göstərir. Vaxtilə daha çox bölüşdürməyə istiqamətlənən maraq sonralar birləşdirməyə, ümumi (ortaq) mənəvi sərvətlə fəxr etməyə yönəlir ki, həmin birləşdirici marağı bugün türk dünyasında ədəbi prosesə münasibətdə aydın şəkildə müşahidə etmək mümkündür. Məsələn, Azərbaycan Yazıçılarının XIII qurultayı ərəfəsində xüsusi bir məruzə «Türk dünyasında ədəbiyyat… Ədəbiyyat (ımız)da türk dünyası» adlanır ki, fikrimizcə, bu, hər bir türk xalqının yazıçılarının, eləcə də yazıçılar təşkilatlarının ümumtürk ədəbi prosesini bir bütöv halında görmək, təhlil etmək və dəyərləndirmək ehtiyacından irəli gəlir. Həmin məruzənin müəllifi, Dünya Gənc

Türk Yazarlar Birliyi Təsisçilər Şurasının başqanı Əkbər Qoşalı göstərir ki, «türk birliyi ideyası uğrunda hərəkatın alt yapısını tarix boyu yaradıcı insanlar, şairlər, ozanlar, dərvişlər, fikir adamları oluşdurublar. Qələm adamının türk birliyi adına verdiyi dəstəyin (o dəstəyin ruhani, ideoloji, fəlsəfi, kültürəl libasda olmasından asılı olmayaraq) gələnəyi, təcrübəsi var və yeni ədəbi nəsil də o xəttin qırılmamasında maraqlı olmalıdır».

Və yalnız yazarlar deyil, türk dünyasının böyük dövlət adamları da türk birliyinin möhkəmlənməsində ədəbiyyatın rolunu yüksək qiymətləndirmişlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 6 noyabr 1996-cı ildə Türk Dünyası Yazarlarının III qurultayındakı çıxışında demişdir: «Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır.

…Xalqlarımız tarix boyu insan həyatının bütün sahələrində, bəşəriyyətin bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi memarlıq abidələri və böyük bədii əsərləri, musiqisilə parlaq səhifələr yazmışlar. Bunların arasında şairlərimizin, yazıçılarımızın xidməti və tariximizin yaranmasında, saxlanmasında onların əsərlərinin qiyməti çox böyükdür».

Müasir türk məkanında milli-mənəvi inteqrasiyanın həm təməlində dayanması, həm də geniş miqyas alması baxımından ədəbiyyatın imkanları bir də onunla müəyyən edilir ki, son illər türk yazıçıları yalnız bədii yaradıcılıqları ilə deyil, türk dünyasının ictimai-siyasi həyatında fəal iştirakları ilə də qarşılıqlı münasibətlərin inkişafına əhəmiyyətli təsir göstərirlər.

İncəsənət mədəniyyət sistemində mürəkkəb olduğu qədər də hər bir etnos üçün inersiya ilə anlaşılan ən sadə yaradıcılıq (və etnik özünütəsdiq) hadisəsidir. Türk xalqlarının incəsənəti özünün müxtəlif təzahürlərilə əsrlər, hətta minillər boyu diqqəti cəlb etmişdir. Və bugün də dünya mədəniyyəti sistemində seçilməkdədir. Buraya ilk olaraq tətbiqi sənətin kifayət qədər çoxlu sayda növləri aiddir. İncəsənətin yeni texnologiyaları yarandıqca türk xalqları həmin texnologiyaları uğurla mənimsəmiş, özlərinin dünya miqyasında tanınan əsərlərini (və sənətkarlarını) meydana çıxarmışlar.

Türk xalqları arasında qədim zamandan bəri geniş yayılmış tətbiqi sənət nümunələrinin spektri kifayət qədər genişdir. Buraya daş, dəmir, ağac sənətkarlığı, xalçaçılıq, kulinariya və s. daxildir ki, onlar türk xalqlarının ortaq və ya ümumi yaradıcılıq üslubunu əks etdirməklə etnosun mənəvi xarakterini, bədii idrak, zövq imkanlarını müəyyənləşdirir. Türk məkanında kökü tarixin çox dərin qatlarında olan bu ortaq və ya ümumi üslubun bugünə qədər yaşaması isə etnokulturoloji simanın stabilliyinin göstəricisi kimi diqqəti cəlb edir.

Qədim mədəniyyət hadisələrinə marağın artdığı müasir dünyada yalnız türk tətbiqi sənətinin zənginliyi faktının özü çox mühüm mədəni inteqrasiya mənbəyi və ya stimuludur.

Türk xalqlarının çox qədim dövrlərdən gələn, sonralar isə peşəkarlar tərəfindən inkişaf etdirilən musiqiləri vardır. Qopuzla ifa olunan ozan musiqisindən başlamış tar, kaman və qavalla ifa olunan muğamata qədər türk musiqisinin keçdiyi ortaq yol dünya musiqi mədəniyyətinin tarixində şərəfli yer tutur. Eyni zamanda türk sənətkarları modern musiqi ifaçılığının istedadlı nümayəndələri sırasına daxildirlər.

Son illər türk məkanında keçirilən müxtəlif musiqi festivalları da göstərir ki, incəsənətin bu sahəsi qarşılıqlı mədəni əlaqələrin inkişafında müəyyən əhəmiyyət kəsb etməkdədir.

Türk rəssamlığı və ya ümumən təsviri sənətində gedən inteqrasiya xüsusilə şəhər mədəniyyətinin yüksəldiyi müasir dövrdə maraq doğurmaya bilməz. Məsələn, Qazaxstan Respublikasının yeni paytaxtı Astana şəhərinin memarlıq mənzərəsinə fikir verdikdə burada qədim türk memarlığının üslublarından nə qədər uğurla istifadə edildiyinin şahidi oluruq. Çadır-«yurt» üslubu öz ümumi görünüşünü saxlamaqla tamamilə modern bir quruluşda, xüsusilə interyer rahatlığı, zənginliyi ilə təqdim olunur.

Ümumiyyətlə, türk rəssamlığının, heykəltəraşlığının, memarlığının qədim ənənələrini dirçəltmək, bu sahədə yaradıcılıq mübadiləsinin miqyasını genişləndirmək üçün hər cür imkanlar mövcuddur. Xüsusilə qloballaşma hərəkatının şəhərlərin milli simasını «silməy»ə çalışdığı müasir dövrdə bu, xüsusilə zəruridir.

Türk xalqlarının teatr sənətində əməkdaşlığı bu sənətin yaranldığı ilk mərhələlərdən müşahidə olunur. Azərbaycan teatr xadimlərinin hələ XX əsrin əvvəllərində Volqaboyunda, Orta Asiyada tamaşalar qoyduqları məlumdur. Eləcə də türk dünyasının müxtəlif mədəniyyət mərkəzlərindən Azərbaycana vaxtilə aktyorlar dəvət olunmuşlar.

Etiraf etmək lazımdır ki, bugün teatr sənətində müəyyən durğunluq hökm sürür, bununla belə bütün dünyada «elitar teatr» deyilən bir incəsənət hadisəsi də var ki, hələlik türk xalqlarının teatr xadimləri onu yalnız kənardan seyr etməkdədirlər. Görünür, bir zamanlar dəbdə olan kütləvi teatr (və tamaşaçı) ardınca qaçmaq-

dansa, türk «elitar teatr»ı yaratmaq barədə düşünməyin vaxtı çatmışdır.

Müasir dövrdə kino incəsənətin, demək olar ki, bütün növlərini öz kütləviliyilə geridə qoymaqdadır. «Türk xalqlarının kino sənəti» monoqrafiyasının müəllifi Tofiq İsmayılov belə bir nəticəyə gəlir ki, «türk xalqları kino sənətinin təkamülü çağdaş türkçülüyün əsas təmayüllərindən biridir. O, antitürk ideyologiyaya qarşı müqavimətdə formalaşıb. Xalqa, millətə daha yaxın, doğma və səmimi dildə danışan, milli xarakterləri, etnik-mənəvi psixologiyanı əks etdirən kino sənətimiz yeni, istiqlal dövrünə əzmlə, böyük bədii-fəlsəfi yaradıcılıq uğurları ilə daxil olub».

Odur ki, kino sahəsində yaradıcılıq mübadilələrinin miqyasının sadəcə genişləndirilməsinə deyil, müasir dövrün tələblərinə uyğun olaraq keyfiyyətcə yenidən qurulmasına böyük ehtiyac hiss olunmaqdadır.

Türklər tarix boyu müxtəlif dinlərə – tanrıçılıq, buddizm, iudaizm, xristianlıq, manixeyizm, islam (və onun bir-birindən fərqli təriqətləri) və s. inansalar da, bugünə qədər onların yaddaşında həmin dinlər ya birbaşa, ya da dolayısı ilə qalsa da, müasir dövrdə türk xalqlarının əksəriyyəti müsəlmandır. Və müsəlman dünyasına mənsub olmaq hazırki şəraitdə yalnız dini-mənəvi yox, eyni zamanda siyasi-ideoloji göstəricidir. Təsadüfi deyil ki, islam aləminin ortaq mənəvi-mədəni məziyyətləri, yaxud bütün dünyada qəbul edilən üstünlükləri ilə yanaşı, bir sıra mürəkkəb sosial-siyasi, iqtisadi problemləri də vardır ki, onların ideoloji məsuliyyətini, məsələn, ərəb, İran xalqları ilə birlikdə türklər də daşıyır və ya daşımağa məhkumdur.

Müasir türk xalqlarının mənəvi-dini dünyagörüş baxımından inteqrasiyası məsələsinə gəldikdə biz aşağı-

dakı məqamlara ilk növbədə diqqət verilməsini məqsədə uyğun hesab edirik:

1) türklərin bütöv bir etnos olaraq tarix səhnəsinə çıxdıqları dövrdə (e.ə. II minilliyin sonu I minilliyin əvvəllərindən etibarən) tanrıçılığı əsas dini inam səviyyəsinə yüksəltmələri, sonrakı daha mükəmməl dinləri isə məhz bu təkallahlı inam əsasında qəbul etmələri, yəni müasir türk xalqlarının dini dünyagörüşünün genotipində tanrıçılığın dayanması;

2) qədim dövrlərdən etibarən türklərin «dini qapalılıq»dan ruhən azad olmaları, başqa sözlə, həm müxtəlif dinləri rahat qəbul etmələri, həm də eyni zamanda başqa etnosların, xalqların dini inamlarına anlaşıqlı yanaşmaları ( tolerantlıq);

3) türk xalqlarının əksəriyyətinin qəbul etdiyi islama səmimi olmaları və müxtəlif xarici təzyiqlərə baxmayaraq, nəticə etibarilə, bu dini siyasi-ideoloji münaqişə vasitəsinə çevirməyib xalqın mədəni-mənəvi dəyəri səviyyəsinə yüksəltməyə çalışmaları;

4) xüsusilə müasir dövrdə türk məkanında «millət» ideallarının «ümmət»dən daha aparıcı olması, yəni hansı dinə inanmağından asılı olmayaraq müasir türk xalqları arasında «türk birliyi» ideyasının güclü olması;

5) nəhayət, ərəb, yaxud İran islamından özünəməxsus etnoqrafik cəhətləri ilə seçilən «türk islamı»nın müxtəlif türk xalqları arasında bu və ya digər səviyyədə yayılmış şamanizmdən xristianlığa qədərki dini dünyagörüşlərə mədəni-mənəvi təsirinin artması.

Məsələn, Azərbaycan, Qazaxstan, Özbəkistan kimi «sovet ateizmi» dövrünü yaşamış türk respublikalarının o qədər də böyük tarixi olmayan müstəqillik təcrübəsi göstərdi ki, həmin ölkələrdə dinin (təbii ki, islamın) dirçəlməsi müxtəlif problemlərlə müşayiət olunsa da, döv-

lət quruculuğu prosesində yürüdülən düzgün (və kifayət qədər demokratik) siyasət destruktiv qüvvələrin qarşısını vaxtında (və uğurla) ala bildi.

Türk dünyasının böyük yazıçı-mütəfəkkiri Ç.Aytmatovun aşağıdakı sözləri müasir türk insanının və ümumən cəmiyyətinin dinə münasibətini yaxşı ifadə edir: «…Öz həyat təcrübəmə əsaslanaraq deyə bilərəm ki, müasir insan eyni zamanda bütün dinlərə – xristianlığa, islama, buddizmə və başqalarına inana bilər».

Elm, mahiyyəti etibarilə, beynəlmiləl hadisədir, lakin etnosun və ya xalqın milli mədəniyyətinin əsas göstəricilərindən biridir. Türk məkanında mədəniyyətin inkişafı, eləcə də qarşılıqlı mədəni münasibətlərin keyfiyyətcə yüksəlməsində elmi-intellektual əlaqələrin xüsusi mövqeyi mübahisəsizdir. Yalnız dilçilik, ədəbiyyatşünaslıq, tarix və s. kimi humanitar elm sahələrində deyil, texniki və ya dəqiq elmlər sahəsində də türk dünyası elm adamlarının əməkdaşlığa cəhd etmələri müşahidə olunmaqdadır. Məsələn, bir neçə il bundan əvvəl mərkəzi Bakı şəhərində yerləşən Türk Dünyası Riyaziyyatçılar Cəmiyyəti yaradılmışdır.

Bununla belə türk xalqlarının ortaq mədəni-mənəvi dəyərlərinin araşdırılıb ortaya çıxarılmasında arxeoloqların, etnoqrafların, filoloqların, tarixçilərin, sənətşünasların, filosofların və ümumiyyətlə humanitarların əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Odur ki, bütün türk məkanının elmi-intellektual mərkəzi kimi fəaliyyətə başlamış Türk Akademiyasının təsis olunması çox böyük mədəni hadisə kimi qiymətləndirilməlidir. Akademiya təsis olunduğu qısa müddət ərzində artıq bir sıra maraqlı layihələr həyata keçirmişdir.

Həmin layihələrdən biri də «Global – Türk» jurnalının nəşrə başlamasıdır. Jurnalın ilk nömrəsinin «Alğı-

söz»ündə Türk akademiyasının prezidenti, eyni zamanda nəşrin baş redaktoru Darxan Kıdırəli onun missiyası barədə məlumat verərkən göstərir ki, jurnalın məqsədi sadəcə türk dünyası haqqında informasiya vermək, yaxud informasiya mübadiləsini həyata keçirmək deyil, əsas məqsəd türk xalqları elmləri arasında diskursa, qarşılıqlı anlaşmaya nail olmaq, ortaq elmi təfəkkür məkanı, yaxud mədəniyyəti formalaşdırmaqdır.

Məlumdur ki, klassik türkologiyanın, o cümlədən sovet türkologiyasının əsas çatışmazlığı ondan ibarət olmuşdur ki, türk xalqlarının mənəvi irsi, bir qayda olaraq, forma-struktur planında araşdırılmış, türk mədəniyyətinin, ruhunun ideya-məzmun planına, demək olar ki, diqqət verilməmişdir. Bu da, nəticə etibarilə, türk etnosunun (və xalqlarının) canlı yaradıcı ruhu, mentaliteti (etnik üslub fundamentallığı!) barədə lazımi dərəcədə mükəmməl təsəvvürün yaradılmasına həmişə mane olmuşdur. İş o yerə çatmışdır ki, türk mədəniyyəti (və mədəniyyətləri) barədə artıq öz ömrünü başa vurmuş, tarixə gömülmüş bir hadisə və ya hadisələr kimi bəhs etmişlər. Və beləliklə, bugünkü türkləri öz zəngin mədəni-mənəvi keçmişlərindən ayırmağa müvəqqəti də olsa imkan verən metodlar uydurmağa cəhd etmişlər.

Odur ki, çoxlu sayda mənbələr, materiallar, mülahizələr arsenalına malik türkologiya elmini düzgün, milli, modern əsaslar üzərinə qaldırmaq, onu (türkologiyanı) «türk xalqlarını öyrənib idarə etmək» üçün nəzərdə tutulmuş «elm»dən türk dünyasını layiq olduğu bir səviyyəyə qaldıran, ona ruh verən bir elmə çevirmək tələb olunur.

Qloballaşan və ya inteqrasiya olunan dünyada təhsilin rolu getdikcə artmaqda, eyni zamanda yeni məzmun kəsb etməkdədir. Müşahidələr göstərir ki, hazırkı

dövrdə türk məkanında bu sahədə aşağıdakı əməkdaşlıq formalarından istifadə olunur:

-tələbə, aspirant və dissertant mübadiləsi;

-professor-müəllim mübadilələri;

-ortaq universitetlərin açılması – məsələn, Qırğızıstanda Manas, Qazaxstanda Yəsəvi universitetləri;

-ortaq tədris proqramlarının, dərsliklərin hazırlanması;

-universitetlərdə müxtəlif türk xalqlarının mədəniyyətlərini araşdırıb təbliğ edən mərkəzlərin yaradılması – məsələn, Bakı Dövlət Universitetində Abay mərkəzi, Daşkənd Dövlət Pedaqoji Universitetində Nizami mərkəzi və s.

-türk dünyasının ortaq problemlərini müzakirə edən elmi konfransların, seminarların keçirilməsi.

Bunula belə qeyd etmək lazımdır ki, türk məkanında təhsil sahəsindəki qarşılıqlı münasibətlərin inkişafı üçün daha effektli tədbirlərin görülməsinə, türk dövlətləri təhsil nazirliklərinin daha sıx əməkdaşlığına ehtiyac duyulur.

Bugünkü dünyanı intensiv  informasiya mübadiləsiz təsəvvür etmək mümkün deyil. Odur ki, türk məkanında gedən siyasi, iqtisadi və mədəni prosesləri işıqlandıran və ümumtürk mənafeyindən çıxış edən KİV şəbəkəsinin yaranması qaçılmaz haldır. Təsadüfi deyil ki, türkçülük ideologiyasının formalaşdığı XIX əsrin sonu XX əsrin əvvəllərində bu missiyanı məhz mətbuat öz üzərinə götürmüşdür (bu barədə geniş məlumat üçün bax: (4;7;8).

KİV-in texnoloji imkanlarının genişləndiyi müasir dövrdə türk dünyasının ortaq qəzet, jurnal, radio və xüsusilə televiziyalarının yaradılması barədə yüksək səviyyəli müxtəlif məclislərdə nə qədər təkliflər verilsə də

hələ ki, bu istiqamətdə ciddi bir tədbir görmək mümkün olmamışdır. Mövcud cəhdlər isə əsasən aşağıdakılardan ibarətdir:

1) müəyyən fasilələrlə olsa da türk dünyasının ortaq televiziyası təcrübəsi kimi TRT-AVAZ kanalının fəaliyyətə başlaması; türk xalqlarının milli televiziyalarında türk dünyası ilə bağlı verilişlərin müəyyən qədər artması, «telekörpülərə» müraciət olunması; xüsusilə Türkiyə televiziyalarının türk məkanına kifayət qədər geniş miqyasda nüfuzu və s.

2) qəzet və jurnallarda ortaq türk dəyərlərini, türk dünyasının qarşılıqlı siyasi, iqtisadi və mədəni münasibətlərini əks etdirən materialların sayının artması; türk dünyasının ortaq mətbuat orqanı iddiası ilə çıxan və həmin iddianı, təqdim etdiyi materiallardan daha çox, adında göstərən (məsələn: «Türkün səsi», «Türk eli», «Türk dünyası», «Türküstan», «Turan» və s.) aztirajlı qəzet və jurnalların nəşrə başlaması və s.

3) bir sıra ortaq türk jurnalist təşkilatlarının yaranması, ortaq tədbirlərin, görüşlərin, müzakirələrin keçirilməsi və s.

Turizm müasir dövrdə elə bir önəmli hadisəyə çevrilmişdir ki, dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir.

Məmnuniyyətlə qeyd etmək lazımdır ki, Türkiyə Respublikası son dövrlərdə bu sahədə böyük təcrübə qazanmışdır ki, həmin təcrübə digər türk dövlətlərinə də yayılmaqdadır. Və ümumiyyətlə, türk məkanında turizmin inkişafı üçün hər cür iqtisadi-təbii, siyasi-ictimai və mədəni-etnoqrafik şərait mövcuddur:

a) İqtisadi-təbii şərtlər:

-türk məkanının təbii amillər baxımından (landşaft, iqlim və s) zəngin olan geniş bir coğrafiyanı əhatə etməsi;

-geniş yol-nəqliyyat şəbəkəsinə malik olması;

-turizmin iqtisadi təminatı.

b) Siyasi-ictimai şərtlər:

-türk məkanında siyasi-ictimai sabitliyin (konkret olaraq, turistlərin təhlükəsizliyinin) təmin olunması;

-türk respublikalarının dünya dövlətləri ilə beynəlxalq əlaqələrinin səmimi dostluq münasibətlərinə, bərabər hüquqlu əməkdaşlığa əsaslanması;

-yerli turist təşkilatlarının beynəlxalq turizm qurumları ilə işləmək təcrübəsi qazanması.

c) Mədəni-etnoqrafik şərtlər:

-türk məkanının etnoqrafik zənginliyi;

-türk məkanının müxtəlif dövrlərə aid tarixi abidələrlə zəngin olması;

-türk dünyasının tolerantlığı və ya qonaqpərvərliyi;

-kulinariya mədəniyyətinin orijinallığı, çoxçeşidliliyi və zənginliyi.

İpək yolu üzərində yerləşən türk məkanında turizmin inkişafı son illərdə Türk Şurasının geniş müzakirə obyektinə çevrilməkdə, mühüm inteqrasiya amili kimi dəyərləndirilməkdədir.

İdmanın bir mədəniyyət hadisəsi kimi nəzərdən keçirilməsi ilk baxışda mübahisəli görünə bilər, lakin nəzərə alsaq ki, əslində, fiziki imkanların nümayişi olan idman həm də insanlara zövq verən, onları ruhlandıran, həyəcanlandıran, hətta milli hissləri-təəssübkeşliyi coşduran kütləvi bir hadisəyə çevrilmişdir, onda onun nə qədər ciddi mənəvi-mədəni faktor olduğunu qəbul etmək lazım gəlir.

Türk xalqları arasında idmanın həm milli-ənənəvi, həm də müasir beynəlxalq növləri kifayət qədər geniş yayılmışdır. Və təsadüfi deyil ki, bugün dünya çempionatlarında öz dövlətlərinin bayraqlarını yüksəklərə qaldıran, himnlərini səsləndirən çoxlu sayda türk idmançıları vardır.

Türk məkanında idmanın inkişafı kontekstində əməkdaşlığın, heç şübhəsiz, böyük perspektivləri vardır.

Türk məkanında milli bayramların birgə qeyd olunması ənənəsi formalaşmaqdadır ki, bu, mədəni əlaqələrin miqyasının genişlənməsi ilə yanaşı kütləviləşməsinə əhəmiyyətli təsir göstərir. Məsələn, Azərbaycanda, Özbəkistanda, Türkiyədə Novruz şənlikləri son illərdə həmişə türk dünyasının müxtəlif yerlərindən dəvət olunmuş qonaqlarla birlikdə olduqca təntənəli bir şəraitdə qeyd edilir. Və təsadüfi deyil ki, türk və müsəlman dövlətlərinin birgə təşəbbüsü nəticəsində Novruz 2009-cu ildə YUNESKO-nun qərarı ilə Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısına daxil edilmişdir. 2012-ci ildə TÜRKSOY Rusiya Federasiyasına aid olan respublikalardan) Başqırdıstan, Tatarstan, Tuva, Altay, Dağıstan və Çuvaşıstandan dəvət olunmuş 250-yə qədər incəsənət xadiminin iştirakı ilə Novruz bayramı şənlikləri təşkil etmişdir.

Novruzla yanaşı türk dünyasının mənəvi-mədəni zənginliyini, humanizmini, həyatsevərliyini bütün dünyaya nümayiş etdirən bir sıra kütləvi bayramlar mövcuddur ki, onların lazımi səviyyədə, yəni bütövlükdə türk məkanının əhatə edəcək bir miqyasda keçirilməsi, əlbəttə, türk xalqlarının qədim dövrlərdən gələn mənəvi-mədəni birliyini daha da möhkəmləndirir.

## Nəticə

Türk dünyası türkün dünyasından başlanır. Və bu, o deməkdir ki, bu gün qloballaşan dünyanın həm iqtisadi, həm ictimai-siyasi, həm də mədəni baxımdan üzvi tərkib hissəsi olan türklər etnosun bütün tarixi ilə təsdiq edilən dünyalarını yarada bilmişlər. Həmin çoxcəhətli tarixi etnik istedad və ya enerji olmasaydı, biz bu gün, təbii ki, «türk dünyası»ndan bu qədər cəsarətlə danışa bilməzdik.

Türk dünyasını türkün dünyası yaratmışdır dedikdə türklərin tarixinin ən azı üç fundamental faktına, yaxud göstəricisinə dayanılır ki, bunlardan birincisi etnosun təbii (sağlam!) şərtlər əsasında doğulub formalaşmasıdır.

Məlumdur ki, türklər müstəqil bir etnos olaraq e.ə. II minilliyin sonu I minilliyin əvvəllərində Altay dağlarının ətəklərində dünyaya gəlmişlər. Və o da məlumdur ki, türklər doğma qardaşları monqollar və tunqus-mancurlarla birlikdə Altay etnosundan törəmişlər.

Bir sıra «tarix eksperimentçiləri» Altay etnosunun mövcudluğunu, eləcə də türk, monqol və tunqus-mancur qardaşlığını müxtəlif məqsədlərlə şübhə altına almağa çalışsalar da, ümumi etnik tarixin çoxsaylı faktlarını heç zaman təkzib edə bilməmişlər.

Altaylardan əvvəlki dövrlərə gəldikdə isə burada mübahisələr daha çoxdur. Ancaq bir mühüm (və mübahisəsiz!) fakt şübhə doğurmur ki, müasir dünyanın bir sıra xalqları türklərin (eləcə də monqolların, tunqus-mancurların) yaxın və ya uzaq qohumlarıdır. Və buraya, ilk növbədə, yaponlar, koreyalılar, finlər, estonlar, macarlar daxildirlər. Bu isə o deməkdir ki, Altay etnosu da hansısa təbii tarixi bir varisliyin məhsulu olmuşdur.

Türklərin doğulub formalaşması prosesi, kifayət qədər aydın özünüifadə (və özünütəsdiq!) refleksləri ilə müşayiət edilir ki, buraya, xüsusilə, biri digərinin davamı olan qədim türk dövlətlərinin (onların mükəmməl idarəçilik texnologiyalarının) yaranması, qədim türk eposunun təzahürü aiddir.

Türklərin tarixinin ikinci fundamental faktı, yaxud göstəricisi doğulub formalaşdıqları təbiilik səviyyəsində də diferensiasiyası, bölünməsi və nəticə etibarilə,ortaq ata-baba yaddaşını qoruyub saxlamış türk xalqlarının təşəkkülüdür.

Məlum olduğu kimi, türklər təxminən min beş yüz ildən sonra, yəni ilk orta əsrlərdən tədricən oğuz, qıpçaq və karluqlara ayrılırlar ki, həmin proses eyni zamanda geniş coğrafiyalarda yayılmaqla (və məskunlaşmaqla) müşayiət olunur. II minilliyin əvvəllərindən etibarən müasir türk xalqlarının təşəkkülü başlayır. Və bu minilliyin ortalarında artıq tarix səhnəsinə çıxmış türk xalqları ümumi «türk» adı ilə yanaşı öz adları ilə də tanınırlar… Bununla belə müasir türk xalqlarının həm «daxil»dən, həm də «xaric»dən adlandırılmasında coğrafi və ya regional prinsip XX əsrin əvvəllərinə qədər aparıcı olur. Məsələn: Anadolu türkləri, Qafqaz türkləri və ya tatarları, Volqaboyu türkləri və ya tatarları, Krım türkləri və ya tatarları, Türküstan və ya Orta Asiya türkləri…

XIX əsrin sonu XX əsrin əvvəllərində həm türkün dünyasında, həm də türk dünyasında güclənən (əslində, bu proses XIX əsrin ortalarından başlamışdı) milli azadlıq, özünüidarə (dövlət) müstəqilliyi hərəkatı bütün XX əsr boyu davam edib həmin əsrin sonu XXI əsrin əvvəllərində hamımızın gözlərimiz qarşısında olan bir mənzərənin yaranması ilə başa çatdı.

Türklərin tarixinin üçüncü fundamental faktı, yaxud göstəricisi onların tarix səhnəsinə çıxdıqları ilk əsrlərdən dünyanın üzvi tərkib hissəsi olmağa can atmaları, birgəyaşayış normaları, yaxud düzəni yaradıb ona əməl etmələridir ki, bu, özünü ən mükəmməl şəkildə orta əsrlər türk «Dünya dövləti» ideyasında göstərir. Mütəxəssislər heç bir şübhə etmirlər ki, türklərin «Dünya dövləti» ideyası (və zəngin təcrübəsi) nə qədər tarixi əhəmiyyət daşımışdırsa, o qədər də perspektivlidir. Və qloballaşan dünyanın çağırışları səviyyəsində həmin tarixi ideyanı (və təcrübəni) bir daha nəzərdən keçirmək, müvafiq beynəlxalq görüşlərdə müzakirəyə çıxarmaq, əlbəttə, böyük əhəmiyyət kəsb edir.

Türklərin ən qədim dövrlərdən etibarən dünyaya açıqlığı, qonşu etnoslarla, xalqlarla sıx iqtisadi, siyasi və mədəni əlaqələri tarixə çoxdan məlumdur. Bu etnik xarakter (mentalitet) özünü orta əsrlərdə, yeni dövrdə də aydın şəkildə göstərmişdir. Ümumiyyətlə, özünütəcrid, sözün dar və ya konyuktur mənasında diplomatizm bu etnosa tamamilə yad olmuşdur.

Türklərin çinlilərlə, iranlılarla, yunanlarla, romalılarla, slavyanlarla, germanlarla, ərəblərlə, ümumiyyətlə, həm Şərq, həm də Qərb xalqları, sivilizasiyaları ilə qarşılıqlı əlaqələri barədə tarix təkzibi mümkün olmayan geniş məlumat verir.

Etnosun dünyaya açıqlığının bir mühüm göstəricisi də öz milli varlıqlarını qoruyub saxlamaqla yanaşı, dünyanın müxtəlif dillərini, dinlərini və s. mədəni vərdişlərini məmnuniyyətlə mənimsəməsidir.

Türkün dünyasının məhsulu olan türk dünyasının bugünkü siyasi mənzərəsini həm biri digəri ilə, həm də ümumən dünya ilə çoxtərəfli ünsiyyətə (inteqrasiyaya) can atan a) müstəqil, b) yarımmüstəqil və c) qeyri-müstəqil təxminən iyirmi beş türk xalqı müəyyən etməkdədir.

## Mündəricat

**Giriş**…………………………………………3

**I. Türkologiyanın tarixi**……………………..16

1.«Türkologiyanın tarixi» anlayışı…………...16
2.Türkologiya tarixinin birinci dövrü……......18
3.Türkologiya tarixinin ikinci dövrü…...…...28
4.Türkologiya tarixinin üçüncü dövrü……….34

**II. Qədim türklər**……………………………40

1.«Qədim türklər» anlayışı…………………..40
2.Türklərin mənşəyi…………………….......45
3.Qədim türklərin siyasi-ictimai
«tərcümeyi-hal»ı….........................................53
4.Qədim türklərin dünyagörüşü……………...65
5.Qədim türk dili……………………………..81
6.Qədim türk ədəbiyyatı……………………..85

**III. Türklərin diferensiasiyası**……………...108

1.«Türklərin diferensiasiyası» anlayışı………108
2.Türk xalqlarının təşəkkülü…………………118
3.Ümumtürk ədəbi dili (türki):
təşəkkülü, təkamülü, tənəzzülü......................126
4.Tanrıçılıqdan islama....................................139

**IV. Müasir türk dünyası**..............…………167

1.«Müasir türk dünyası» anlayışı..................……167
2.Yeni türklər…
Və türkçülük ideologiyası……………………169
3.Müasir türk dünyasının
siyasi-ictimai mənəzərəsi……..........................188
4.Müasir türk dünyasının mədəni
mənzərəsi………………...................................210

**Nəticə**......................…...................................243

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Korrektor: Mərifət Cəfərova**

**Kompüter dizayneri: Zahid Məmmədov**

Çapa imzalanmış **24.06.2016**
Şərti çap vərəqi 11,2**.** Sifariş **№ 138**
Kağız formatı **84x108 1/32.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: nurlan1959 @gmail.com**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.